ISSN 1810-911X

# İPƏK YOLU

İPEK YOLU ✦ ИПЕК ЙОЛУ

| TƏSİSÇİ: | PUBLISHED: | УЧРЕДИТЕЛЬ: |
|---|---|---|
| AZƏRBAYCAN UNİVERSİTETİ | AZERBAIJAN UNIVERSITY | УНИВЕРСИТЕТ АЗЕРБАЙДЖАН |

№ 1. 2015

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə № 472*

**REDAKSİYA HEYƏTİ:**

**Akif Musayev**
***(baş redaktor)***

**Eldar Qəhrəmanov**
**Dünyamalı Vəliyev**
*(baş redaktorun müavinləri)*

**Ziyad Səmədzadə**
**Teymur Bünyadov**
**Asəf Hacıyev**
**Əli Nuriyev**
**Səlahəddin Xəlilov**
**Yusif Məmmədov**
**Telman Əliyev**
**Vilayət Quliyev**
**Xaləddin İbrahimli**
**Rövşən Quliyev**
**Habil Qurbanov**
**Mais Əliyev**
**Həsən Əlibəyli**
**Tofiq Vəliyev**
**Akif Əlizadə**
**Hüseyn Hüseynov**
**Vüqar Nəzərli**
**Xədicə İsgəndərli**
**Bijan Fəzlullahi**
*(ABŞ)*
**Murat Barkan**
**Behzat Gürkan**
*(Türkiyə)*
**Erhan Özdəmir**
*(Türkiyə)*
**Bayram Kodaman**
*(Türkiyə)*
**Mətin Özkul**
*(Türkiyə)*
**Elşən Əliyev**
**Venera Şərifzadə**
*(məsul katib)*

***Texniki heyət:***
**Zamin Əliyev**

***Korrektorlar:***
**Ayşən Hüseynova**
**Nisə xanım Babayeva**

**EDITORIAL BOARD:**

**Akif Musayev**
***(editor-in-chief)***

**Eldar Kahramanov**
**Dunyamali Veliyev**
*(deputy editor-in-chief)*

**Ziyad Samedzadeh**
**Teymur Bunyadov**
**Asef Hajıyev**
**Ali Nuriyev**
**Selaheddin Khalilov**
**Yusif Mamedov**
**Telman Aliyev**
**Vilayet Quliyev**
**Xaleddin Ibrahimly**
**Rovshen Quliyev**
**Habil Qurbanov**
**Mais Aliyev**
**Hasan Alibeyly**
**Tofiq Veliyev**
**Akif Alizadeh**
**Hussein Husseinov**
**Vuqar Nazarli**
**Khadija Iskandarly**
**Bijan Fezlollahi**
*(USA)*
**Murat Barkan**
**Behzat Gurkan**
*(Turkey)*
**Erhan Ozdemir**
*(Turkey)*
**Bayram Kodaman**
*(Turkey)*
**Metin Ozkul**
*(Turkey)*
**Elshan Aliyev**
**Venera Sharifzadeh**
*(secretary responsible)*

***Technical staff:***
**Zamin Aliyev**

***Correctors:***
**Ayshan Huseynova**
**Nisa xanim Babayeva**

**РЕДАКЦИОННЫЙ СОВЕТ:**

**Акиф Мусаев**
***(главный редактор)***

**Эльдар Кахраманов**
**Дуньямалы Велиев**
*(зам главного редактора)*

**Зияд Самедзаде**
**Теймур Буньядов**
**Асаф Гаджиев**
**Али Нуриев**
**Салахаддин Халилов**
**Юсиф Мамедов**
**Тельман Алиев**
**Вилаят Гулиев**
**Халеддин Ибрагимли**
**Ровшан Гулиев**
**Хабил Гурбанов**
**Маис Алиев**
**Гасан Алибейли**
**Тофик Велиев**
**Акиф Ализаде**
**Гусейн Гусейнов**
**Вугар Назарли**
**Хадиджа Искендерли**
**Бижан Фазлуллахи**
*(США)*
**Мурат Баркан**
**Бехзат Гюркан**
*(Турция)*
**Эрхан Оздемир**
*(Турция)*
**Байрам Кодаман**
*(Турция)*
**Метин Озкул**
*(Турция)*
**Эльшан Алиев**
**Венера Шарифзаде**
*(ответственный секретарь)*

***Технический персонал:***
**Замин Алиев**

***Корректоры:***
**Айшан Гусейнова**
**Ниса ханум Бабаева**

| ***Redaksiyanın ünvanı:*** Bakı şəhəri, Yasamal ray, S.Dadaşov küçəsi, 84. | ***Telefonlar:*** (994 12) 430 51 79, 430 42 82, ***Fax:*** (994 12) 430 49 29, 430 50 79 | İnternet ünvanımız: ***www.au.edu.az*** e-mail: ***office@au.edu.az*** | ***Azərbaycan Universitetinin mətbəəsində çap olunmuşdur.*** | ***Çapa imzalanmışdır:*** 16.03.2015 Tiraj 500. |
|---|---|---|---|---|

# MÜNDƏRİCAT

**İQTİSAD ELMLƏRİ**

■ **REAL SEKTOR**
Güloğlan İSMAYILOV
Azərbaycanda neft sənayesinin inkişafının tarixi kökləri....5
Şəhla ƏLİZADƏ
Tikinti müəssisələrinin investisiya resurslarının sistemli təhlili....11
Parham Hossein AHMAD
Tikinti şirkətlərində innovasiya strategiyasının formalaşması istiqamətləri.... 17

■ **MALİYYƏ**
Ağanemət AĞAYEV
Büdcə kəsirinin səmərəli maliyyələşmə mexanizmi....21
İsmayıl NƏBİYEV
Türkiyənin vergi sistemində gəlir vergisi....28
Murad YUSİFOV
Azərbaycanda inflyasiya proseslərini sürətləndirməyən işsizlik səviyyəsinin ekonometrik qiymətləndirilməsi.... 39

■ **İNSTİTUSİONAL SEKTOR**
Rauf MƏCİDBƏYLİ
İnstitusional tənzimləmənin təşəkkülündə Asiya və Antik istehsal üsullarının rolu....51
Yusif BİNNƏTOV
Podrat bazarlıqları mexanizminin inkişafı iqtisadi münasibətlər sisteminin əsasıdır....69

■ **DÜNYA İQTİSADİYYATI**
Aqil ƏSƏDOV, Anar MƏMMƏDOV
Azərbaycanda nəqliyyat xidmətləri bazarının formalaşmasında beynəlxalq layihələrin rolu....76
Habil ASLANOV
Beynəlxalq marketinq konsepsiyası – marketinq fəaliyyətinin nəzəri əsası kimi....84

**FİLOLOGİYA ELMLƏRİ**
Fariz SÜLEYMANOĞLU
Mənbələr Sabirin İslam dininə münasibəti haqqında....91
Aynur HƏSƏNOVA
Müasir dilçilikdə lüğətlərin rolu....96

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**
Sevda İBRAHİMOVA
Əlcəzair Respublikasında siyasi mədəniyyətin formalaşmasına tarixi baxış....103

**TƏHSİL VƏ ELM**
Arzu REVİNA
Alman dili dərslərində motivasiya....111
Tünzalə VERDİYEVA
Autist yeniyetmələrin psixoloji xüsusiyyətləri və onların inkişafına təsir edən amillər....115
Mətanət HƏSƏNOVA
Sosial iş sahəsində təhsilin aktual problemləri....123

**MAGİSTR TRİBUNASI**
Fidan ADIGÖZƏLOVA
Müasir cəmiyyətdə fiziki imkanları məhdud olan şəxslərin ümumi vəziyyəti....129
Nərminə ƏMRAHOVA
Ahil insanların sosial problemləri və onların həlli yolları....136
Tərlan TAĞIYEVA
Ailə sosial institut kimi, boşanma və onun fəsadları....143

"İpək yolu" jurnalına məqalələrin təqdim olunma qaydaları....149

# CONTENTS

**ECONOMIC**

■ **REAL SECTOR**
Guloglan ISMAILOV
The historical roots of the development of oil industry in Azerbaijan............5
Shahla ALIZADEH
Systematic analytical approach to the development of investment resources of the construction company............11
Parham Hossain AHMAD
Directions to the formation of innovation strategy in construction companies............17

■ **FINANCE**
Aghanemat AGHAYEV
Effective financing mechanism of budget deficit............21
Ismayıl NEBIYEV
Income tax in the taxation system of Turkey............28
Murad YUSIFOV
Econometric estimation of the unemployment rate not accelerating the inflation processes in Azerbaijan............39

■ **INSTITUTIONAL SECTORS**
Rauf MEDJIDBEYLI
The role of Antic and Asian production methods in engendering of institutional regulation ............51
Yusif BINNATOV
The development of contract bidding mechanism as a basis of economic relations............69

■ **WORLD ECONOMY**
Aqil ASADOV, Anar MAMMADOV
The role of international projects in the formation of transport services market............76
Habil ASLANOV
International marketing conception as a theoretical base of marketing activity............84

**FILOLOGICAL SCIENCES**
Fariz SULEYMANOGLU
Sources on Sabir’s attitude to Islam............91
Aynur HASANOVA
The role of dictionaries in contemporary linguistics............96

**INTERNATIONAL RELATIONS**
Sevda IBRAHIMOVA
The formation of the political culture of the Algerian Republic from historical point of view............103

**EDUCATION AND SCIENCE**
Arzu REVINA
Motivation at German lessons............111
Tunzala VERDIYEVA
Psychological characteristics of autistic teenagers and factors affecting their development............115
Matanat HASANOVA
Actual problems of education in Social work............123

**TRIBUNE FOR UNDERGRADUATE**
Fidan ADIGOZALOVA
General situation of the physically disabled people in modern society............129
Narmina AMRAHOVA
Old people’s social problems and their solutions............136
Tarlan TAGIYEVA
Family as a social institute-divorce and its aftereffects............143

Rules of presentation of articles to the journal “Ipek yolu”............ 149

# СОДЕРЖАНИЕ


**ЭКОНОМИЧЕСКИЕ НАУКИ**

■ **РЕАЛЬНЫЙ СЕКТОР**

Гюльоглан ИСМАЙЛОВ
Исторические корни развития нефтяной промышленности Азербайджана....................5
Шахла АЛИЗАДЕ
Системный анализ инвестиционных ресурсов строительных предприятий....................11
Пархам Хоссеин АХМАД
Направления формирования инновационной стратегии строительной компании....................17

■ **ФИНАНСЫ**

Аганемат АГАЕВ
Механизм эффективного финансирования бюджетного дефицита....................21
Исмаил НАБИЕВ
Подоходный налог в налоговой системе Турции....................28
Мурад ЮСИФОВ
Эконометрическое оценивание уровня безработицы, не ускоряющий инфляционные процессы в Азербайджане....................39

■ **ИНСТИТУЦИОНАЛЬНЫЙ СЕКТОР**

Рауф МЕДЖИДБЕЙЛИ
Роль Азиатского и античного способа в производства в зарождении институционального регулирования....................51
Юсиф БИННАТОВ
Развитие механизма подрядных торгов-основа системы экономических отношений....................69

■ **МИРОВАЯ ЭКОНОМИКА**

Агил АСАДОВ, Анар МАМЕДОВ
Роль международных проектов в формировании рынка транспортных услуг в Азербайджане....................76
Габил АСЛАНОВ
Концепция международного маркетинга – как теоретическая основа деятельности маркетинга....................84

**ФИЛОЛОГИЧЕСКИЕ НАУКИ**

Фариз СУЛЕЙМАНОГЛЫ
Источники об отношении Сабира к исламу....................91
Айнур ГАСАНОВА
Роль словарей в современной лингвистике....................96

**МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ**

Севда ИБРАГИМОВА
Исторический взгляд на формирование Политической культуры Алжирской Республики....................103

**ОБРАЗОВАНИЕ И НАУКА**

Арзу РЕВИНА
Мотивация на уроках немецкого языка....................111
Тунзала ВЕРДИЕВА
Психологические особенности аутичных подростков и факторы, которые влияют на их развитие....................115
Матанат ГАСАНОВА
Актуальные проблемы оброзования в сфере социальных работ....................123

**ТРИБУНА СТУДЕНТОВ**

Фидан АДЫГЕЗАЛОВА
Общее состаяние лиц с ограниченным физическим потенциалом в современном обществе....................129
Нармина АМРАХОВА
Социальные проблемы пожилых людей и пути их разрешения....................136
Тарлан ТАГИЕВА
Развод и его последствия как семейный социальный институт....................143

Правила приема статей в журнал «Ipek Yolu».................... 149

# AZƏRBAYCANDA NEFT SƏNAYESİNİN İNKİŞAFININ TARİXİ KÖKLƏRİ

**dos., i.ü.f.d. Güloğlan İSMAYILOV**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*

**Rəyçi:** Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Ümumi iqtisadiyyat" kafedrası, Protokol N 8, tarix 24.02.2015-ci il

**Açar sözlər:** Azərbaycan neftinin qədim tarixi kökləri, neft hasilatı, erkən orta əsr alimləri, sənaye inqilabı, neft "bumu", yeni texnologiyalar

**Giriş**.Azərbaycan nefti qədim tarixi köklərə malikdir. Azərbaycanda neft hasilatı haqqında məlumatlar erkən orta əsr alim və səyyahlarının əsərlərində çoxlu sayda dəfələrlə qeyd edilmişdir.

Lakin o dövrlər neft ancaq məişətdə yanacaq kimi, tibbi və hərbi məqsədlər üçün istifadə edilirdi. XVIII-XIX əsrlərin sənaye inqilabı neftə tələbatı kəskin artırdı və onu ölkənin inkişafı üçün birinci dərəcəli əhəmiyyətə malik strateji məhsula çevirdi. Dünyada neft "bumu" başladı. Azərbaycanın neftçıxarma sahəsinə xarici sərmayeyə axın başladı. Qədim neftçıxarma ənənələrinə malik Bakı qazma neftçıxarma və neft emalı sahəsində ən yeni texnologiyaların ixtirası və ilkin tətbiqi meydanına çevrildi.

Bu sahədə tədqiqat aparan alimlərin fikrincə hələ XIX əsrin ortalarında neftçıxarmada dönüş yaranmış və dünyada ilk dəfə 1847-ci ildə Bibiheybətdə, sonra isə Balaxanıda texnikanın tətbiqi ilə ilk neft quyuları qazılmışdır.

Aparılan tədqiqatlara əsasən 1901-ci ildə Azərbaycan 11,5 min ton neft hasil etmiş və dünyada birinci yerə çıxmışdır.(ABŞ-da həmin il 9,1 milyon ton neft hasil edilmişdir).

Azərbaycanın müxtəlif sahələrində, xüsusilə Abşeron yarımadasında yerüstü neft-qaz nişanələri təzahürləri ta qədimdən məlum olmuşdur. Tarixçilərin, səyyahların məlumatlarına görə, hələ VI əsrdə Abşeron yarımadasında əl ilə nisbətən dayaz quyular qazılmış və neft çıxarmışlar. O zaman Bakı kəndlərinin sakinləri neftlə hopulmuş-doymuş torpağı yanacaq-odun əvəzinə sobalarda yandırıblar.

Hələ 419 il əvvəl, yəni 1594-cü ildə Balaxanı kənd sakini Allahyar Məmməd Nuru oğlu öz həyətində əl ilə quyu qazmış və həmin quyudan neft çıxması qeyd edilir.

Elmi-tədqiqat və arxiv sənədlərinin, materiallarının tədqiqinə əsasən Balaxanı kəndində və onun ətrafında əl ilə qazılmış və onun gövdəsi taxtalarla bərkidilmiş quyulardan demək olar ki, hələ XV-əsrdə badyalarla neft çıxarılmışdır.

Aparılan tədqiqat və araşdırmalar nəticəsində belə bir sənəd də mövcuddur ki, Balaxanı kənd sakinləri çıxardıqları nefti anbarlara yığaraq, onun tərkibini sudan və palçıqdan təmizləyib istifadə vəziyyətinə salırdılar [1, s.32].

Tarixi faktlara əsasən 144-il bundan əvvəl, yəni 1869-cu ildə Balaxanı kəndi yaxınlığında mexaniki üsulla bir neft quyusu qazılır. Ağarza Mirzəyevin qazdığı bu quyu güclü qaz fantanı

vurur. Bu hadisədən qorxan kənd sakinləri və camaat, daş, torpaq töküb quyunu bağlayırlar.

Bundan iki il sonra, 1871-ci ildə Ağarza Mirzəyev həmin sahədə daha yeni bir quyu qazdırır. Bu quyu 42 metr dərinlikdən neft fantanı vurur. Məhz həmin vaxtdan zəngin neft ehtiyatına malik olan Balaxanı-Sabunçu-Ramana yatağının sənaye miqyaslı işlənmə tarixi başlamışdır.

Az vaxt keçdikdən sonra Balaxanı sahəsində yeni neft quyularının qazılması ilə məşğul olmaq istəyənlərin sayı get-gedə çoxalmağa başlayır.

1873-cü ildə təkrarən yenə Balaxanı sahəsində 38 metr dərinliyində qazılan quyuda daha güclü neft fantanı vurmuşdur.

Bununla bağlı bundan sonra həmin yatağa olan maraq daha da artmağa başlayır.

1875-ci ildə Sabunçu, 1890-cı ildə Ramana sahəsi, ilk istismara daxil edilir. İllər ötdükcə bu sahələrdə çalışıb işləyən və fəaliyyət göstərən firmaların sayı daha da artır.

O dövrün ən böyük tanınmış neft sahibkarlarından Nobel qardaşlarım, Rotşildi, Mantaşevi, Musa Nağıyevi, Şəmsi Əsədullayevi, Murtuza Muxtarovi, Ağarza Mirzəyevi və s. göstərmək olar.

Qeyd olunan dövrdə Məhsuldar Qatın ancaq üst qatının horizontları istismar edilirdi. Bu baxımdan, məhz belə, güclü neft fantanları hesabına hasilat yüksək templə artırdı. Tarix hasilat göstəricilərinə əsasən əgər 1871- ci ildə neft hasilatı 19 min ton idisə, bu göstərici 1875-ci ildə 92 min, 1885-ci ildə 1, 622 milyon ton, 1890-cı ildə 3, 609 milyon ton, 1895-ci ildə 5,6894 milyon ton, 1901-ci ildə isə bu neft hasilatı göstəricisi ən yüksək zirvəyə qalxaraq 8, 821 milyon ton olmuşdur. Sadalanan neft hasilatı göstəriciləri, o vaxt dünyada çıxarılan neftin 44 faizini, Azərbaycanda isə hasil edilən neftin 80 faizini təşkil edirdi.

Qeyd edək ki, heç də az olmayan bir zaman kəsiyində neft hasilatının belə yüksək templə artması ayrı-ayrı neft sahibkarlarının və firmaların varlanmasına, yatağın isə olduqca zəifləməsinə səbəb oldu. Sonrakı illərdə neft hasilatı kəskin surətdə azalmış, belə ki, 1910-cu ildə 5,912 milyon ton, 1910-cu illə müqayisədə 1917-ci ildə, yəni 7 il ərzində 3,0 milyon tondan, 1920-ci ildə isə 1,0 milyon tona enmişdir.

Tarixi bir fakta əsasən, o zaman neft sənayesi sahibkarlarının orqanı olan "Neftyanoe delo" jurnalı yazırdı ki, neft sənayesinin indiki düşdüyü vəziyyətini ən ağır və çıxılmaz dövr adlandırmaq yerinə düşərdi, bu dövr sarsıdıcı böhran deyil, sadəcə olaraq neft sənayesinin ən dəhşətli şikəstlik dövrü adlandırmaq olar.

Neft sənayesinin daha da inkişaf etdirmək, onu yeni məhsuldar sahəyə çevirmək problem olaraq qalırdı. Bu baxımdan artıq 1922-1923-cü illərdə dərinlik nasoslarından olduqca geniş istifadə edilirdi. Vaxt ötdükcə müxtəlif konstruksiyalı, təkmilləşmiş daha səmərəli dərinlik nasosları işlənib neft istehsalında özünə geniş tətbiq sahəsi tapmış, elə o vaxtdan da neft hasilatının olduqca nəzərə çarpacaq dərəcədə yüksəldilməsinə imkan yaratmışdır.

Tarixi xronoloji dövrləri nisbətən aralı götürəndə məlum olur ki, 1925-1926-cı illərdə Məhsuldar Qatın alt hissəsindəki layların işlənməyə daxil edilməsi növbəti neft hasilatının daha da artmasına şərait yaradır.

Elə bu xüsusilə Qırməkyaltı lay dəstinin neftliliyini daha da aydın aşkar edilməsinin və

onun olduqca geniş işlənməyə verilməsinin, daxil olunmasının o vaxtki neft sənayesinin tarixində dönüş və böyük rolu olmuşdur.

Neft təsərrüfatında məqsədyönlü səmərəli aparılan tədbirlər nəticəsində 1926-cı ildə Balaxanı sahəsində 700 metr dərinliyində qazılan 141saylı quyu Qırməkülay dəstəsinin yuxarı hissəsindən güclü neft fantanı vurmuşdur. Bunun ardınca Sabunçu sahəsində də 100 metr dərinliyində qazılmış 334-cü quyu Qırməkyaltı lay dəstəsinin olduqca zəngin neft ehtiyatına malik olmasını bir daha təsdiq etdi, 1925-1926-cı illərdə yataq üzrə neft hasilatı demək olar ki, 2,5 milyon ton, 1931-ci ildə isə 4,3 milyon ton, ondan əvvəlki illərə nisbətən, 1,8 milyon ton neft çox istehsal olunmuşdur.

Azərbaycanda hal-hazırda sərmaye maraqları olan uzun müddətli iş aparan şirkətlər Azərbaycanın xaricdəki lobbisinə çevriləcəkdir.Nəzərdə tutulduğuna görə, imzalanmış 14 sazişə ümumi sərmaye qoyuluşu 50 milyard ABŞ dollarına bərabər olacaqdır. 9 ABŞ şirkəti kontraktların fəal iştirakçılarıdırlar və 14 layihədə 9-da aparıcı rol oynayırlar. Bu, ABŞ şirkətləri "AMOKO", "Eksson", "Mobil", "Yemokal", "Pennzoyl", "Şervon", "FreonteroResurse", "Şelf", "YunionPetroyl" –dır. Hesablamalara görə, yalnız ABŞ şirkətləri bu 14 layihəyə 14 milyard dollar sərmaye qoyacaqlar.

Antik dövrdən tutmuş, Abşeron yarımadasında neftin sənaye üsulu ilə hasilatına başlanmasına və XIX- XX əsrlərin ayrıcında, dünyada istehsal edilən neftin yarısının Azərbaycanda çıxarıldığı dövrdə neft sənayesinin inkişafınadək Qafqaz-Xəzər regionunun tarixində olmuş hadisələrin tam mənzərəsi verilir. Sonralar Bakının meydana gəldiyi Abşeronda hələ X əsrdə qara qızıl mənbələri adlandırılan heyrətamiz quyular mövcud idi. Çini, Hindistanı və Mərkəzi Asiyanın Aralıq dənizi və Qaradəniz hövzəsi ilə, habelə İran körfəzini Volqaboyu xanlıqları və Moskva dövləti ilə birləşdirən karvan yollarının qollarından birinin üstündə yerləşən Bakı XV əsrdə Xəzərin ticarət, o cümlədən də neft ixracı sahəsində ən iri limanlarından birinə çevrilmişdir.

Aparılan tədqiqatlar göstərir ki, neftin sənaye üsulu ilə hasilatına dünyada ilk dəfə 1847-ci ildə Abşeronda başlanmışdır.

Bu dövr ərzində onun təkindən təxminən milyard yarım ton neft çıxarılmışdır. Buradakı yataqların intensiv surətdə işlənilməsinə isə 1871-ci ildə başlanılmışdır. İlk neft tankeri də suya elə o vaxt buraxılmışdır.

1872-ci ildə məşhur Nobel neft sənayeçiləri ailəsi Bakıda ilk neft şirkəti yaratmış, üç ildən sonra isə özünün ilk neftayırma zavodunu tikdirmişlər. Elə həmin dövrdə bir çox xarici firmalar "neft bumu" dalğasında Abşerona axışaraq, neft "kökə"-sində öz tikəsini əldən verməməyə çalışırdılar [2,s.194].

Görkəmli alimlər D. Mendelleyev, V.G. Abüx, D. Qolubyatnikov və bir çox başqaları neft sənayesinin yaranmasında fəal iştirak edirdilər. 1901-ci ildə Bakı-Batumi neft kəmərinin tikintisinə başlandı və onun çəkilişi 1905-ci ildə sona çatdırıldı [3,s.11].

Artıq elə həmin il Azərbaycanda 10 milyon tondan çox neft çıxarılmışdı ki, bu da dünya hasilatının yarısı demək idi.

Ölkəmizdə çıxarılan neftin həcmi ildən ilə artır. 1996-1998-ci illərdə hasilat sabit

səviyyədə olaraq 9,1 milyon ton idisə, 1999-cu ildən dönmədən artmağa başlamışdır. Respublikada 2001-ci ildə 14,9 milyon ton, 2002-ci ildə isə 15,3 milyon ton neft çıxarılmışdır.

Bu sahələrdə qazılan quyular güclü neft fantanı vuraraq, 200-400 ton/gün hasilatla istismara daxil edilərək nəticədə əvvəlki illərlə müqayisədə (əgər 1931-ci ildə neft hasilatı 4,3 milyon ton olmuşdursa, bu göstərici 1938-ci ildə 4,5 milyon ton olmuşdur) 0,2 milyon ton çox neft hasil edilmişdir.

Belə ki, 1947-ci ildən başlayaraq proses laylara intensiv olaraq dəniz suyu vurmaqla aparılmış, 1969-cu ildən isə yalnız işçi agent kimi neftlə birgə hasil edilmiş lay və digər tullantı sularından istifadə edilmişdir. Suvurucu quyu kimi MQ-nin alt şöbəsi obyektlərində əsasən yeni qazılmış, qismən də hasiledici quyulardan, MQ-nin üst şöbəsi obyektlərində isə əsasən hasiledici quyulardan istifadə edilmişdir.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişafı iki əsas mərhələyə ayırmaq olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü, ikincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində aparılan siyasət və gərgin fəaliyyət nəticəsində, ağır ilkin şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli-Azərbaycan modeli yaranmışdır. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu.

1999-cu ildə imzalanan Fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə yüksək qiymətləndirilir.

Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı.

Beləliklə, neft strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində

baş vermiş tənəzzülün qarşısı uğurla alındı və 1995-ci ildən Azərbaycanda keçid dövrünün yeni mərhələsi-bərpa və dinamik inkişaf dövrü başlandı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2%, kənd təsərrüfatı istehsalının həcmi 53,9%, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əmək haqqı 5,6 dəfə artdı, inflyasiya səviyyəsi 2-3%-ə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi [4,s.44].

İqtisadiyyatın diversifikasiyası ilə bağlı "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və bir sıra sahəvi inkişaf proqramları uğurla icra olunur.

Ölkənin regionlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları regionların inkişafı, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur.

Qlobal maliyyə-iqtisadi böhran nəticəsində dünyanın aparıcı ölkələrində baş vermiş kəskin ressesiyaya baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009-cu ildə də davam etmişdir. Eyni zamanda, Azərbaycan 2009-cu ildə iqtisadiyyatın real artım tempinə görə region ölkələri arasında lider olmaqla yanaşı, müvafiq göstərici üzrə dünya miqyasında da yüksək yerdə qərarlaşmışdır. Belə ki, ilin yekunlarına əsasən, 2009-cu ildə ÜDM-in real artımı 2008-ci illə müqayisədə 9,3%, əhalinin hər nəfərinə düşən ÜDM-nin real həcmi isə 7.9% təşkil etmişdir. ÜDM-nin 64.1%-i iqtisadiyyatın istehsal, 28.3%-i xidmət sahələrinin payına düşmüş və bu sahələrdə real artım müvafiq olaraq 10% və 9.1% təşkil etmişdir. 2009-cu ildə neft-qaz sektorunda real artım 14.3%, qeyri-neft sektorunda isə 3.2% olmuş və eləcə də sənaye sektorunda real artım tempi 12.8%, nəqliyyatda 9.3%, rabitədə 13.1%, ticarətdə 9.9% təşkil etmişdir.

Nəticə. Azərbaycanın uğurları nüfuzlu Beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır. Belə ki, 2009-2010-cu illər üçün hazırlanmış "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 18 pillə irəliləyərək, 133 ölkə arasında 51-ci yerə, MDB ölkələri arasında isə 1-ci yerə yüksəlmişdir. Eləcə də, "Standard and Poors" Beynəlxalq Reytinq Agentliyi tərəfindən ölkə iqtisadiyyatının hazırki vəziyyəti "Stabil" dən "Pozitiv"ə yüksəldilmişdir.

**Ədəbiyyat:**

1. Мирзаджаназаде А.Х. Принятие решений в газодобыче.-М.: НГО НГЧ, 1988.47с.

2. Керимов М.З. Управление проектами морских нефте-газовых месторождений.М.: Машиностроение, 1998.-283с.

3. Лысенко В.Д. Анализ отбора извлекаемых запасов нефти // Нефте-промысловое дело.2001 №1.-9-18с.
4. İlham Əliyev. İqtisadiyyat və neft. Bakı, 2004. səh.42-48,164-169.

**Abstract**

**THE HISTORICAL ROOTS OF THE DEVELOPMENT OF OIL INDUSTRY IN AZERBAİJAN**

**asc.prof. Ph.D in economics Guloglan ISMAILOV**
*Academy of Labour and Social Relations*

**Key words:** ancient historical roots of oil, oil production, early medieval scholars and travelers, the industrial revolution in XVIII-XIX centuries, world oil "boom", a new technology

The article deals with the roots of Azerbaijan oil in the history. The oil prodution is investigated based on the works of medieval scholars and travelers. The results of the industrial revolution of the XVIII and XIX centuries are investigated from the scientific- theoretical point of view.

**Резюме**

**ИСТОРИЧЕСКИЕ КОРНИ РАЗВИТИЯ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА**

**д.э.н, доц. Гюльоглан ИСМАЙЛОВ**
*Азербайджанская Академия Труда и Социальных Отношений*

**Ключевые слова:** древние исторические корни Азербайджанской нефти, добыча нефти, ученые раннего средневековья, промышленная революция, мировые цены на нефть, нефтяной «бум», новые технологии

В статье показано, что Азербайджанская нефть имеет древние исторические корни, исследованы данные о добыче нефти, проанализированы большое количество материалов взятых из произведений ученых раннего средневековья и путешественников, показано, что промышленная революцияXVIII-XIX веков привело к увеличению спроса на нефть, изучены проблемы и они оценены с научно-теоретической точки зрения.

# TİKİNTİ MÜƏSSİSƏLƏRİNİN İNVESTİSİYA RESURSLARININ SİSTEMLİ TƏHLİLİ

**Şəhla ƏLİZADƏ**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti dissertantı*

**Rəyçi:** i.ü.f.d.Vüqar Nəzərov
**Açar sözlər:** sistem, yanaşma, təhlil, resurs, investisiya, formalaşma

Bazar münasibətlərinin təsiri altında tikinti müəssisələrinin investisiya resurslarının təhlilinin aparılması daxili və sahələrarası əlaqələrin mürəkkəbləşməsi şəraitində, tikinti istehsalının dəyişməsi və genişləndirilməsi zamanı baş verir. Tikinti işlərinin yerinə yetirilməsi üçün müəyyən həcmdə material, əmək, maliyyə və digər resurslar cəlb edilir. Ona görə də sistemli yanaşmaya əsasən investisiya resurslarının yeni tələblərə uyğun təhlilinin aparılmasının böyük əhəmiyyəti vardır.

Sistemli yanaşmaya uyğun tikinti müəssisələrinin investisiya resurslarının təhlilinin aparılması resursların istifadəsinin səmərəliliyinin yüksəldilməsini, onların məqsədlərinin formalaşmasını və xarici mühitlə əlaqələri və s. xarakteristikasını müəyyən edir. Təhlilin belə aparılması müasir tələblərə müvafiq tikinti müəssisələrinin investisiya resurslarının səmərəliliyinin idarə edilməsini yüksəldər.

Müasir mərhələdə sistemli yanaşmaya əsasən tikinti müəssisələrinin investisiya resurslarının təhlilinin aparılması onun səmərəliliyinin yüksəldilməsi ilə yanaşı resursların əlaqələrinin digər sistemlərlə qarşılıqlı təsirini və qarşılıqlı asılılığın təhlilini tələb edir.

Sistemli yanaşmaya uyğun tikinti müəssisələrinin resurslarının artımı obyektlərin sistem əmələ gətirən bölmələrinin müəyyən edilməsi ilə bağlıdır. İnvestisiya resurslarının sistem əmələgətirən komponentlərinin mahiyyətini açıqlamaq üçün tikinti obyektinin xüsusiyyətlərini öyrənmək lazımdır. Obyektin xüsusiyyətlərinin öyrənilməsi investisiya resurslarının istifadəsinin qanunauyğunluğunu və məqsədyönlülüyünü müəyyən edir.

Tikinti müəssisələrinin investisiya resurslarının sistemli yanaşma nöqteyi nəzərindən təhlilinin aparılması onların sosial-iqtisadi sistem olmasını müəyyən edir. İnvestisiya resurslarını əmələ gətirən elementlər bir-birindən asılı və qarşılıqlı təsirdə olur. Həmin təsir sistemin yeni xüsusiyyətlərini üzə çıxarır və səbəb-nəticə münasibətlərini əmələ gətirir, onun inkişafına köməklik edir. İnvestisiya resurslarının inkişafı onun dinamik inkişafını göstərir.

Tikinti müəssisələrinin investisiya resurslarının səmərəli istifadə edilməsi, dinamik inkişafı və onların infrastrukturlarının formalaşması bazar iqtisadiyyatı şəraitində müəssisənin daxili və xarici mühitinin investisiya resurslarının qarşılıqlı təsir elementlərini yaxşılaşdırır. Bu aspektdə biz tikinti müəssisəsinin vəsaitlərinin əmələ gəlməsi mənbələrinə baxaq.

Tikinti müəssisələrinin əsas mənbəyi kapitaldır və o, xüsusi və borc maliyyə vəsaiti hesabına yaranır. Məlumdur ki, xüsusi kapitalın tərkibi nizamnamə kapitalı, ehtiyat kapitalı, əlavə kapital, bölüşdürülməmiş mənfəətdən və s. ibarətdir.

İstiqrazların və hüquqi şəxslərin ssudalarının yerləşdirilməsi, bankların uzun müddətli borc kreditləri tikinti müəssisələrinin borc kapitalını formalaşdırır.

Fiziki və hüquqi şəxslər bank kreditləri hesabına bir sıra sahələrə investisiya qoyurlar:

- bina və qurğuların, maşın və avadanlıqların, nəqliyyat vasitələrinin əldə edilməsi;
- sənaye, mənzil-mülki və digər obyektlərin tikintisi, yenidən qurulması, genişləndirilməsi, texniki cəhətdən yenidən təchiz edilməsi;
- birgə müəssisələrin yaradılması;
- ətraf mühitin qorunması və fövqaladə halların qarşısının alınması üçün tədbirlərin hazırlanması və icrası;
- mülkiyyətçilərə məxsus müxtəlif obyektlərin yaradılması və s.

Banklar tərəfindən verilən kreditlərin prinsipləri və formalarına əsasən fiziki və hüquqi şəxslərin kredit münasibətlərini inkişaf etdirmək və müqavilələrin vaxtında bağlanmasını həyata keçirmək lazımdır.

Tikinti müəssisələrinin və əhalinin sərbəst pul vəsaitlərini investisiyaya çevirmək üçün qiymətli kağızların cəlb edilməsinin əhəmiyyəti böyükdür. Qiymətli kağızların əsasını dövlətin borc öhdəlikləri təşkil edir və kredit münasibətlərinin inkişafında aralıq rolunu oynayır. İstiqraz vərəqələri xüsusi borc öhdəliklərinin geniş yayılmış növüdür. Alınan veksellər isə vaxtı qurtardıqdan sonra emitentlər tərəfindən ödənilməlidir. Veksel borc sənədidir, onu alan şəxs və ya müəssisə müəyyən edilmiş vaxt ərzində göstərilən məbləği qaytarmalıdır. Hal-hazırda səhmdar cəmiyyətlərin istifadə etdikləri səhmlər qiymətli kağızların ən geniş yayılan növüdür və maliyyə bazarının çox hissəsini təşkil edir.

Azərbaycanda son illərdə lizinq münasibətləri inkişaf edir. Tikinti müəssisələrinin vəsaitləri çatışmayanda o, lizinq şirkətindən istədiyi avadanlıq və maşınları uzun müddətli ssudalar şəklində alır və tədricən ödəyir. Lizinq üzrə ödəmələr tikinti müəssisələrinin istehsal etdiyi məhsulun dəyərinə keçir. Tikinti müəssisələri vəsaitlərini dövriyyədən ayırmamaq üçün lizinq şirkətindən aldığı maşın və avadanlıqları müqavilədə göstərilən müddətə qədər istismar edir.

Xüsusi və borc kapitala ödəmə faizləri vergilər hesablanana qədər çıxılır və ümumi xərclərin məbləğinə daxil edilir. Tikinti müəssisələrinin sərəncamında qalan mənfəətdən dividentlər ödənilir. Belə hal tikinti müəssisələrinə əlavə qazanc gətirir. Məsələn, şirkətlər qrupunun kapitalla olan ehtiyatı 20 mln. manat təşkil edir və onun sərəncamında 2 alternativ maliyyələşdirmə mənbəyi vardır: birincisi, adi səhmlərin buraxılışı; ikincisi, banklar tərəfindən verilən kreditlərin alınması. Hər iki alternativin dəyəri 15% təşkil edir. Maliyyələşdirmə mənbələrindən asılı olmayaraq investisiya layihəsinin həyata keçirilməsi nəticəsində 50 mln.manat gəlir alınacaqdır. Faizsiz ödəmələrlə şirkətlər qrupunun məhsulunun maya dəyəri resursları 20 mln.manat təşkil edir. Borc vəsaitlərinin cəlb edilməsi siyasətində alınan qənaət 0,36 mln.manatdır. Bu qənaət mənfəətdən verginin 18% tutulmasına görə alınır. Əslində isə kapitalın istifadə olunmasına görə ödəmə 10%, 2 mln.manata (10%*20) bərabərdir. Həmin məbləği mənfəətdən alınan vergi dərəcəsinə vuranda (2,0*0,18) 0,36 mln.manat alınır.

Banklar tərəfindən verilən kreditlərə əsasən tikinti müəssisələrinin (şirkətlər qrupunun) xüsusi kapitalının maliyyələşdirilməsi adi kapitala nisbətən faydalıdır, ancaq risklidir, çünki kredit üzrə faizlər və alınan borclar vaxtında qaytarılmalıdır.

Şirkətlər qrupu öz səhmlərinin buraxılışı hesabına riski azaltmaq istəyir. Əgər həmin sahəyə investorlar kapital qoymaq istəyirlərsə, onda alınan mənfəətə görə yüksək ödəmələr verilməlidir.

Şirkətlər qrupunun kapitalının tərkibinə daxili və xarici amillər təsir edir və onlara aiddir:

- şirkətin kapital bazarının vəziyyəti;
- vergi dərəcəsi;
- şirkətin udulması (məhv olması) təhlükəsinin əmələ gəlməsi;
- şirkətin aktivlərinin tərkibinin (strukturunun) dəyişməsi;
- yeni iri investisiya layihələrinə tələbatının artması;
- şirkətin gəlirlilik səviyyəsi və dinamikasının müəyyən edilməsi.

Tikinti müəssisələrinin (şirkətlərin) resurs axınlarının planlaşdırılmasını müəyyən edəndən sonra onun investisiya resurslarının idarə edilməsi modellərinin formalaşmasına keçmək lazımdır. Tikinti müəssisələrinin investisiya resurslarının idarə edilməsində resurs axınlarının planlaşdırılması xüsusi rol oynayır. Tikinti müəssisələrinin yerinə yetirdiyi işlərin planlaşdırılması onun biznesinin inkişafı ilə bağlıdır. Resurs axınlarının planlaşdırılması müəssisənin xərclərinin aşağı düşməsinə və mənfəətin artmasına səbəb olur.

Tikinti müəssisələrinin resurs axınlarının planını məlum olmayan rayonun xəritəsi kimi təsəvvür etmək olar və qoyulan məqsədləri reallaşdırmaq üçün biz irəliyə getməliyik. Bütün maneələr göstərilməklə ətraf sahə xəritədə kifayət qədər ətraflı təqdim edilməlidir. Xəritənin həmin sahəsi hər gün tikinti müəssisəsinin işlərinin planlaşdırılması üçün istifadə oluna bilər. Ancaq biz xəritənin köməkliyi ilə hadisələrin inkişafını başa düşsək də, ümumi təsəvvürümüz qeyri-müəyyən olar. İrəliyə hərəkət etdikcə öz xəritəmizi dəqiqləşdirərək, onu ətraflı və faydalı edə bilərik. Məhz ona görə də tikinti müəssisəsinin illik planının dövrü olaraq yenidən baxılması və sürüşdürülməsi, resurs axınlarının layihələndirilməsi sahəsində də zəruridir [1, 24].

İnvestisiya-tikinti axınlarının reallaşdırılmasında qarşıya çıxan maneələrdən qaçmaq üçün tikinti müəssisəsinin resurs axınlarının planlaşdırılmasının səmərəli təşkil edilməsi lazımdır.

Biz tikinti müəssisələrində işlərin layihələndirilməsində və resurs axınlarının planlaşdırılmasında tez-tez rast gəldiyimiz tipik səhvləri təhlil etdik. Onlar tikinti müəssisəsinin investisiya resurslarının idarə edilməsi modelinin formalaşmasına xidmət edir və onlara aiddir:

✓ tikinti müəssisəsinə cəlb edilən ekspert-məsləhətçilər qrupu tərəfindən resurs axınlarının planının işlənməsi;

✓ işlənilən plan zəruri hallarda istifadə oluna bilər.

Tikinti müəssisələrinin resurs axınları planı xarici məsləhətçilər tərəfindən işlənilir, adətən çox qısa müddətdə işlərin çox böyük həcminin yerinə yetirilməsini nəzərdə tutur. Ona görə də onlara inam yoxdur. Çox halda belə planlar strateji və illik planlar arasında qovuşmanı təmin etmir. Əgər göstərilən qüsurlar tikinti müəssisəsinin planlaşdırılması prosesinə və ya işlərin bir mərhələsindən digərinə keçid üçün xarakterikdirsə, onda tikinti müəssisəsinin investisiya-tikinti axınlarının reallaşmasına xidmət edən resursların planlaşdırılması prosesini diqqətlə təhlil etmək lazımdır [2, 60].

Tikinti müəssisələrində investisiya resurslarının idarə edilməsinin formalaşması modeli və inkişafının planlaşdırılması rəhbər arzu edirsə səmərəli ola bilər. Resurs axınlarının

səmərəli planlaşdırılması uzunmüddətli məqsədlərin koordinasiyasını və cari əməliyyatlara vəsaitlərin sərf edilməsinin əsas istiqamətlərini təmin edir, planların operativ düzəldilməsi üçün şərait yaradır. Səmərəli planlaşdırmanın müsbət təsiri və planların hazırlanmasında müvəffəqiyyətsizlik tikinti müəssisəsinin inkişafına birbaşa təsir edir. İnvestisiya-tikinti layihələrinin idarə edilməsinin səmərəli aləti kimi resurs axınlarının planlaşdırılması o vaxt ola bilər ki, idarəetmənin bütün səviyyələrində menecerlər ona tikinti müəssisəsi üçün bütünlüklə böyük əhəmiyyətə malik olan bir proses kimi baxsınlar [3, 122].

Tikinti müəssisələrinin yerinə yetirdiyi işlərin həcmindən və onun investisiya planlarının xarakterindən asılı olaraq planlaşdırılma prosesi ətraflı təhlil edilməlidir. Bundan əlavə tikinti müəssisəsinin xüsusiyyətlərini əks edən modifikasiya öyrənilməlidir. Şəkil 1-də tikinti müəssisəsinin pul axınlarının əsas istiqamətləri təqdim edilir. Sxemdə göstərilən pul axınlarının istiqamətləri tikinti müəssisəsi üçün əhəmiyyətli ola bilər.




**Şəkil 1. Tikinti müəssisələrinin resurs axınlarının əsas istiqamətləri**

Adətən tikinti müəssisəsinin investisiya resurslarının idarə edilməsi modelinin formalaşmasında resurs axınlarının uzunmüddətli və qısamüddətli planların tərtib edilməsinin hər iki formasından istifadə edilməlidir.

Tikinti müəssisələrinin biznes planı tərtib edilərkən investisiya resurslarının idarə edilməsi modelinin formalaşmasına fikir verilməlidir. Tikinti müəssisələrinin biznes planı resurs axın-

ları, investisiya resurslarının inkişafı planı və s. ilə əlaqələndirilərək tərtib olunmalıdır.

Tikinti müəssisələrinin investisiya resurslarının idarə edilməsində resurs axınları planının əsas komponentləri proqram hesab olunur. Həmin proqrama uyğun investisiya layihələrinin büdcələri və planları formalaşdırılır.

Tikinti müəssisələri üçün ən mühüm 18 aydan 36 aya qədər olan səmərəli ortamüddətli planlaşdırmadır [4, 96]. Qabaqcıl tikinti müəssisələrində resurs axınlarının planlaşdırılmasında informasiyaların müəyyən hissəsi orta müddətli planlardan illik planlara keçirilir. Resurs axınlarının səmərəli sistemi yaradılan tikinti müəssisələrində ən çox gəlir orta müddətli planlarda gözlənilir.

Tikinti müəssisələrinin investisiya-tikinti planını bir mütəxəssis və ya iki mütəxəssis birlikdə hazırlayır. Bundan əlavə hazırlanan planların məzmunu həmin mütəxəssisin və ya kiçik mütəxəssislər qrupunun imkanlarını əks etdirir.

**Ədəbiyyat:**

1. Инвестиционная политика и финансирование строительства. М.:1998, 67с.

2. Семенов В. Финансы строительных организаций. М.: ФиС, 2004, 384с.

3. Асаул А.Н., Батрак А.В. корпоративные структуры в региональном инвестиционно - строительном комплексе.- М.:СПб, 2001, 140с.

4. Подобед М. Определение стоимости строительной продукции. М.:Книга сервис. 2003г., 288с.

**Abstract**

**SYSTEMATIC ANALYTICAL APPROACH TO THE DEVELOPMENT OF INVESTMENT RESOURCES OF THE CONSTRUCTION COMPANIES**

**Shahla ALIZADEH**

*Azerbaijan Architecture and Construction University, Ph.D. student*

**Key words:** systematic approach, analysis, resources, investment, formation

Systematic approach to the development of investment resources of the construction companies is associated primarily with the separation of the system from the external environment and the definition of essential backbone side of the object on which all depend on his other side. In order to reveal the essence of the investment resources of the system-building enterprises it is necessary to know the specifics of the object. It is the knowledge of the specifics that enables to reflect correctly the laws governing the formation and development of investment resources construction company and, accordingly, to define its focus.

**Резюме**

**СИСТЕМНЫЙ АНАЛИЗ ИНВЕСТИЦИОННЫХ РЕСУРСОВ СТРОИТЕЛЬНОГО ПРЕДПРИЯТИЯ**

**Шахла АЛИЗАДЕ**

*Диссертант Азербайджанского Архитектурно строительного Университета*

**Ключевые слова:** система, подход, анализ, ресурсы, инвестиция, формирование

Системный подход к развитию инвестиционных ресурсов строительного предприятия связан, прежде всего, с выделением системы из внешней среды и определением существенной системообразующей стороны исследуемого объекта, от которой зависят все другие его стороны. Для выявления системообразующей сущности инвестиционных ресурсов строительного предприятия необходимо знать специфику исследуемого объекта. Именно знание этой специфики дает возможность правильно отразить закономерности формирования и развития инвестиционных ресурсов строительного предприятия и, соответственно, определить ее целенаправленность.

# TİKİNTİ ŞİRKƏTLƏRİNDƏ İNNOVASİYA STRATEGİYASININ FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

**Parham Hossein AHMAD**
*AzMİU, doktorant*

**Rəyçi:** i.e.n., dos Vüqar Nəzərov
**Açar sözlər:** innovasiya, strategiya, tikintidə innovasiya, innovasiya fəaliyyəti, innovasiya prosesi, innovasiya siyasəti, innovasiya sifarişçisi

**Giriş.** İnnovasiya siyasətinin əsas məzmunu maliyyə vəsaitləri mənbələrinə kiçik firmaların girişinin yüngülləşdirilməsinə yönəldilən maliyyə axınlarının tənzimlənməsidir. Burada iki istiqamət ayrılır:

- büdcədən məqsədyönlü maliyyələşmə;
- kiçik firmaların innovasiya fəaliyyətinin maliyyələşdirilməsinə şəxsi kapitalın cəlb edilməsi.

İnnovasiya prosesinin mərkəzində yeniliyinin nəticəsinin gələcək sahibi və istifadəçisi kimi innovasiya sifarişçisi durur. İnnovasiya sifarişçisinin özü subyektdir, orada yenilik reallaşdırılır, yəni innovasiya prosesinin mərkəzində olan təşkilat strukturu.

Azərbaycanda yeniliklər üzrə ixtisaslaşan təşkilatların və müəssisələrin dörd nəslini göstərmək olar.

İnnovasiya təşkilatlarının birinci nəslinə layihə təşkilatlarını, texnoloji institutları göstərmək olar.

XX əsrin 70-ci illərindən başlayaraq innovasiya təşkilatlarının ikinci nəsli-elmi istehsal birlikləri formasında inkişaf etdi. Onlar üç istiqamətdə yaradıldı:

- yeni məhsulun mənimsənilməsi;
- tətbiqi tədqiqatların birləşməsi, layihələşdirilməsi;
- yeni elmi-texniki məhsulun istehsal tsiklinin azaldılması.

İnnovasiya təşkilatlarının üçüncü nəsli sahələr arasında yaradıldı. Onların geniş funksiyaları vardır və idarələrarası tərkibdə partnyorlara malik idi. Həmin innovasiya əmələgəlmələrinə sonralar kooperativ hərəkətləri və müxtəlif ictimai təşkilatlar birləşdi. İndiki innovasiya təşkilatlarını dördüncü nəslə aid etmək olar. Burada dörd nəslin bütün elementləri öz aralarında rəqabətə girirlər. Onların rolu yenilik bazarının bugünkü şəraitində formalaşır.

**Təhlil .** Müasir şəraitdə Azərbaycanın tikinti şirkətlərində islahatların aparılması problemi çox böyük əhəmiyyət kəsb edir. İstehsalın texnologiyasının kökündən dəyişdirilməsi haqqında məsələ qarşıya qoyulur, bu da şirkətin innovasiya strategiyası ilə əlaqədardır. İnnovasiyanın səmərəli işləməsi və tətbiqi şirkətə imkan verir ki, yeni istiqamətə çıxsın. Bazar iqtisadiyyatı şəraitində bu, xüsusi rol oynayır, çünki konyunktura tez dəyişir və şirkət fəal rəqabətə girir. Tikinti şirkətində innovasiyanın müvəffəqiyyətlə reallaşdırılmasına çoxlu amillər təsir edir, onlardan ən mühümü elmi-texniki potensialın, istehsal-texniki bazanın, resursların əsas növlərinin, iri investisiyaların, müvafiq idarəetmə sisteminin olmasıdır. Bundan əlavə innovasiya ilə şirkətin istehsal fəaliyyəti arasındakı qarşılıqlı əlaqə innovasiya strategiyasının həyata keçirilməsinə müsbət təsir göstərir (Cədvəl 1.) [1,səh-155].

**Cədvəl 1.**

**Tikinti şirkətinin innovasiya strategiyasının formalaşması**

| Şirkətin məqsədi | Şirkətin vəzifəsi | Şirkətin innovasiya strategiyasının mahiyyəti |
|---|---|---|
| İstehsal miqyasının artması:<br>a) sürətli artım (ildə 20%-dən çox);<br>b) çox yüksək artım (20%);<br>v) yüksək artım (10%); orta artım (5%); az artım (5%) | Yeni tikinti, ciddi yenidənqurma və genişləndirmə. Bazara yeni məhsulla çıxış, yaradılmış və istifadəyə verilən güclərin mənimsənilməsi. Yetişmiş mərhələnin əvvəllində olan, məhsulun istehsalı (yəni artım mərhələsinin axırında). | Yeni avadanlıqların layihələndirilməsi və alınması; məhsulun yeni növlərinin istifadəsi və yeni texnoloji proseslərin işlənilməsi. Fəaliyyətdə olan texnoloji proseslərin təkmilləşdirilməsi və istehsalın modifikasiya edilməsi; gələcək dövrlər üçün elmi-texnoloji hazırlıqlar. Məhsulun maya dəyərinin aşağı salınması məqsədilə fəaliyyətdə olan texnoloji proseslərin təkmilləşdirilməsi. |
| Bazarda payın artması | Qarşılıqlı əlaqəli məhsulların istehsalı; istehsal həcminin artması, bazarda rəqabətçilərin sıxışdırılması. | İstehsalın texniki səviyyəsinin yüksəldilməsi; Rəqabətçiyə nisbətən məhsulun istehsal xərclərinin daima aşağı salınması, innovasiyanın işlənilməsi. |
| Bazarda vəziyyətin stabilləşdirilməsi | Məhsulun həyat tsiklinə riayət edilməsi, məhsulun bazara vaxtında çıxarılması; məhsulun maya dəyərinin aşağı səviyyədə saxlanılması. | Məhsulun yüksək texniki səviyyəsinə və texnologiyasına nail olmaq; məhsulun həyat tsiklinin elmi-tədqiqat-konstruksiya tsiklinə uyğunluğunu təmin etmək. |
| Yeni bazarların mənimsənilməsi | Müxtəlif bazarların tələbini təmin edən yeni məhsul istehsalını mənimsəmək; müxtəlif planlı məsələləri həll etmək üçün qabiliyyətli mobil elmi-texniki potensialın mövcudluğu. | Differensiallaşdırılmış məhsulların və proseslərin işlənilməsi; bazara məhsulun çıxarılmasının elmi-texniki təminatı. |

İnnovasiya strategiyasının formalaşması üçün ümumi sosial-iqtisadi məqsəd və şirkətin innovasiya məsələləridir. Bazar şəraitində mənfəətin alınması və onun maksimuma çatdırılması şirkətin əsas məqsədidir. Buna nail olmaq üçün şirkət konkret məqsədlərini çox az qaydada müəyyən edir [2, səh-27].

Ümumi sosial-iqtisadi məqsəd daxilində ikinci səviyyəni qeyd etmək lazımdır:

- istehsal miqyasının artmasını;
- bazarda vəziyyətin sabitləşdilirməsini;
- yeni bazarların mənimsənilməsini.

İnnovasiya strategiyasının düzgün formalaşmış portfeli resursların səmərəli bölüşdürülməsinə səbəb olur və şirkətin bütün fəaliyyətinə səmərəli təsir edir. Ancaq innovasiya strategiyasının işlənilməsi və tətbiqi prosesi şirkətin xarici amillərindən çox asılıdır.

Strateji planlaşdırmada rəqabətçilərin innovasiya potensialını, şirkətin innovasiya fəaliyyətinə dövlətin münasibətini, ölkədə ümumi-elmi texniki, iqtisadi, siyasi və sosial atmosferanı nəzərə almaq lazımdır.

Qeyd etmək lazımdır ki, innovasiyanın inkişafının tənzimlənməsi hər bir dövlət üçün böyük əhəmiyyətə malikdir. Dünya təsərrüfat bazarına tədricən inteqrasiya prosesi ölkə istehsalçılarının dövlət tərəfindən müdafiəsinin yüksəldilməsi zəruriliyidir. İqtisadi artımı ancaq müasir elmi-texniki nailiyyətlərin fəal istifadəsinin innovasiyası əsasında əldə etmək olar.

Azərbaycanda iqtisadi sahələrinin modernləşdirilməsi və rəqabət qabiliyyəti ancaq XXI əsrin elminə və texnologiyasının nailiyyətlərinə əsaslanmalıdır. Ancaq belə halda onları keyfiyyətli, resurs qənaətliliyi, istehsalın effektivliyi, daxili və dünya bazarında rəqabət qabiliyyətli məhsulun buraxılışına nail olmaq olar.

İranda innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi aşağıdakı amillərin hesabına olur: ölkədə elmi-texniki potensial və istehsal bazası genişlənir və sabitləşir. İnnovasiya fəaliyyətini stimullaşdırmaq üçün investisiyaların cəlb edilməsi məsələləri həll edilir. Ölkənin müasir iqtisadi sistemi bazar münasibətlərinə yönəldilir və dünya iqtisadi sisteminə inteqrasiya olmaq qabiliyyətinə malikdir.

XXI əsrdə tikinti siyasəti ancaq innovasiyaya yönəldilibdir. Əsaslı tikintidə innovasiyanın rolu çox tərəflidir, bu, texniki iqtisadi inkişafın ən effektli vasitəsidir, kifayət qədər və uzunmüddətli rəqabət üstünlüyünü təmin edən yeganə vasitədir. Texnoloji gerilik və asılılığı aradan götürmək üçün effektli vasitədir, bazarda möhkəm mövqe tutmaq üçün əsas alətdir [3,səh-37].

Daxili və xarici bazarda Azərbaycan tikintisinin rəqabət qabiliyyətinin yüksəldilməsi innovasiya siyasətinin başlıca məqsədidir.

Azərbaycan Respublikası elm və innovasiya fəaliyyəti üçün şərait yaradaraq, öz siyasətinin məqsədini və prinsiplərini formalaşdırır.

İranda innovasiya sahibkarlığı sahəsində tədbirləri həyata keçirərək, dövlətin innovasiya sferası subyektlərinin fəaliyyətini genişləndirmək üçün şərait yaradır.

Neft sahəsi ölkənin bütün sənayesinin tərkib hissəsidir və Azərbaycan bu sahənin böyük imkanlarından istifadə edərək digər sahələrini, o cümlədən də tikintinin sosial-iqtisadi sferasının stimullaşdırılmasını təmin edir.

**Nəticə.** Son illərdə daxili-bazarı təmin etmək nöqteyi-nəzərincə, tikinti sahəsinin inkişafının ən aktual problemləri, bütün mərhələlərdə materialların və istehsalın enerji tutumunun aşağı salınması, habelə əhəmiyyətli texnoloji nailiyyətlərin istifadəsi miqyasının artırılması hesabına məhsulun keyfiyyətinin, çeşidinin yüksəldilməsi və genişləndirilməsidir.

Daxili və xarici bazarda vəziyyəti dəyişdirmək üçün məhsulun keyfiyyətini dünya bazarı tələbləri səviyyəsinə qədər yüksəltmək lazımdır. Müasir texnologiya məhsulun payının yüksək texniki və istismar xarakteristikasını təmin edər, resursları qənaət edən texnoloji avadanlıqların istifadəsi hesabına istehsalın material xərclərini aşağı salır.

Rəqabət qabiliyyəti göstəricilərinə görə tikinti sahəsinin vəziyyətinin təhlili aşağıda göstərilən nəticəyə gəlməyə imkan verir:

- sahədə məhsulun keyfiyyətinin aşağı olması və qiymətin yüksəldilməsi rəqabət qabiliyyətini aşağı salır;
- müasir texnologiyanın çatışmamazlığı;

- müasir texnologiyaya kapital qoyuluşunun az olması.

Beləliklə, onların bazasında buraxılan məhsulun keyfiyyətinin yüksəldilməsi innovasiyanın ən mühüm iqtisadi təzahürü kimi baxılır, bu da ki, ölkənin tikintisində rəqabət qabiliyyətinə təsir edir.

**Ədəbiyyat:**

1. James Coleman, Elihu Katz and Herdert Menzel "The diffusion of an innovation among physicians" – Sociometry, December, 1987, p.253

2. N. Asaul, V. P. Grahov. Marketinq – Manaqement in Construction Complex – saint – petersburq, " Humanistica", 2007, p.33

3. David J.Luck. "Interfaces of a product manager". – Journal of marketing, October 2003, p.92

**Abstract**

**DIRECTIONS TO THE FORMATION OF INNOVATION STRATEGY IN CONSTRUCTION COMPANIES**

**Parham Hossain AHMAD**

*Ph.D. student at AACU*

**Keywords:** innovation, strategy, construction innovation, innovation work, the process of innovation, innovation policy, the customer innovation

The article investigates 4 generations of organizations and entreprizes of Azerbaijan specialized in innovation. The directions are provided for the formation of innovative strategies in construction. The article also analyzes the regulating role of the goverment of Iran in innovative activities. The author provides the means to increase the competiteveness of domestic and foreign markets and to stimulize the innovation process in the field of construction.

**Резюме**

**НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ ИННОВАЦИОННОЙ СТРАТЕГИИ СТРОИТЕЛЬНОЙ КОМПАНИИ**

**Пархам Хоссеин АХМЕД**

*Докторант АзАСУ*

**Ключевые слова:** инновация, стратегия, инновации в строительстве, инновационная деятельность, инновационный процесс, инновационная политика, заказчики инноваций

В статье исследуются 4 поколения предприятий и организаций Азербайджана, специализирующихся на инновациях. Приводятся направления формирования инновационной стратегии в строительстве. Раскрываются факторы государственного регулирования инновационной деятельности в Иране. Также приводятся главные цели инновационной стратегии в повышении конкурентоспособности строительства Азербайджана на внутреннем и внешнем рынке.

# BÜDCƏ KƏSİRİNİN SƏMƏRƏLİ MALİYYƏLƏŞMƏ MEXANİZMİ

**Ağanemət AĞAYEV**
*İqtisad üzrə fəlsəfə doktoru*

**Rəyçi:** Johns Hopkins Universitetinin Postdoktorantı, i.ü.f.d. Namiq Sahib oğlu Nağdəliyev
**Açar sözlər:** fiskal siyasət, büdcə kəsiri, qiymətli kağızlar bazarı, xəzinə istiqrazları

Təcrübə və tədqiqatlar göstərir ki, borc öhdəlikli dövlət qiymətli kağızlar bazarının həm perimetrinin genişləndirilməsi, həm də dərinliyinin artırılması ölkədə geniş mənada büdcə kəsirinin dayanıqlı əsasda maliyyələşdirilməsinin yegənə yoludur. Bu istiqamətdə həyata keçirilməsi zəruri olan siyasət konstruksiyasını və ona müvafiq tədbirlər sistemini ümumilikdə üç böyük qrupa ayırmaq olar:

- ölkədə qiymətli kağızlar bazarının ümumi inkişaf hədəflərinə yönəlik siyasət və ona müvafiq tədbirlər sistemi;
- bilavasitə borc öhdəlikli dövlət qiymətli kağızlar bazarının yeni və təkmil modeli;
- xarici maliyyə bazarlarında rasional maliyyə şərtləri ilə borclanmaya imkan verən borc öhdəlikli dövlət qiymətli kağızlarının tədavülü sistemi.

Ölkədə qiymətli kağızlar bazarının ümumi inkişaf hədəflərinə yönəlik siyasət və tədbirlər sistemi aşağıdakı məsələləri özündə ehtiva etməlidir:

1) qiymətli kağızlar bazarı üzrə mövcud institutların yenidən qurulması, onların tədqiqat-analitik laboratoriyalarının yaradılması;

2) kollektiv investisiya sxemlərinin yaradılması;

3) qiymətli kağızlar bazarında maliyyə vasitəçiliyi fəaliyyətinin təşviqi;

4) qiymətli kağızlar bazarında tələb və təklifin dəstəklənməsi, o cümlədən dövlət tərəfindən həm birbaşa, həm də dolayı yollarla tələb və təklif kanallarının gücləndirilməsi və bunun vasitəsilə bazarın dərinləşdirilməsi;

5) maliyyə bazarının bu seqmentində korporativ idarəetmənin gücləndirilməsi;

6) maliyyə şəffaflığı prinsiplərinin tətbiqinin genişləndirilməsi;

7) borc öhdəlikli qiymətli kağızlar bazarının hüquqi bazasının təkmilləşdirilməsi;

8) bazar iştirakçıları və potensial hədəf qruplarının məlumatlandırılması sisteminin təkmilləşdirilməsi;

9) bazar üçün peşəkar kadrların hazırlanması proseslərinin gücləndirilməsi.

Qeyd olunanlarla yanaşı, ölkədə fond birjasının təşkilati və hüquqi strukturu beynəlxalq standartlara uyğunlaşdırılmalı, yeni ticarət sisteminin tətbiqinə başlanılmalıdır. Bu islahat istiqamətləri digər alətlərlə yanaşı bilavasitə fiskal məqsədlər üçün nəzərdə tutulan borc öhdəlikli baza və törəmə maliyyə alətlərinin ticarət imkanlarının genişlənməsinə səbəb olacaqdır [1].

Eyni zamanda, borc öhdəlikli qiymətli kağızların uçotunun, habelə onun hüquqi konstruksiyasının sadələşdirilməsinə ehtiyac vardır. Bu baxımdan ölkədə yaxın perspektivdə yaradıl-

ması nəzərdə tutulan dövlət və korporativ qiymətli kağızlar üzrə mərkəzləşdirilmiş vahid depozit mərkəzi ilə bağlı işlərin tamamlanması yuxarıda qeyd etdiyimiz islahat müddəalarının sürətlə həyata keçirilməsinə təkan verəcəkdir.

Ölkədə qiymətli kağızların girov təminatı prosedurunun avtomatlaşdırılması və rasionallaşdırılması üzrə tədbirlər sürətləndirilməldir. Bundan sonra isə birjadankənar mütəşəkkil qiymətli kağızlar bazarının əməliyyat-hesablama sisteminin klirinq sisteminə inteqrasiyası təmin olunmalıdır.

Kollektiv investisiya sistemlərinin və maliyyə vasitəçiliyinin təşkili və təşviqi bençmark ölkələrin müttərəqqi təcrübəsinə əsaslanmalıdır. Bu çərçivədə hazırlanacaq yeni modelin parametrlərinə uyğun ölkədə investisiya şirkətlərinin fəaliyyətini tənzimləyən və şirkətlərin aktivlərin idarə edilməsi, eləcə də investisiya fondları və digər kollektiv investisiya sxemləri üzrə fəaliyyətini təşviq edən zəruri normativ-hüquqi bazanın formalaşdırılması başa çatdırılmalıdır.

Ölkədə yaxın perspektivdə müvafiq dövlət institutları tərəfindən həyata keçirilməsi nəzərdə tutulan stabil ilkin və likvidli dövlət istiqrazlarının təkrar bazarının formalaşdırılması üzrə işlər sürətləndirilməlidir. Həmçinin bu, bazarda market-meyker institutlarının fəaliyyətinin təşviqi və onların fəaliyyətinin normativ-hüquqi bazasının yaradılması tədbirlərinin realizasiyası səviyyəsindən asılı olacaqdır. Kiçik və orta sahibkarlar üçün birja ticarət platformasının alternativinin yaradılması bazarın perimetrinin genişlənməsinə xidmət edəcəkdir.

Ölkənin baş fiskal orqanı özəl və dövlət müəssisələrinin maliyyə hesabatı təcrübəsinin inkişafı üzrə ardıcıl tədbirləri həyata keçirməlidir. Bununla da ölkədə beynəlxalq və milli maliyyə hesabatları standartlarının tətbiqi təmin olunmalıdır. Bunlarla yanaşı, reytinq agentliklərinin fəaliyyətini tənzimləyən və onların fəaliyyətinin təşviqi üzrə normativ-hüquqi bazanın formalaşdırılması işlərinə başlanılmalıdır.

Şübhəsiz ki, sadalanan islahat istiqamətləri bilavasitə reallaşdırılmasına başlanılan və nəzərdə tutulan fəaliyyətə adekvat hüquqi bazanın mövcudluğunu tələb edir. Belə ki, bençmark ölkələrin qabaqcıl təcrübələrinə cavab verən yeni qanunun qəbul edilməsinə böyük ehtiyac vardır.

Hüquqi bazanın gücləndirilməsi isə digər istiqamətlərlə yanaşı həm də qiymətli kağızların buraxılması, qeydiyyat üzrə rasional sistemin yaradılmasına və qiymətli kağızların beynəlxalq rəqəmləmə (kodlaşdırma) sisteminin tətbiqinə imkan verəcəkdir.

Qeyd olunan islahatlar çərçivəsində məlumatlılığın və peşəkar kadrların hazırlanmasının artırılması da mühüm məsələlərdəndir. Bununla əlaqədar mütəmadi əsasda aidiyyatlı institutların təşkilati-funksional potensialının gücləndirilməsi, kadr potensialının inkişafı, zəruri təlim kurslarının intensiv surətdə təşkili, habelə kapital bazarı üzrə sertifikatlaşdırılmış proqramların həyata keçirilməsi bilavasitə vacib istiqamətlər kimi yer alır.

Yuxarıda qeyd etdiyimiz kimi, borc öhdəlikli qiymətli kağızlar bazarında islahatlar zəncirinin ilkin həlqələrindən biri dövlət tərəfindən bu bazarın makro və mikro tənzimlənməsidir. Başqa sözlə, bu bazarda dövlət həm tələb, həm də təklif kanallarını təşviq etməli, bu yolla tələb və təklif əyrilərinin kəsişdiyi nöqtəni – bu borc alətləri üzrə faiz dərəcələrini pul

bazarının, habelə maliyyə bazarının digər seqmentlərinin faiz dərəcələri ilə uzlaşdırmalıdır.

Borc öhdəlikli qiymətli kağızlar bazarı üzrə mütərəqqi dünya təcrübəsinin dərsləri göstərir ki, inkişaf etmiş böyük yeddilik ölkələri, habelə digər inkişaf etmiş iqtisadiyyatlarda maliyyə bazarının bu seqmenti Azərbaycan üçün bençmark kimi qəbul edilməlidir.




**Şəkil 1. Dövlət qiymətli kağızlar bazarının makro və mikro tənzimlənməsi**

Məlum olduğu kimi ölkədə borc öhdəlikli dövlət qiymətli kağızlarının emitenti qismində Maliyyə Nazirliyi çıxış edir. Bu maliyyə alətlərinin çeşidinin artırılacağı, tədavülünün genişləndiriləcəyi təqdirdə ölkənin başlıca fiskal orqanının səlahiyyət və vəzifələri həddən artıq böyüyəcəkdir. Bu sahədə idarəetmənin səmərəliliyini daha da yüksəltmək, habelə çevik idarəetmə mexanizmini təmin etmək məqsədilə borc öhdəlikli dövlət qiymətli kağızları ilə bağlı bütün səlahiyyət və vəzifələrin Dövlət Borcunun İdarə Edilməsi Agentliyinə ötürülməsi daha məqsədəuyğun olardı.

ABŞ təcrübəsində analoji səlahiyyət və vəzifələr Dövlət Xəzinə Departamentinin Dövlət Borcu Bürosuna məxsusdur [1].

Bu orqanın emitenti olduğu bütün borc öhdəlikli qiymətli kağızlar hökumətin borc maliyyələşdirilməsi aləti statusuna malik olmalıdır. Bundan sonra dövlətin borc alətlərinin çeşidini artırmaq istiqamətində tədbirlərə başlamaq lazımdır.

İlkin mərhələdə daxili borc bazarının potensial donorluq imkanları məhdud ola bilər. Lakin, bu məhdudiyyət alətlərin çeşidinin artırılmasına, başqa sözlə borclanma şərtlərinin diversifikasiyasına maneə kimi qəbul edilməməlidir. Belə ki, maliyyə alətləri üzrə borclanma şərtlərinin çoxçeşidli olması investorların daha aktiv şəkildə cəlb olunmasına imkan verəcəkdir.

Burada önəmli məsələlərdən biri hökumətin borc bazarında özünün hədəf qruplarını səlis müəyyən etməsindən ibarətdir. Xüsusilə bu, investor qismində dövlət borclanmasında iştirak etməyə hazır olan əhali qruplarına aiddir. Bu qrupa yalnız bir növ dövlət borcu alətini təklif etmək, həmin qrupa əmtəə və xidmətlər bazarında alternativsiz bir məhsul təklif etməyə bənzəyir. Bu halda hökumət öz potensial investorlarını özəl sektorun təklif etdiyi maliyyə alətlərinə üstünlük verməyə sövq edir.

Nəticədə, olduqca geniş çeşiddə təklif olunan bank depozit xidmətləri əhaliyə, eləcə də firmalara daha böyük seçim verir və bu halda dövlətin fiskal institutları daha bahalı şərtlərlə bank sektorundan borclanmaq məcburiyyəti ilə üzləşirlər.

Standart maliyyə alətləri ilə yanaşı ölkədə bazar tədavülünə malik olmayan xəzinə borc alətlərinin də tədavülünü təşkil etmək imkanlarını yüksək qiymətləndirmək olar. Bunlara Mərkəzi və yerli hökumət seriyaları, habelə, yığım istiqrazlarını misal göstərmək olar. Bazar tədavülünə malik xəzinə istiqrazlarından fərqli olaraq bu maliyyə alətləri likvid aktivlər sırasına aid olmayacaq; və təkrar bazarda tədavülə malik olmayacaqdır.

Qısamüddətli xəzinə istiqrazlarının tədavül müddəti maksimum bir il olmaqla bir ilə qədər saxlamaq lazımdır. Adətən bu maliyyə alətləri 28 günlük, 91 günlük, 182 günlük və 1 illik müddətə dövriyyəyə buraxmalıdır. Bu maliyyə alətləri sıfır kuponlu, yəni onlara görə gəlirin ödənişi faiz qaydasında deyil, diskont əsasda davam etdirilə bilər. Belə ki, bu istiqrazlar investorlara nominalından aşağı məbləğə satılaraq, nominal dəyəri ilə geri alınır. Bu iki məbləğ arasındakı fərq investorun gəlirini təşkil edir. Bu xəzinə istiqrazları ölkədə maliyyə bazarının ən az riskli maliyyə aktivləri kimi xarakterizə oluna bilər. Banklar, digər maliyyə institutları və ilkin dilerlər bu maliyyə alətlərinin əsas investorları kimi çıxış edəcəklər. Fiziki şəxslərin də bu xəzinə istiqrazlarına maliyyə yatırımı etmək imkanlarının mövcud olması bazarda diversifikasiya üstünlükləri baxımından mühüm amildir.




**Şəkil 2. Dövlət qiymətli kağızlarının hədəf qrupları üzrə yeni diversifikasiya modeli**

Ölkə xəzinədarlığı fiskal fonların icrası zamanı cari nağd vəsait kəsiri ilə üzləşmək təhlükəsi hiss etdikdə (ABŞ təcrübəsində bu, “xəzinənin nağd balansının aşağı səviyyəsi” ad-

lanır) dövriyyəyə nağd idarəetmə istiqrazları buraxıla bilər. Xəzinə istiqrazları kimi diskont gəlir ödənişi formasına malik bu maliyyə əlatləri çox qısa müddətdə - bir həftə ərzində dövriyyədə olmaqla hökumətin cari kəsirinin ahəngdar əsasda maliyyələşməsini təmin edəcəklər.

Xəzinə istiqrazlarının alışı əsasən elektron əsasda təşkil olunmalıdır. Məsələn əhalinin şəxsi bank hesablarında olan depozit məbləği bu maliyyə alətlərinə investisiya olunmaqla daha yüksək faiz gəliri qazandırmalıdır. Bu xüsusiyyət tədavülün çevikliyini təmin etməklə, borc öhdəlikli qiymətli kağızlar bazarında emitent-investor məsafəsini qısaldacaqdır.

Bu xəzinə istiqrazlarının gəlirliliyi aşağıdakı düsturla hesablanır: [2]

$$DG(\%) = (NQ - AQ) / NQ) * (360 / STM) * 100$$

Burada:
DG – diskont gəliri
NQ – nominal qiymət (istiqrazın üzərində yazılmış məbləğ)
AQ – alış qiyməti
STM - son tədavül gününə qədər qalan günlərin sayı

Tədavülə müddəti 1 ildən 10 ilə qədər olan xəzinə notlarının buraxılması hökumətin borc alətləri bazarında növbəti islahat istiqaməti olmalıdır. Bu maliyyə alətləri üzrə gəlir ödənişi kupon ödənişi qaydasında hər altı aydan bir həyata keçirilə bilər. Bu xəzinə notlarının nominal dəyəri orta məbləğdə məsələn, 1000 manat təşkil edə bilər və illik gəlirlilik bu maliyyə aktivləri üzrə yenidən maliyyələşmə dərəcəsinə yaxın təklif oluna bilər (3-5%). Bençmark ölkələrdə daha uzun müddətli olan bu qiymətli kağızların investorları bu maliyyə aktivlərinə yatırım edərkən orta və uzunmüddətli makroiqtisadi meyilləri və yerli hökumətin iqtisadi siyasət perspektivlərini nəzərə almalıdırlar. Bu maliyyə alətlərinin tədavülünə başladığı halda hökumət və Mərkəzi Bank fiskal və monetar siyasətin kommunikasiyasını gücləndirməli, iqtisadi siyasət sənədlərinin məzmun keyfiyyətini yüksəltməlidir.

Daha uzunmüddətli dövr üçün isə xəzinə bondlarının tədavülünü təşkil etmək olar. 20 ildən 30 ilə qədər müddətdə investorlara sabit gəlir vəd edən bu maliyyə alətlərinin gəlir ödənişi kupon əsasında reallaşdırıla bilər. Xəzinə notları kimi bu istiqrazlar da hər altı aydan bir öz sahibinə qazanc gətirmək xüsusiyyətinə malik olacaqlar. Bu qiymətli kağızların təkrar bazarda yüksək likvidlik qabiliyyəti mövcud olacaqdır. Uzunmüddətli, əsasən də 30 illik tədavül dövrünə malik bu bondların gəlirlilik faizi əksər bençmark ölkələrdə yerli maliyyə bazarlarında uzunmüddətli faiz dərəcələr üçün proksi (nümunə, əvəzedici) rolunu oynayır.

İnflyasiya səviyyəsinin heç də minimum olmadığı bir ölkə kimi xəzinənin inflyasiyadan müdafiə olunmuş qiymətli kağızlarının tədavülü də dövlətin borc alətləri bazarının keyfiyyət diversifikasiyası üçün çox önəmlidir. Xəzinənin bu borc alətləri hər il rəsmi inflyasiya səviyyəsi (istehlak qiymətləri indeksi) ilə indeksasiya olunmalıdır. Bu qiymətli kağızlar 5, 10, hətta 30 illik müddətə dövriyyəyə buraxıla bilər.

**Ədəbiyyat:**

1. A.Ağayev "Azərbaycan Respublikasında büdcə kəsirinin qiymətli kağızlarla maliyyələşdirilməsi problemləri" Dissertasiya işi, səh: 272-279, Bakı 2014.
2. Рынок ценных бумаг. Под ред. В.А.Галанова, А.И. Басова. М.: Финансы и статистика, 1998. 352 с.

**Abstract**

**EFFECTIVE FINANCING MECHANISM OF BUDGET DEFICIT**

**Aghanemat AGHAYEV**

*Ph.D. on economics*

**Key words:** fiscal policy, budget deficit, market of securities, treasure bills

Owning a sustainable state security market and fiscal policy has become an important element of macroeconomic equilibrium as the main regulating element of any economic system. The article is dedicated to problems of effective financial policy from point of view of macroeconomic stability. It also proposes the mechanism for management of the problem.

**Резюме**

**МЕХАНИЗМ ЭФФЕКТИВНОГО ФИНАНСИРОВАНИЕ БЮДЖЕТНОГО ДЕФИЦИТА**

**Аганемат АГАЕВ**

*Доктор философии по экономики*

**Ключевые слова:** фискальная политика, бюджетный дефицит, рынок ценных бумаг, казначейские обязательства

Устойчиво развивающийся рынок ценных бумаг в качестве одного из двигателей любой экономической системы является важным элементом макроэкономического равновесия в стране. Данная статья посвящена проблемам эффективной финансовой политики с точки зрения макроэкономической стабильности. В работе предлагаются механизмы решения данной проблемы.

# TÜRKİYƏNİN VERGİ SİSTEMİNDƏ GƏLİR VERGİSİ

**İsmayıl NƏBİYEV**
*AMEA Şərqşünaslıq İnstitutunun doktorantı*

**Rəyçi:** AMEA Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsi, Protokol N 1 24 yanvar 2015
**Açar sözlər:** gəlir vergisi, rezident, qeyri-rezident, real üsul, sadə üsul

*Tədqiqatın məqsədi* – Türkiyənin vergi sistemi və eləcədə gəlir vergisi haqqında araşdırma aparmaq.

*Tədqiqatın metodologiyası* – situasiyalı yanaşma, induktiv və deduktiv metod.

*Tədqiqatın nəticələri* – Türkiyənin vergi sistemində istifadə edilən səmərəli metod və vasitələrin, eləcə də onların tətbiqi üsullarının üzə çıxarılması.

*Tədqiqatın məhdudiyyətləri* – Azərbaycanda Türkiyənin vergi sistemi ilə bağlı elmi tədqiqatların məhdudluğu.

*Tədqiqatın praktiki əhəmiyyəti* – Türkiyənin gəlir vergisi sahəsindəki təcrübə araşdırılaraq ondan istifədə edilməsi və eləcə də ictimaiyyətin maarifləndirilməsi.

**GİRİŞ.** Türkiyənin vergi sistemi 1950-ci illərə qədər Fransanın vergi sisteminə oxşar bir şəkildə mövcud olmuşdur. 50-ci illərdən sonra isə gəlirə və bəyannaməyə əsaslanan bir vergi sistemi formalaşmağa başlamışdır. Bu sistemin əsas xüsusiyyəti vergi ödəyicilərini ön planda tutmasıdır. Türkiyədə hər bir vergi növü üzrə ayrıca qanun mövcuddur və vergi münasibətləri həmin vergi növləri üzrə qanunlara əsasən müəyyən edilir və tənzimlənir. Türkiyədə aşağıdakı vergilər müəyyən edilir: Gəlir vergisi, Mənfəət vergisi, Əlavə dəyər vergisi (ƏDV-KDV), Aksiz, Maye yanacaq vergisi, Möhür vergisi, Əmlak vergisi, Avtonəqliyyat vasitələrindən vergi, Miras vergisi, Xərc vergisi.

Gəlir insanların sahib olduqları istehsal amillərinin (əmək, investisiya, təbii sərvətlər və s.) müxtəlif istehsal fəaliyyətlərində istifadə edilməsi nəticəsində əldə etdikləri dəyərlərə deyilir. Türkiyənin xalis artım qanununa əsasən gəlir insanların müəyyən bir müddət ərzində əldə etdikləri iqtisadi qazanc (mənfəət) kimi ifadə edilir. Bu ifadəyə görə gəlir hər hansı bir şəxsin müəyyən bir müddət ərzində istehlakı ilə həmin dövrdə sərvətində meydana gələn xalis artımlardan ibarətdir.

**Gəlir vergisinin inkişaf mərhələləri.** Ənənəvi feodal vergi strukturunun dağılması və Türkiyə cəmiyyətinin sosial-iqtisadi təkamülünün əsas istiqamətləri ilə müəyyən olunan keyfiyyətcə yeni fiskal sistemin təşəkkülü mürəkkəb bir şəkildə cərəyan etmişdir.Bu prosesi öz inkişafında kapitalizmin və ölkənin ictimai həyatının inkişaf mərhələlərinə müvafiq olaraq üç ardıcıl mərhələ keçib.Birinci mərhələ "Nizmi-Cadid" islahatlarından (18-19-cu əsrlər) 1919-1922-ci il milli Azadlıq Hərəkatına qədər, ikinci mərhələ 1923-cü ildən 1950-ci ilə qədər, üçüncü isə 50-ci illərin əvvəlindən, yəni müasir gəlir vergitutma sisteminin tətbiqindən sonrakı dövrü əhatə edir. [1,s.303-305].Birinci mərhələ bütövlükdə iqtisadiyyatın, xüsusən maliyyə aparatının xarici inhisarçı kapitala tabe olduğu şəraitdə həyata keçirdi; onu yeni

vergi quruluşuna keçidin hazırlıq mərhələsi kimi xarakterizə etmək olar.Bu mərhələdə ənənəvi vergilərdən imtina və yenilərin daxil olma prosesi, köhnəlmiş, lakin hələ ki hakimiyyətdə qalan siniflərin və sosial təbəqələrin, həmçinin xarici kapitalın sərt müqavimətinə görə çox ləng gedirdi.

İkinci mərhələ birincidən fərqli olaraq milli Azadlıq Hərəkatının qələbəsi təmin olunduğu və xarici kapitalın şəriksiz hökmranlığının təməllərinin dağıldığı tamamilə fərqli şəraitdə həyata keçirdi. Bu mərhələ Respublika Türkiyəyə hakim dairələrinin əsrlər boyu formalaşan ənənəvi vergitutma sisteminin yuxarıdan ləğv edilməsi üzrə məqsədyönlü və davamlı hərəkətləri, yeni vergilərin təməlini qoymaq cəhdləri, bu vergilərin zəif inkişaf etmiş Türkiyə iqtisadiyyatının şəraitlərinə uyğunlaşma yollarının axtarışı ilə xarakterizə olunur.Bu mərhələyə xas olan xüsusiyyət ondan ibarətdir ki, dövlətin aparıcı iqtisadi rol oynamağa çalışdığı ölkənin iqtisadi dirçəlməsi sahəsində olan zəruri vəzifələr qısa müddət ərzində dövlət gəlirlərinin əsas mənbəyi olan bütün vergi sisteminin yenidən qurulması ilə yanaşı, eyni zamanda bu gəlirləri əhəmiyyətli dərəcədə artırmağı tələb edirdi.

Müharibə illərində həyata keçirilən vergi siyasəti kapitalın ticarət və bank burjuaziyasının əllərində cəmlənməsi prosesinin sürətlənməsində mühüm rol oynamışdır.Bu siyasət yalnız qəddarlıqla deyil, həmçinin vergi proseduru sistemində qarmaqarışıqlığın yaranması ilə fərqlənirdi.Fiskal sistemin həddən artıq gərginliyi şəraitində vergi mexanizminin təkmilləşdirilməsi problemi arxa plana keçmişdi, eyni qanuna dəfələrlə edilən əlavələr və dəyişikliklər respublikanın ilk illərində yaradılmış vergi sistemini həddən artıq mürəkkəbləşdirmişdir, daha dəqiq desək qarışdırmışdır.Türkiyə dövlətinin respublika illərində vergi aparatını təkmilləşdirmək cəhdlərinə baxmayaraq, vergi qoymanın əsas üsulu kimi vergi məbləğinin vergi obyektinin xarici əlamətləri əsasında tutulması üsulu qalmaqda idi, yəni dövlət yalnız kəmiyyət məsələləri əsas tuturdu.Bu, vergi sisteminin sinfi olması ilə yanaşı vergi sisteminin elastikliyini azaldırdı, yəni istehsal həcminin artması avtomatik olaraq vergi daxil olmalarının artımına gətirib çıxarmırdı.Vergi sistemi üçün dağıdıcı olan inflyasiyanın təsirini aradan qaldırmaq zəruriliyi getdikcə daha aydın olurdu.Baxmayaraq ki, əmlak, əkinçilik məhsulları və ixraca qoyulan vergilər hələ müharibə illərində ləğv olunmuşdur, əsaslı vergi islahatları həyata keçirmək ehtiyacı son dərəcədə hiss olunurdu.

Hələ müharibə illərində bütün maliyyə çətinliklərinin səbəbi kimi “müasir” gəlir vergisi sisteminin olmaması hesab olunmağa başladı.Maliyyə Nazirliyi bu sistemə 1944-cü ildə keçmək üçün hazırlıq işləri görməyə başladı [2, s.391].Uzun debatlardan sonra Milli Məclis 1949-cu ildə vergi siyasəti sahəsində bir neçə qanunverici aktları qəbul etdi.1949-cu ilin iyun ayında təsdiq olunmuş “Vergiqoyma üsulları” haqqında 5432 №-li qanun vergi hüququna və ümumiyyətlə, vergi məsələlərinin idarə edilməsi təcrübəsinə çoxlu dəyişikliklər etdi. Gəlir vergisinin mövcud olmuş dörd formasının yerinə yeni vergilər daxil olunurdu – gəlir vergisi (3 iyun 1949-cu il tarixli 5421 №-li qanun), korporativ vergi (3 iyun 1949-cu il tarixli 5422 №-li qanun) və sənətkarlıq vergisi (3 iyun 1949-cu il tarixli 5423 №-li qanun). Dolayı vergilərə gəldikdə, burada prinsipial dəyişikliklər yalnız 1957-ci ildə qəbul edilmiş və sövdələşmə vergisi digər dolayı vergi olan istehsala olan vergi ilə əvəzlənmişdir.

Vergi tədbirləri həyata keçirildiyi zaman həm Qərbin çoxəsrlik təcrübəsindən, həm də Türkiyənin müstəqil inkişaf illəri ərzində əldə edilmiş təcrübəsindən geniş istifadə olunub.Bu böyük əməliyyatdan 10 il sonra 1960-cı il hərbi çevrilişin rəhbərləri tərəfindən yaradılmış xüsusi vergi komissiyası bu əməliyyatı "ölkənin maliyyə tarixində dönüş nöqtəsi olmuş böyük vergi islahatı" adlandırmışdır [3, s. 13].

Gəlir vergisi ilə bağlı bütün məsələlər 1960-cı ildə qəbul edilmiş 193 saylı "Gəlir Vergisi Qanunu"na uyğun olaraq müəyyən edilir və bu qanun ilə tənzimlənir. Bu qanunda fiziki şəxslərin əldə etdiyi gəlir gəlir vergisinə tabedir və gəlir fiziki şəxslərin bir təqvim ili ərzində əldə etdiyi bütün gəlirlərin xalis məbləği kimi göstərilir [3, s.19].

Türkiyənin gəlir vergisində tam rezident və qeyri-rezident olmaqla iki qrup vardır və bu qrupların hər birində vergilərin tətbiqi fərqlidir. Hansı vergi ödəyicilərin rezident, hansıların qeyri-rezident olduğuna baxaq:

**Rezident**–rezident şəxslər bir təqvim ili ərzində Türkiyə daxilində və xaricində əldə etdikləri gəlirlərin cəminə görə vergiyə cəlb edilən şəxslərdir. Bu şəxslərin xaricdə əldə etdikləri gəlirlərdən vergi ödəməsinə baxmayaraq Türkiyə daxilində də vergiyə cəlb edilirlər, lakin ikiqat vergiqoymaya yol verməmək üçün xarici ölkələrdə ödənilən verginin məbləği Türkiyədə ödənilən verginin məbləğindən çıxılır.

Rezidentlərdə iqamətgah, məskunlaşma müddəti, vətəndaşlıq və qeyri-vətəndaşlıq anlayışlarından istifadə edilir. İqamətgah, hər hansı bir şəxsin məskunlaşmaq məqsədilə yaşadığı yerdir. Məskunlaşma müddəti, bir təqvim ili ərzində Türkiyədə minumum 180 gün yaşayan şəxslər Türkiyədə məskunlaşmış hesab olunur və onlar rezident şəxslər kimi qəbul edilir. Bəzi qeyri-vətəndaşlar (Türkiyədə dövlət xidmətində olanlar, xarici jurnalistlər, məhkum olunanlar) Türkiyədə 180 gündən çox müddətdə olmalarına baxmayaraq rezident hesab olunmur.

**Qeyri-rezident**–qeyri-rezident şəxslər daimi yaşayış yerləri Türkiyədə olmayan və Türkiyədə 180 gündən az müddətdə olan şəxslərdir. Bu şəxslər yalnız Türkiyədə əldə etdikləri gəlirlərə görə vergi ödəyirlər.

**Rezident və qeyri-rezident şəxslər** **Cədvəl 1**

[4, s.28].

| Rezident şəxslər | Qeyri-rezident şəxslər |
|---|---|
| -Daimi yaşayış yeri Türkiyədə olanlar;<br>-Bir təqvim ili içində 180 gündən çox müddətdə Türkiyədə olanlar;<br>-Xarici ölkədə dövlət xidmətində olanlar və xarici ölkələrdə olan türk vətəndaşları. | -Daimi yaşayış yeri Türkiyədə olmayanlar;<br>-Bir təqvim ili içərisində 180 gün və daha az müddətdə Türkiyədə olanlar. |
| Həm Türkiyə və həm də xarici ölkələrdə əldə etdikləri gəlirlər vergiyə cəlb edilir. | Sadəcə Türkiyədə əldə etdikləri gəlirlər vergiyə cəlb edilir. |

Gəlir Vergisi Qanununun 2-ci maddəsinə əsasən gəlirin ünsürləri aşağıdakılardır:ticarət

gəlirləri; kənd təsərrüfatı gəlirləri; əmək haqqı; sərbəst peşə gəlirləri; daşınmaz əmlakdan əldə edilən gəlirlər; qeyri-sahibkarlıq gəlirləri; digər gəlirlər [6.Gelir Vergisi Kanunu,Ankara,1960, s.20].

**Ticarət gəlirləri** – hər cür ticarət fəaliyyətindən əldə edilən gəlirlərdir. Gəlir Vergisi Qanununun 37-ci maddəsində bu gəlirlərə aid edilən gəlirlər qeyd edilmişdir. Bunlar aşağıdakılardır: Təbii ehtiyyatların istifadəsindən gəlirlər; Qiymətli kağızlardan əldə edilən gəlirlər; Özəl məktəb və xəstəxanaların idarə edilməsindən gəlirlər; Daşınmaz əmlakın alqı-satqısı, tikintisi ilə bağlı fəaliyyətdən əldə edilən gəlirlər; Mal və əmtəələrin alqı-satqısından, xidmətlərin göstərilməsindən olan gəlirlər; Diş protezçiliyi fəaliyyətindən olan gəlirlər; Satın alınmış və ya özəlləşdirilmiş torpaq ərazilərinin 5 il müddətinə hissələrə ayrılaraq bu müddət ərzində və ya sonrakı illərdə müəyyən bir hissəsinin və ya hamısının satılmasından əldə edilən gəlirlər; əkinçilik fəaliyyətinə daxil edilməyən kombayın və traktorlardan istifadə nəticəsində əldə edilən gəlirlər.

Ticarət gəlirləri real üsulla müəyyən edildikdə rezidentin əldə etdiyi gəlirin xalis miqdarı rezident tərəfindən qanuna uyğun olaraq gəlir və xərclərin uçotunun aparılması ilə tapılır. Bu üsulda sahibkarlar birinci və ikinci sinif sahibkarlara bölünür. Birinci sinifə daxil olan sahibkarlar Vergi Üsul Qanununun 177-ci maddəsinə uyğun olaraq aşağıdakılar hesab edilir:[5,s.35]

- Satın aldıqları malları olduğu kimi və ya emal etdikdən sonra satan və illik xərcləri 107 min liranı və gəlirləri 150 min liranı keçənlər (zərgər, manufakturaçı, mebelçi);
- Mal alqı-satqısından başqa işlərlə məşğul olanların illik gəliri 60 min liranı keçərsə (otel, çimərlik, bərbər, dərzi, nəqliyyatçı və s.);
- Mal alqı-satqısı ilə bərabər digər işlərlə məşğul olduqda, illik gəlirləri 107 min liranı keçənlər (dərziliklə birlikdə parça ticarəti ilə məşğul olanlar);

İkinci qrup sahibkarlara daxil olanlar Vergi Üsul Qanununun 178-ci maddəsində göstərilmişdir: [5,s.351]. Bura birinci sinif sahibkarlıq göstəricilərinə daxil edilməyənlər və yeni işə başlayanlar aid edilir.

Birinci qrup sahibkarlar ticarətdən gəlirlərini balans əsasında müəyyən edirlər. Balans – qiymətlərin təsnifatı verilmiş cədvəldir. Balans əsasında ticarətdən qazanc hüquqi qaydada təsdiq edilmiş dəftərlərin tərtib edilməsi ilə müəyyən edilir.

İkinci qrup sahibkarlar ticarətdən gəlirlərini dövriyyə hesabına görə müəyyən edirlər. Dövriyyə hesabı gəlir və xərclərin ayrı-ayrı və tarixi ardıcıllıqla qeyd edilməsini göstərən mühasibat sənədidir. Bu hesaba görə ticarətdən qazanc müəyyən bir müddət ərzində əldə edilən gəlirlə xərc arasındakı fərqdir. Ticarət gəlirlərindən çıxılmasına icazə verilməyən xərclər Gəlir Vergisi Qanununun 41-ci maddəsində göstərilmişdir: [3, s.204]

- Sahibkar və onun arvadının (ərinin), uşaqlarının müəssisənin hesabından götürdükləri pul vəsaiti;
- Sahibkara, arvadına (ərinə) və uşaqlarına müəssisənin hesabından ödənilən əmək haqqı;

- Qanun pozuntularına görə ödənilmiş cərimələr;
- Spirtli içkilər və tütün məmulatlarının reklam xərclərinin 50%-i;
- İcarə yolu ilə əldə edilən, hesablarda əks etdirilən və əsas fəaliyyətdə istifadə edilməyən dəniz və hava nəqliyyatı vasitələrinin xərcləri və amortizasiya ayırmaları;
- Radio və televiziya yayınlarından yaranacaq maddi və mənəvi zərərə görə ödənəcək təzminat;
- Avtonəqliyyat vasitələrindən vergi;
- Əlavə dəyər vergisi.

Bəzi ixtisasa malik şəxslərin sosial-mədəni vəziyyətləri Real üsula görə vergiyə cəlb edilmənin bütün şərtlərini ödəmir. Bunlar kiçik mağaza sahibləri, qəssab, təmirçi, dərzi və sairə şəxslərdir. Bu şəxslər öz hesablarını Sadə üsulla aparırlar. Sadə üsulda Real üsulda olduğu kimi xüsusi dəftər tutulmur, gəlir və xərclər sənədlərə əsasən müəyyən edilir. Sadə üsulla gəlir müəyyən edildikdə hesabat dövrünün sonundakı əmtəə miqdarının dəyəri gəlirə, hesabat dövrünün əvvəlindəki əmtəə miqdarının dəyəri xərcə əlavə edilir.

Gəlir vergisindən azad olan şəxslərə aiddir: səyyar pərakəndə satışla məşğul olan şəxslər; kəndlərdə işləyən kiçik sənətkarlar; səyyar kiçik sənətkarlar; əl sənəti ilə məşğul olan sənətkarlar; kiçik əkinçilər; immiqrantlar və mühacirlər; diplomatik nümayəndəliklər. Lakin bu fəaliyyətlərin bəzilərindən əldə edlən gəlirlər ödəmə mənbəyində vergidən azad deyil. Ödəmə mənbəyindən vergi – mal və əmtələrin satışı, xidmətlərin göstərilməsi zamanı malsatan və xidmət göstərənə ödəniləcək məbləğdən tutularaq vergi orqanlarına ödənilən məbləğdir, yəni ödəmə mənbəyindən tutulan vergi deməkdir. Ödəmə mənbəyindən vergini ictimai idarə və müəssisələr, ictimai iqtisadi müəssisələr, kooperativlər, ticarət təşkilatları, vəqflər, dərnəklər, Türkiyə Jokey Klubu, gəlirlərini balans və işlətmə hesabına görə müəyyən edən əkinçilər həyata keçirirlər.

Şəxslərin fəaliyyətindən asılı olaraq ödəmə mənbəyindən vergi müxtəlif dərəcələrdə tutulur: Tikinti və təmir işlərini yerinə yetirən müəssisələrə ödənilən məbləğin 3%-i; Lotoreya biletlərini satanlara ödənilən məbləğin 20%-i; Qapı-qapı dolaşaraq mal satanlara ödənilən məbləğin 20%-i; Qeyri-rezidentlərdən patent hüququnun alınmasına görə ödənilən məbləğin 20%-i.

**Kənd təsərrüfatı gəlirləri** – kənd təsərrüfatı sektorunun fəaliyyəti nəticəsində əldə edilən qazancdır. Bu fəaliyyətlərə ərazilərdə, dəniz, göl və çaylarda əkmək, becərmək, çoxaltmaq, yetişdirmək və birbaşa təbiətdən istifadə etmək şərti ilə bitki, meşə, heyvan, balıq məhsullarının istehsalı, ovlanması, mühafizəsi, daşınması, satılması və bu məhsullardan sair formada istifadə ilə bağlı fəaliyyətlər aiddir.

Ticarət gəlirlərinin vergiyə cəlb edilməsinin real üsulla aparılmasından fərqli olaraq kənd təsərrüfatında fermerlər gəlirlərinin hesabatını müstəqil olaraq istər balans əsası, istərsə də dövriyyə hesabı ilə apara bilərlər. Fermerlərin gəlirlərinin hesabatını real üsulla aparmaları üçün iki şərt müəyyən edilmişdir:

**1. Dövriyyənin həcmi:** Kənd təsərrüfatında gəlirin hesabatının real üsulda aparılması

baxımından bir təqvim ili ərzində nəzərə alınacaq ölçülər cəmi 28 kənd təsərrüfatı məhsulu qurupundan formalaşan uzun bir siyahı vardır. Bu siyahıda yer alan bəzi qruplara diqqət yetirək:

❖ Torpaq üzərində həyata keçirilən kənd təsərrüfatı fəaliyyəti:

*1-ci qrup:* Dənli bitkilərin becərildiyi ərazinin sahəsi: düzən ərazi – 600 ha, dağlıq ərazi – 1200 ha;

*4-cü qrup:* Pambıq becərilən ərazilərin sahəsi – 300 ha;

*5-ci qrup:* Çəltik becərilən ərazinin sahəsi - 200 ha;

*7-ci qrup:* Kartof, soğan, sarımsaq becərilən ərazinin sahəsi – 200 ha;

*8-ci qrup:* Çay becərilən ərazinin sahəsi – 40 ha;

*16-cı qrup:* Meyvə verə biləcək hala gəlmiş zeytun bağı – 2500 ha;

*23-cü qrup:* Mal-qaranın sayı – 150 baş;

❖ Torpaq üzərində həyata keçirilməyən kənd təsərrüfatı fəaliyyəti:

*1-ci qrup:* Dənizlərdə balıq artırma hövzələrinin sahəsi – 500 m2, Süni balıq artırma hövzələrinin sahəsi – 600 m2,

*3-cü qrup:* Arıçılıqda yeşik sayı – 500 ədəd,

*4-cü qrup:* Baramaçılıqda qutu sayı – 500 ədəd.

**2. Kənd təsərrüfatı texnikasının sayı:** Bu ölçüyə görə fermer aşağıdakı kənd təsərrüfatı texnikasından ən azı birinə sahib olmalıdır:

- On ildən az istifadə edilmiş ikidən çox traktora sahib olmalı;
- Kombayn və ya bu tipli texnikaya sahib olmalı.

Kənd təsərrüfatından qazancın hesabatı dövriyyə hesabına görə aparıldıqda kənd təsərrüfatı qazancı hesabat dövrü ərzində gəlirlə xərclər arasında müsbət fərqdir. Dövriyyə hesabı əsasında hesabat dövrünün əvvəlindəki məhsulların dəyəri xərclərə, sonundakı məhsulların dəyəri gəlirə əlavə edilir. Gəlirdən çıxılmasına icazə verilməyən xərclər ticarət qazancındakı xərclərlə eynidir.

Kənd təsərrüfatı gəlirlərindən ödəmə mənbəyində vergi:

- heyvan və ovçuluq məhsullarına edilən ödəmələrin 2%-i;
- digər kənd təsərrüfatı məhsulları üçün edilən ödəmələrin 4%-i;
- kənd təsərrüfatı fəaliyyəti çərçivəsində göstərilən xidmətlərə edilən ödəmələrin 4%-i;
- fermerlərə edilən maliyyə və digər yardımların 0%-i.

***Sərbəst peşə gəlirləri*** – hər cür sərbəst peşə fəaliyyətindən əldə edilən qazancdır. Sərbəst peşə fəaliyyəti, şəxsin elmi və peşə biliklərinə və ixtisasına əsaslanan, ticarət mahiyyəti olmayan işlərin heç bir şəxsə tabe olmadan öz hesabına həyata keçirilən fəaliyyətdir. Sərbəst peşə qazancı hesab olunan fəaliyyətlər aşağıdakılardır:

- hakimlərə ödənilən haqlar;
- sərbəst peşə fəaliyyətinin kollektivlər, adi komandit və adi firmalar tərəfindən həyata keçirilməsi;
- gömrük komusyonçuları, birjalar, notariuslar;
- qonorarlardan onun sahibi və ya qanuni mirasçısının əldə etdiyi gəlirlər.

Sərbəst peşə fəaliyyətində gəlirdən çıxılmasına icazə verilən xərclər aşağıdakılardır:icarə haqqı; işçilərə görə ödənilən sosial ödəmələr; göstərilən xidmətlərə görə ödənilən pul vəsaiti; ezamiyyə xərcləri.

Sərbəst peşə gəlirlərindən ödəmə mənbəyində vergi: qonorarlardan 17% ; digərlərindən 20%

***Əmək haqqı*** – insanların iş yerlərində göstərdiyi fiziki və əqli fəaliyyətə görə aldıqları haqdır. Əmək haqqı sayılan ödəmələr Gəlir Vergisi Qanununun 61-ci maddəsində göstərilmişdir:Daimi nümayəndəliyi Turkiyədə olan Sığorta təşkilatları tərəfindən ödənilən pensiya, ailə başçısının itirilməsinə görə ödənilən pensiya; Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvlərinə edilən ödəmələr; göstərilmiş xidmətlərə görə edilən ödəmələr; idmançılara edilən ödəmələr; idarə heyəti sədri ilə üzvlərinə edilən ödəmələr; mütəxəssislərə, ekspertlərə, idman hakimlərinə və hər cür yarışma münsiflər heyəti üzvlərinə edilən ödəmələr.

Real üsul ilə vergiyə cəlb edilən əmək haqqının miqdarı əldə edilən gəlirdən aşağıdakı ödəmələr çıxdıqdan sonra yerdə qalan miqdardır: sosial mühafizə ödəmələri pensiya fonduna və sosial sığortaya ödəmələr; özəl sığorta ödəmələri; əlillik güzəştləri (cədvəl 2-də verilir); işsizlik sığortası ödəmələri; bəzi qurumlar üçün edilən ödəmələr; Həmkarlar İttifaqına ödəmələr.

**Əlillik güzəştləri** **Cədvəl 2**

| Əmək qabiliyyətinin itirilməsi | Əlillik dərəcəsi | Güzəşt |
|---|---|---|
| 80-100% | Birinci | 600 YTL |
| 60-80% | İkinci | 300 YTL |
| 40-60% | Üçüncü | 150 YTL |

Əmək haqqından ödənilən vergidən azad olanlar Gəlir Vergisi Qanununun 23-29-cu maddələrində göstərilmişdir. Bunlardan bəzilərini qeyd edək:

- diplomatik nümayəndələr; dənizçilər; idmançılar; xidmətçilər;
- ölüm, əlillik, xəstəlik və işsizlik səbəbiylə verilən ödəmələr; yaşa görə pensiya, ailə başçısının itirilməsinə görə pensiya; alimentlər; idman yarışlarında iştirak edən həvəskar idmançılara verilən mükafatlar və s.

**Daşınmaz əmlakdan əldə edilən gəlirlər** - aşağıda qeyd edilən malların sahibləri və icarəçiləri tərəfindən icarəyə verilməsi nəticəsində əldə edilən qazancdır:

- müxtəlif daşınmaz əmlaklar - ərazi, bina, mədən suları, mədənlər, daş karxanası və s.;
- dənizlərdə, göllərdə və çaylarda balıq tutmağa əlverişli olan su hövzələri; dənizlərdə, göllərdə və çaylarda daş, beton kimi əngəllərlə balıq tutmağa əlverişli hala gətirilmiş su hövzələri;
- əqli mülkiyyət hüququnun obyektləri;
- daşınmaz əmlakların müəyyən bir hissəsi;
- gəmilər və gəmiləri yükləyib boşaldan texniki vasitələr;
- avtonəqliyyat vasitələri;

Real üsulda daşınmaz əmlakdan əldə edilən qazanc, daşınmaz əmlak hesab edilən malların icarəyə verilməsindən əldə edilən gəlirdən real xərclərin çıxılmasına əsaslanır. Rezidentlər müstəqil olaraq istər real usul, istərsə də topdan xərc üsulundan istifadə edə bilərlər, bunun üçün heç bir şərt qoyulmamışdır. Topdan xərc məbləği, daşınmaz əmlakdan əldə edilən qazancın müəyyən bir hissəsi olaraq müəyyən edilmişdir və daşınmaz əmlakdan əldə edilən qazancın 25%-dir. Bu üsulda daşınmaz əmlakdan əldə edilən qazancın bilinməsi halında topdan xərc məbləğini, dolayısı ilə də xalis hasilatı asanlıqla hesablamaq olar. Bu üsuldan istifadə edənlər 2 il keçmədikcə bu üsulu dəyişdirə bilməzlər.Daşınmaz əmlakdan əldə edilən qazancdan ödəmə mənbəyində vergi 20% təşkil edir.

**Qeyri-sahibkarlıq gəlirləri** – Gəlir Vergisi Qanununun- 75-ci maddəsinə əsasən, sahibinin ticarət, kənd təsərrüfatı və peşə fəaliyyəti olmayan pul vəsaitlərinin istifadəsi əsasında sərmayə qoyuluşundan əldə edilən dividend, faiz və başqa gəlirlərdir. Bu gəlirlərə aşağıdakılar daxildir:səhmlərdən əldə olunan dividendlər; qapalı səhmdar cəmiyyətlərdə ortaqların, adi komanditdə komanditlərin gəlirləri; idarəetmə heyətinin sədri və üzvlərinin gəlirləri; qiymətli kağızlardan əldə edilən gəlirlər; depozitlərdən əldə edilən faizlər; bəzi qiymətli kağızların pul vəsaitinə çevrilməsi nəticəsində əldə edilən gəlirlər; Pensiya Fondundan edilən bəzi ödəmələr; faizsiz olaraq kredit verənlərə edilən ödəmələr [3, s.229-230].

Pul vəsaitlərinin istifadəsindən əldə edilən gəlirdən ödəmə mənbəyində vergi:

- dividendlərə 15%;
- depozitlərdən əldə edilən faizlərə 15%;
- faizsiz olaraq kredit verənlərə edilən ödəmələrə 15%;
- pensiya fondu və sığorta təşkilatları tərəfindən edilən ödəmələrə 5-15% arası.

**Digər gəlirlər** – yuxarıda sadalanan gəlirlərə aid edilməyən gəlirlərdir və bu gəlirlər iki yerə bölünür:

***1. Dəyər artımından qazanc*** - qiymətli kağızların satılmasından əldə edilən qazanc; daşınmaz əmlakın satılmasından əldə edilən qazanc; əqli mülkiyyət hüququ obyektinin satılmasından əldə edilən qazanc; müəssisədə hissələrin satılmasından əldə edilən qazanc; fəaliyyəti dayandırılan müəssisənin satılmasından əldə edilən qazanc və s.

***2. Təsadüfü gəlirlər*** – bu gəlirlərə qısa müddət ərzində həyata keçirilən fəaliyyətlərdən əldə edilən gəlirlər aiddir. Əgər yuxarıda qeyd edilən fəaliyyətlər davamlı olaraq həyata keçirilmirsə, qısa müddət ərzində həyata keçirilərsə bu fəaliyyətlərdən əldə edilən qazanc təsadüfü gəlirlərə aid edilir.

Gəlir vergisi vergi ödəyicilərinin vergi orqanlarına təqdim etdikləri vergi bəyannamələrinə əsasən hesablanır və ödənilir. Vergi bəyannamələrinin 3 növü var:

1. İllik vergi bəyannaməsi – müxtəlif mənbələrdən bir təqvim ili ərzində əldə edilən gəlirlərin bir yerdə toplanması və bu cür hesablanan gəlirin vergi orqanlarına bəyan edilməsidir.

2. Müxtəsər vergi bəyannaməsi – işəgötürənlər və ödəmə mənbəyindən vergini həyata keçirənlər tərəfindən yığılan verginin vergi orqanına bəyan edilməsidir.

3. Xüsusi vergi bəyannaməsi – qeyri-rezidentlər tərəfindən əldə etdikləri gəlirlərin vergi orqanlarına bəyan edilməsidir.

İllik bəyannamədə gəlirlərin məbləğləri toplanır və bunlardan qanunla müəyyən edilmiş xərclər çıxıldıqdan sonra vergiyə cəlb edilən gəlir, yəni illik gəlir vergisi məbləği müəyyən edilir. Gəlirdən çıxılan xərclər zərərlər, sığorta mükafatı, yardımlar, təhsil və səhiyyə xərcləri, tədqiqat xərcləri və sairdir. İllik vergi bəyannaməsi növbəti ilin mart ayının 1-25 aralığında vergi orqanına təqdim edilməlidir. Gəlir vergisində vergiyə cəlb edilmə dövrü keçmiş təqvim ilidir, 1 yanvardan 31 dekabra qədər 12 ay hesabat dövrü olaraq qəbul edilir. Vergini isə mart və iyul aylarında 2 dəfəyə ödəyirlər.

Müxtəsər vergi bəyannaməsi işəgötürən və ödəmə mənbəyində vergini həyata keçirənlər tərəfindən vergilər yığıldığı gündən növbəti ayın 23-nə kimi vergi orqanına verilməlidir. Vergini isə bəyannamənin verildiyi ayın 27-nə qədər ödəməlidirlər.

Xüsusi vergi bəyannaməsi qeyri-rezidentin gəlir əldə etdiyi gündən sonrakı 15 gün ərzində vergi orqanına verilməlidir və bu müddət ərzində də vergini ödəməlidirlər. Bəyannamələr vergi orqanına ya rezident şəxslər və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən birbaşa, yaxud poçt vasitəsi ilə, ya da elektron yolla göndərilir.

Hesabatlarını real üsulda aparan ticarətdən qazanc sahibləri və sərbəst peşə fəaliyyəti ilə məşğul olanlar 6 aylıq dövrlər üzrə bu müddət ərzində əldə etdikləri qazancdan 14% həcmində müvəqqəti vergi ödəyirlər. Müvəqqəti verginin vergi bəyannaməsi 6 aylıq dövrdən sonrakı ayın 15-nə kimi müvafiq vergi orqanına verilməlidir və hesablanmış vergi məbləği isə 6 aylıq dövrdən sonrakı ayın 18-nə kimi müvafiq vergi orqanına verilməlidir. Nazirlər Kabineti müvəqqəti vergi dövrlərini üç aya endirmək, müvəqqəti verginin vergi bəyannaməsinin verilməsi vaxtını üç aylıq dövrdən sonrakı ikinci ayın 15-nə, hesablanmış vergi məbləğinin isə 18-nə kimi ödənilməsi müddətini müəyyən etmək hüququna malikdir.

Gəlir Vergisi Qanununa görə gəlirdən çıxılmasına icazə verilən xərclər bunlardır: gəlirin əldə edilməsi üçün sərf edilən ümumi xərclər; sosial xərclər; müalicə və dərman; sığorta ödəmələri; geyim; zərər, ziyan və təzminatlar; ezamiyyə; nəqliyyat xərcləri; vergilər; amortizasiya ayırmaları.

**Fiziki şəxslərdən tutulan gəlir vergisi:** təqvim ili ərzində Türkiyənin vergi rezidentləri kimi qəbul olunmuş fiziki şəxslərin gəlirləri aşağıda təqdim olunmuş dərəcə üzrə vergiyə cəlb olunur: Fiziki şəxslərin gəlir vergisinə cəlb olunan gəlir növləri aşağıdakılardır: sahibkarlıq fəaliyyətindən gəlir; əmək haqqı; peşəkar fəaliyyətdən gəlir; fiziki şəxsin daşınmaz əmlakından gəlir; fiziki şəxsin əmlakından gəlir; sair gəlir növləri.

Türkiyədə fiziki şəxslərin gəlirlərindən tutulan vergi mütərəqqi şkala üzrə nəzərdə tutulmuşdur. 2013-cü ildə gəlir vergisinin dərəcəsi aşağıdakı kimidir:

✓ 10.700 YTL-ə qədər 15%;

✓ 26.000 YTL-ə qədər vergi 1.605 YTL təşkil edir və ondan artıq məbləğə 20% vergi tarifi tətbiq edilir;

✓ 94.000 YTL-nin 26.000 YTL-si üçün vergi 4.465 YTL təşkil edir və ondan artıq məbləğə 27% vergi tarifi tətbiq edilir;

✓ 94.000 YTL-dən böyük məbləğ üçün vergi 23.025 YTL təşkil edir və ondan artıq məbləğə 35% vergi tarifi tətbiq edilir.

Fiziki şəxslərin gəlirləri üzrə vergi bəyannaməsi cari vergi ilindən sonrakı ilin 25 mart tarixinədək təqdim edilməlidir. Sahibkarlıq və peşəkar fəaliyyətdən gəlir əldə etmiş vergi ödəyiciləri 14 may, 14 avqust, 14 noyabr və 14 fevral tarixlərinədək, gəlir vergisi üzrə avans ödənişləri haqqında rüblük hesabatı vergi orqanlarına təqdim etməlidirlər. Ödənişlər bəyannamənin təqdim olunma müddətinin bitməsindən 3 gün sonra icra edilməlidir. Türkiyənin qeyri-rezident sayılan fiziki şəxslərin gəlirlərindən tutulan vergi fiziki şəxsin - qeyri rezidentin Türkiyənin rezident statusunu alanadək və vergi ödəyicisi vəzifələrinin üzərinə qoyulanadək gəlirin ödəmə mənbəyi olan tərəfdən (vergi agenti) hesablanır, tutulur və ödənilir.

**Ədəbiyyat:**

1.Dünyamalı Vəliyev. “Türk dünyası qlobal iqtisadi inkişaf yollarında” (Məqalələr toplusu). Bakı: “Zərdabi” nəşriyyatı, 2015, 504 səh.

2.Tezel Y.S. Cumhuriyet döneminin iktisadi tarihi (1923-1950). Ankara,1982, s.591

3.Gelir Vergisi Kanunu, Ankara. 1960, s.498

4.Türk Vergi Sistemi,Nurettin Bilici, Seçkin Hukuk, 2013 s.312

5.Vergi Usul Kanunu,Ankara,1961, s.135

6.Prof. Dr. Nurettin Bilici. Türk Vergi Sistemi. Çankaya Universitesi. Şubat 2013.

7.Doğan Şenyuz, Mehmet Yuce, Adnan Gercek. Turk vergi sistemi dersleri. Uludağ Universitesi. Ekin.2008.

8.Osman Pehlivan. Vergi Hukuku, Trabzon. 2011

9.Məmmədov F.Ə., Musayev A.F., Sadiqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma. Bakı. 2010.

**Abstract**

**INCOME TAX IN THE TAXATION SYSTEM OF TURKEY**

**Ismayil NEBIYEV**

*Ph.D. student of the Institute of Oriental Studies of ANAS*

**Key words:** income tax, resident, nonresident, real method, simple method

*Purpose* – Research of the taxation system of Turkey

*Design/methodology/approach* – the situational approach, the inductive and deductive method.

*Findings* in the tax system of Turkey is used to reveal efficient metods and tools and their applied methods.

*Research limitations* – the limitation of scientific researches about the tax system of Turkey

*Practical implications* –using the experience of the taxation system of Turkey and enlightening society.

**Резюме**

**ПОДОХОДНЫЙ НАЛОГ В НАЛОГОВОЙ СИСТЕМЕ ТУРЦИИ**

**Исмаил НАБИЕВ**

*докторант АМЕА, Институт Востоковедения*

**Ключевые слова:** подоходный налог, резидент, нерезидент, реальный способ, простой способ

*Цель исследования* – проведение исследования в области налоговой системы, а также системы подоходного налога Турции

*Методология исследования* – ситуационный подход, индуктивный и дедуктивный метод

*Результаты исследования* – выявления эффективных методов и способов, используемых в налоговой системе Турции, а также изучения методов их применения.

*Недостатки исследования* – недостаточность исследований в области налоговой системы и системы подоходного налога Турции в Азербайджане

*Практическое значение исследования* - исследование опыта Турции в области подоходного налога в целях выявления возможностей их использования в Азербайджане, а также повышения информированности населения.

# AZƏRBAYCANDA İNFLYASİYA PROSESLƏRİNİ SÜRƏTLƏNDİRMƏYƏN İŞSİZLİK SƏVİYYƏSİNİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

**Murad YUSİFOV**
*Bakı Dövlət Universiteti, doktorant*

**Rəyçi:** i.e.n., Vəfa Dünyamalıyeva
**Açar sözlər:** inflyasiya proseslərinin modelləşdirilməsi, ekonometrik qiymətləndirmə, işsizlik səviyyəsi, NAIRU

Tədqiqatın işində Azərbaycanda inflyasiya proseslərini sürətləndirməyən təbii işsizlik səviyyəsinin (NAIRU) ekonometrik qiymətləndirilməsi həyata keçirilmişdir. Burada işsizlik səviyyəsinin elə bir səviyyəsi müəyyən edilmişdir ki, bu səviyyədə olan işsizlik inflyasiya proseslərini sürətləndirməyən səviyyədir. Ekonometrik modelin nəticələri Azərbaycanda inflyasiya proseslərinin sürətləndirməyən işsizlik səviyyəsi 15%-ə bərabər olduğunu göstərir. Həm işsizlik səviyyəsinin azaldılması, həm də qiymətlərin sabitliyinin təmin edilməsi cəmiyyətdə maddi rifahın təmin olunması üçün mühüm əhəmiyyət daşıyır. Alınmış nəticə makro səviyyədə istehlak qiymətləri indeksinin artma tempini yavaşıdan işsizlik səviyyəsini təyin etmiş olur. Beləliklə, tədqiqat işi göstərir ki, istər əhalinin işsizlik problemlərinə istiqamətlənən ölkəninin məşğulluq siyasəti və istərsə də qiymətlərin sabitliyinə yönələn pul siyasəti ilə bağlı sosial-iqtisadi proseslər kompleks şəkildə nəzərə alınmalıdır.

## 1.Giriş

Tədqiqat işində Azərbaycanda inflyasiya proseslərini sürətləndirməyən təbii işsizlik səviyyəsinin (NAIRU) ekonometrik qiymətləndirilməsi aparılmışdır. Burada inflyasiya proseslərinə təsir edən işsizlik səviyyəsinin elə bir səviyyəsi araşdırılmışdır ki, bu səviyyədə olan işsizlik inflyasiyanı sürətləndirməsin.

Təbii işsizlik səviyyəsinin qiymətini müəyyənləşdirməklə ondan üç əsas məqsəd üçün istifadə oluna bilər: orta müddətli dövrə işsizlik səviyyəsinin lahiyələndirilməsi üzrə istiqamət kimi, potensial ÜDM-in qiymətləndirilməsində bençmark kimi, inflyasiyanın proqnozlaşdırılmasında göstərici kimi.

Təbii işsizlik səviyyəsini müşahidə etmək olmur. Əmək bazarında tarazlığı təmin etdiyi üçün bunun qiymətləndirilməsi çətindir. İqtisadi tsikldə uğur olan zaman işsizlik səviyyəsi inflyasiya proseslərini sürətləndirməyən təbii işsizlik səviyyəsindən (NAIRU) aşağı olur,əmək bazarı daralır, əmək haqqı və qiymətin trendi artma istiqamətində olur. Məcmu tələb aşağı olduğu halda isə işsizlik səviyyəsi inflyasiya proseslərini sürətləndirməyən təbii işsizlik səviyyəsindən (NAIRU) yuxarı olur, əmək bazarında zəifləmə olur və inflyasiya aşağı düşür.

Təbii işsizlik səviyyəsi elə bir işsizlik formasıdır ki, onları aradan qaldırmaq olmur. Bu əmək bazarında uzunmüddətli tarazlıq yaradır. Tanınmış iqtisadçı Nobel mükafatı laureatı

Ceyms Tobin qeyd etmişdir ki, müasir makroiqtisadi siyasətdə ən ciddi problem sürətlənməyən inflyasiya templərinə sığınan işsizlik səviyyəsinə nail olmaqdır [1, s.111].

Bu işdə Fillips əyrisindən istifadə edilərək inflyasiya proseslərinin modelləşdirilməsi və NAIRU-nun qiymətləndirilməsi aparılmışdır. NAIRU hər şeydən əvvəl proqnozlaşdırma alətidir. Əgər işsizlik səviyyəsi NAIRU -dan aşağıdırsa, inflyasiyanın artacağı gözlənilə bilər. Əksinə əgər, işsizlik səviyyəsi NAIRU-dan yuxarıdırsa, inflyasiyanın azalacağı gözlənilə bilər. Stock və Watson qeyd edirdilər ki, Fillips əyrisi ilə əldə olunan inflyasiya proqnozu faiz dərəcələri, pul və əmtəə qiymətləri kimi makroqitisadi dəyişənlərə əsaslanan proqnozlardan daha dəqiqdir [2]. Tədqiqat işi üzrə istifadə olunmuş istehlak qiymətləri indeksi, işsizlik səviyyəsi 2009-cu ilin yanvar ayı daxil olmaqla 2014-cü ilin sonunu əhatə edən statistik məlumatlar əsasında aparılmışdır.

## 2. Nəzəri çərçivə və metodologiya

### *2.1. Metodologiya*

Təbii işsizlik səviyyəsini və NAIRU -nu əmək bazarında potensial makroiqtisadi tarazlıq kimi başa düşə bilərik. Nəticə etibarilə, NAIRU iqtisadiyyatın tsiklik inkişafının qiymətləndirilməsində və proqnozlaşdırılmasında, habelə əmək bazarının özünün təhlilində əhəmiyyəti vardır. Lakin işsizliyin təbii səviyyəsi və NAIRU mübahisəli anlayışlardır. Buna görə də onların qiymətləndirilməsi və həmçinin interpretasiyası özü-özlüyündə iki mənalıdır.Bu terminlərin tarixi A.W. Phillips 1861-1957-ci illər üzrə B.Britaniyada nominal əmək haqlarının dəyişməsi ilə işsizlik səviyyəsi arasında əlaqəni öyrənməsi ilə başlamışdır [3]. Fillipsin məqaləsi inflyasiya səviyyəsi ilə işsizlik səviyyəsi arasında əlaqənin təhlilinə dair ilk sistematik məqalə deyil.1926-cı ildə İ.Fişer A.W.Fillipsin tədqiq etdiyi əmək haqqı inflyasiyası ilə işsizlik səviyyəsi arasında əlaqəni deyil, qiymət inflyasiyası ilə işsizlik səviyyəsi arasında əlaqəni araşdıran məqaləsini çap etdirdi.Bu məqalə 1973-cü ildə yenidən nəşr olunmuşdur.Fillips tərəfindən müəyyən olunan əmək haqlarında artım səviyyəsi ilə işsizlik səviyyəsi arasında mənfi əlaqə tezliklə sonradan Fillips əyrisi adı altında standart iqtisadi nəzəriyyəyə çevrildi.

İlkin Fillips əyrisi sonralar P.A. Samuelson və R.M. Solov tərəfindən qiymət inflyasiyası Fillips əyrisinə transformasiya olunmuşdur [4]. Burada əsas şərt ondan ibarət idi ki, qiymətlər işçilərə çəkilən xərclər ilə təyin olunurdu. Lakin Fillips əyrisi müasir iqtisadi nəzəriyyədə həlledici olan – gözləntiləri nəzərə almırdı. M. Friedman və E.S. Felps bir-birindən ayrı-ayrılıqda Fillips əyrisi modelinə inflyasiya gözləməsini əlavə edərək genişləndirdilər [5,6]. Felpsin məqaləsi daha çox analitik və daha çox dəqiq idi. Lakin Friedman isə öz məqaləsində təbii işsizlik səviyyəsi anlayışını və bunun vasitəsilə iqtisadiyyatın qısamüddətə potensial məhsul buraxılışından kənarlaşması mexanizmini qeyd və müəyyən etmişdir. İlkin Fillips əyrisi modelinin əsas problemi ondan ibarət idi ki, burada iqtisadi agentlərin inflyasiya gözləntiləri nəzərə alınmırdı. Qısa müddətlilik nöqteyi nəzərdən, inflyasiya gözləntiləri faktiki inflyasiya səviyyəsindən kənarlaşa bilər.Bu da faktiki real məhsul buraxılışının potensial məhsul buraxılışından kənarlaşmasına səbəb olur. Buna görə də faktiki işsizlik səviyyəsi

özünün təbii işsizlik səviyyəsindən kənarlaşır. Lakin uzun müddətdə gözləntilər iqtisadiyyatı tarazlıq vəziyyətinə gətirir. (Bax: Şəkil.1)




**Şəkil 1. Genişləndirilmiş Fillips əyrisi modeli**

Tarazlıq uzunmüddətli dövrə Fillips əyrisi ilə təsvir olunmuşdur (UFƏ). Bu zaman işsizlik səviyyəsi təbii işsizlik səviyyəsinə bərabər olur və inflyasiya gözləntiləri özünü doğruldur. πe = π yəni faktiki inflyasiya səviyyəsinə bərabər olur. Digər tərəfdən faktiki işsizlik səviyyəsinin təbii işsizlik səviyyəsindən aşağı olan qeyri-tarazlıq vəziyyəti təsvir olunmuşdur. Bu vəziyyətdə πe < π1 faktiki inflyasiya səviyyəsi inflyasiya gözləntilərindən daha çox olduğu üçün iqtisadiyyatda inflyasiya təzyiqləri mövcuddur. İnflyasiya gözləntilərinin yeni daha yüksək inflyasiya səviyyəsinə uyğunlaşması daha sonra onun tarazlıq halına qayıdışı ilə nəticələnir.

Friedman qeyd edirdi ki, işsizliyin təbii səviyyəsi onun dəyişməz qalacağını bildirmir. Bu səviyyə insanların davranışı və iqtisadi siyasətlər zamanı dəyişir.

NAIRU ilk olaraq F. Modigliani və L. Papademos tərəfindən işsizliyin qeyri-inflyasiya səviyyəsi NIRU (noninflationary rate of unemployment) kimi adlanırdı. Modigliani və Papademos qeyd edirdilər ki, NIRU elə bir işsizlik səviyyəsidir ki, işsizlik həmin səviyyədən yuxarı olduqda inflyasiyanın aşağı düşməsi gözlənilir. NAIRU ilkin olaraq nəzəri anlayış və sonradan empirik konsepsiya olmuşdur. Friedman kimi onlar da NAIRU-nu sabit və dəyişməz parametr kimi müəyyən etməmişlər. F. Modigliani və L. Papademos bunu belə izah edirdilər ki, NAIRU -ya işçi qüvvəsinin tərkibi və müəyyən dərəcədə ticarət şəraitinin dəyişməsi təsir edir. Ayrı-ayrılıqda F. Modigliani və L. Papademos Friedmana oxşar olaraq NAIRU-a friksion işsizlik kimi yanaşırdılar. Ticarət şəraitini empirik konteksdə təklif şoku kimi də başa düşə bilərik. [7].

Empirik modelləşdirmə məqsədlər üçün NAIRU çox vaxt Qordon üçbucağı modelinə əsaslanırdı [8]. Bu model cari inflyasiya səviyyəsini inflyasiyanın gecikmə qiymətləri ilə əlaqələndirirdi. Bunun vasitəsilə modeldə inflyasiya ətaləti və inflyasiya gözləntiləri, infl-

yasiya səviyyəsinə məhsul buraxılışı qəpinin və məcmu tələbin təsirini əks etdirən faktiki işsizlik səviyyəsi və NAIRU arasında fərqi, nəhayət inflyasiya səviyyəsi üzərində iqtisadiyyatın təklif təsirini əks etdirən təklif şokları məsələlərini təqdim edirdi.

NAİRU və işsizliyin təbii səviyyəsi anlayışlarının başa düşülməsi və interpretasiyası arasında fərqi Tobin öz məqaləsində daha çox nəzəri əsasda təhlil etmişdir.Tobin qiymətlər və əmək haqları ilə tənzimlənən bazarlarda xüsusilə əmək bazarlarında NAIRU-nun Valras tarazlığını nəzərdə tutmadığını göstərirdi. O qeyd edirdi ki, bunun əvəzində iqtisadiyyatda əksər bazarlar hər hansı zamana mövcud qiymətlərdə tələb artıqlığı, yaxud təklif artıqlığı ilə xarakterizə olunurlar. Tobin NAIRU-nu elə bir işsizlik səviyyəsi kimi xarakterizə edirdi ki, bu səviyyədə tələb artıqlı bazarların inflyasiya artırıcı təsirləri məhz təklif artıqlı bazarların inflyasiya azaldıcı təsirləri ilə tarazlanır. O, göstərirdi ki, təbii işzilik səviyyəsindən fərqli olaraq bu tarazlıq qeyri-tarazlı bazarların arasında olan tarazlıqdır. Standart yanaşmaya görə istər işsizliyin təbii səviyyəsi, istərsə də NAIRU friksion və struktur işsizliyin cəmi kimi nəzərə alınır [7].

İşsizliyin təbii səviyyəsi u* uzunmüddətli dövrə Fillips əyrisi (UFƏ) ilə aydın müəyyən edildiyi halda, NAIRU anlayış olaraq u1 və u2 işsizlik səviyyələri arasında intervala düşür və QFƏ ilə qeyd olunan inflyasiya əsasən sabitdir.

Şəkil 2-də işsizliyin təbii səviyyəsi ilə NAIRU arasında potensial fərqlərin qısa müddətlli dövrdə Fillips əyrisinin formasından (hiperbolik və xətti) asılı olduğu göstərilir.




**Şəkil 2. Genişləndirilmiş Fillips əyrisi modeli**

İşsizliyin təbii səviyyəsi və NAIRU anlayışlarının hər ikisi tarazlıq halını ifadə edir. Lakin, NAIRU makroiqtisadi tarazlıq konsepsiyasına aid olduğu halda işsizliyin təbii səviyyəsi daha dərin mikroiqtisadi əsaslara söykənir.

Şəkil 2-dən göründüyü kimi qısa müddətli dövrdə Fillips əyrisinin qeyri-xətti (hiperbolik) halında NAIRU işsizlik səviyyəsi intervalı ilə daha yaxşı təyin edilir. Bu vəziyyət heç bir inflyasiya və dezinflyasiya təzyiqlərinin bazarlarda olmadığını göstərir. İşsizliyin təbii

səviyyəsi və NAIRU-nun nəzəri təyin olunması onlardan empirik qiymətləndirmədə istifadə olunma metodlarına təsir edir. İşsizliyin təbii səviyyəsinin empirik qiymətlərini NAIRU ilə müqayisədə əldə etmək daha çətindir [7].

***2.2. Metodologiya***

İnflyasiya proseslərini sürətləndirməyən təbii işsizlik səviyyəsinin qiymətləndirilməsi üçün **modelləşdirilmə** metodundan istifadə prosesinin öyrənilməsinin iqtisadi nəzəri metologiyasıdır. Tədqiqat işində **ekonometrik** metologiyadan istifadə olunur. Ekonometrik modelləşmənin tətbiqi üçün istifadə olunan ekonometrik metodologiya aşağıdakı üç mərhələdən ibarətdir:

**I. Ekonometrik modelin stoxastik tənlik şəklində göstərilməsi və bu modelə daxil olan parametrlərin işarəsinə dair ilkin nəzəri gözləntilərin müəyyən olunması**

$$\Pi=\beta_1 (u^*-u)+\beta_2 \Pi_{(-1)}+\varepsilon \qquad (1)$$

Burada,

$\Pi$- istehlak qiymətləri indeksi,

$\beta_1$və $\beta_2$-modelin parametrləridir,

$u^*$- təbii işsizliyin səviyyəsi,

u- “işsizliyin faktiki səviyyələri”,

$\Pi_{(-1)}$- “inflyasiya gözləntisi” .

$\Pi_{(-1)}$-rasional gözlənti deyil. Bu gözlənti adaptiv gözləntidir. İnflyasiya gözləməsini nəzərə almadan Fillips əyrisinin tənliyi aşağıdakı kimidir:

$$\Pi=\beta_1 (u^*-u) \qquad (2)$$

və ya

$$\Pi=-\beta_1 (u-u^*).$$

Tədqiqat işində ekonometrik modeldən ilkin nəzəri gözləntilər odur ki, işsizlik səviyyəsinin artması istehlak qiymətləri indeksinin azalmasını, qiymət gözləntilərinin artması isə istehlak qiymətləri indeksinin artmasını müəyyən edir. Başqa sözlə, $\beta_1<0$ və $\beta_2>0$.

**II. Modelə daxil olan dəyişənlər üzrə statistik göstəricilərin toplanması və ekonometriyanın müvafiq metodu vasitəsilə reqresiyanın əmsallarının qiymətləndirilməsi**

Reqressiya modelinin (2) əmsalları ən kiçik kvadratlar üsulu ilə müəyyən edilmişdir [9, s.92]. ƏKKÜ-na görə kənarlaşmaları kvadrata yüksəldib onların cəminin ən kiçik qiymətinin tapılması həqiqətdə tədqiq olunan asılılığın nöqtələr çoxluğunun yaxınlığından keçən ən yaxşı xəttin tapılmasına imkan yaradır.

**III. Reqressiya modelinin alınmış əmsallarını iqtisadi, statistik və ekonometrik meyarlara uyğun olaraq qiymətləndirilməsi**

Bu mərhələdə modelin parametrlərinə qarşı qoyulan ilkin nəzəri gözləntilərin özünü təsdiqləməsi müəyyənləşdirilir. Modelin parametrlərinin məqbul əhəmiyyətlilik səviyyəsində statistik olaraq əhəmiyyətli olması təyin olunur. İzahedici dəyişənlərdə baş verən dəyişmələrin izaholunan dəyişəndə olan dəyişmələri müəyyən etməsinin qənaətbəxş olması tədqiq edilir. Reqressiya tənliyi üzrə əsas ekonometrik fərziyyələrin ödənilib-ödənilməməsi yoxlanılır.

**3. Məlumat bazası**

Tədqiqat işində istifadə olunan istehlak qiymətləri indeksi, işsizlik səviyyəsi üzrə göstəricilər rüblük əsasda toplanmışdır. Müşahidə dövrü 2009-cu ilin əvvəlindən 2014-cü ilin sonuna qədər olan dövrü əhatə edir. İstifadə olunan statistik göstəricilər Azərbaycan Respublikasının Mərkəzi Bankının qeyd olunan dövrü əhatə edən statistik bülletenlərindən və Azərbaycan Dövlət Statistika Komitəsinin aylıq statistik bülletenlərdən toplanmışdır [10,səh-5]. Tədqiqat işində istifadə olunan reqressiya modelinin parametrləri ən kiçik kvadratlar üsulu vasitəsi ilə müəyyənləşdirilmişdir.

**4.Ekonometrik modelin qiymətləndirilməsi və modelin nəticələrinin interpretasiyası**

İnflyasiya gözləməsi nəzərə alınmadan qurulan modellərin adekvatlığını çox vaxt görmək olmur. Çünki sosial-iqtisadi həyatımızda qiymət gözləntisi olmayan iqtisadi subyekt tapmaq çətin olar. Ümumiyyətlə qiymət gözləntiləri iqtisadi kateqoriya olmaqla bərabər, həm də bir psixoloji kateqoriyadır. Bəzən qiymət gözləntiləri konkret iqtisadi vəziyyəti dəyişə bilir. Qiymət gözləntilərinin araşdırılması üçün müxtəlif iqtisadi subyektlər və fərdlər arasında sorğular keçirilməli və bu sorğuların nəticəsində qiymət gözləntilərinin konkret inflyasiya göstərcisini nə dərəcədə izləməsi müəyyən edilməlidir. Qiymət gözləntiləri həm də maliyyə savadlılığının təmin olunmasını zərururiləşdirir. Bu və digər məsələlər daha geniş olduğu üçün növbəti tədqiqatlarımızda bu məsələləri tədqiq etməyimiz daha məqsədəuyğun olar. İndi isə əsas tədqiqat mövzusu olan inflyasiya tempində dəyişiklik yaratmayan işsizliyin “təbii” səviyyəsini müəyyən edək. Qeyd edək ki, Y.Həsənli və Həsənov R tərəfindən 1990-1997-ci illəri əhatə edən inflyasiyanı sürətləndirməyən işsizlik səviyyəsini (NAIRU) “İqtisadi Tədqiqatlarda Riyazi Üsulların Tətbiqi” adlı kitabda tədqiq edilmiş və təbii işsizilik səviyyəsinin həmin dövr üzrə 17% olduğunu müəyyən etmişlər [11,s.195].

Ümumiyyətlə, Fillips əyrisi inflyasiya ilə işsizlik arasında əlaqəni qısa müddətli dövrə görə əks etdirir. Bu əyridən uzunmüddətli dövr üçün istifadə etmək düzgün olmazdı. İqtisadiyyatda məcmu tələbi stimullaşdırmaqla işsizlik səviyyəsinin azaldılmasına istiqamətlənən sosial-iqtisadi siyasət iqtisadi subyektlərin inflyasiya gözləmələrini dəyişməyənədək səmərəli olur. Misal üçün, qiymətlərin artması ilə əlaqədar nominal əmək haqqının qaldırılması tələb olunmur. Ancaq inflyasiyanın sonrakı inkişafı gözləntiləri dəyişdirir. Nəticədə əmək haqqı artımı baş verir və digər istehsal xərcləri də öz növbəsində artır. Nəticə etibarilə istehsalın genişləndirilməsinə olan stimul azalır və işsizlik əvvəlki səviyyəsinə qalxır. Bununla da milli iqtisadiyyat yeni inflyasiya gözləməsi səviyyəsinə keçir.

Ekonometrika kursundan məlum olduğu kimi (1) modelin parametrlərini ən kiçik kvadrat-

lar üsulu (ƏKKÜ) ilə müəyyən etmək mümkündür [12, s. 92]. ƏKKÜ-na görə kənarlaşmaları kvadrata yüksəldib onların cəminin ən kiçik qiymətinin tapılması həqiqətdə tədqiq olunan asılılığın nöqtələr çoxluğunun yaxınlığından keçən ən yaxşı xəttin tapılmasına imkan yaradır. Bu üsulla hesablamaların aparılması kifayət qədər vaxt tələb etdiyindən parametrlər "Eviews-7" proqram paketi vasitəsi ilə realizasiya edilmişdir. Cədvəl 1-də parametrlər, onların etibarlılıq testləri və ekonometrik modelin təhlili üçün əhəmiyyətli olan digər meyarlar göstərilmişdir.




**Şəkil 3. İstehlak Qiymətləri İndeksinin və işsizlik səviyyəsində dəyişmənin dinamikası**

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı., "Aylıq Statistik Bülletenləri. 2009-2014 –cü illər əsasında müəllifin hesablamaları.*

**Ekonometrik modelin nəticələri** **Cədvəl 1.**

| **Dəyişən** | **Əmsal** | **Std.Səhv** | **t-Statistika** | **Eht.** |
|---|---|---|---|---|
| UN_R | -164,1304 | 51,7939 | -3,16891 | 0,0024 |
| İQİ(-1) | 0,859644 | 0,038967 | 22,06107 | 0 |
| C | 24,83144 | 6,934985 | 3,580604 | 0,0007 |
| AR(2) | 0,378301 | 0,121693 | 3,108656 | 0,0028 |
| MA(2) | 0,3524 | 0,131651 | 2,676783 | 0,0095 |
| R-kvadratı | 0,996408 | | | |
| Dəqiqləşdirilmiş R-kvadratı | 0,99618 | | | |
| Durbin-Watson stat | 2,0229 | | | |
| Akaike info criterion | 1,130504 | | | |
| Schwarz criterion | 1,293703 | | | |

*Mənbə: "Eview 7" proqram paketi vasitəsilə aparılmış hesablamaların nəticələri*

Cədvəldə t-statistikanın nəticələrinin 2,5-dən yuxarı olması t-statistikanın etibarlı olmasını göstərir.

Qauss-Markov şərtlərinin ödənilməsi ekonometrik modellərin qurulmasında vacibdir. Yalnız Qauss-Markov şərtləri ödənildikdə xətti reqressiya modelinin reqressiya əmsallarının

standart səhvlərinin hesablanma düsturu düzgün olur. Buna görə də reqressiya tənliyinin qiymətləndirilməsindən sonra bu şərtlərin ödənilib-ödənilməməsini yoxlamaq vacibdir [12,s.117]. Qauss-Markov şərtlərinə daxil olan qalıqların asılı olmamazlığının xarakterizə olunması üçün ekonometrik təhlilin əsasını təşkil edən Durbin-Vatson statistikası mühüm əhəmiyyətə malikdir. Məlum olduğu kimi, Durbin-Vatson əmsalı 2-yə yaxın qiymət alması arzu olunandır. Belə ki, bu zaman qalıqlar birinci tərtib asılı olmayandır. Bu da qalıqların təsadüfü kəmiyyət hesab olunması üçün vacib hesab olunur. Bu əmsal "Eview" proqram paketi vasitəsilə aparılmış hesablamaların nəticələrinə görə 2,02-ə bərabərdir (Bax: Cədvəl 1). Alınmış göstərici etibarlı hesab olunur. Deməli, Durbin-Vatson əmsalına əsasən qalıqların birinci tərtib avtokorrelyasiyasının mövcud olmaması haqqında fikir söyləmək olar.

Qalıqların normal paylanması ekonometrik təhlildə vacib şərtdir. Belə ki, bu şərt Qauss-Markov şərtlərinə daxildir.Ekonometriyaya dair ədəbiyyatlarda normal paylanmanın təyin edilməsi üçün bir neçə test göstərilir. Bunlara qalıqların histoqramı, normal ehtimal sahəsi və Jarque-Bera testlərini nümunə göstərmək olar [13,s.153]. Bu təhlildə normal paylanma Jarque-Bera testi vasitəsi ilə yoxlanılmışdır. Şəkil 4-də normal paylanma haqqında məlumatlar verilir. Jarque-Bera əmsalına diqqət yetirsək onun kifayət qədər etibarlı olduğu qənaətinə gəlmək olar.




| | |
|---|---|
| Series: Residuals | |
| Sample 2009M04 2014M11 | |
| Observations 68 | |
| Mean | 0.000541 |
| Median | -0.028867 |
| Maximum | 0.841355 |
| Minimum | -1.046346 |
| Std. Dev. | 0.398595 |
| Skewness | -0.094580 |
| Kurtosis | 3.030229 |
| Jarque-Bera | 0.103971 |
| Probability | 0.949343 |

**Şəkil 4. Qalıqların paylanması**

*Mənbə: "Eview 7" proqram paketi vasitəsilə aparılmış hesablamaların nəticələri.*

Şəkil 4-ə nəzər yetirsək görmək olar ki, tədqiq etdiyimiz asılılıqda qalıqların paylanması normal paylanmaya xeyli yaxındır.

Modelə daxil olunmuş dəyişənlər birinci fərq operatoru ilə modelə daxil olunmuşlar.

*Mənbə: "Eview 7" proqram paketi vasitəsilə aparılmış hesablamaların nəticələri*.

Modelin qalıqların stasionarlıq testi qalıqların stasionar olduğunu, vahid kök olmadığını göstərir.Növbəti addımda heteroskedastikliyin yoxlanılmasını həyata keçirək. Bu

ekonometrik təhlilin aparılmasında vacib şərtdir. "Broş-Paqan-Qodfrey" testi vasitəsilə heteroskedastiklik testini aparaq [13, s. 412]. Cədvəl 2-də verilmiş "Broş-Paqan-Qodfrey" testinin nəticələrinə diqqət yetirək: Ölçülmüş izah olunan kvadratların cəmi 0.28-ə bərabərdir. Bu qiyməti Xi kvadratının kritik qiymətinə görə yoxlasaq hər iki əhəmiyyətlik səviyyəsində cədvəl üzrə müəyyən olunmuş kritik qiymətlərdən kiçikdir. Əlavə olaraq, heteroskedastikliyin yoxlanılması üçün testin nəticələrinə nəzər yetirsək, ehtimalın 0.88 qiymətinin 0.05-dən böyük olduğu görünür. Bu da eyni zamanda heteroskedastiklik testinin nəticələrinin etibarlı olduğunu təsdiqləmiş olur. Çünki, cədvəl 2-də Müşahidə*Determinasiya əmsalının alınmış qiyməti 0.24-dür. Bu qiymət hər iki əhəmiyyətlik səviyyəsində istər 0.01, istərsə də 0.05 əhəmiyyətlik səviyyəsində müəyyən olunmuş kritik qiymətlərdən kiçikdir.Deməli hər iki əhəmiyyətlik səviyyələrində testin nəticələri etibarlıdır. Bu göstərir ki, heteroskedastiklik mövcud deyildir. Yəni bu test qalıqların dispersiyasının sabit ədədə xeyli yaxın olduğunu bir daha təyin etmiş olur.

**Broş-Pagan-Qodfrey heteroskedastiklik Testi:** **Cədvəl 2.**

| | | | |
|---|---|---|---|
| F-statistika | 0,115441 | Eht. F(2,66) | 0,8912 |
| Müşahidə*Determinasiya əmasalı | 0,240535 | Eht.Xi-kvadratı (2) | 0,8867 |
| Ölçülmüş izaholunan kvadratların cəmi | 0,285208 | Eht.Xi-kvadratı(2) | 0,8671 |

*Mənbə: "Eview 7" proqram paketi vasitəsilə aparılmış hesablamaların nəticələri.*

Yerinə yetirilmiş bütün testlərin nəticələrinə əsasən ekonometrik modelin adekvatlığının mövcud olduğunu söyləmək olar.

İndi isə qiymətləndirilmiş ekonometrik modelin təhlilini həyata keçirək:

Cədvəl 1-də göstərilmiş ekonometrik modelin nəticələrinə əsasən istehlak qiymətləri indeksinə faktiki işsizlik səviyyəsinin və qiymət gözləntilərinin təsirinin konkret şəkili aşağıdakı kimidir:

$$\Pi = 24{,}83 - 164{,}13u + 0{,}86\Pi_(-1) \qquad (3)$$

Yuxarıda qeyd etdiyimiz kimi ekonometrik modeldən ilkin nəzəri gözləntilər odur ki, işsizlik səviyyəsinin artması istehlak qiymətləri indeksinin azalmasını, qiymət gözləntilərinin artması isə istehlak qiymətləri indeksinin artmasını müəyyən edir. Başqa sözlə, $\beta_1<0$ və $\beta_2>0$. (3)-dən göründüyü kimi modelin ilkin nəzəri gözləntiləri özünü təsdiqləmiş oldu.

(1)-in riyazi olaraq açılışını versək:

$$\Pi=\beta_1 (u\^{*} )-\beta_1 (u)+\beta_2 \Pi_(-1)$$

$$\beta_1 (u\^{*} )=24.83$$

$\beta_1=164.13$ qiymətini almışdır.

$$u\^{*}= \frac{24.83}{164.13} =0.15$$

Ekonometrik modeldən əldə olunan və hesablanılan u^*=0.15 tədqiqat işi üzrə araşdırılan inflyasiyanı sürətləndirməyən təbii işsizlik səviyyəsidir.

**5. Nəticə**

Yuxarıda aparılmış ekonometrik təhlildən belə nəticəyə gəlinir ki, Azərbaycanda inflyasiya proseslərinin sürətləndirməyən işsizlik səviyyəsi 15%-dir. Həm işsizlik səviyyəsinin azaldılması, həm də qiymətlərin sabitliyinin təmin edilməsi cəmiyyətdə iqtisadi və sosial aspektlərdən bütün sahələrində maddi rifahın təmin olunması üçün mühüm əhəmiyyət daşıyır. Alınmış nəticə makro səviyyədə istehlak qiymətləri indeksinin artma tempini yavaşıdan işsizlik səviyyəsini təyin etmiş olur. Beləliklə, tədqiqat işi göstərir ki, istər əhalinin işsizlik problemlərinə istiqamətlənən ölkəninin məşğulluq siyasəti və istərsə də qiymətlərin sabitliyinə yönələn pul siyasəti ilə bağlı sosial-iqtisadi proseslər kompleks nəzərə alınmalıdır.

**Ədəbiyyat :**

Azərbaycanın vergi xəbərləri,sentyabr (2011), № 9,s.111

1. Laurence Ball, N. Gregory Mankiw, The NAIRU in Theory and Practice, Journal of Economic Perspectives—V.16, №4,2002, p.115–136// Nəzəriyyə və Təcrübədə NAIRU, İqtisadi Perspektivlər Jurnalı, cild.16, № 4, 2002,səh. 115-136.

2. A.W.Phillips, The Relation between Unemployment and the rate of Change of Money Wage Rates in the United Kingdom, 1861-1957. Economica. 1958, issue 100, p.283-299// B.Britaniyada işsizlik və pul əmək haqqı səviyyələrinin dəyişmə templəri,1861-1957, Iqtisadiyyat, buraxılış100, səh.283-299

3. Samuelson P.A., Solow R.M., Analytical Aspects of Anti-Inflation Policy. American Economic Review. 1960, Issue 2, p.177-194. //Anti-inflyasiya siyasətinin analitik aspektləri, Amerika iqtisadi baxışı,1960, buraxılış 2,səh.177-194.

4. Friedman M. (1968):The Role of Monetary Policy. American Economic Review. 1968, Issue 1, P. 1-17. // Pul siyasətinin rolu, Amerika iqtisadi baxışı, 1968, buraxılış 1, səh.1-17.

5. Phelps E.S. (1967): Phillips Curves, Expectations of Inflation and Optimal Unemployment over Time. Economica. 1967, Issue 135, p. 254-281.// Zaman üzrə Fillips əyrisi,inflyasiya gözləntisi, işsizilik, İqtisadiyyat, 1967, buraxılış 135, səh. 254-281.

6. Vít Pošta, The Nairu And The Natural Rate Of Unemployment –A Theoretical View, The Ministry Of Finance Of The Czech Republic, Research Study, 1/2008 // NAİRU və İşsizliyin təbii səviyyəsi- Nəzəri baxış, Çexiya Respublikasının Maliyyə Nazirliyi, Tədqiqat sənədi, 1/2008.

7. Gordon R.J. (1997): The Time-Varying NAIRU and its Implications for Economic Policy. Journal Of Economic Perspectives. 1997, Issue 1, P. 11-32.//Zaman üzrə dəyişən NAİRU və iqtisadi siyasət üçün onun əhəmiyyəti, İqtisadi Perspektivlər Jurnalı, № 1, 1997, səh. 11-32.

8. Dominick Salvatore, Derrick Reagle. (2002). Theory and Problems of Statistics and

econometrics, second edition. USA, Schaum's Outline Serie.// Statistikanın və ekonometriyanın nəzəriyyə və problemləri, ikinci nəşr. ABŞ, "McGraw-Hill companies" 2002, 328s.

9. Azərbaycan Respublikasının Mərkəzi Bankı., "Aylıq Statistik Bülletenləri". 2009- 2014, http://cbar.az/pages/publications-researches/statistic-bulletin/,

10. Həsənli Y.H., Həsənov R. (2002). İqtisadi Tədqiqatlarda Riyazi Üsulların Tətbiqi Bakı. 2002, 301s.

11. Yadulla Həsənli Ekonometrikaya giriş, dərslik, Bakı. 207s.

12. Damodar N. Gujarati. (2004). Basic Econometrics, 4th edition // Damodar N. Qujarati. (2004), Ekonometrikanın əsasları, 4-cü nəşr, "McGraw-Hill companies" 2004, 1003s.

## Abstract

## ECONOMETRIC ESTIMATION OF THE UNEMPLOYMENT RATE NOT ACCELERATING THE INFLATION PROCESSES IN AZERBAIJAN

**Murad YUSIFOV**

*Baku State University, Ph.D student*

**Key words:** modelling the inflation processes, econometrics, unemployment, NAIRU

In this study not accelerating inflation rate of unemployment(NAIRU) for Azerbaijan was estimated by econometric method. It was defined as the unemployment rate not accelerating the inflationary processes in Azerbaijan. The results of econometric model show that the unemploymet rate not accelerating the inflation processes is equal to 15%. Both decreasing the unemployment rate and providing the price stability are of great importance in ensuring the welfare of society. Obtained result defines the unemployment rate to slacken the growth rate of CPI. Hence, this study points that, both the labour policy including the solution of unemployment problems and monetary policy which includes the price stability should be taken into account jointly.

Jel Classification Codes: C01, C12, C22, C51, E31, E43, E52.

## Резюме

## ЭКОНОМЕТРИЧЕСКОЕ ОЦЕНИВАНИЕ УРОВНЯ БЕЗРАБОТИЦЫ, НЕ УСКОРЯЮЩИЙ ИНФЛЯЦИОННЫЕ ПРОЦЕССЫ В АЗЕРБАЙДЖАНЕ

**Мурад ЮСИФОВ**

*Докторант Бакинского Государственного Университета*

**Ключевые слова:** моделирование инфляционных процессов, эконометрика, безработица, НАИРУ

В этом исследовании не ускоряющий темпов инфляции по безработице (NAIRU) для Азербайджана были оценены эконометрические методы. Был определен уровень

безработицы, который не ускоряет инфляционные процессы в Азербайджане. Результат эконометрического моделя показывает, что уровень безработицы не ускоряющий инфляционные процессы равен 15%. Снижение уровня безработицы и обеспечение стабильности цен имеют большое значение в обеспечении благосостояния общества. Полученный результат определяет уровень безработицы необходимое для замедления темпа роста индекса потребительских цен. Таким образом, это исследование показывает, что политика в сфере труда, включая решение проблем безработицы и денежно-кредитной политики, которая включает в себе стабильность цен, должна быть принята во внимание совместно.

# İNSTİTUSİONAL TƏNZİMLƏMƏNİN TƏŞƏKKÜLÜNDƏ ASİYA VƏ ANTİK İSTEHSAL ÜSULLARININ ROLU

**Rauf MƏCİDBƏYLİ**
*Azərbaycan Universiteti, dissertant*

**Rəyçi:** i.e.n., Səkinə Hacıyeva
**Açar sözlər:** institusional, institutlaşma, tənzimləmə, istehsal üsulu

**Mövzunun aktuallığı:** İctimai münasibətlər sahəsində tənzimləmənin meydana gəldiyi və inkişaf etdiyi dövri tarixi proseslərdə baş verən hadisələr və eyni zamanda bu proseslərə təsir etmiş tarixi şəxsiyyətlərin fikir, mühakimə və fərziyyələri institusional tənzimləmənin meydana gəlməsində əhəmiyyətli rol oynamışdır. Bu baxımdan da institusional tənzimləmənin dövlət və cəmiyyət həyatındakı rolunun dəyərləndirilməsi və effektiv funksionallığının inkişaf etdirilməsi üçün bu münasibətlərin necə meydana gəlməsinin öyrənilməsi məqsədə müvafiq hesab edilməlidir.

İnstitusional tənzimləmənin meydana gəldiyi tarixi mərhələnin və bu tarixi mərhələdə institusional tənzimləmənin formalaşmasını şərtləndirən proseslərin öyrənilməsi, müasir həyatda bu sahəyə diqqətin artırılması üçün bizə yeni imkanlar yaradır. Bu imkanların əldə edilməsi üçün isə institusional tənzimləmənin meydana gəldiyi tarixi şəraitin və cərəyan etmiş tarixi proseslərin təhlil və sintez edilməsi, o cümlədən yeni qənaətlərin əldə edilməsi məqsədə müvafiqdir. İnstitusional tənzimləmə fəaliyyətinin meydana gəlməsini zəruri edən tarixi proseslərlə yaxından tanışlıq, bu proseslərin nəticələrinin tarixi məntiqə uyğun qiymətləndirilməsi müasir institusional tənzimləmə fəaliyyətinin inkişafı ilə bağlı yeni mühakimələrin nəzərdən keçrilməsi üçün əlverişli imkanlar yarada bilər.

**Qədim dövr.** Qədim insanların yaşadığı ibtidai icma quruluşu dövründən başlayaraq bioloji həyat ehtiyaclarının ödənilməsi məqsədilə təbiətlə düzgün münasibətlərinin qurulmasına yönəlmiş ilkin cəhdləri, o dövr üçün insan bacarıqlarının formalaşdırılmasını və inkişaf etdirilməsini zəruri edən ilkin tarixi mərhələ olmuşdur. Kollektivlərdə birləşmiş ibtidai insan icmalarının bioloji ehtiyaclarının ödənilməsi məqsədilə ilkin olaraq ovçuluq və əmək alətlərini istehsal etmək, həmçinin təbiətin bitki və heyvanat aləmlərindən istifadə etmək sahəsində bacarıqları meydana gəlmişdir [1, s, 8].

Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir [2, s, 19]. Azərbaycanın ibtidai icma quruluşu tarixi mərhələsinin mezolit dövrü insanların mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçid tarixi dövrü kimi nəzərdə tutulur. Bu tarixi mərhələdə insanların əmək fəaliyyətində, dünyagörüşündə, ətraf aləmə münasibətində mühüm dəyişikliklər baş verir, qədim insanların ən mühüm ixtiralarından biri olan ox və yay meydana gəlir. Şübhəsiz, ox və yayın kəşfi insanların min illər boyu əldə etdikləri bir çox vərdişlər sayəsində, müxtəlif texniki üsullara bələd olmaları nəticəsində mümkün olmuşdur [2, s, 24].

Azərbaycanın ibtidai icma quruluşu tarixi mərhələsinin mezolit dövründə mühüm prosesin, yəni təbiətin hazır məhsullarını mənimsəməkdən onların bilavasitə istehsalına keçidin

əsası qoyulmuş, sonrakı neolit dövründə əkinçilik və maldarlıq əsaslı təşəkkül tapmış və inkişaf etmişdir. Bu dövrdə insanlar istehsalı mənimsəyir, təbiətdə hazır şəkildə mövcud olmayan yeni materialların istehsalına başlayır [2, s, 25, 26].

Tarixi inkişaf prosesi nəticəsində insanların əqli və fiziki cəhətdən kamilləşməsi ilə bu bacarıqların əhatə dairəsi müxtəlif sahələr üzrə genişlənməklə əhalinin yeni məşğuliyyət növləri meydana gəlmiş və tədricən təkmilləşmişdir.

Tarixi inkişaf prosesləri nəticəsində insanların əqli və fiziki kamilləşməsi ilə ətrafda və təbiətdə baş verən hadisələrə dair münasibətləri tədricən inkişaf etmiş və dövri proseslərin daha təkmil idarə edilməsi ilə bağlı müxtəlif fikir və mühakimələrin irəli sürülməsi nəticəsində bu münasibətləri tənzimləyən ilkin şifahi tələb və qaydalar meydana gəlmişdir. Bu tarixi mərhələdə insanlar ibtidai sürü icmasından, mənimsəmə və daha sonra istehsal təsərrüfatına keçmiş, əhalinin məşğuliyyəti genişlənmiş, sosial-ictimai həyat tərzi və dünyagörüşü inkişaf etmişdir. Nəticə etibarı ilə, artıq ibtidai icma quruluşu dövründə cərəyan edən inkişaf prosesləri, o cümlədən insanların qarşılıqlı və təbiətlə olan münasibətlərinin nizamlı həyata keçirilməsini təmin edən şifahi tələb və qaydalar ilkin institutlaşmanı zəruri edirdi. Burada institutlaşmanın formalaşmasını təmin edən əsas elementlər insanların daxili və ətrafla olan münasibətlərinin nizamlanmasına yönələn şifahi tələb və qaydalarda ifadə olunurdu.

İnsanlar arasında iqtisadi-təsərrüfat münasibətlərinin idarə olunmasının elmi əsaslarının öyrənilməsinə cəhdlər, mahiyyət baxımdan qədim dövrün insan cəmiyyəti qarşısında inkişafın əsas xəttini təşkil edirdi. Belə bir tarixi inkişaf prosesi, elmi dünyagörüşlərin fomalaşması, ən qabaqcıl şəkildə özünü Qədim Şərqdə, Qədim Asiyada, Antik dövrün ən parlaq nümunələri olan Yunanıstanda və Qədim Romada əks etdirmişdir [3, s, 25].

Qədim dövrün iqtisadi-təsərrüfat münasibətləri, özünün idarə üsuluna görə əsasən iki formada nəzərdən keçirilir. Bunlar, Asiya və Antik istehsal üsullarıdır. Qeyd olunan iqtisadi-təsərrüfat münasibətlərinin idarə üsullarını fərqləndirən əsas cəhətlər coğrafi-iqlim şəraiti, tarixi inkişaf proseslərinin fərqli təmayülləri, o cümlədən mövcud münasibətləri tənzimləyən fərqli idarəetmə baxışları olmuşdur (şəkil 1).




**Şəkil 1.**

**Asiya istehsal üsulu.** “Asiya istehsal üsulu”termini K.Marksın F.Engels ilə 1853-cü il yazışmalarında, o cümlədən K.Marksın bir sıra məqalələrində meydana gəlmişdir. Onlardan “Britaniyanın Hindistanda hökmranlığı” adlı məqaləni qeyd etmək olar [4].

K.Marks tərəfindən şərti adlandırılan “Asiya” istehsal üsulu, coğrafi baxımdan Misirdən Çinədək olan ərazini əhatə edirdi. Eyni zamanda bu istehsal üsullarının fərqləndirilməsi siyasi və coğrafi cəhətdən qədim dünyada Şərqlə Qərbin iqtisadi-təsərrüfat münasibətlərinin fərqli idarə üsullarının təhlilinin aparılması kimi də xarakterizə olunur.

Asiya istehsal üsulunun tətbiqi nəticəsində istehsal münasibətləri, torpaq üzərində şəxsi mülkiyyətin olmaması (o cümlədən münasibətlər sistemində şəxsi mülkiyyətin olmaması), ticarət münasibətlərinin az əhəmiyyət kəsb etməsi, mərkəzi hakimiyyətin istehsal prosesləri və vasitələri üzərində nəzarəti həyata keçirməsi, insan əməyinin klassik köləlikdən və təhkimçilkdən az fərqli olan xüsusi istismarı, o cümlədən, böyük həcmli kəndli işçi qruplardan ibarət qüvvələrin əvəzi ödənilməyən əməyə cəlb edilməsi, işçi qüvvələrin əmək potensialından israfçılıqla istifadə edilməklə onların nəhəng tikintilərə (misal olaraq, Böyük Çin səddinin inşası) və digər məcburi əməyə cəlb edilmələri, tikintilərin aparılması ilə bağlı mərkəzləşmiş rəhbərliyin həyata keçirilməsi və s. kimi cəhətlər əsas diqqəti cəlb etmişdir [4].

Xüsusi mülkiyyətin mövcudluğu Asiya istehsal üsulu üçün xarakterik olmasa da, bu istehsal üsulunun təkamül prosesinin müəyyən tarixi mərhələlərində xüsusi mülkiyyətin əldə edilməsi və ya buna cəhdlər bu və ya digər şəkillərdə özünü göstərirdi.

K.Marks Asiya istehsal üsulunu ibtidai icma quruluşunun parçalanması və quldarlıq ictimai-iqtisadi formasiyasına keçid mərhələsi kimi qiymətləndirmişdir. Asiya istehsal üsulu dünyanın bəzi regionlarında (Hindistanda və bir sıra Şərqi Avropa cəmiyyətlərində) inkişaf edərək hətta XIX əsrədək mövcud olmuşdur [5].

K.Marks və F.Engels Asiya istehsal üsulunun tədqiqi nəticəsində bu idarə üsulunun formalaşmasını iki amillə əlaqələndirir. Bunlardan birincisi, bu regionun coğrafi mövqeyi və təbiət şəraiti ilə bağlıdır. Bu da özünü regiondakı quraqlıqda göstərirdi. Bunun da vahid şəkildə qarşılanması ilə bağlı irriqasiya (süni suvarma) sistemlərinin mərkəzləşmiş qaydada avtoritar rejimə əsaslanan idarəçiliyi zəruri hesab edilmişdir. İkinci amil kimi isə, əkinçi icmaların kifayət edən istehsal fəaliyyəti nəticəsində sosial quruluşun dəyişməz qalması olmuşdur [6]. Sosial quruluşun və iqtisadi-təsərrüfat münasibətlərinin mövcud idarə üsulunun sabit qalmasını şərtləndirən amillər sırasında həmçinin, mülkiyyətin ümumi olmasını, kollektiv əməyin tətbiq edilməsini, mərkəzləşmiş irriqasiya sistemlərinin və möhkəm daxili əlaqələrin olmasını göstərmək olar.

Asiya istehsal üsulu əkinçi icmaların vahid mərkəzdə birləşdiyi özünəməxsus sistemə malik olmuşdur [5]. Əkinçilik fəaliyyətinin mərkəzləşmiş qaydada həyata keçirilməsi, o cümlədən əhalinin əmək potensialından israfçılıqla istifadə edilməklə onların iri miqyaslı tikinti və digər işlərə cəlb edilməsi köləliyin quldarlıq cəmiyyətinə məxsus olan klassik formasından fərqlənsə də, əslində burada köləliyin yumşaq forması müəyyən elementlərdə özünü ifadə etmişdir.

Asiya istehsal üsulunun tətbiqi həmin dövr üçün iqtisadi-təsərrüfat münasibətlərinin özünə məxsus idarəçiliyinin formalaşması ilə nəticələnmişdir. Burada əsas amil özünü, kəndli icmaların bazasında formalaşmış vahid hakimiyyətin və onun icmalarının, o cümlədən mərkəzi hakimiyyətin maraq və mənafelərinin ödənilməsinə xidmət edən idarəçiliyin həyata keçirilməsində ifadə etmişdir. Bu idarəçiliyin uzun müddətli təkamül proseslərindən keçməsi nəticəsində sabit idarəetmə münasibətləri formalaşmış və bu münasibətləri tənzimləyən norma, qayda və tələblər həmin dövr üçün ilk institutlaşma elementlərinin meydana gəlməsi ilə nəticələnmişdir. Asiya istehsal üsulunun tətbiqi nəticəsində mövcud münasibətlərin institutlaşmasını şərtləndirən aşağıda qeyd olunan tələblər nəzərə alınmış, o cümlədən məqsədlərə nail olunmuşdur:

- kəndli icmaların vahid mərkəzi hakimiyyət ətrafında birləşməsinin təmin edilməsi;
- coğrafi-iqlim şəraiti nəticəsində yaranmış quraqlığa qarşı mərkəzləşmiş qaydada irriqasiya sistemlərinin təşkili və idarə olunması;
- sabit və idarə olunan istehsal proseslərinin formalaşması;
- əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı kollektiv əməyin təşkili və həyata keçirilməsi;
- icmalararası və icmalarla mərkəzi hakimiyyət arasında idarə olunan əlaqələrin təmin olunması;
- nəhəng tikintilərin həyata keçirilməsi ilə bağlı işçi əməyinin təşkili və s.

Bu proseslərin həyata keçirilməsi ilə bağlı biz, həmin dövr üçün cəmiyyət qarşısında meydana gələn tələbatın ödənilməsinin idarəçilik əsaslarını təşkil edən Asiya istehsal üsulunun formalaşması və təbiqi nəticəsində münasibətlərin institutlaşmasını zəruri edən tarixi, iqtisadi, tənzimləyici məqamlara qısa diqqət yetirdik.

Asiya istehsal üsulu qeyd olunduğu kimi Misirdən Çinədək ərazini əhatə etmişdir. Bu istehsal üsuluna dair tarixdə daha sanballı nümunələr əsasən Qədim Misirdə, Qədim Şumerdə, Babilistanda, Hindistanda və Çində özünü ifadə etmişdir.

Qədim Şərqin iqtisadi fikri haqqında danışarkən, bura birinci növbədə Qədim Misirdə meydana gəlmiş, yayılmış və inkişaf etmiş iqtisadi fikri xüsusi qeyd etmək lazımdır. Bəşəriyyətin meydana gəlməsi, inkişafı, insan cəmiyyətinin ilkin beşiyi hesab olunan Misir, bu gün də öz mehramları, məbədləri, yeraltı sarayları, qəbir evləri ilə və s. möcüzələri ilə zəngin olan bir ölkə kimi dünyanın müxtəlif səpkili elmi-tədqiqatlarının daimi diqqət mərkəzindədir.Qədim Misirdə iqtisadi fikirlərin formalaşması, əsasən dövlətin mərkəzləşmiş idarəetmə sahəsində məqsədlərinin həyata keçirilməsi ilə bağlıdır [3, s, 27].

Burada ictimai işlər, hərbi və maliyyə idarəçiliyi xüsusi yer tuturdu. Belə mərkəzləşdirilmiş idarəçilik sistemi xeyli savadlı adamların olmasını tələb edirdi. Ona görə də belə adamların hazırlanması da mərkəzləşdirilmiş formada həyata keçirilirdi. Çox hallarda bu günə gəlib çatmış yazılı mənbələrdə dövlət və təsərrüfat idarəçiliyinin həyata keçirilməsi, o dövrlərdə hakim olmuş dini ehkamların yerinə yetirilməsi “Nəsihətlər” vasitəsilə şərh edilirdi [3, s, 27].

“Nəsihətlər” meydana gələn ictimai tələbatın ödənilməsi ilə bağlı həmin dövrün tənzim-

ləyici sənədləri qismində çıxış etmişdir. Nəticədə, qeyd olunan tarixi dövrdə də təbii olaraq öncə tənzimləmə tələbatı meydana gəlmiş və mərkəzi hakimiyyət tərəfindən bu tənzimləmənin həyata keçirilməsi ilə bağlı "Nəsihətlər" qismində sənədin qəbul edilməsi ilə, əslində institutlaşan normaların yaradılması prosesləri baş vermişdir. Bununla həmin dövr üçün ibtidai dövlət elementlərinə malik olan mərkəzi hakimiyyət cavabdeh olduğu ictimai münasibətlərin tənzimlənməsinə dair ilk tarixi nümunələr yaratmışdır.

İnstitutlaşan normaların yaradılması ilə tələbatın faktiki ödənilməsi mərhələsi hələ baş vermir. Bunun üçün institutlaşmış normaların tətbiqini təmin edən icra orqanları tələb olunurdu. Qədim Misirdə Firon hakimiyyətinin cəmiyyət həyatının müxtəlif sahələri üzrə siyasətinin formalaşmasında və tətbiqində kahinlər ciddi rola malik olmuşlar. Kahinlər münasibətlərin normalar vasitəsilə institutlaşmasında və bu normaların tətbiqi ilə tələbatın faktiki ödənilməsində mühüm funksiyalara malik idilər.

Kahinlər ölkənin taleyini həll edən müdrik insanlar kimi cəmiyyətin həyatında qeyri-adi rol oynayırdılar [3, s, 28].

Bizim eradan əvvəl IV minilliyin ortalarından mövcud olmağa başlamış Qədim Misirdə xüsusi statuslu ixtisaslaşmış və işgüzar bacarıqlara malik olan kahinlər təbəqəsi ritual vergi toplanması mərasimlərini təşkil edir, büdcənin və əmlak məsələlərinin idarə olunmasını əlaqələndirir və bu proseslərin həyata keçirilməsinə nəzarət edirdilər. Kahinlər həmçinin işgüzar məsələlərin rəsmiləşdirilməsini və haqq-hesab işlərini təşkil edir, eləcə də təchizat, planlaşdırma və bu gün üçün müasir idarəetmə prosesində aktual hesab olunan bir sıra digər vacib funksiyaları həyata keçirirdilər. O da qeyd olunmalıdır ki, kahin mənsəbinə sahiblik çox ciddi və mürəkkəb təhsil prosesindən keçirdi. Belə ki, gələcək kahinlər dörd yaşından xüsusi təhsilə cəlb olunaraq iyirmi yaşınadək bu peşənin bütün sirlərini öyrənməklə, nəticədə ictimai maraqların yüksək səviyyədə qoruyucusu kimi formalaşırdılar [1, s, 9].

Qeyd olunan bu funksiyaların kahinlər tərəfindən icrası ilə mərkəzi hakimiyyət tərəfindən zəruri hesab edilən tələbatın faktiki ödənilməsi prosesi başa çatmış və eyni zamanda kahinlər bu funksiyaların icrası ilə norma və qaydaların tətbiqini təmin edən institutlaşmış təşkilatın rolunu yerini yetirmişlər.

Qədim Şumerdə e. ə. III minillikdə icma-məbədlərə məxsus mülkiyyətin üstün rola malik olması, yaradılan bütün nemətlərin burada cəmlənməsinə səbəb olurdu. Bu da tədricən məbədlərin torpaq sahələrinin icma torpaqlarından ayrılması ilə sənətkarlıq mərkəzi kimi formalaşmasına və həmçinin onu irriqasiya işlərini aparan təşkilata çevirdi [3, s, 32].

Dövlət təsərrüfatında iş qüvvəsinin və istehsal vasitələrinin dəqiq uçotunun aparılması ilə yanaşı, eyni zamanda torpaqların kadastrının, becərilən torpaqların keyfiyyətinin və yer quruluşunun uçotu aparılırdı. Həmçinin mərkəzi və yerli anbarlarda saxlanılan maddi resursların da aylıq və illik uçotu aparılırdı. Qeyd etmək lazımdır ki, Qədim Şumerdə dövlət təsərrüfatının möhkəmlənməsi ilə, onun ölkənin iqtisadi həyatına olan müdaxiləsi də güclənirdi. Belə ki, istehsalçıların fəaliyyətinə biləvasitə dövlət həm nəzarət edirdi, həm də onların davranışını reqlamentləşdirirdi [3, s, 32-33].

Qeyd olunanlara uyğun olaraq Qədim Şumerdə cəmiyyət daxili münasibətlərin tənzim-

lənməsində məbədlərin üstün mövqelərə malik olması, həmin dövr üçün mövcud olmuş ictimai tələbatın nəticəsi idi. Bu tələbatın ödənilməsi ilə bağlı tənzimləmənin səciyyəvi xüsusiyyətləri müəyyən olunmuş və bunun da nəticəsində institutlaşan normalar meydana gəlmiş və tənzimləmə fəaliyyəti həyata keçirilmişdir. Biz bunu Qədim Şumerdə istehsalçıların fəaliyyətinin minimal əsas və standartlarını nəzərdə tutmuş dövlət tərəfindən reqlamentləşmədə və bu reqlamentin tətbiqi üzərində dövlət nəzarətinin həyata keçirilməsində müşahidə edirik.

İqtisadi-təsərrüfat münasibətlərinin və idarəetmə fəaliyyətinin mərkəzləşmiş qaydada tənzimlənməsinə dair parlaq nümunələrdən biri də e.ə 1793-1750-ci illərdə Qədim Babilistana hökmdarlıq etmiş Hammurapinin hakimiyyəti dövründə baş vermişdir. Hökmdar Hammurapi məharətli siyasətçi və sərkərdə kimi tarixdə qalmış və Babilistanın həmin tarixi ərəfədəki yüksəlişi onun adı ilə bağlı olmuşdur.

Səmərəli idarəçiliyin həyata keçirilməsi üçün hökmdar tərəfindən ilk dəfə 258 qanundan ibarət "Hammurapi toplusu" hazırlanmışdır. Toplu dövlətin idarə olunmasında, həmçinin çoxistiqamətli ictimai münasibətlərin tənzimlənməsində imperiyanın bütün inzibati funksiyalarını həyata keçirən xidmətçiləri üçün rəhbər sənəd rolunda çıxış edirdi [1, s, 14].

Bəzi tarixi mənbələrə görə Hammurapi toplusu Qədim Şumer qanunlarının inkişaf etdirilməsi nəticəsində baş verməklə vahid sistemə salınmış və Babilistan qanunvericiliyinin inkişafına ciddi sürətdə müsbət təsir etmişdir. Bu səbəbdən də Hammurapi toplusu Şumer qanunları ilə müqayisədə daha yüksək səviyyədə kodifiksiya (qüvvədə olan qanunların sistemə salınması) edilmiş hesab edilir. Bu Topluda yaxın olan hüquq sahələri eyni qanunlarda birləşdirilmişdir [8].

Hammurapi toplusu həmin dövr üçün Babilistanda iqtisadi-təsərrüfat münasibətlərinin və idarəetmə fəaliyyətinin təkmilləşdirilməsinə ciddi və müsbət təsir göstərməklə, mərkəzi hakimiyyət tərfindən bu sahədə meydana gələn ictimai tələbatın effektiv ödənilməsinə səbəb olmuşdur.

E.ə. I minillik ərzində Şimali Hindistanda digər Şərq ölkələrində olduğu kimi siyasi inteqrasiya prosesləri güclənirdi. İlk xırda dövlətlər arasında gedən çəkişmələrin tədricən daha kəskin şəkil alması nəticəsində baş verən birləşmələr, böyük dövlətlərin formalaşması ilə başa çatırdı. Bu tendensiyaları təsadüfi hesab etmək olmazdı. Əksinə, bu tendensiyalar həmin dövr üçün müşahidə olunan ciddi daxili iqtisadi və sosial-dini proseslərə tam cavab verirdi [9].

Qeyd etmək lazımdır ki, Qədim Hindistanda iqtisadi fikirlərin meydana gəlməsində və formalaşmasında eramızın I əsrində 15 kitab əsasında tərtib edilmiş "Atraxaşastra" traktı mühüm rol oynamışdır [3, s, 39-40].

"Atraxaşastra" traktında hökmdara dörd elmin öyrənilməsi zəruri hesab edilir. Bunlardan biri dini təlim, ikincisi fəlsəfə, üçüncüsü idarəetmə, dördüncüsü isə iqtisadiyyatdır [3, s, 40]. Traktat həmin dövr üçün cəmiyyət daxili ictimai tələbatın əsas istiqamətlərini nəzərə almaqla bu sahədə münasibətlərin tənzimlənməsinin prosedurlarını və xüsusiyyətlərini müəyyən edirdi.

Konfutsiyalılıq Çinin ilk baxışlar sisteminin formalaşmasında və ictimai əhəmiyyət kəsb edən vacib problemlərin həllinə təsir etməklə, tədricən sonradan Çin sivilizasiyasının əsas parametrlərini təşkil etmişdir [10].

Dahi mütəfəkkir və böyük fikir sahibi Konfutsiyanın [e.ə. 551-479] baxışları və irəli sürdüyü təlimləri bu gün də cəmiyyət münasibətlərində insanların davranışının mənəvi əsasları, o cümlədən dövlət idarəçiliyinin mənəvi-ideoloji əsasları kimi yüksək əhəmiyyət kəsb edir. Onun həyata baxışları və mühakimələrinin prinsip xətti elmli və öz cəmiyyətinin maraqlarına yüksək səviyyədə xidmət edən kamil insan obrazını ifadə edirdi.

Ali mənəvi prinsipləri hər cür sərvətdən, yüksək mövqe tutmaqdan üstün hesab edən Konfutsiya qeyd edirdi ki, insan yüksək mövqe tuta bilmədiyinə görə deyil, tam möhkəmlənməməsinə görə (kamil ola bilməmisinə görə) təəssüflənməlidir [3, s. 35].

Əsrlər boyu "təbii hüquq" nəzəriyyəsi Çində inkişaf etmiş, hakim sinfin mənafeyinə xidmət etsə də, lakin xalqın mənəvi zənginləşməsində olduqca böyük rol oynamışdır. Çünki mənəvi zənginlik, bu gün də Çin xalqının ən böyük bəşəri dəyərləri kimi qiymətləndirilir.

Konfutsiya insanın mənəvi təkmilləşməsini dövlət idarəçiliyinin əsası hesab edirdi. Onun fikrinə görə dövlət böyük bir ailədir, hökmdar isə "xalqın atasıdır".İdeal hökmdar obrazında da Konfutsiya təkmilləşmiş şəxsiyyəti görürdü və qeyd edirdi ki, o, dövlət xərclərində qənaətcil olmalı, insanlar üçün qayğı çəkməlidir [3, s, 35-36].

Konfutsiya öz baxışlarında daxili ictimai münasibətlərin ədalətli nizamlanması ilə bağlı hökmdarın rolunu yüksək qiymətləndirmiş, onu cəmiyyət həyatında münasibətlərin ədalətli nizama salınması baxımından üstün mövqelərə malik olmasını xüsusi qeyd etmişdir.

Qədim Çində sosial-iqtisadi sabitləşmənin əsas istiqamətini, nəsil-tayfa prinsipi əsasında formalaşan patriarxalq-ailə münasibətində görən Konfutsiya hesab edirdi ki, dövlətin sərvəti, məhz ailələrin sərvətinə əsaslanmalıdır. Konfutsiya xalqı çox işləməyə və az istehlak etməyə çağırırdı. Bununla belə hakimiyyətin möhkəmləndirilməsi üçün xalqın sosial təbəqələrindən istifadə etməyi, kollektiv əməkdən istifadə edib ictimai işləri görməyi tövsiyə edirdi [3, s, 35].

Konfutsiyanın baxışları Qədim Çin dövlətçiliyinin və sivilizasiyasının inkişafında mühüm rol oynamışdır. Həmçinin onun ideya və mühakimələri bu günədək öyrənilməkdə davam edir və bu ideya və mühakimələr təkcə Çin cəmiyyəti üçün deyil, bütün cəmiyyətlər üçün öz aktuallığını saxlayır.

Beləliklə, qədim dünya tarixində Asiya istehsal üsulunun formalaşmasında, tətbiqində və inkişafında rol oynamış dövlətlərin həyatında bu istehsal üsulunu xarakterizə edən bir sıra tarixi proseslərə diqqət yetirməklə onun siyasi, iqtisadi, hüquqi, idarəetmə və s. cəhətlərini nəzərdən keçirdik. Əldə edilən yekun qənaət ondan ibarətdir ki, Asiya istehsal üsulunu şərtləndirən əsas cəhətlər coğrafi-iqlim şəraiti və bunun da əsasında sosial, iqtisadi, siyasi və idarəetmə əlaqələrinin meydana gəlməsini zəruri edən tarixi proseslər olmuşdur. Bu tarixi mərhələnin əsas xüsusiyyətləri kimi, istehsal münasibətlərinin inkişafı, heyvandarlığın əkinçilikdən ayrılması ilə ilk böyük ictimai əmək bölgüsünün meydana gəlməsi, ictimai və kollektiv əməyin təşkili, xüsusi mülkiyyətin olmaması, icmalar arasında gedən rəqabət

mühiti əsasında mərkəzləşmiş vahid dövlət hakimiyyətinin formalaşması, inkişafı və onun avtoritar elementlərə əsaslanan tənzimləyici funksiyaları xüsusi qeyd edilməlidir.

Bütün bunlar həmin tarixi mərhələdə Asiya istehsal üsuluna söykənmiş ölkələrin cəmiyyətdaxili ictimai münasibətlərinin tənzimləmə xüsusiyyətlərinin formalaşmasına birbaşa təsir etmişdir. Bu mərhələdə biz ictimai münasibətlərin meydana gəlməsində, dəyişməsində və xitam olunmasında qədim dövrün ilk və ibtidai institusional fəaliyyətini müşahidə edirik. Bu prosesdə əsas spesefik cəhətlər özünü ictimai tələbatın ödənilməsinə yönəlmiş institusional fəaliyyətin meydana gəlməsində, onun şifahi standart və əsaslarının formalaşmasında və daha sonradan isə yazılı müstəviyə keçməsində ifadə etmişdir.

**Antik istehsal üsulu.** Bəşər tarixində quldarlıq ictimai-iqtisadi formasiyası insan əməyinin istismar edildiyi və ziddiyətli sinifləşmənin meydana gəldiyi ilk tarixi mərhələdir [11, s, 28]. Asiya istehsal üsuluna əsaslanan ictimai münasibətlərdə də insan əməyi istismar edilirdi. Lakin, bu (Asiya) istehsal üsulu dövründə insan əməyi daha çox ümumi icma və mərkəzi hakimiyyətin vahid maraqları naminə istismar edilirdi. Quldarlıq ictimai-iqtisadi formasiyasına əsaslanan Antik istehsal üsulu dövründə isə, köləlik vəziyyətində olan qul əməyinin istismarı əsasən quldarlar təbəqəsinin şəxsi təsərrüfat maraqları naminə həyata keçirilirdi. Bu tarixi mərhələ qədim dövrün ikinci istehsal üsulu olan – "Antik istehsal üsulu" dövrü kimi qeyd olunur.

Qəbilə cəmiyyətinin dağıldığı tarixi ərəfədə insanları şərti olaraq iki qrupa bölmək olardı. Bunlar azad və azad olmayan insanlar idi. Azad olamayan insanlar, əməyindən qəbilə daxili təsərrüfat işlərində istifadə edilən hərbi əsirlərdən ibarət idi. Qəbilə daxilində azad olmayan insanların-qulların əməyindən istifadə edilməsi, həmin dövrdə köhnə istehsal və idarə üsuluna sadiq qalan patriarxal köləlik dövrü kimi xarakterizə edilir. Bu proses uzun müddətdə bir çox xalqların, o cümlədən quldarlıq ictimai-iqtisadi formasiyasına keçməyən xalqların da həyatında baş vermişdir [11, s. 28-29].

Qəbilə münasibətlərindən quldarlıq dövrünə keçidi şərtləndirən əsas obyektiv tarixi səbəblər istehsal qüvvələrinin yeni inkişaf mərhələsinə çatması ilə bağlı olmuşdur. Bu da özünü həmin dövr üçün ikinci böyük ictimai əmək bölgüsü hesab edilən sənətkarlığın əkinçilikdən ayrılmasında göstərmişdir. Nəticədə maddi nemətlərin həmin dövr üçün əhəmiyyətli artımı baş vermişdir. Bu istiqamətdə ictimai münasibətlərin inkişafına təsir edən amillər sırasında əsasən xüsusi mülkiyyətin meydana gəlməsini, genişlənməsini və möhkəmlənməsini, həmçinin qəbilələrdə üstün mövqelərə malik olan şəxslərin məhsuldan əlavə gəlir əldə etmələri ilə əmlak üzərində olan qeyri-bərabər imkanların genişlənməsini qeyd etmək olar.

Xüsusi mülkiyyətin genişlənməsi, qeyri-bərabər olan diferensial əmlakın meydana gəlməsi və köləliyin möhkəmlənməsi mübadilə proseslərində ciddi rol oynamışdır. Xüsusi mülkiyyət əsasında mübadilə proseslərinin inkişaf etməsi, qeyri-ixtiyari işçi qüvvəsi olan qulların əşyaya çevrilməsinə birbaşa təsir etmişdir. F.Engels bu haqda yazırdı: "İnsanlar ancaq dəyişməyə başlayırdılar ki, onlar artıq özləri mübadilənin predmeti oldular" [11, s, 29-12, s, 175].

Antik istehsal üsulunu spesefik bir termin olaraq K.Marks ilk dəfə (1855) siyasi iqti-

sadiyyat haqqında mülahizələrində feodal istehsal üsuluna qədər olan mərhələ kimi qeyd etmişdir.

Antik istehsal üsulunu şərtləndirən əsas cəhətlər qulun və onun əməyinin əsas istehsal forma və vasitəsi kimi qəbul edilməsi olmuşdur. Burada da əsas məqsəd qul əməyinin imkanlarından maksimal istifadə etməklə fayda əldə etməkdən ibarət idi. Bu fayda da özlüyündə iki hissədən ibarət idi. Birincisi, qul əməyindən istifadə nəticəsində onun sahibi olan quldarın şəxsi istehlak tələbatının ödənilməsi, ikincisi isə, quldarın yığım imkanlarının təmin edilməsi idi.

İqtisadi-təsərrüfat münasibətlərinin əsas tənzimləyici xəttini təşkil edən qul əməyindən istehsal proseslərində əsas istehsal forma və vasitəsi kimi istifadənin meydana gəlməsi, quldarlıq ictimai-iqtisadi formasiyasının təməl prinsiplərini təşkil etmişdir. Quldarlıq ictimai-iqtisadi formasiyası tarixi dövründə quldarlar və qullar cəmiyyətin əsas təbəqələrini təşkil edirdilər. Bununla yanaşı, cəmiyyətdə digər kateqoriya təbəqələr də mövcud idi ki, bunlar da tədricən mərkəzləşmələrin meydana gəlməsi və inkişafı nəticəsində şəhərlərdə cəmləşməyə başlamış və mülkiyyət sahibləri olan şəhər əkinçilərindən, tacirlərdən, sələmçilərdən və kəndlilərdən ibarət azad insanlar idi.

“Antik quldarlıq cəmiyyəti” və “antik köləlik” anlayışları dərsliklərə quldarlıq münasibətlərinin daha inkişaf etmiş və əsl formasının etalonu kimi daxil olmuşdur. Antik dövrün köləliyi ilk dəfə Qədim Yunanıstan cəmiyyətində geniş yayılmağa başlamış və sonradan qonşu ərazilərə sirayət etmişdir.

Qədim Yunanıstan tarixi e. ə. III-II minilliklərdən başlamış və e. ə. IV əsrin ortalarından-I əsrədək olan dövrləri əhatə etmişdir [13, s, 4-5].

Quldarlıq cəmiyyətinin ictimai-iqtisadi formasiya olaraq tarixi təzahürü öz dövrünün sosial, siyasi, iqtisadi, hüquqi və s. proseslərinə ciddi təsir etmişdir. Qədim Yunanıstanda bu istiqamətlərdə cərəyan edən dialektik inkişaf prosesləri quldarlıq cəmiyyətinin təməl maraq və mənafelərindən qaynaqlanmaqla, həmin dövr üçün cəmiyyətin və onun ayrı-ayrı qruplarının maraqlarının inkişafına yönəlmişdir. Bu tarixi mərhələdə Qədim Yunanıstanda bir sıra mütəfəkkirlər öz zəngin fikir və mülahizələrini irəli sürmüşlər. Onlardan iki nəhəng-Platon və Aristotel xüsusi qeyd olunmalıdır.

Ümumi sosiologiya və politologiya haqqında ilkin tarixi təlimləri Platon (b.e.ə. 427-347) “Dövlət”, “Siyasətçi” və “Qanunlar” haqqında dialoqlarında irəli sürmüşdür. Platon bu dialoqlarında əmək bölgüsünün rolunu xüsusi qeyd etməklə tarixdə ilk dəfə sosial və siyasi stratifikasiya (sosial və siyasi təbəqələr) nəzəriyyəsini yaratmışdır. Bu nəzəri baxışlara görə Platon cəmiyyəti üç əsas təbəqəyə bölmüşdür:

- dövləti idarə edən müdriklərdən ibarət ali təbəqə;
- qiyam və ixtişaşlardan müdafiə vasitəsi kimi nəzərdə tutulan hərbiçilərdən ibarət orta təbəqə;
- sənətkar, əsnaf və kəndlilərdən ibarət aşağı təbəqə.

Eyni zamanda Platon dövlətin cəmiyyət həyatındakı oynadığı roluna görə müxtəlif idarəetmə formalarını qeyd etmişdir:

- *aristokratiya* – seçilmişlərin hakimiyyəti;
- *timokratiya* – hərbiçilərin hakimiyyəti;
- *oliqarxiya* – varlıların hakimiyyəti;
- *demokratiya* – xalq hakimiyyəti;
- *ohlokratiya* – kütlə hakimiyyəti [14, s, 40].

Platon qeyd olunan dövlət idarəetmə formalarından aristokratiyanı ən məqbul hesab etmişdir. Dahi mütəfəkkir bununla cəmiyyət daxili yüksək ictimai əhəmiyyət kəsb edən münasibətlərin təhlilini aparmış və bu münasibətlərin institutlaşmasına dair elmi mülahizələrini irəli sürmüşdür. Platon tərəfindən irəli sürülmüş bu nəzəri mühakimələr bu gün də müasir cəmiyyətlərdə elmi və praktik cəhətdən aktual hesab edilir.

Platon hesab edirdi ki, ümumiyyətlə qeyri-bərabərlik insanların təbiətindən irəli gəlir və onu aradan qaldırmaq mümkün deyil. Ona görə də hər adam təbii qabiliyyətinə uyğun gələn payı almalıdır.

Əmək bölgüsünə, xüsusən ixtisaslaşmaya böyük əhəmiyyət verən Platon göstərirdi ki, cəmiyyətdə müxtəlif kəmiyyətli tələbatlar fəaliyyət göstərdiyindən, hətta bir adamın tələbatının ödənilməsi üçün çoxnövlü əmək tətbiq etmək lazımdır. Beləliklə, o, belə qənaətə gəlirdi ki, əmək bölgüsü cəmiyyətdə adamların biri-biri ilə əlaqəyə girməsinə səbəb olur. Bununla bağlı həmçinin o, qeyd edirdi ki, hərə bir işlə məşğul olmalıdır. İşçi işləyənlərin işinə deyil, müəyyən bir işə uyğunlaşmalıdır. Bu, çox asan məhsul istehsal etməyə sabəb olur [3, s, 47].

Dövlət quruculuğu ilə əlaqədar olan "Qanunlar" əsərində o, şəhər-dövlət işinin başlanğıcını, təbii-coğrafi mühitlə əlaqəsini, şəhərsalma işini, eləcə də, orada əhalinin əmlaka görə yerləşdirilməsi qaydalarını göstərirdi [3, s, 47].

Platonun davamçısı, həm də böyük sərkərdə Makedoniyalı İsgəndərin tərbiyəçisi olmuş Aristotelin (b.e.ə. 384-322) baxışlarına görə dövlətin və ictimai mənafeyin əsas dayağı orta təbəqə hesab olunur. Aristotel digər iki təbəqəni isə varlıların hakimiyyəti olan plutokratiya və mülkiyyətdən məhrum edilmiş proletariatın hakimiyyəti kimi ifadə edirdi. O, dövlət idarəçiliyinin yüksək səviyyədə həyata keçirilməsi üçün üç şərti zəruri hesab edirdi:

1. kasıb təbəqənin dövlət idarəçiliyindən kənarlaşdırılmaması;
2. varlı təbəqənin eqoizmə söykənən qrup maraqlarının məhdudlaşdırılması;
3. orta təbəqənin çoxluğu və güclü olması.

Aristotel ədalətli idarəetməni iki müstəvidə nəzərdən keçirirdi:

1. bərabərləşdirici idarəetmə;
2. bölüşdürücü idarəetmə.

O, birinci idarəetmə formasını mülki hüquqi əqdlər sahəsinə aid etməklə (dəyən zərərin ödəniləsi) onu "kəmiyyət bərabərliyi" adlandırırdı.İkinci idarəetmə formasını isə "həndəsi bərabərlik" adlandırmaqla,burada əldə edilən nemətləri mütənasib olaraq hər kəsin qabiliyyətinə və tətbiq etdiyi əməyə görə bölüşdürülməsini nəzərdə tuturdu [14, s, 41].

Qədim Roma tarixi e. ə. II minilliyin birinci yarısından başlamış və eramızın 476-cı ilində imperator Romul Avqustulun devrilməsinədək davam etmişdir. İmperator Romul Avqustulun

devrildiyi eramızın 476-cı ili, e. ə. 30-cu illərdən mövcud olmağa başlamış və 500 illik tarixə malik Roma imperiyasının tənəzzül tarixi idi.

Qədim Roma tarixi ictimai münasibətlərin inkişafında oynadığı rola və bu münasibətlərin həyata keçirilməsində meydana gətirdiyi yeni tənzimləmə mexanizmlərinin əhəmiyyətinə görə dünya tarixinin ən vacib dövrü kimi dəyərləndirilir.

Qədim Roma tarixi dövrünə aid olan Roma Respublikasının erkən mərhələsində cəmiyyət daxili mövcud münasibətlərin tənzimlənməsinə yönəlmiş bir sıra qaydalar meydana gəlmişdir. Bu kimi qaydaların meydana gəlməsi cəmiyyət daxilində cərəyan edən bir sıra ziddiyyətli münasibətlərdən qaynaqlanan mübarizələrin təsiri nəticəsində formalaşırdı.

Roma Respublikasının e. ə. V əsrdə cərəyan edən daxili ziddiyyətli proseslərində plebeylər (“plebey” termini latın mənşəlidir (plebei) və kökü “plebs”–“sadə xalq”sözündən götürülmüşdür.Qədim Romada azad əhalinin aşağı təbəqəsi kimi qəbul edilən fərdlərin sosial kateqoriyasıdır) ilə patrisilər (Qədim Romada aktiv ictimai mövqelərə, üstün əmlak imkanlarına malik olan və yuxarı təbəqə kimi qəbul edilən fərdlərin sosial kateqoriyasıdır) arasında mübarizə ən gərgin müstəvidə özünü ifadə edirdi.

Plebeylərin məşğul olduqları xırda ticarətin və əkinçiliyin genişlənməsi nəticəsində onlar sosial təbəqə kimi formalaşmışlar. İqtisadi münasibətlərin dərinləşməsi nəticəsində bir sıra plebeylər öz əmlak imkanlarını genişləndirə bilsələr də, bu təbəqənin əhəmiyyətli hissəsi ağır maddi duruma məruz qalmaqla yoxsullaşma vəziyyətinə düşürdülər. Yaranmış bu vəziyyətin əsas səbəblərindən biri də, plebeylərin ictimai proseslərdə aşağı sosial statusa malik olmaları və bunun da müqabilində bir sıra hüquqlardan kənarda qalmaları ilə bağlı idi. O cümlədən müharibələr, məhsuldarlığın aşağı olması, məhsuldar torpaqların azlığı şəraitində Roma əhalisinin çoxalması da, plebeylərin iqtisadi vəziyyətini çətinləşdirirdi. Nəticədə plebeylər məcburiyyət qarşısında öz torpaqlarını girov qismində sələmçilərə vermək məcburiyyətində qalırdılar. Sonradan ödəniş qabiliyyətinə malik olmayan borclu plebeylər torpağa olan hüquqlarını itirməklə və kreditorun razılığı ilə öz azadlıqlarını girov qoymaqla icarə əsasında həmin torpaqdan istifadə edirdilər. Hansı ki, icarə haqqı ödənilmədikdə də, plebeylər girov qoyduqları şəxsi azadlıqlarını kreditorlara təhvil verməklə tam kölə vəziyyətinə düşürdülər.

Plebeylər patrisilərlə müqayisədə məhdud siyasi hüquqlara malik olduqları üçün Roma cəmiyyətinə məxsus olan ictimai statuslu torpaqların əldə edilməsindən məhrum idilər və bunun üçün də qeyd olunan bu iki sosial təbəqə arasında qeyri-bərabər olan vəziyyətin aradan qaldırılması zəruri idi. Patrisilərlə müqayisədə qeyri-bərabər olan sosial-iqtisadi hüquqların aradan qaldırılması plebeylərin köləlik təhlükəsindən yaxa qurtarmasının yeganə yolu idi. Bunun üçün də onların Roma cəmiyyətinin tam hüquqlu üzvü kimi qəbul edilməsini təmin edən yeni hüquqi əsasların yaradılması zəruri idi. Bu əsasla plebeylərlə patrisilər arasında e. ə. V-IV əsrlərdə müxtəlif səpkilərdə davam edən mübarizələrdə birincilər tam hüquqlu vətəndaşlıq statusunun əldə edilməsi üçün əsas siyasi-iqtisadi hüquqlarının tanınmasını, o cümlədən dövlət orqanlarının işində iştirak etmələri ilə bağlı tələblər irəli sürürdülər.

Uzun sürən mübarizələrdən sonra patrisilər güzəştə getmək məcburiyyətində qalmışlar.

Buna əsas isə plebeylərin orduda xidmətdən imtina etmələri və onların Romanı tərk etmələri idi. Bu da özlüyündə Roma ordusunun zəifləməsinə səbəb olurdu.

Torpaq məsələləri ilə bağlı e. ə. V əsrin ortalarında plebeylər ilk qərarların qəbul edilməsinə cəhdlər etmişlər. Konsul Spuriy Kassiy e. ə. 486-cı ildə Romanın müharibə yolu ilə əldə etdiyi torpaqların plebeylər arasında bölünməsini istədikdə, patrisilər konsulu tiraniyada günahlandırmaqla onu bundan çəkindirə bilmişlər.

Plebeylər tərəfindən e. ə. V əsrdə böyük qələbə əldə edilir.Onlar yeni hüquqların əldə edilməsinə təkid edə bilmişlər. E. ə. 451-ci ildə yazılı qanunların tərtib edilməsi üçün 10 patrisidən ibarət komissiya (desemvirlər) seçilmişdir. Lakin, patrisilərdən ibarət komissiya (desemvirlər) bir il ərzində bu işlərə başlayana qədər, e. ə. 450-ci ildə komissiyanın tərkibi 5 nəfər patrisilərdən və 5 nəfər plebeylərdən ibarət olmaqla yenidən seçilmişdir. Yeni seçilmiş komissiya (desemvirlər) qüvvədə olan hüquq normalarının təkmilləşməsini təmin etmiş və 12 mis lövhədə həkk olunmuş yeni hüquqları forumlarda (əhalinin kütləvi olduqları yerlərdə) yerləşdirmişdir [13, s, 229].

Tarixdə daha çox "XII cədvəl" qanunu kimi qeyd olunan bu hüquq norması Qədim Romanın erkən respublikaçılıq tarixi mərhələsində ilk əsas hüquq institutu kimi qiymətləndirilməklə plebeylərin sosial, siyasi, iqtisadi hüquqlarının və bərabərhüquqlu vətəndaşlıq statuslarının tanınmasına ciddi təsir etmişdir.

Qədim Romanın e. ə. 494-cü ildən başlayan respublika dövrü (Roma Respublikası) e. ə. 30-cu illərdə başa çatmış və həmin tarixi mərhələdən Romanın imperiya tarixi başlamışdır. İlk imperator Oktavian Avqustdan başlayarq eramızın 476-cı ilində devrilmiş sonuncu imperator Romul Avqustula qədər 500 illik Roma imperiyasına 150-ə yaxın imperator başçılıq etmişdir. Onlardan, eramızın 284-305-ci illərində Roma imperatoru olmuş Diokletian öz dövrünün islahatlara meyilli ən yenilikçi simalarından biri kimi tarixdə qalmışdır. Məhz, bu səbəbdən də imperator Diokletianın hakimiyyət dövrü Roma imperiya tarixinin dominantlıq mərhələsinin başlanğıcı kimi qeyd olunur.

İmperator 293-cü ildə yüksək səviyyəli dövlət vəzifələrində göstərilən xidmətlərə görə vəzifədə irəli çəkilməni və idarəetmədə kollegiallıq prinsipini təmin etmiş, o cümlədən dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi və hakimiyyətin regionlar üzrə daha ünvanlı idarə edilməsi məqsədilə "tetrarxiya" sistemini ("tetrarxiya" yunan sözüdür, mənası dördlərin hakimiyyəti, dörd hakimiyyətlilikdir) yaratmışdır. Yeni yaradılmış tetrarxiya sisteminə görə ölkə əsasən regionlar üzrə iki Avqust və onların hər birinin müavini vəzifəsində fəaliyyət göstərən iki Sezar tərəfindən ("avqust" və "sezar" vəzifələri ilk Roma imperatorunun adından (Qay Yuli Sezar Oktavian Avqust) götürülüb və dövlətin ali rəhbər vəzifəli şəxsləri mənasını daşıyıb) idarə olunurdu. İmperator Diokletian özü imperiyaya bütöv rəhbərliyi həyata keçirməklə eyni zamanda Maksimianla hərəsi bir region üzrə Avqust vəzifəsində fəaliyyət göstərirdilər. Daha sonra isə İmperator hərbi və mülki məsələlər üzrə ixtisaslaşmış idarəetməni təmin etmək məqsədilə I Konstantini özünün rəhbərlik etdiyi şərq regionu üzrə Sezar vəzifəsinə, Qaleriyi isə Maksimianın rəhbərlik etdiyi qərb regionu üzrə Sezar vəzifəsinə təyin etmişdir. İmperator özü birbaşa Avqust vəzifəsini icra etsə də, hüquqi cəhətdən Avqust və-

zifəsini daşıyan şəxslər də imperatora tabe olmuşlar. Bu baxımdan da Maksimian Avqust vəzifəsində çalışmaqla imperatora tabe idi.

İmperator Diokletian tərəfindən aparılmış və ən yadda qalan islahatlardan biri də Roma imperiyasının inzibati idarəetmə sisteminin yenidən təşkil olunması ilə bağlı olmuşdur. Belə ki, imperator tərəfindən əyalətlər yenidən təşkil olunaraq onların sayı əllidən yüzə qaldırılmışdır. Burada məqsəd çevik idarəçiliyi təmin etmək, həm də əyalətlərə rəhbərliyi həyata keçirən və yerlərdən imperatora qarşı üsyanların təşkilinə həssas olan canişinlərin səlahiyyətlərinin məhdudlaşdırılması olmuşdur. Çünki həmin ərəfədə əyalətlərə rəhbərlik edən canişinlər şifahi olaraq artıq İtaliyanı öz aralarında bölüşdürmüşlər. Yenidən təşkil olunmuş yüz əyalət canişini isə ərazi üzrə mütənasib qaydada təşkil olunmuş on üç vilayət canişininə, onlar da öz növbəsində tetrarxiyada Avqustların və Sezarların mülki, maliyyə və məhkəmə işləri üzrə müavinlərinə tabe olmuşlar. Qeyd olunduğu kimi, tetrarxiya da bütövlüklə imperatora tabe idi (şəkil 2).




**Şəkil 2.**

Bundan başqa Diokletian hərbi sistemdə də kordinal dəyişikliklər etməklə həmin ərəfəyədək vahid komandanlıq altında fəaliyyət göstərən ordunu iki əsas hissəyə bölmüşdür. Ordunun bir hissəsi ölkənin daxili təhlükəsizliyi ilə bağlı, digər bir hissəsi isə ölkənin sərhədlərini qorumaq məqsədilə yenidən təşkil olunmuşdur. Həmçinin Diokletian hərbi dəniz qüvvələrinin də potensialının gücləndirilməsi ilə bağlı bu sahədə idarəçiliyin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görmüşdür.

Diokletian 301-ci ildə bütün imperiya üzrə muzdlu şəxslərin əməyi üçün ödənilən muzdun məbləğini maksimal həddə qaldırmış, iqtisadi səmərəliyi qorumaq üçün hər il vergi ödəyicilərinin əmlak vəziyyəti və sərəncamlarında olan torpaqlarının münbitliyini nəzərə almaqla onlara qarşı mütənasib olan ədalətli vergi dərəcələrinin tətbiq edilməsini təmin etmişdir.

Roma imperatoru çoxsaylı digər sahələrdə də böyük səylə çalışaraq dövlət idarəçiliyində əsaslı islahatları davam etdirmişdir.

Diokletian yenilikçi fikirlərinə, işgüzar keyfiyyətlərinə və yüksək idarəçilik məharətinə görə 500 illik imperiya tarixinə malik olan Romaya rəhbərlik etmiş 150-yə yaxın imperatordan fərqlənmişdir [1, s, 14-17].

Beləliklə, Antik istehsal üsulunun qüvvədə olduğu quldarlıq ictimai-iqtisadi formasiyası dövründə cəmiyyət həyatında siyasi, iqtisadi, sosial və idarəetmə sahələrində meydana gələn ictimai tələbatın ödənilməsi ilə bağlı institusional fəaliyyətin müxtəlif istiqamətlərini və xüsusiyyətlərini nəzərdən keçirdik. Bu proseslərdə institusional fəaliyyəti ilk növbədə tənzimləmə tələbatının meydana gəlməsində, tənzimləməni nəzərdə tutan institutlaşan normaların yaradılmasında və tətbiqini nəzərdə tutan institutlaşan təşkilatlanmada və bu təşkilatlanma vasitəsilə normaların faktiki tətbiq edilməsi ilə tənzimləmənin həyata keçirilməsində müşahidə edirik.

Sözsüz ki, qeyd olunan tarixi proseslərdə institusional fəaliyyət düşünülmüş və sistemli qaydada, zəruri hesab olunan ardıcıllıqla deyil, tarixi inkişaf prosesləri ilə bağlı meydana gələn tənzimləmə təlabatı nəticəsində bu və ya digər şəkildə özünü ifadə etmişdir. Xüsusən də nəzərə almalıyıq ki, ictimai tələbatın sistemli qaydada öyrənilməsi və ödənilməsi ilə bağlı institusional fəaliyyətin təkmilləşdirilməsi bütün dövrlər üçün hər zaman aktualdır və cəmiyyət həyatının inkişaf tempinə paralel olaraq davamlı təkmilləşmə tələb edən dinamik bir prosesdir.

Antik istehsal üsulu dövründə institusional tənzimləmənin həyata keçirilməsində əsas diqqəti cəlb edən məqamlar, bu dövr üçün aktual olan istehsal münasibətlərində qul əməyinin əsas istehsal forma və vasitəsi kimi qəbul edilməsi olmuşdur. Məhz, bu baxımdan da quldarlıq ictimai-iqtisadi formasiyası dövründə institusional tənzimləmənin əsas xüsusiyyətləri bu dövr üçün qüvvədə olan siyasi-hüquqi mülahizə və düşüncələrlə məhdudlaşmışdır.

Antik istehsal üsulunun tətbiqi nəticəsində mövcud münasibətlərin institutlaşmasını şərtləndirən aşağıda qeyd olunan tarixi təmayüllər və cəhətlər nəzərə alınmışdır:

- qul əməyinin əsas istehsal forma və vasitəsi kimi qəbul edilməsi;
- quldarlardan, qullardan və zəif iqtisadi imkanlara malik olan azad insanlardan ibarət sosial təbəqələşmənin və antoqanist sinifləşmənin meydana gəlməsi;
- formal (hüquqla tanınan) və faktiki xüsusi mülkiyyətin meydana gəlməsi;
- əhalinin qeyri-bərabər əmlak vəziyyətinə malik olması ilə iqtisadi təbəqələşmənin formalaşması;
- ictimai-siyasi, sosial-iqtisdi, müdafiə və ictimai asayiş münasibətlərini tənzimləyən dövlətin meydana gəlməsi;
- dövlətin institusional tənzimləmə fəaliyyətinin həyata keçirilməsi ilə bağlı norma və standartlar yaratması və tətbiqi.

Qeyd olunan təmayül və cəhətlərin meydana gəlməsi ilə bağlı institusional tənzimləmə fəaliyyətinin həyata keçirilməsi prosesində Antik istehsal üsulunu Asiya istehsal üsulundan fərqləndirən cəhətlərə diqqət yetirək (cədvəl 1).

| Fərqləndirici xüsusiyyətlər | Asiya istehsal üsulu | Antik istehsal üsulu |
|---|---|---|
| *Mülkiyyət* | Mülkiyyət ümumi idi və xüsusi mülkiyyət mövcud deyildi | Mülkiyyət xüsusi idi |
| | Xüsusi mülkiyyətin olmaması əhali arasında iqtisadi bərabərliyi təmin edirdi | Xüsusi mülkiyyətin olması əhali arasında qeyri-bərabər olan əmlak vəziyyətinin formalaşmasına səbəb olmuşdur |
| | Sosial təbəqələşmə yox idi | Sosial təbəqələşmə sürətlə inkişaf edirdi |
| *Əsas işçi qüvvələri* | İcmalarda cəmlənmiş kəndlilər idi | Köləlikdə olan qullar idi |
| *Siyasi idarəetmə* | Mərkəzləşmiş dövlət hakimiyyəti mövcud idi | Əks-mərkəzləşmə elementləri var idi |
| | İdarəetmə avtoritar idi və alternativ fikirlər yox idi | İlkin seçim və alternativ fikir ifadə etmə elementləri meydana gəlmişdir |
| | Hakimiyyət irsi idi | Hakimiyyətin formalaşmasında seçim elementləri meydana gəlmişdir |
| *Tənzimləmə* | Əsasən şifahi olan adətlər idi və tədricən yazılı norma və qaydalara keçid müşahidə edilirdi | Şifahi olan adətlər azlıq təşkil edirdi və yazılı norma və qaydalar əsas idi |

**Cədvəl 1.**

Antik istehsal üsulu dövründə qul əməyi əsas istehsal forma və vasitəsi kimi formalaşmışdı. Əhali arasında sosial-iqtisadi qeyri-bərabərlikdən qaynaqlanan ilk mütəşəkkil tarixi sinifləşmə meydana gəlmiş və bu prosesin sürətli inkişafı nəticəsində hüquqla tanınan xüsusi mülkiyyət münasibətləri təşəkkül tapmışdır. Bu münasibətlərin idarə edilməsi əsaslarının öyrənilməsi zərurəti nəticəsində siyasi-hüquqi və sosial-iqtisadi fikir, baxış və dünyagörüşləri xüsusi inkişaf etmişdir (şəkil 3).

*Quldarlıq ictimai-iqtisadi formasiyası dövründə mülkiyyət münasibətlərinin meydana gəlməsi nəticəsində ilk təkmil institusional tənizmləmənin formalaşması*




**Şəkil 3.**

Quldarlıq ictimai-iqtisadi formasiyasına əsaslanan Antik istehsal üsulu dövründə mülkiyyət münasibətlərinin meydana gəlməsi, onun kiçik və böyük insan qruplarında həmin dövr üçün optimal idarə olunması yollarının araşdırılması və əlverişli hesab edilən tənzimləmə qayda və alətlərinin əldə edilməsi tarixi zərurət idi. Bu da özlüyündə həmin dövrün praktik cəhətdən yeni və nisbətən daha sistemli olan tənzimləmə vasitə və mexanizmlərinin formalaşmasını və inkişaf etdirilməsini aktuallaşdırmışdır.Nəticədə quldarlıq ictimai-iqtisadi formasiyası dövründə cəmiyyət daxili və cəmiyyətin ayrı-ayrı qrupları arasında ilkin olaraq adətlər, daha sonradan isə şifahi və yazılı norma və qaydalardan ibarət institusional tənzimləmənin meydana gəlməsi baş vermişdir.

**Xülasə.** İctimai tənzimləmə tələbatının meydana gəldiyi qədim dövrdə təzahür edən lokal və geniş miqyaslı ziddiyyət və təkamül proseslərinin idarəetmə zərurəti institusional tənzimləmənin meydana gəlməsini zəruri etmişdir. Bu da onu göstərir ki, ictimai münasibətlərin institusional tənzimləmə vasitəsilə həyata keçirilməsinə dair ilk tarixi mərhələ dünya tarixinin qədim dövrünə təsadüf edir.

Qədim dünya tarixinin siyasi-iqtisadi münasibətlərinin əsas təmayülləri kimi formalaşmış Asiya və Antik istehsal üsulları institusional tənzimləmənin əsas cəhətlərinin müəyyən olunmasına biləvasitə təsir etmişdir. Bu istehsal üsullarını meydana gətirən tarixi şərait, o cümlədən qeyd olunan istehsal üsullarının səciyyəvi cəhətləri və xüsusiyyətləri institusional tənzimləmənin formalaşmasını şərtləndirmişdir.

**Ədəbiyyat:**

1. Rauf Məcidbəyli. İnsan resurslarının idarə edilməsi, Bakı, "Bilik" nəşriyyatı, 112 s.

2. Azərbaycan tarixi. Dərslik. Müəllif kollektivi – Bakı: Azərnəşr, 1994. 680 s.

[12,s.117].

3. İqtisadi təlimlər tarixi (yenidən işlənmiş ikinci nəşri). Bakı, "Nurlan" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2005, 560 s. (s. 25)

4. http://dic.academic.ru/dic.nsf/ruwiki/94994#cite_note-.D0.A8.D0.B0.D1.84.D0.B0.-D1.80.D0.B5.D0.B2.D0.B8.D1.87.E2.80.94.E2.80.94.E2.80.94241-1-23.12.2014, 1:39

5. http://dic.academic.ru/dic.nsf/enc_philosophy/4124/АЗИАТСКИЙ-23.12.2014, 2:01

6. http://sociological_dictionary.academic.ru/30/АЗИАТСКИЙ_СПОСОБ_ПРОИЗ-ВОДСТВА - 23.12.2014, 2:15

7. Всемирная история экономической мысли, том I М. 1987.

8. http://historic.ru/books/item/f00/s00/z0000054/st024.shtml-26.12.2014, 14:47

9. http://www.bibliotekar.ru/istoriya-vostoka/52.htm-28.12.2014, 19:32

10. http://www.bibliotekar.ru/istoriya-vostoka/68.htm-28.12.2014, 21:44

11. Политическая экономика: Учебник для неэкономических вузов / Румянцев А. М., Козлов Г. А., Волков М. И и др. -3-е изд., доп.- М.: Политиздат, 1983-592 с.

12. Маркс К., Энгельс Ф. Соч., т. 21, с. 175.

13. История древнего мира: Ч. II Греция и Рим. Учеб. пособие для студентов пед. ин-тов/Бокщанин А.Г., Дворецкая И.А., Крукол Ю.С. и др.: Под ред. А.Г. Бокщанина. – 2-е изд., испр. и доп. – М.: Просвещение, 1981. – 431 с., ил.

14. Кравченко А. И. Основы социологии и политологии: учебник для бакалавров. – Москва: Проспект, 2015. – 352 с.

**Abstract**

**THE ROLE OF ANTIC AND ASIAN PRODUCTION METHODS IN ENGENDERING OF INSTITUTIONAL REGULATION**

**Rauf MEJIDBEYLI**

*Ph.D student of Azerbaijan University*

**Key words:** institutional, instituting, regulation, production method

Local and large-scaled contradictions and evolution processes of ancient times created the necessity in public regulation. Gradually, that necessity transformed into the need of institutional regulation. It means, that first historical stages, in which public relations were realized by means of institutional regulation coincide with ancient period of world history.

Asian and Antic production methods formed as main basis of political and economic relations of antique world history. So, these methods had direct influence on definition of main features of institutional regulation. The forming of institutional regulation was conditioned by historical situation, created those production methods (including their characteristic features and peculiarities).

**Резюме**

**РОЛЬ АЗИАТСКОГО И АНТИЧНОГО СПОСОБОВ В ПРОИЗВОДСТВА В ЗАРОЖДЕНИИ ИНСТИТУЦИОНАЛЬНОГО РЕГУЛИРОВАНИЯ**

**Рауф МЕДЖИДБЕЙЛИ**

*Диссертант Университета «Азербайджан»*

**Ключевые слова:** институциональный, институализация, регулирование, способ производства

Необходимость управления локальными, или более масштабными общественными противоречиями, а также процессами эволюции, имевшими место в древних обществах вызвали потребность в зарождении основ институционального регулирования. Это подтверждает тот факт,что начальный исторический этап управления общественными отношениями посредством институционального регулирования приходится уже на древний период мировой истории.

Античный и Азиатский способы производства, формировавшиеся как основа политическо-экономических отношений древнего мира, оказали самое непосредственное влияние на определение основных черт институционального регулирования. Формирование институционального регулирования было обусловлено исторической обстановкой, способствовавшей зарождению указанных способов производства, их характерными особенностями.

# PODRAT BAZARLIQLARI MEXANİZMİNİN İNKİŞAFI-İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNİN ƏSASIDIR

**Yusif BİNNƏTOV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, dissertant*

**Rəyçi:** dos. Asəf Ağayev
**Açar sözlər:** torqlar, formalar, rəqabət, prinsip, podrat sistem, əmtəə, informasiya, resurs, vəziyyət

İqtisadi münasibətlər şəraitində iqtisadiyyatın inkişafının hərəkətverici qüvvəsi əmtəələrin göndərişi, işlərin yerinə yetirilməsi və ya istehlakçılara xidmətlərin göstərilməsi ilə bağlı tədarükçülərin, podratçıların və xidmət göstərənlərin rəqabətidir.

Tikintidə rəqabətin təmin edilməsinin əsasını podrat bazarları təşkil edir [1.s 165]. Hansı ki, tikintiyə sifarişlərin yerləşdirilməsi forması kimi müəyyən edilir və müsabiqə üsulu ilə işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi üçün podratçıların seçilməsini nəzərdə tutur. Beləliklə podrat bazarları ondan ibarətdir ki, tikinti işləri, xidmətləri və əmtəələr bazarında rəqabətin yaradılması və saxlanılması hesabına investisiya - tikinti layihələrinin reallaşdırılmasının yüksək səmərəliliyinin təmin edilməsi üsulu kimi təsəvvür edilir. Ona görə də dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində podrat bazarlıqlarının aparılması qanunvericiliklə, habelə milli və beynəlxalq tikinti cəmiyyətlərinin işlədikləri normativ sənədlər və standartlarla tənzimlənir. Podrat bazarlarının təşkilinin mühüm şərti onların sənədli və prosedura yolu ilə tərtib edilməsidir.

Podrat bazarlıqlarının yeni təcrübəsi üç əsas prinsipin formalaşmasına imkan verir:

1. Bütün tələb edənlərin (iddiaçıların) bərabər imkanları prinsipi. Bu prinsipə riayət edilməsi yolu ilə müsabiqənin bütün iştirakçıları üçün eyni şəraitin yaradılmasına nail olunur.

2. Bütün iddiaçılara qərəzsiz münasibat prinsipi. Bu prinsipə riayət edilməsi müsabiqə qalibinin seçilməsi meyarlarının bütün iştirakçılar üçün açıq və məcburi tətbiq olunması və müəyyən edilməsi və müsabiqə sifarişinin (ofertin) qiymətləndirilməsinin vahid metodları vasitəsilə nail olunması nəzərdə tutulur.

3. Aşkar edilmə prinsipi. Bu prinsipə riayət edilməsi podrat bazarlıqlarının aparılmasının bütün mərhələlərində aşkarlığın təmin edilməsi, habelə bütün iştirakçılar üçün müxtəlif informasiya imkanlarının təsəvvür edilməsi yolu ilə nail olmasını göstərir.

Ən səlahiyyətli alimlərin fikirlərini [3; s 96] nəzərə alaraq biz hesab edirik ki, tikintidə podrat bazarlıqlarını belə təsnifləşdirmək olar:

1.İştirakçıların dövrəsi üzrə (müsabiqədə tələb edənlərin iştirakının cəlb edilməsi üsulundan asılı): açıq və bağlı bazarlıqlar.

2.Buraxılış prosedurası üzrə: ilkin seçmə və onsuz.

3.Milli və coğrafi əlaməti üzrə: yerli,regional,milli ,beynəlxalq.

4.Struktur üzrə: birmərhələli və ikimərhələli.

5.Aşkarlıq dərəcəsi üzrə (müsabiqə ərizələrinin açılması prosedurunda tələb edənlərin

iştirakından asılı): aşkar və qeyri-aşkar.

6.Əmtəələrin predmeti üzrə: əmtəələrin tədarükü,işlərin yerinə yetirilməsi,xidmətlərin göstərilməsi.

7.Podratın növü üzrə:tikinti, layihə işləri, layihə-tikinti podratı və s.

8.Təkrarlanması üzrə (bu və ya digər predmet üzrə müsabiqənin neçə dəfə təyin edilməsindən asılı olmaq): ilk və təkrar.

Rəqabət tədarükünün əsas üsulu açıq bazarlıqlarıdır. Açıq bazarlıqların mütləq şərti bazarlıqlar haqqında xəbərdarlıq vermək, hansı ki, ixtisaslaşdırılmış peşəkar nəşriyyatda (o cümlədən elektronda), sifarişçinin internet-saytında, aparıcı qəzetlərdə və jurnallarda, habelə digər kütləvi informasiyalarda informasiyaların yerləşdirilməsini təmin etməkdir. Açıq bazarlıqların nəticələri haqqında informasiyalar həmçinin nəşr edilməlidir.

Açıq bazarlıqlardan fərqli hansı ki, hər bir şirkət iştırak edə bilər, qapalı bazarlıqlarda iştirak etmək üçün dəvət nəşr edilmir. Qapalı bazarlıqlarda sifarişçi tərəfindən xüsusi dəvət olunan tədarükçülər ancaq iştirak edirlər.Həmçinin bağlanmış bazarlıqların nəticələri haqqında da informasiyalar nəşr edilmir. Qapalı bazarlıqlar aşağıdakı hallarda aparıla bilər:

1. Məhsul ancaq tədarükçülərin məhdud sayında ola bilər və ya sifarişçini qane edən məhşur tədarükçülərin sayı və ixtisası məhduddur;
2. Məhsul təhlükəsizlik ehtiyacı üçün tədarük edilir və ya tədarük qapalı xarekter daşıyır;
3. Sifarişçi bazarda vəziyyətə yaxşı sahibdir müsabiqənin iştirakçılarını özü seçə bilər;
4. Müsabiqə sifariçilərinin böyük miqdarda baxılması və qiymətləndirməsi üçün vaxt və xərclərin tələb olunması əmtələrin (işlərin) və xidmətlərin tədarükünün dəyəri ilə ölçülməyəcək.

Qeyd etmək lazımdır ki, Azərbaycanda və xarici ölkələrdə işlərin əmtəələrin və xidmətlərin tədarükü dövlət ehtiyacı üçün, nadir hallar nəzərə alınmasa, açıq prosedura vasitəsilə həyata keçirilir və həmin ölkələrin qanunvericiliyində möhkəmlənibdir. Açıq bazarlıqların prosedurası, həmçinin beynalxalq maliyyə agentlikləri (məsələn Ümumdünya bankı, Avropa inkişaf və yenidənqurma bankı) tərəfindən maliyyələşdirilən tədarüklərdə mütləq istifadə olunur.

Açıq müsabiqə bazarlıqları iddiaçıların (həmçinin belə terminlərdə istifadə olunur: əvvəlcədən ixtisasın seçilməsi, əvvəlcədən ixtisas, selektiv müsabiqənin prosedurası) əvvəlcədən seçilməsi ilə müşahidə oluna bilər. Əvvəlcədən seçmənin məqsədi ondan ibarətdir ki, bazarlıqlarda o tələb edənlərin iştirakını təmin etmək lazımdır ki, hansı ki, işlərin yerinə yetrilməsi üçün zəruri təcrübəsi maliyyə və texniki imkanları var və onlar üçün bazarlıqlar həyata keçirilir.Əvvəlcədən ixtisaslaşmanın müəyyən edilməsi bağlaşmanın kafi yerinə yetirilməsi üçün tələb edənin (iddia edənin) qabiliyyətini və bu sahədə iş təcrübəsini, texniki imkanını və maliyyə resurslarını bilməlidir. Əvvəlcədən seçmə sifarişçiyə aşağıdakı üstünlüklər verir:

-müsabiqədə ancaq o iddia edənlərin iştirakı təmin edilir ki, ixtisaslaşma bağlaşmanın yerinə yetirilməsinə imkan yaradır; -iştirakçıların miqdarını azaldır, müvafiq olaraq sifarişçilərin baxılması və qiymətləndirməsi üzrə işlərin həcmi də azalır;-bazarlıqların elan edilməsindən əvvəl bazar iştirakçılarının bazarlıq üçün marağının qiymətləndirməsinə imkan yaranır.

Əvvəlcədən ixtisasın müəyyən edilməsindən sonra sifarişçi bazarlıqların aparılması üçün bütün arzu edən tədarükçüləri çağırır, bazarlıqlarda son iştirakı üçün öz ixtisasi haqqında məlumatlar təqdim etməsini tələb edir.Dəvət olunan elanda ixtisasın meyarı göstərilir və tələb edən (iddia edən) ona müvafiq olmalıdır.Tələb edənlərin ixtisasını qiymətləndirmək üçün sifarişçi sorğu formalarının doldurulmasını onlardan xahiş edir.Orada aşağıdakı informasiyalar nəzərdə tutulmalıdır:

-maliyyə vəziyyəti; -mövcud resurslar; -idarəetmə strukturu və keyfiyyət sistemi;-bazarlığa qoyulan obyektə oxşar, tikinti üzrə işlərin təcrübəsi.

İddia edənlərdən alınan, ixtisas haqqında informasiyalara əsaslanaraq, sifarişçi "qısa siyahı" formalaşdırır, müsabiqəyə ancaq o tədarükçüləri dəvət edir ki, müəyyən edilmiş ixtisas meyarına müvafiq gəlsin. Adətən qısa siyahı 2-3 tədarükçü ilə məhdudlaşdırılır və bazarlıqda son dəfə iştirak edir. Çox vaxt ilkin ixtisas seçimi konkret bazarlıqların çərçivəsi kənarda aparılır. Belə seçimin mənası ondan ibarətdir ki, sifarişçi bazarlıqlarda iştirak etmək üçün iddia edənləri seçir. Məsələn ildə bir dəfə hər hansı bir işi, göstərilən xidmətləri və ya əmtəələrin tədarükünün yerinə yetirilməsinə iddia edənlərin seçilməsi həyata keçirilir.

Əksər hallarda podrat bazarlıqları bir mərhələdə aparılır.Ancaq əgər bazarlıq predmeti mürəkkəb qurğu innovasiya obyekti olarsa onda iki mərhələli prosedura istifadə olunur. İki mərhələli bazarlıq o vaxt tövsiyyə olunur ki, işlərin həcmini və (və ya ) obyektin texniki xarakteristikasını müsabiqənin hazırlanması dövründə müəyyən etmək çətindi. İki mərhələli bazarlıqların aparılmasında birinci mərhələdə iddia edənlərin qiymətləri göstərilməməklə texniki təklifləri olan, ilkin sifarişlər təqdim edilir.İkinci mərhələdə sifarişçi iddia edənlərə (birinci mərhələdə iştirak edir və ikinci mərhələyə buraxılır) qiymətlər göstərilməklə müsabiqədə iştirak etmək üçün son sifarişlərin təqdim edilməsini təklif edir. Bütün bazarlıqlar üç kateqoriyaya bölünür:

1.İşlərin yerinə yetirilməsi bazarlıqları;

2. Əmtəələrin tədarükü bazarlıqları;

3. Xidmətlərin göstərilməsi bazarlıqları.

Tikintidə işlərin yerinə yetirilməsi bazarlıqları və ya podrat bazarlıqları tikinti və yarımpodratın, habelə layihə və axtarış işlərin müqaviləsinin bağlanmasında tətbiq edilir [2.s.63]. Bazarlıqların nəticəsində qalib müəyyən edilir və onunla podrat müqaviləsi bağlanılır, tərəfləri isə sifarişçi və podratçı olurlar.

Əmtəələrin tədarükü bazarlığı tikintidə obyektin tikintisinin maraqlanmasına uyğun sənaye və ya digər əmtəə məhsulunun alışında tətbiq olunur. Bazarlıqların predimeti avadanlığın gətirilməsi, quraşdırılması və istismara verilməsi, habelə verilən əmtəələrin istifadəsi ilə bağlı, əlavə vəzifələr ola bilər, məsələn, texniki xidmət, təmir, öyrədilmə və s. Belə halda kontragent sifarişçi (alıcı) və tədarükçü olurlar.

Xidmətlərin göstərilməsi bazarlığı müxtəlif sahələrdən mütəxəssisləri (idarəçilər, hüquqşünaslar, qiymətləndiricilər, mühəndislər aiditorlar, tərcüməçilər və s.) investisiya-tikinti layihəsinin iştirakına cəlb edilən rəqabət mühitini tələb edir. Bazarlıqların yekunu üzrə qarşılıqlı xidmətlər müqaviləsi bağlanılır, tərəflər isə sifarişçi və məsləhətçi olurlar.

İşlərin, əmtəələrin və xidmətlərin tədarükünün müsabiqə qaydalarını təmin edən bazarlılıq tikintidə sifarişlərin yerləşdirilməsinin əsas üsuludur. Tikintidə xüsusi sifarişlər yerləşdiriləndə podratçıların və tədarükçülərin müsabiqədən kənar seçilməsinə danışıq prosesinin təşkili yolu ilə icazə verilir. Bəzi halda,əgər alınan məhsul bazarda nadirdisə (habelə hər bir ehtiyacı üçün tədarük), o vahid mənbədən tədarük ola bilər.

Podrat bazarlıqları, adətən, müsabiqə və ya auksion növündə aparılır ("müsabiqə bazarlıqları" termini rast gəlinir). Auksion sadə və təkrar işlərin, habelə standartlaşdırılmış məhsul üçün, hansı ki bir parametrin qiyməti üzrə istifadə oluna bilər.

Hər şeydən əvvəl müsabiqənin (podrat bazarlıqlarının) əsas iştirakçılarını adlandıraq və müsabiqə tədarükləri sferasında tətbiq olunan, əsas terminlərin tərifini verək.

Müsabiqənin sifarişçisi- müsabiqənin predmetini tərtib edən, işlərin ödənilməsi üçün vəsaitləri olan, tikinti sifarişçisi və ya investordur.

Müsabiqənin təşkilatçısı-sifarişçi və ya sifarişçi tərəfindən səlahiyyət verilən, şəxs, o cümlədən xarici məsləhətçi və ya sifarişçi ilə müqaviləyə əsasən fəaliyyət göstərən, ixtisaslaşdırılmış təşkilatdır.

Müsabiqə komissiyası- sifarişçinin yaratdığı daimi və ya müvəqqəti orqan və ya bazarlıqları aparan müsabiqənin təşkilatçısı, habelə müsabiqə təkliflərinin qiymətləndiricisidir.

İqtisadi münasibətlər sistemində podrat işlərinin sifarişlərinin yerləşdirilməsi üsullarının təsnifatı şəkil 1- də göstərilir.




**Şəkil 1. İqtisadi münasibətlər sistemində podrat işlərin yerləşdirilməsi üsullarının təsnifatı**

İddia edən (müsabiqənin iştirakçısı oferent)- hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxsdir və müsabiqədə iştirak edəndir .

Müsabiqə (podrat bazarlıqları)-rəqabət əsasında podratçının seçilməsini nəzərdə tutan, işlərin yerinə yetirilməsi sifarişlərini yerləşdirən formadır .

Müsabiqənin predmeti (podrat bazarlıqları)- müsabiqənin aparılması üzrə, işlərin konkret növləri.

Müsabiqənin obyekti (bazarlıqlar)- müsabiqə predmetinin aid olduğu istehsal və ya qeyri –istehsal obyekti, hansı ki, müsabiqə predmeti aiddir.

Müsabiqənin təşkilini şərti olaraq üç mərhələyə bölmək olar [3.səh-106].

Birinci mərhələ hazırlılıq adlanır, bazarlığın rəsmi elanına qədər baş verir və aşağıdakı fəaliyyəti və prosedurları daxil edir:

- müsabiqənin predmetinin müəyyən edilməsini;
- müsabiqənin təşklati-idarəçilik strukturunun yaradılması, məhz müsabiqənin təşkilatçısının və müsabiqə komissiyasının təyin edilməsi;

-ixtisasqabağı və müsabiqə sənədlərinin hazırlanması;

-sifarişçi tərəfindən bütün sənədlərin təstiq edilməsi və müsabiqənin aparılması haqqında əmrin tərtib edilməsi.

Beləliklə, birinci mərhələnin qurtarması üzrə müsabiqənin aparılması üçün zəruri, təşkilati - idarəçilik strukturunun mövcudluğu, müsabiqə sənədlərinin tam komplekti və müsabiqə prosedurlarının əvvəlini göstərən, sifarişçi tərəfindən imzalanan sənəd (əmr, sərəncam) olmalıdır.

İkinci mərhələ müsabiqə haqqında və ya ilkin ixtisası (əgər beləsi aparılırsa) haqqında rəsmi elanla başlayır və tələb edənlərin (iddia edənlərin) müsabiqə ərizələrinin yığımı ilə qurtarır. İkinci mərhələdə aşağıdakı fəaliyyət və prosedurlar yerinə yetirilir:

- ilkin ixtisaslaşma seçiminin (əgər beləsi aparılasa) aparılması və iddia edənlərin "qısa siyahısının" yaradılması;

-müsabiqə sənədlərinin müsabiqənin iştirakçılarına göndərilməsi;

-onlar oferti hazırladığı dövrdə müsabiqənin iştirakçıları ilə qarşılıqlı təsir müsabiqə sənədlərinin izahı, iddia edənlərin suallarına cavablar, tələb edənlərin (iddiaçıların) tikinti meydançasına baxmalarının təşkili və ya işlərin aparılması yeri;

-müsabiqə sənədlərinə zəruri dəyişikliklərin edilməsi;

-iddiaçılardan daxil olan, müsabiqə təkliflərinin qəbulu və lazımi sənədlərin saxlanılmasının təşkili.

Müsabiqənin üçüncü mərhələsində iddiaçıların müsabiqə təkliflərinin paketlərinin açılması, ərizələrin baxılması və qiymətləndirilməsi, qalibin seçilməsi və onlarla bağlaşmanın bağlanmasının həyata keçirilməsi.

İqtisadi münasibətlər sistemində müsabiqənin təşkili üzrə fəaliyyət və əsas müsabiqə prosedurları şəkil 2-də göstərilir.




**Şəkil 2. İqtisadi münasibətlər sistemində podrat işlərinin müsabiqəsinin aparılmasının təşkili və üsulları**

Müsabiqənin nəticələri sifarişçi tərəfindən təstiq olunandan sonra tamamlanmış hesab olunur.

Müsabiqə sənədlərinin paketi, adətən, aşağıdakı sənədləri özünə daxil edir:

1. Sifarişçinin rəsmi blankında tərtib edilən və müsabiqədə iştirak etmək üçün rəsmi dəvət;
2. Müsabiqənin özünün aparılması qaydası haqqında informasiyaları saxlayan sənəd;
3. Obyekt və müsabiqənin predmeti haqqında məlumat saxlayan sənəd;
4. Müqavilənin tam şərtlərini göstərən "Bağlaşmanın şərtləri" sənədi, müsabiqənin qalibi ilə imzalamaq nəzərdə tutulur;
5. İddiaçılar tərəfindən doldurmaq üçün nəzərdə tutulan, müsabiqənin təşkilatçısının hazırladığı formaların nümunələri.

**Ədəbiyyat:**

1. Организация строительного производства. Учебник:-М: АСБ,2003.

2. Практическе пособие по организации проведению подрядныхторгов в Российской федерации / Под ред. А.А.Бавенко.-М.:АСПО-проект,2005.

3. Нестерович Н.В, Смирнов В.И. Конкурсные торги на закупку продукции для государственных нужд / Под ред.А.Т.Свинаренко.-М.: ИНФРА-М, 2000.

Dissertant Y.C.Binnətov
Azərbaycan Memarlıq və İnşaat Universiteti

Podrat bazarlıqları mexaniziminin inkişafı- iqtisadi münasibətlər sisteminin əsasıdır.

Xülasə

Məqalədə Azərbaycanda, ABŞ-da və avropa ölkələrində dövlət ehtiyaclarını təmin etmək üçün tikinti layihələrinin həyata keçirilməsində podratçıların seçilməsində əsas meyarlar, onun mahiyyəti və podrat bazarlıqlarının iştirakçıları və bazarlığın keçirilməsi qaydaları, sifarişçinin konkurs sənədləri və namizədlərin konkurs ərizələri məsələlərinin araşdırılması öz əksini tapmışdır.

Açar sözlər: mahiyyət, növ, bazarlıq, rəqabət, prinsip, podrat, sistem, qazanc, təklif, məhsul, informasiya, vəziyyət, resurs.

**Abstract**

**THE DEVELOPMENT OF CONTRACT BIDDING MECHANISM AS A BASIS OF ECONOMIC RELATIONS**

**Yusif BINNATOV**
*Azerbaijan Architectual and Construction University, Ph.D student*

**Keywords:** nature, types, biddings, competition, principle, contract, system, benefits, offer, products, information, status, resources

The nature and types of contract bidding in the construction, the paticipants, procedures and their implementation, the contents of customers solicitating documents, the competitive application, the main criteria in selection contractors of construction projects for government needs in Azerbaijan, USA and Europe are considered in the article.

**Резюме**

**РАЗВИТИЕ МЕХАНИЗМА ПОДРЯДНЫХ ТОРГОВ-ОСНОВА СИСТЕМЫ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ**

**Юсиф БИННАТОВ**
*Диссертант Азербайджанского Архитектурно-Строительного Университета*

**Ключевые слова:** Сущность, виды, торги, конкуренция, принцип, подряд, система, выгодиое, предложение, продукция, информация, положение, ресурсы

В статье рассмотрены сущность и виды подрядных торгов в строительстве, участники процедуры и порядок их проведения, содержание конкурсной документации заказчика и конкурсной заявки претендента, основные критерии при выборе подрядчиков для выполнения строительных проектов для государственных нужд как в Азербайджане,так и в США и странах Европы.

# AZƏRBAYCANDA NƏQLİYYAT XİDMƏTLƏRİ BAZARININ FORMALAŞMASINDA BEYNƏLXALQ LAYİHƏLƏRİN ROLU

**i.f.d., dos. Aqil Məhiyəddin oğlu ƏSƏDOV**
*Azərbaycan Universitetinin "Ümumi iqtisadiyyat" kafedrasının baş müəllimi*
**Anar Ziya oğlu MƏMMƏDOV**
*AMEA İqtisadiyyat İnstitutunun doktorantı*

**Rəyçi:** AMEA, İqtisadiyyat İnstitutunun "Xidmət sahəsinin inkişaf problemləri" şöbəsinin 18 fevral 2015-ci ilk tarixli, 04 saylı protokol

**Açar sözlər:** nəqliyyat, xidmət bazarı, nəqliyyat xidmətləri

Azərbaycan Respublikasında yeni sosial-iqtisadi münasibətlərə keçid bu sahədə bir sıra effektiv ciddi və uğurlu iqtisadi islahatların həyata keçirilməsi prosesini sürətləndirmişdir. Ölkəmizdə iqtisadiyyatın bütün sahələrində, eyni zamanda nəqliyyat sektorunda da bu yönümdə vaxtında aparılan proseslər tədricən öz müsbət nəticələrini verməkdədir. Məhz, bu baxımdan nəqliyyat xidmətləri bazarı (NXB) daxilində nəqliyyat növlərinin intensiv inkişafı, azad rəqabətin və iqtisadi fəaliyyətin sərbəstliyi, istehsal olunan məhsul və xidmətlərin manesiz dövriyyəsi, iqtisadi baxımdan, milli təhlükəsizliyin təmini, əhalinin həyat səviyyəsinin, sosial müdafiəsinin və s. yaxşılaşdırılmasında ən vacib faktorlar sayılır. Araşdırmalardan aydın olur ki, əksər tədqiqatçılar dünya təcrübəsinə əsaslanaraq Azərbaycan Respublikasının NXB-ni ümumilikdə oliqapoliya bazar modeli kimi səciyyələndirirlər. İqtisadi nəzəriyyə kursundan bildiyimiz kimi oliqapoliya çox da böyük olmayan müəssisələrin (bizim nümunədə ayrı-ayrı nəqliyyat növləri üzrə) çoxsaylı istehlakçılara eyni (həmcins) məhsul və ya xidmətlərin təklif edilməsidir. Belə bir şəraitdə qiymət rəqabəti aşağı səviyyəli elastik tələbatla əlaqəli olduğundan bu hal adətən qeyrisəmərəli hesab olunur. Oliqapoliyalı nəqliyyat bazar modelində sistemli olaraq marketinq yanaşması ilə nəqliyyat istifadəçilərinin maraqlarına uyğun qiymət metodunun tətbiqi daha məqsədəuyğun hesab olunur [9,s.100-108]. Nəqliyyat xidmətləri bazarında bütün nəqliyyat növlərinin - dəmir yolu, dəniz, hava, boru və avtomobil nəqliyyatının təmsil olunması, ümumi halda, ölkəmizdə, sahəvi bazar kompleksinin tam formalaşmasına imkan verir. Araşdırmalara əsaslanaraq, milli nəqliyyat xidmətləri bazarında, müxtəlif istiqamətlər üzrə nəqliyyat xidmətlərinin ümumi səmərəlilik meyarlarına aşağıdakıları aid etmək mümkündür:

- nəqliyyat xidmətlərindən istifadə edənlər üçün - əsasən ümumi nəqliyyat xərclərinin, o cümlədən məhsulun nəqletmədə itkisiz saxlanılması, korlanmaması və oğurlanmaması məqsədləri üçün xərclərin minimal olmasını, nisbətən yüksək çatdırılma sürəti, fasiləsizlik, əlverişli daşınma şərtləri;
- cəmiyyət üçün - ətraf mühitin, ekologiyanın mühafizəsi, cəmiyyətin ayrı-ayrı sosial təbəqələrinin tələbatının təmin edilməsi və s. [5; 6; 9,s.103-107].

Son illər ölkəmizdə bütün dünyada olduğu kimi, nəqliyyat kompleksinin fəaliyyətinin

tənzimlənməsi istiqamətində onun hüquqi-iqtisadi və təşkilati əsaslarını müəyyənləşdirən müvafiq normativ-hüquqi baza formalaşdırılmış, o cümlədən, "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Qanunun "Nəqliyyatın iqtisadi fəaliyyətinin əsasları" adlı III fəsilinin VIII maddəsində nəqliyyat sektorunda formalaşan münasibətlərin, nəqliyyat xidmətlərinin mahiyyəti dolğun şəkildə təsvir olunmuşdur [1]:

- nəqliyyatda iqtisadi münasibətlərin əsasını nəqliyyat xidmətlərinə tələb və təkliflər bazarı formalaşdırır;
- nəqliyyat müəssisələri və daşıyıcılar öz fəaliyyətlərini kommersiya və təsərrüfat prinsipləri əsasında həyata keçirə bilərlər;
- nəqliyyat müəssisələri və daşıyıcıları nəqliyyat xidmətlərini qanunvericiliyə uyğun bağlanmış müqavilələr əsasında həyata keçirmək imkanına malikdirlər və s. Aydındır ki, hər bir fəaliyyət, eləcə də fəaliyyətlər məcmusunun formalaşması və səmərəli şəkildə həyata keçirilməsi üçün müvafiq normativ-hüquqi bazanın olması zəruri şərtlərdən biridir. Eyni zamanda, hər bir sahədə olduğu kimi, nəqliyyat xidmətləri bazarının da özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur. İndi isə, Azərbaycan Respublikasında nəqliyyat xidmətləri bazarının formalaşması xüsusiyyətlərini avtomobil nəqliyyatı timsalında nəzərdən keçirək.

Avtomobil nəqliyyatı üzrə müasir xidmətlər bazarının formalaşması və inkişafı müstəqillik dövründən başlayaraq, daha dinamik vüsət almağa başlamışdır. Son illər ərzində ölkəmizdə müxtəlif nazirliklərə, sənaye, tikinti, ticarət konsernlərinə, eləcə də bütün dövlət yük və sərnişin (avtobus, taksi) müəssisələrinə məxsus (güc nazirliklərinin nəzdində olan avtomobil nəqliyyatından başqa) mövcud avtomobil nəqliyyat vasitələrinin çoxu özəlləşdirilmişdir. Avtomobil nəqliyyatında daimi qurğuların saxlanılma xərcləri nisbi cəhətdən böyük olmadığı üçün bu nəqliyyat növü qısa məsafələrdə yüksək rəqabət qabiliyyətini daha çox saxlaya bilməsi baxımından, yüklərin və yaxud sərnişinlərin tez bir zamanda "qapıdan-qapıya" çatdırılma tezliyinə malikliyi, eləcə də digər nəqliyyat növləri ilə qarşılıqlı əlaqə imkanlarının mümkünlüyü və s. üstünlükləri onun iqtisadi səmərəliliyini daha da artırır. Bundan başqa avtomobil nəqliyyatının çevikliyi, alternativ daşıma marşrutlarının seçilməsinin təminində də, yüklərin və sərnişinlərin uyğun olaraq konkret istehlakçıya və yaxud təyinat məntəqəsinə çatdırılmasında da əsas aparıcı rola malik olmasına kömək edə bilir [5; 8,s.278-283].

Keçmiş müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan Respublikasında da keçən əsrin 90-cı illərindən başlayaraq avtomobil nəqliyyatı üzrə dövlət müəssisələrində özəlləşdirmə siyasəti həyata keçirildikdən sonra, ilk dövrlərdə bu sahədə bəzi ciddi problemlər də yaranmağa başlamışdır. Ölkəmizdə aparılan struktur islahatlar nəticəsində bu seqmentdə yeni yük və sərnişin (avtobus, taksi) daşınmaları ilə əlaqəli milli nəqliyyat şirkətləri formalaşsa da, tezliklə onlarla nəqliyyat xidmətləri bazarına güclü rəqabət aparmağa qadir xeyli sayda dünya standartlarına uyğun, müasir nəqliyyat vasitələrinə malik əcnəbi nəqliyyat şirkətləri də daxil olmuşdur ki, bunun da əsas səbəbi, ölkəmizdə mükəmməl (təmiz) rəqabət bazarının təşəkkül tapması hesab oluna bilər [4,s.23-44;6].

Son dövrlər sərt rəqabət şəraitində avtomobil nəqliyyatı üzrə NXB-da həm yük, həm də sərnişin daşınmaları üzrə milli şirkətlərin bəziləri öz fəaliyyətini dayandırsalar da, onların bir qismi öz mövqelərini hələ də saxlaya bilmişlər. Bu da təbiidir, ona görə ki, rəqabət mübarizəsindən, yalnız güclülər qalib ayrılırlar. Başqa sözlə desək, yalnız bazarın tələbləri ilə ayaqlaşmağı bacaranlar rəqabət mübarizəsindən qalib çıxa bilirlər. Lakin, mövcud milli nəqliyyat şirkətlərinin, xüsusilə yük daşıma sahəsində əksəriyyətinin nəqliyyat vasitələrinin, keçmiş sovet istehsallı olması, onların yük götürmə qabiliyyətlərinin aşağı olması, bəzilərinin istismar müddətini artıq başa vurması, yerli və tranzit yüklərin (həmçinin sərnişin axınlarının) tapılmasında kifayət qədər təcrübənin olmaması səbəblərindən yaranan çətinliklər, qonşu dövlətlərlə bu nəqliyyat növü üzrə birgə qarşılıqlı əlaqələrin (loqistik xidmətlər də daxil olmaqla) effektiv təşkil olunmaması, yerli və tranzit daşıma tariflərinin kifayət qədər yüksək olması, kredit və lizinq xidmətlərindən lazımi səviyyədə bəhrələnə bilinməməsi, sahibkarların milli və şəxsi maraqlarının müvafiq qanunvericilik toplusunda hərtərəfli qorunmaması və s. səbəblər onların rəqib xarici şirkətlərlə rəqabət imkanlarını ilbəil tədricən aşağı salmaqla yanaşı, fəaliyyət dairələrinin həm daxili, həm də beynəlxalq səviyyədə nəqliyyat xidmətləri bazarında məhdudlaşmasına səbəb olmuşdur. Ölkəmizin avtomobil nəqliyyatının inkişafında əsas vasitə olan müxtəlif infrasturktur sahələrinin rekonstruksiyası, tranzit avtomobil yollarının bərpası, infrastruktur təminat və s. üzrə bəzi problemlər hələ də qalmaqdadır. Belə ki, Azərbaycanın əksər tranzit avtomobil yollarının səviyyəsi bir çox mövcud texniki-istismar göstəricilərinə görə Avropa standartlarına hələ də cavab vermir. Onlara əsasən aşağıdakılar aid edilir: yollarda orta axın sürətinin aşağı olması, oxa düşən ağırlıq normasının beynəlxalq standartlara uyğun tənzimlənməməsi, müasir yol hərəkəti üzrə işarə və nişanların bütün regional yollar üzrə tətbiq olunmaması, regionlarda kifayət qədər texniki-təmir, tibbi yardım, eləcə də istirahət, yağ-yanacaqdoldurma, telefon-rabitə əlaqəsi üzrə və s. məntəqələrin olmaması, yüksək sürət imkanlı I kateqoriyalı köməkçi yolların çatışmaması və s. aiddir. Məhz, buna görə avtomobil nəqliyyatının tranzit daşınmalarında perspektiv inkişafı üzrə bu istiqamətlərdə ciddi tədbirlərin həyata keçirilməsi çox vacibdir [4,s.275-283; 6].

Qeyd etmək lazımdır ki, respublikamızın nəqliyyat xidmətləri bazarının formalaşmasında mövcud nəqliyyat sektorunun tərkib hissəsini təşkil edən müxtəlif nəqliyyat növlərinin dinamik inkişafı çox mühüm amil hesab olunur. Məhz, bu baxımdan keçən əsrin 90-cı illərindən başlayaraq ölkəmiz müstəqil iqtisadi inkişaf yoluna qədəm qoyduqdan sonra mövcud nəqliyyat sistemlərinin potensialının artırılması, yerinə yetirilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, iqtisadi regionlar arasında nəqliyyat əlaqələrinin artırılması əsasında yük və sərnişin daşımalarının intensivliyinin sürətləndirilməsi milli nəqliyyat kompleksinin əsas məqsədləri kimi hal-hazırda həm dövlət, həm də özəl müəssisələrin qarşısında duran əsas məsələlərdən biri hesab olunur. Müstəqilliyin ilk illərində milli iqtisadiyyatın bütün sahələrində olduğu kimi nəqliyyat sektorunda da yük və sərnişindaşıma dinamikasında çox böyük geriləmələr mövcud olmuşdursa da, son iyirmi ildən artıq müddət ərzində aparılan məqsədəuyğun siyasət nəticəsində bu istiqamətdə tədricən müsbət nəticələr əldə olunmağa başlanılmışdır [5; 9,s.154-162].

Müasir dövrdə, respublikamızda nəqliyyat sektorunun inkişafına təsir edən, əsas faktorlar sırasına onun müasir infrastruktur, eləcə də texnoloji səviyyəsinin artırılmasını, region dövlətləri ilə qoşulmuş olduğumuz birgə müxtəlif iqtisadi layihələrə uyğun yük və sərnişin daşınma həcminin ildən-ilə genişlənməsini, milli iqtisadiyyatın bütün sahələrində (eləcə də, nəqliyyat sahəsinə) investisiya qoyuluşlarının artırılmasını, ölkəmizin ərazisinin Avropa və Asiyanı birləşdirən tranzit nəqliyyat qovşağına çevrilməsini və s. aid etmək olar. Sevindirici haldır ki, ölkəmizdə nəqliyyat sahəsində olan geriləmələrin vaxtında aradan qaldırılması istiqamətində dövlətimiz tərəfindən bir sıra səmərəli tədbirlərin görülməsi nəticəsində ümumi yük və sərnişin daşınma həcmində 1995-ci ildən etibarən dinamik artım təmin edilmişdir [4,s.116-145; 12].

**Azərbaycan Respublikasında nəqliyyat sektoru üzrə qeydə alınmış yük və**

| İllər üzrə | Mln ton | Mln.sərnişin |
|---|---|---|
| 1995 | 42,0 | 671,9 |
| 2000 | 80,1 | 871,5 |
| 2001 | 92,6 | 894,5 |
| 2002 | 98,4 | 895,2 |
| 2003 | 109,3 | 920,8 |
| 2004 | 117,6 | 954,2 |
| 2005 | 128,3 | 1000 |
| 2006 | 145,6 | 1063 |
| 2007 | 167,3 | 1148 |
| 2008 | 183,1 | 1242,2 |
| 2009 | 189,8 | 1328,1 |
| 2010 | 196,5 | 1387,3 |
| 2011 | 203,6 | 1491,9 |
| 2012 | 210,9 | 1617,3 |

**sərnişin daşınmalarının dinamikası**

*Mənbə: www.azstat.org/statinfo/transport/az/1-16.shtml*

Göründüyü kimi 1995-2012-ci illər ərzində ölkəmizdə nəqliyyat sektoru üzrə yük və sərnişin daşımalarının dinamikasında ciddi dəyişikliklər baş vermişdir. Belə ki, 1995-ci ilə nisbətən 2000-ci ildə yük daşınmalarının həcmi mütləq ifadədə 38,1 mln. ton, yaxud 1,9 dəfə, 2009-cu illə müqayisədə isə 147,8 mln.ton, yaxud 4,5 dəfə artmışdır. 1995-2000-ci illərdə qeydə alınmış yük daşımalarının həcmi orta hesabla 45,3 faiz, 2000-2009-cu illərdə isə 1,9% artmışdır. Eyni zamanda, bu artım 2009-2012-ci illərdə də davam etmiş və bu illər ərzində yük daşımaları 21,1 mln. ton artmışdır. Təhlil göstərir ki, yük daşımalarının həcminin qeydə alınmış artım intensivliyi son dövrlər daha da sürətlənmişdir. Analoji olaraq, nəqliyyat sektoru üzrə sərnişin daşımalarının həcmində də artım tempi müşahidə olunmuşdur. Belə ki, 1995-ci ilə nisbətən 2000-ci ildə sərnişin daşımalarının həcmi mütləq ifadədə 199,6 mln. nəfər. və ya 29,7%, 2009-cu illə müqayisədə isə 628,6 mln. nəfər və ya 1,9 dəfə

artmışdır. İstər yük daşımaları, istər sərnişin daşımaları üzrə göstəricilər üzrə 2009-2012-ci illərdə də müvafiq artım qeydə alınmışdır. Konkret olaraq, bu illər ərzində ölkəmizdə sərnişin daşınmaları 289,2 mln. nəfər artmışdır. Göründüyü kimi, ən kütləvi istifadə növü olan avtomobil nəqliyyatı üzrə 1995-ci ildən etibarən müsbət dinamika təmin olunmuşdur. Aparılan qısa təhlillərdən də aydın olur ki, avtomobil nəqliyyatı ölkəmizdə müstəqillik əldə etdikdən sonra, ən sürətli inkişaf tempinə malik nəqliyyat növü hesab olunur. Bu nəqliyyat növünün digər növlərdən fərqli bir sıra səciyyəvi xüsusiyyətləri vardır. Əslində, bu xüsusiyyətlər avtomobil nəqliyyatı sistemini SWOT və PEST təhlil edərək, sahənin üstün və zəif cəhətlərini ortaya çıxarmağı zəruri edir [4; 6; 9; 10]: - üstünlükləri: yüksək manevretmə qabiliyyəti, tələb olunan istənilən yerdə bir yerə cəmlənə bilmə imkanının mövcudluğu: müasir daşıma texnologiya üsullarının çevik tətbiqi imkanları; yüklərin və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsinin nisbətən sadə olması; orta və yaxın məsafələrdə digər nəqliyyat növlərindən fərqli olaraq yüksək iqtisadi səmərəliliyə malikliyi; yük və sərnişin göndərişləri üzrə ritmik tezliyin artırılması potensialı və s.

- çatışmamazlıqları: mükəmməl yol şəbəkəsindən asılılığı; nisbətən aşağı sərnişin tutumuna və yükgötürmə qabiliyyətinə malik olması; yük və sərnişin daşımalarında böyük məsafələrdə yüksək daşınma tariflərinin mövcudluğu, nəqliyyat vasitələrinin müasir tələbata tam cavab verməməsi və s.

Qeyd etmək lazımdır ki, yük və sərnişin daşımalarında əsas paya sahib olan avtomobil nəqliyyatı ilə daşımalar da sürətlə artmaqdadır. Ölkəmizdə ümumi yük daşıma həcminin və dövriyyəsinin artmasının əsas səbəbi isə son illər avtomobil nəqliyyatı üzrə özəlləşdirmə siyasətinin həyata keçirilməsi nəticəsində yeni milli nəqliyyat şirkətlərinin sayının, onların nəqliyyat parklarının, avtomobil nəqliyyat vasitəsilə təchizat səviyyəsinin tədricən artması, həmçinin həm Bakı, həm də regionlar üzrə yeni istehsal və infrastruktur, turizm xidmət sahələrinin yaradılması nəticəsində yük və sərnişin axınlarının, eləcə də, tranzit-nəqliyyat daşımalarının həcminin çoxalması və s. səbəb olmuşdur. Ümumiyyətlə, avtomobil nəqliyyatı üzrə son illər ölkəmizdə sərnişin daşınma həcminin artmasına həm mərkəz, həm də regional sahələr üzrə yaradılmış istehsal və xidmət sahələri üzrə yeni infrastruktur komplekslərinin sayının çoxalması, turizm sektorunun tədricən inkişafı, əhalinin maddi səviyyəsinin yaxşılaşması, əlverişli qiymət siyasətinin mövcudluğu və s. faktorlar ciddi təsir göstərmişdir [6; 11]. Bütün bunlarla yanaşı, ölkəmizdə NXB-nin formalaşmasında mühüm təsiredici amillərdən biri də beynəlxalq layihələrdir. Aydındır ki, Azərbaycan Respublikası bir sıra iri beynəlxalq və regional layihələrin təşəbbüskarı və iştirakçıdır. Nəqliyyat sahəsinə aid olan Şimal-Cənub, Şərq-Qərb (İpək yolu), Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan və s. beynəlxalq lahiyələr milli nəqliyyat sisteminin dünya nəqliyyat sisteminə yaxından inteqrasiyasına şərait yaratmaqla, həm də ölkə daxilində NXB-nin formalaşmasında əhəmiyyətli rol oynayırlar. İlk növbədə, bu layihələr ölkəyə əlavə dividentlər gətirməklə yanaşı, həm də qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqinə şərait yaradır. Eyni zamanda, bu layihələr milli nəqliyyat parkının da müasirləşməsində əhəmiyyətli təsirə malikdir. Beləliklə də, qeyd edilən layihələr həm müasir idarəetmənin və müasir yanaşmanın tətbiqinə, eləcə də müasir nəqliyyat vasitələrinin

əldə edilməsinə təkan verir. Burada digər bir mühüm cəhət ondan ibarətdir ki, beynəlxalq layihələrdə fəal iştirak, həm də daşımaların səmərəli təşkili baxımından da geniş imkanlar yaradır. Bütün bunlar isə, öz növbəsində milli NXB-nin formalaşması və təkmilləşməsində, eləcə də milli daşıyıcıların beynəlxalq bazarlara çıxışında mühüm rol oynayır. Eyni zamanda, layihələrin müsbət təsirlərini daha da artırmaq məqsədilə, ölkəmizdə müasir tələblərə uyğun yeni nəqliyyat sisteminin formalaşdırılması zəruridir. Hansı ki, bu istiqamətdə aşağıdakıların nəzərə alınması məqsədəuyğun olardı [4,s.44-53, s.295-318; 7; 11]:

- Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşmasında beynəlxalq layihələrin xüsusi rolu vardır. Belə ki, ölkəmizin TRASEKA Proqramında iştirakı Avropa ilə iqtisadi əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün böyük imkanlar yaradır. Yeni nəqliyyat sisteminin formalaşdırılmasında da başlıca hədəflər, məhz bunlar olmalıdır;
- Qlobal əhəmiyyətə malik BTC-nin istifadəyə verilməsi Azərbaycan Respublikasını nəinki regionun, eləcə də ümumilikdə Avropanın enerji təminatı və təhlükəsizliyində aparıcı bir dövlətinə çevirmişdir. Zəngin yeraltı və yerüstü sərvətləri ilə dünyanın marağını cəlb edən Azərbaycan Respublikası, həm də BTC ilə dünya gündəmində özünəməxsus yer tutur. Bütün bunlar isə, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən milli nəqliyyat sisteminin yenidən qurulması, təkmilləşdirilməsi və davamlı inkişafı üçün əlverişli zəmin yaradır;
- BTC-nin həm ölkədaxili, həm də Beynəlxalq hüquq normalarına əsaslanan ekoloji təhlükəsizliyinin etibarlı təminatı üçün kəmərin birləşdirdiyi Azərbaycan, Türkiyə və Gürcüstan dövlətləri mənəvi-hüquqi amillərin vəhdətinə nail olmalı, eləcə də bu istiqamətdə birgə və planlaşdırılmış fəaliyyət göstərməlidirlər; - Milli və beynəlxalq bazarda nəqliyyat xidmətlərinin rəqabətə davamlılıq qabiliyyətinin yüksəldilməsi istiqamətində silsilə və ardıcıl tədbirlərin həyata keçirilməsi;
- Cəmiyyətin nəqliyyat xidmətlərinə olan tələbatının dolğun şəkildə ödənilməsi, istehsalçı və istehlakçıların daşımalara olan tələbatının səmərəli şəkildə yerinə yetirilməsi, eləcə də bu məqsədlə ölkədaxili regionlararası nəqliyyat diskriminasiyasının aradan qaldırılması istiqamətində geniş miqyaslı tədbirlər planının işlənib hazırlanması və həyata keçirilməsi.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının "Nəqliyyat haqqında" Qanunu. Bakı şəhəri, 11 iyun 1999-cu il, № 683-IQ.http://www.dyp.gov.az/index.php?/az/content/220

2. "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında" Əsasnamə. "Azərbaycan" qəzeti, 11 iyun 2003-cü il;

3. "Azərbaycan 2020-gələcəyə baxış" İnkişaf Konsepsiyası, http://www.president.az/files/future_az.pdf;

4. A.M.Əsədov “Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri”, Bakı, 2014, Avropa, 338 səh.;
5. A.M.Əsədov “Azərbaycanda milli nəqliyyat sisteminin formalaşmasında və davamlı inkişafında beynəlxalq layihələrin rolu”. Bakı, AMEA İqtisadiyyat İnstitutu, Xəbərlər, 2010, № 1, səh. 48-54;
6. A.M.Əsədov “Davamlı inkişaf şəraitində nəqliyyat sektorunda modern texnologiyalardan istifadə məsələləri”. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2011, № 4, səh. 269-273;
7. Ə.Y.Nəsirov və b. “Beynəlxalq nəqliyyat dəhlizlərinin regional inkişafa təsir istiqamətləri”. Qafqaz Universiteti, “Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya”, III Beynəlxalq konfrans, Bakı, 15-17 noyabr 2010, səh. 64-67;
8. İ.H.Aliyev, S,Y.Hüseynov və b. “Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf”. Bakı, “Avropa” nəşriyyatı, 2012, 419 səh.;
9. K.Abdullayev və b. “Azərbaycanda nəqliyyat və turizm sektorlarının davamlı inkişafı: problemlər və perspektivlər”. Bakı, “Avropa” nəşr., 2011, 238 səh.;
10. S.Q.Cümşüdov və b. “Nəqliyyat infrastrukturunun inkişaf istiqamətləri (avtomobil nəqliyyatı timsalında)”. “TI-MEDIA” NPM, Bakı, 2008, 152s.;
11. S.Şiri və b. “Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafı və beynəlxalq nəqliyyat dəhlizləri”. AMEA İqtisadiyyat İnstitutu, “Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri”, Beynəlxalq konfransın materialları, səh.212-213.

## Abstract

## THE ROLE OF INTERNATIONAL PROJECTS IN THE FORMATION OF TRANSPORT SERVICES MARKET

**Aqil ASADOV**
*Senior lecturer in the Chair of “General economy” of AU*
**Anar MAMMADOV**
*Ph.D. student of the Institute of Economy of ANAS*

**Key words:** transportation services, national transport system, the transport services market, international projects, the North-South, East-West and etc.

The article clarifies the nature of transport services and lookes through socio-economic development milestones of transport services market. The authors have investigated the direction to formation of the independent transport system and looked through current situation of the national transport system, for example road transport. The article reveals the impact of international projects on the national transport system of Azerbaijan Republic. The importance of the projects in the formation of the transport services market has been explained at the end of the article with certain suggestions and recommendations for the development of the transport services market.

**Резюме**

## РОЛЬ МЕЖДУНАРОДНЫХ ПРОЕКТОВ В ФОРМИРОВАНИИ РЫНКА ТРАНСПОРТНЫХ УСЛУГ В АЗЕРБАЙДЖАНЕ

**Агил АСАДОВ**

*ст. преподователь Университета "Азербайджан"*

**Анар МАМЕДОВ**

*докторант Института Экономики, НАНА*

**Ключевые слова:** транспортные услуги, национальная транспортная система, рынок транспортных услуг, международные проекты, Север-Юг, Восток-Запад и другие

В статье была объяснена социально-экономическая сущность транспортных услуг и рассмотрены основные этапы в развитии рынка транспортных услуг в Азербайджанской Республике. Автор рассматривает меры по формированию независимой транспортной системы и исследует нынешнее состояние национальной транспортной системы, в том числе автомобильного транспорта. В статье выявлено влияние международных проектов на национальную транспортную систему в Азербайджанской Республике. В то же время, было объяснено важность проектов в формировании рынка транспортных услуг. В конце статьи даны некоторые предложения и рекомендации в направлении развития рынка транспортных услуг.

# BEYNƏLXALQ MARKETİNQ KONSEPSİYASI – MARKETİNQ FƏALİYYƏTİNİN NƏZƏRİ ƏSASI KİMİ

**Habil ASLANOV**
*i.e.n., dos. Azərbaycan Universiteti*

**Rəyçi:** i.e.d., prof. H.B.Rüstəmbəyov

**Açar sözlər:** beynəlxalq firma marketinqi, beynəlxalq kommersiya sövdələşmələri, beynəlxalq rəqabət, bazarların beynəlmiləlləşməsi

Marketinq öz-özlüyündə elə bir tarixi hadisədir ki, bunsuz bazar münasibətlərini, xüsusilə rəqabətin gündən günə daha da gücləndiyi beynəlxalq bazarda fəaliyyəti təsəvvür etmək mümkün deyildir. Mərkəzləşdirilmiş iqtisadiyyatın sərt çərçivəsinə sığmayan marketinq məvhumu – qərb iqtisadi təfəkkürünün və praktikasının məhsulu kimi qiymətləndirilə bilər.

Beynəlxalq marketinqin predmetinin hələ tam müəyyən edilməməsinə baxmayaraq, bu istiqamətdə praktiki fəaliyyət faktiki olaraq, gənc müstəqil dövlətlərin hər birində o cümlədən, Azərbaycanda ötən son illər ərzində genişlənmişdir. Ən ümumi mənada, beynəlxalq marketinq istehsal-satış məsələlərinin qloballığı ilə fərqlənərək, transmilli şirkətlər tərəfindən həyata keçirilir və bir çox ölkənin bazar ərazisini əhatə edir [1, səh.74].

Bu gün xarici iqtisadi fəaliyyət praktiki olaraq, özünün müvəqqəti eqkzotik xarakterini itirərək, artıq qısamüddətli spekulyativ məqsədlərə nail olmaq vasitəsi kimi çıxış etməyərək dünya təcrübəsi və elmi yanaşmanın öyrənilməsini tələbata çevirir.

Bütün bunlar isə öz növbəsində beynəlxalq marketinq fəaliyyətinin dərk edilməsi və nizama salınmasını aktual edir.

Hər hansı təsərrüfat subyektinin beynəlxalq aləmdə nüfuz əldə etməsi, dünya bazarında layiqli yer tutması üçün rəqabətədavamlı məhsul və xidmətlər bazarının yaradılması və təklif edilməsində başqa ölkələrlə rəqabət - fəal qarşılıqlı əlaqədə olması zəruridir. Bu məsələnin uğurlu həlli yalnız beynəlxalq marketinqin (beynəlxalq bazarın tədqiqi və proqnozlaşdırılması əsasında məhsulların istehsalı və satışının kompleks təşkili sistemi, xidmətlərin göstərilməsi, konkret xarici istehlakçıların tələbatlarının, zövqlərinin, vərdişlərinin təmin meyillilik) metod və üsullarından istifadə etməklə mümkündür.

Ümumiyyətlə, «beynəlxalq marketinq nədir» sualına verilən cavablar birmənalı deyildir. Məsələn, «marketinqin patriarxı» hesab olunan Filip Kotler marketinq miks üçün artıq ritual mnemonikaya çevrilmiş məşhur «4p» - məhsul (product), qiymət (price), yer (place), promoşn (promotion) – elementinə əlavə 2Pdə artırmaqla (siyasi qüvvə (political power) və ictimai rəy (publicopinion)) beynəlxalq marketinqin yalnız xüsusi anlayışını formalaşdırmır, həm də faktiki olaraq onu «meqamarketinq» xüsusi termini altında ümumiləşdirir [2, səh.135].

Məşhur amerikan alimi Stenli Palivoda görə, «beynəlxalq marketinq» son istehlakçıyadək alqı – satqı prosesinə cəlb olunmuş firmalar arasında qarşılıqlı münasibətlər şəbəkəsidir, əlbəttə bu zaman nəzərə almaq lazımdır ki, bu qarşılıqlı münasibətlər dövlət sərhədlərini keçir.

Anoloji mövqeni Evans və Bermanda nümayiş etdirirlər. Sonuncular beynəlxalq marketinqi daxili marketinq anologiyasından çıxış edərək müəyyən edirlər: «daxili marketinq ölkə daxili fəaliyyəti özündə ehtiva edirsə, beynəlxalq marketinq xaricdə həyata keçirilən müxtəlif fəaliyyət növlərini özündə birləşdirir». Məhz bu əlamət Filip Kotler tərəfindən beynəlxalq marketinqə verilən tərifin əsasında durur: «daxili və beynəlxalq marketinq fəaliyyətləri arasında yeganə fərq sonuncunun birdən artıq ölkədə özünə yer almasıdır». Bunu Laşi Laşda təkrar edir: «Beynəlxalq marketinq» - əmtəə və xidmətlərin ölkələrarası marketinqdir. Berkoviç və onun amerikan universitetlərindən olan digər həmkarlarının verdikləri tərif də eyni dərəcədə yığcam və əhatəlidir: «Beynəlxalq marketinq – sadəcə milli sərhədləri keçən marketinqdir».

Əlavə etmək lazımdır ki, beynəlxalq marketinqin müəyyən edilməsində çox milli marketinqi xüsusilə vurğulayan yanaşma da vardır. Sonuncu beynəlxalq və ya dövlətlərarası marketinqlə yanaşı, özündə qlobalmarketinqi də ehtiva edir. Bu cür tərifin əsasında marketinq fəaliyyətini həyata keçirən şirkətin hansı təbiətdə olması durur.

Can Cak Lambenə görə, bazarların beynəlmiləlləşməsi probleminin həlli zamanı «firma strateji marketinq həyata keçirməklə qlobal səviyyədə düşünməli və operativ marketinq həyata keçirməklə lokal fəaliyyət göstərməlidir».

Beynəlxalq marketinq anlayışına tam tərif vermək üçün nəzərə almaq lazımdır ki, beynəlxalq marketinq beynəlxalq şirkətin fəaliyyətinin milli sərhədləri hansı mərhələdə keçməsindən asılı olmayaraq istehsal sferasından başlayır və tədavül sferasında davam edir. Marketinq firma və ya hər hansı başqa bir iqtisadi strukturun istehlakçıların tələbatlarını ödəyən və lazımi mənfəətin əldə edilməsini təmin edən bilavasitə və ya dolayı (vasitəçilərin iştirakı ilə) istehsal, əmtəə və xidmətlərin irəlilədilməsi və göndərişinin həyata keçirilməsi ilə müşayiət olunan idarəetmə prosesidir. Beynəlxalq marketinq o yerdə o vaxt başlayır ki, firma (müəssisə) xarici bazara çıxmaq barədə qərar qəbul edir və marketinqin əmtəə, maliyyə və informasiya kanallarındakı birbaşa və əks əlaqələr milli sərhədləri keçir. Başqa sözlə, yuxarıda müəyyən edilmiş idarəetmə prosesi həm ilkin, həm də təyinat ölkələrin ətraf mühitlərinin təsirinə məruz qaldıqda və beynəlxalq mübadilənin (ticarətin) bir sıra şərtlərinin təsiri altına düşdükdə beynəlxalq marketinq özünü biruzə verməyə başlayır.

Şirkətin beynəlmiləlləşmə dərəcəsinin artması onun marketinq imkanlarının sürətli artımına səbəb olur. Beynəlxalq marketinqi milli marketinqdən fərqləndirən başlıca fərq məhz buradan doğur.

Beynəlmiləlləşmə şirkətin beynəlxalq marketinqinin inkişafını sürətləndirir, sonuncu isə beynəlmiləlləşmənin özünü şərtləndirir və sürətləndirir.

Xüsusi fenomen kimi beynəlxalq marketinq, «marketinqin ali məktəbi» fərdi maraqlarının beynəlmiləl iqtisadi həyatın bütün – istehsal və istehlak sahələrində birləşməsi, milli istehlakçıların mövcud tələblərinin və istehsal məqsədlərinin funksional birləşməsinin optimallaşdırmağa kömək edən xarici iqtisadi sahənin subyektlərinin fəaliyyətinin təşkilati sistemidir.

Qeyd edək ki, beynəlxalq firmanın marketinqi elmi-texniki və istehsal-satış fəaliyyətinə

və konkret milli bazarların tələbatına yönəldilir. Hər halda söhbət beynəlxalq miqyaslı fəaliyyətdən, yəni müxtəlif ölkələrin müəssisələrində cəmləşən, lakin «ana» şirkətə (başşirkətə) məxsus olan bir mülkiyyət titulu altında birləşən, təşkilati-iqtisadi idarəetmə mərkəzi kimi çıxış edən istehsaldan gedir: «Ana» şirkət xarici filialların istehsalçıları, «qız» şirkətlər tərəfindən buraxılan məhsulların növü və həcmini müəyyən edir və həmçinin onların ardınca mühüm satış bazarlarını möhkəmləndirir. Beynəlxalq firmanın marketinq fəaliyyəti qlobal miqyasda həyata keçirilir və bütövlükdə texnoloji prosesi, xüsusilə də o, qismən və ya tam şəkildə beynəlxalq firmanın xaricdəki istehsal şirkətləri arasında bölündüyü halda əhatə edir.

Beynəlxalq marketinq biznesin özünəməxsus fəlsəfəsini, müəyyən təfəkkür tərzini, həm yerli, həm də xarici istehlakçıların tələblərini daha tam ödəmək mövqeyindən istehsal qərarlarının qəbul edilməsini özündə birləşdirir.

«Ana» şirkət elmi-texniki işləmələr və buraxılan məhsul haqqında beynəlxalq və daxili əməkdaşlığı daxil etməklə istehsalın daha effektiv texnologiyasını müəyyən etmək məsələlərini öz yerli və xarici istehsal alt bölmələri qarşısında məqsədyönlü şəkildə qoyur. Burada da «ana» şirkətin struktur alt bölmələrində – fəaliyyətin son məqsədinə, yəni mənfəət əldə etməyə cavabdeh olan əsas istehsal-təsərrüfat həlqəsi kimi çıxış edən istehsal bölmələrində işlənib hazırlanan marketinq proqramları mühüm rol oynayır.

Firmanın beynəlxalq fəaliyyətini müəyyən edən marketinq proqramları ümumilikdə firmanın istehsalını planlaşdıran ilkin zəmin olmaqla, istehsalın optimal strukturunu (nomenklaturasını, çeşidini) müəyyən etməyə imkan verir. Marketinq fəaliyyətinin nəticəsi üzrə və onun əsasında beynəlxalq kommersiya sövdələşmələri bağlanılır, kommersiya əməliyyatları həyata keçirilir.

Beynəlxalq marketinq marketinqin prinsiplərinə əsaslanır və onunla oxşar struktura malikdir. Başqa sözlə, beynəlxalq marketinq də ümumi marketinqin seqmentləşdirmə, adaptasiyaolunma, innovasiya, planlaşdırma kimi əsas prinsiplərinə tabedir [4, səh.67].

Müəssisələrdə marketinqin praktiki tətbiqinin əsas forma və metodları onun bütün modelləri üçün xarakterikdir, eyni səviyyədə həm ölkə daxilində, həm də xarici bazarlarda marketinqdən istifadə edilə bilər. Fəaliyyət sahəsindən və bazarların coğrafi əhatə dairəsindən asılı olmayaraq müəssisələr tələb, təklif, rəqiblərin fəaliyyətinin araşdırılmasının, şəxsi fəaliyyətinin təhlilinin eyni metodlarından istifadə edir, eyni bir strateji alternativ əsasında istehsal-satış fəaliyyətini qururlar.

Bununla belə beynəlxalq marketinq ayrı-ayrı ölkə bazarlarının spesifikliyi ilə şərtlənən bir sıra fərqli xüsusiyyətlərə malikdir. Odur ki, dünya bazarında marketinq fəaliyyətinin hər bir mərhələsi tələbin nəinki sosial-iqtisadi, psixoloji, eləcə də milli-tarixi xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Məsələn, xarici bazarların və onların seqmentlərinin təhlili zamanı əhəmiyyətli yeri məhsul parametrlərinin bu və ya digər ölkədə onun istehlak şərtlərinə uyğunlaşması problemi tutur. Bundan başqa məhsulun artıq layihələşdirilməsi mərhələsində xüsusi təbii-iqlim şəraitinə də diqqət yetirmək vacibdir.

Beynəlxalq bazarlarda fəaliyyət göstərən rəqib qüvvələrin təhlili də özünə məxsus xüsusiyyətlərə malikdir. Geniş mənada rəqabət amilləri özündə alıcılıq imkanlarının yük-

səldilməsi uğrunda firmanın məqsədli qrupları uğrunda mübarizə aparmaq cəhdlərini və ya başqa sözlə, firmaların mümkün olan bazar seqmentlərində istehlakçıların ödəmə qabiliyyətli tələbinin məhdud həcmi uğrunda apardıqları mübarizəni təmsil edir. Daha dar mənada rəqabət qarşılıqlı cəhətdən asılı və ya müqayisə oluna bilən təkliflər arasında baş verir. Yeni kiçik firmalar üçün rəqabət bazara çıxış yolunda ciddi maneə ola bilər. Bu maneənin aradan qaldırılması yollarının tapılması üçün firma əsas rəqiblərini, xüsusilə də onun mülkiyyətinin xarakterini, maliyyə möhkəmliyini (sabitliyini), əsas strategiyasını, işgüzar əməliyyatlarının aparılma yollarını və s. bilməlidir [3, səh.112].

Amerikan iqtisadçısı Maykl Porter rəqabət iqlimini müəyyənləşdirən qüvvələri beş əsas qrupda birləşdirmişdir. Onlar firmanın öz məhsuluna qoyabiləcəyi qiymətlərə, onların çəkdiyi xərclərə, rəqabətqabiliyyətliliyini saxlamaq üçün lazım olan kapital qoyuluşuna təsir vasitəsi kimi baxırlar. Son nəticədə rəqabətin məhz beş qüvvəsi hər firmanın hesablaşmalı olduğu çərçivədə verilmiş sahədə orta mənfəətliliyi müəyyənləşdirir. Bu beş qüvvə haqqında biliyə malik olmaqla firma bazara çıxışda birbaşa toqquşmalardan və həddən artıq yüksək xərclərdən qaça bilər.

Rəqabətin beş qüvvəsi konsepsiyası – konkret bazarlarda rəqabətin intensivlik dərəcəsini praktiki təhlil etməyə imkan verən alətdir. Əslində, özü üçün yeni sahəyə məcburən daxil olmaq haqqında və ya perspektivi olmayan sahədən getmək haqqında strateji qərarların qəbulundan qabaq firmalar elə belə də hərəkət edirlər. Bunun üçün onlar sahələrdə vəziyyəti hər bir beş qüvvənin fəaliyyəti baxımından məntiqi surətdə qiymətləndirirlər. Öz imkanlarının meydana çıxmış təhlükə qarşısında müqavimət göstərməsini ölçüb-biçirlər və əsaslandırılmış qərarlar qəbul edirlər.

Məlumdur ki, xarici bazara çıxmaq istəyən müəssisələr qarşısında ekspansiya formasının seçilməsi ilə əlaqədar ümumi spesifik problemlərdən başqa xarici bazarlara çıxış üsulunun seçilməsi problemi durur.

Xarici bazarlara çıxış üsullarının fərqləndirici əlamətləri kimi aşağıdakılar nəzərdən keçirilə bilər:

1. Kapitalın hərəkət forması (məsələn: partnyorun kapitalında iştiraketmədən ixrac; kapitalda iştiraketmədən kooperasiya; şəxsi məsuliyyət altında kapitalın transferti; müəssisələr bazasında müştərək investisiyalarla birgə sahibkarlıq; birbaşa investisiya qoyuluşu (sahibolma) və başqaları).
2. Xarici bazarlara çıxışla əlaqədar olaraq xərclərin səviyyəsi.
3. Cəlbedicilik dərəcəsi (son iki xarakteristikaların nəzərə alınmasından çıxış edərək şəkilin təsvir etdiyi xarici bazara çıxış üsullarının matris təsviri).

Daha effektiv üsulun (strategiyanın) seçilməsi kompleks hesablamaları və əsaslandırmaları tələb edir.

Beynəlxalq marketinq hər ölkə üçün xarici və daxili ətraf şəraiti ayırmaqla daxili marketinqdən fərqlənir. Daxili marketinq qərarlarını qəbul etməklə firma xarici və daxili şəraitə istiqamətlənir [5, səh.136].

Daxili şərait amilləri əsasən, şirkətin məqsədlərini, onun təşkilini və strukturunu, onun

üçün resursları əldə etməyin mümkünlüyünü verir. Xarici şərait amilləri rəqabəti, istehlakçının psixologiyasındakı dəyişiklikləri, siyasi şəraiti, sosial və mədəni dəyişiklikləri, milli qanunvericiliyin tələblərini və s. birləşdirir.

Yuxarıda qeyd edilmiş xüsusiyyətlərdən başqa beynəlxalq marketinq yüksək dərəcədə kompleksliyi ilə fərqlənir. Bu, özgə mədəniyyətin, təfəkkür, dil, standart və ticarət ənənələri məcmusunun qlobal planlaşdırılmasını tələb edir. Xaricdə firmanın idarə edilməsində çalışan əməkdaşlar da bazarda xarici partnyorların məqsəd və tələbləri ilə tanış olaraq daimi təlim keçməlidirlər.

Burada mərkəzi yeri beynəlxalq iqtisadi fəaliyyətlə məşğul olmaqla firmaların həll etməsi lazım olan valyuta problemləri tutur.

İxraca istiqamətlənmiş firmalar üçün valyuta son nəticədə bütün fəaliyyətin nəticəsini müəyyən edir.

Eyni zamanda bir çox ölkələrin xroniki ticarət kəsiri də problem təşkil edir. Maliyyə riski məhz bununla əlaqədardır, belə ki, bu və ya digər dərəcədə bütün ölkə ödəmə qabiliyyətsiz ola bilər və valyuta gəlirinin köçürülmə problem meydana çıxa bilər.

Burada beynəlxalq marketinqi təşkil edən bütün kompleks problemləri şərh etməyə ehtiyac yoxdur. Yalnız onu qeyd edək ki, problemin kompleksliliyini müəyyən edən bütün amillər informasiya təminatını, çevikliyi, differensiasiyanı, kadr məsələlərinin həllini və firmanın riskə hazırlığını tələb edir.

Beləliklə, «Beynəlxalq marketinq» və ictimai münasibətlər termini əslində beynəlxalq idarəetmə alətləri kompleksinin dərkedilən və praktiki səviyyələrində üzvi birliyi kimi, eləcə də bazar mexanizmlərinin inkişafının müasir mərhələsinin xüsusiyyətlərini ümumiləşdirmiş qavrayış kimi də nəzərdən keçirmək olar. Məsələnin belə qoyuluşu ilə əlaqədar olaraq növbəti xülasə (formul, xülasə edilmiş fikir) özünə bəraət almış olur: bazar keçid mərhələsində sahibkarlıq sferasında uzunmüddətli strategiya baxımından idarəetmə-təsərrüfat qərarlarının seçimində, eləcə də kommersiya strukturlarının iqtisadi inkişaf taktikalarının müasir marketinq meyarları və alətlərinin cəlb edilməsindən qaça bilməməsi amilinin geniş dərk edilməsi lazımdır [6, səh.236].

Firma özünün beynəlxalq marketinqinin məqsəd və strategiyasını müəyyən etməyə cəhd etməlidir. Birincisi, firma özü üçün xarici satışın hansı həcminin zəruri olduğunu həll etməlidir. Azdan başlamaq lazımdır. Yalnız az sayda firmalar beynəlxalq biznesi «ev biznesi» və ya hətta daha mühüm biznes kimi nəzərdən keçirməklə daha geniş planları özlərinə rəva görürlər. İkincisi, firma neçə ölkədə fəaliyyət göstərməyə hazırlaşması qərarını qəbul etməlidir. Üçüncüsü, firma məhz hansı tip ölkələrə çıxış üçün qərar qəbul etməlidir. Bu və ya digər ölkənin cəlbediciliyi konkret məhsuldan, coğrafi amillərdən, orta illik gəlir və əhalinin sayından, siyasi şəraitdən və digər amillərdən asılıdır. Satıcı müəyyən qrup ölkələrə və ya dünyanın müxtəlif regionlarına üstünlük verə bilər.

Özü üçün mümkün beynəlxalq bazarların siyahısını tərtib etməklə firma onların hər birini təhlil etməli və bazarın ölçüsünü, bazarın artımını, biznesin aparılma dəyərini, rəqabət üstünlüklərini və riskin səviyyəsini də daxil etməklə bir neçə meyar üzrə onları qiymətləndirmə-

lidir. Məqsəd – aşağıdakı cədvəldə verilmiş indikatorların köməyi ilə hər bir bazarın potensialını müəyyən etməkdir:

**Cədvəl 1. Bazar potensialı göstəriciləri.**

| **1.Demoqrafik xarakteristikalar:** |
|---|
| • əhalinin sayı;<br>• əhalinin artım tempi;<br>• urbanizasiya dərəcəsi;<br>• əhalinin sıxlığı;<br>• əhalinin yaş strukturu və tərkibi. |
| **2. Coğrafi xarakteristikalar:** |
| • ölkənin fiziki ölçüsü;<br>• topoqrafik xarakteristikalar;<br>• iqlim şəraiti. |
| **3. İqtisadi amillər:** |
| • adambaşına düşən ÜMM;<br>• gəlirlərin bölgüsü;<br>• ÜMM-in artım tempi;<br>• İnvestisiyalar və ÜMM-in nisbəti. |

Malın işlənib hazırlanmasında bütün qərarları bu göstərici ilə qarşılıqlı əlaqədə nəzərdən keçirmək lazımdır. Həlledici amili sadalanmış ölkələrin bazarında malın qəbulu və ya qəbul edilməməsi, eləcə də investisiyaların gəlirliliyi təşkil edir. Sonra investisiyalar üzrə hansı bazarların daha çox uzunmüddətli verimi təminetməsi müəyyən edilir.

Ölkəni müəyyən etmək və öz məhsulunu orada satmaq qərarını qəbul etməklə firma bazara çıxışın optimal variantını seçməlidir.

**Ədəbiyyat:**

1. H.Allahverdiyev. Strateji planlaşdırma. Bakı, Nasir, 2004, 214 s.
2. İ.Ə.Feyzullabəylivəs. Beynəlxalq ticarətişi. Bakı. Zaman. 2001, s.327.
3. A.Ş.Şəkərəliyev. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, s.256.
4. Q.Assel. Marketinq: prinsiplər və strategiya. Moskva, 1999, s.151.
5. V.Çerenkov. Beynəlxalq marketinq. Moskva, Bilik. 1998, s.342.
6. Ş.Axundov. Marketinq. Bakı, 2006, s.642.

**Abstract**

**INTERNATIONAL MARKETING CONCEPTION AS A THEORETICAL BASE OF MARKETING ACTIVITY**



**Habil ASLANOV**

*Ph.D.in economics, Azerbaijan University*



**Reviewer:** Doctor of economics, prof. H.B.Rustambayov

**Key works:** International firm marketing, international commerce agreement, international competition, market internationalization



International marketing depends on globalization with production and sell. The process is applied by transnational companies. International marketing includes different countries markets. The sale and purchase process is the relation network between companies. In the article problems of international marketing and other directions in theoretical position are learned as well.



**Резюме**

**КОНЦЕПЦИЯ МЕЖДУНАРОДНОГО МАРКЕТИНГА – КАК ТЕОРЕТИЧЕСКАЯ ОСНОВА ДЕЯТЕЛЬНОСТИ МАРКЕТИНГА**



**Габил АСЛАНОВ**

*к.э.н., доц. Университет Азербайджан*



**Отзыв:** д.э.н., проф. Н.Б.Рустамбеков

**Ключевые слова:** Международный маркетинг фирмы, международные коммерческие соглашения, международная конкуренция, транснационализация рынков



Международный маркетинг связан с глобализацией производства и торговли. Она осуществляется транснациональными корпорациями. Международный маркетинг охватывает рынки разных государств.

В статье изучены теоретические аспекты этих и других вопросов международного маркетинга.

# MƏNBƏLƏR SABİRİN İSLAM DİNİNƏ MÜNASİBƏTİ HAQQINDA

**Fariz SÜLEYMANOĞLU**
*Azərbaycan Universitetinin dissertantı*

**Rəyçi:** fil.e.d. prof. Alxan Məmmədov
**Açar sözlər:** Mirzə Ələkbər Sabir, İslam dini, "şəriət", dindar, ateist

Azərbaycan satirasının görkəmli nümayəndələrindən biri olan Mirzə Ələkbər Sabir Azərbaycan sovet ədəbiyyatşünaslığında "ateist", "dinə qarşı mübarizə aparan" bir şair kimi qələmə verilsə də, onun həyat yolu və yaradıcılığını əsaslı və obyektiv tədqiq etdikdə aydın olur ki, bu mülahizələr tamamilə yanlışdır. Fikrimizi əsaslandırarkən, zənnimizcə, "Mirzə Ələkbər Sabir və İslam dini" mövzusunu araşdırmağa ilk öncə, Sabirin şəxsiyyətində İslam dininin rolu – onun İslama olan etiqadı məsələsindən başlamaq daha düzgün olardı. Bunun üçün bir sıra mənbələrə – Sabirin özü haqqında qeydlərinə, yaxınları və müasirləri tərəfindən Sabir haqqında yazılmış xatiratlara, şairin həyat yolunun tədqiqinə həsr olunmuş monoqrafiya və tədqiqat əsərlərinə müraciət olunmalıdır.

Sabirin dünyaya gəldiyi dövrdə - XIX əsrin ikinci yarısında Şamaxı şəhər əhalisinin böyük əksəriyyəti dindar müsəlmanlardan, daha dəqiq desək, bir-birilərinə qarşı barışmaz mövqe tutan iki məzhəbdən – şiə və sünnilərdən ibarət idi. Sabirin ata babası olan Hacı Tahir də "özünün saf etiqadı, zöhd və təqvasilə Şamaxı sünniləri arasında tanınmış bir adam idi" [7.səh-137-161]. O, kiçik oğlu Zeynalabdini (Sabirin atasını – F.S.) şiəliyi qəbul etdiyi üçün övladlıqdan rədd edəcək qədər qatı bir sünni olmuşdur. Ələkbər (Sabir - F.S.) bu cür məzhəb ixtilaflarının cərəyan etdiyi bir dövrdə dünyaya gəlmişdir. Valideynlərinin dindar müsəlman olması, onun da kiçik yaşlarından İslam dini ruhunda tərbiyə almasına, bu ruhda böyüməsinə səbəb olmuş, onlar kimi şiəlik prinsiplərini mənimsəmişdir. Ələkbər 6-7 yaşlarından namaz qılıb, oruc tutmağa başlamış və İslam dininin bu zəruri şərtlərini ömrünün sonuna qədər dərin bir məhəbbət və bağlılıqla icra etmişdir.

Sabirin 18 iyun 1910-cu ildə "Həqiqət" qəzetində "Bəha Səid" imzası ilə dərc olunan və ilk dəfə "Hophopnamə"nin 1914-cü il nəşrinə şairin əsərlərinə dərindən bələd olan Abbas Səhhət tərəfindən daxil edilmiş "Meydana çıkıyor..." hekayəsi, Sabir ədəbi irsinin görkəmli tədqiqatçıları Əziz Mirəhmədov [9.səh-3-21], Məmməd Məmmədov [4.səh-234-245] və başqalarının da təsdiq etdikləri kimi, sırf avtobioqrafik əsər olub, "hekayənin qəhrəmanı Mahmudun simasında Sabir bilavasitə öz həyatını təsvir etmişdir" [4.səh-239]. Həmin hekayədə Sabirin dini ruhda tərbiyə və təhsil alması, bu ruhda böyüməsi onun özü tərəfindən əks etdirilmişdir.

Qeyd etmək lazımdır ki, Sabirin kiçik yaşlarından ömrünün sonunadək namaz qılıb, oruc tutmasını tədqiqatçıların da bir çoxu, o cümlədən, Əli Nazim [2.səh-7-11], Məmmədkazım Ələkbərli [2.səh-12-53], Əziz Mirəhmədov [5.səh-359-363], Midhət Ağamirov [1.səh-103-

123], Kamal Talıbzadə [10, 35] də bu və ya digər şəkildə təsdiq etmişlər.

Sabirin şiələrin müqəddəs ziyarətgahlarından sayılan İraqın Kərbəla şəhərindəki İmam Hüseyn və İranın Məşhəd (Xorasan) şəhərindəki İmam Rza ziyarətgahlarını ziyarət etməsi də müasirlərinin, qələm dostlarının xatirat və məqalələrində öz əksini tapmışdır. Dahi ədibimiz Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Məmmədquluzadə bu barədə yazırdı: "Sabir çox nurani, mehriban bir şəxs idi. ...deyərdi ki, anası çox dindar arvad imiş, ziyarətə getməyi sevərmiş, oğlanları onun xətrinə dəyməmək üçün növbə ilə analarını tez-tez Kərbəlaya və Məşhədə aparırlarmış. Beləliklə, o, yeddi-səkkiz dəfə ziyarətə gedibmiş. Buna görə də Şamaxıda onu Məhəmməd Peyğəmbərin qızı Fatimeyi-Zəhra qədər müqəddəs şəxs hesab edirlərmiş" [3, 41].

Sabirin istər gənc çağlarındakı səyahətlərində, istərsə də sonralar Kərbəla ziyarətində olması ilə bağlı qeyd etmək lazımdır ki, onun İraqın Nəcəf şəhərində yerləşən İmam Əli ziyarətgahını ziyarət etməsi də şübhəsizdir. Bu qənaətimizə səbəb, İmam Əlinin şiələrin ilk və ən müqəddəs imamı qəbul edilməsi, hər iki ziyarətgahın İraq dövləti ərazisində və bir-birinə yaxın şəhərlərdə yerləşməsidir.

Şairin qardaşı oğlu Zeynalabdin Tahirzadənin "Əmimin son günləri" adlı xatiratından da göründüyü kimi, Sabir iki ilə yaxın bir müddətdə Məşhəd şəhərində yaşamışdır. Böyük satirikin İmam Rza ziyarətgahını ziyarət etməsinə görə "Məşədi" adını alması da məlumdur. Bununla bağlı qeyd etmək lazımdır ki, həm Mahmud Nədim Qaragözovun "Sabirin vəfatına dair" adlı məqaləsində [11, 167], həm Sabirin "Üç yüz on doqquz idi bəd həzar" şerinin əlyazmasının əvvəlində özü tərəfindən yazılmış qeyddə [8, 257], həm də Molla Nəsrəddin jurnalının 20 iyul 1911-ci il tarixli №26 nömrəsində Sabirin vəfatı barədə dərc olunan "Yəs" adlı nekroloqda şairin adının əvvəlində "Məşədi" sözü qeyd olunmuşdur.

Dahi satirik İslam dininin zəruri şərtlərini dərin məhəbbətlə icra etməklə bərabər, İslamda haram buyurulmuş şərab və spirtli içkilərə də böyük nifrət bəsləmişdir. Balaxanı məktəbində Sabirin şagirdi olmuş Əlisəttar İbrahimov "Sabir haqqında xatirələr" adlı xatirə məqaləsində yazır: "Sabir əsla spirtli içkilər içməzdi" [7.səh-86-88].

Sabir özü əsla spirtli içkilər içməməsi ilə bərabər, bu İslamda haram sayılan içkidən gizli şəkildə istifadə edən riyakar "din xadimlərinə" qarşı da daim barışmaz münasibətdə olmuşdur. Əmisinin "ömrü boyu dilinə şərab vurmadığını" xüsusi vurğulayan Sabirin böyük qardaşı Mehdiqulunun oğlu Zeynalabdin Tahirzadə "Əmimin son günləri" [7.səh-133-136] adlı xatiratında qeyd edir ki, Məşhəddə İmam Rza ziyarətgahını idarə edən axundlardan birinin öz zirzəmisində şərab hazırladığını və içdiyini öyrənən Sabir, onun bu əməlini camaat arasında faş etmiş və dindarlar axundu Məşhəddən qovmuşdu.

Şairin məslək qardaşı, onun satirik istedadının üzə çıxması və parlamasında əvəzsiz xidmətləri olmuş "Molla Nəsrəddin" jurnalının və ədəbi məktəbinin banisi Cəlil Məmmədquluzadə "Sabir barəsində xatiratım" məqaləsində yazırdı: "Sabir – bu təxəllüs altında bizim şairimiz deyil, Sabir – eyni səbr və təhəmmül sahibi – dindar bir şairin təxəllüsüdür..." [6.səh-157-159]. Daha sonra Sabirin Hacı Məcid Əfəndizadənin vəfatı münasibətilə "çox yanıqlı və mütəəssir" qəsidə yazmasına təəssüf edən Cəlil Məmmədquluzadə həm özünün, həm də

Sabirin dinə münasibətini belə dəyərləndirmişdir: “Onun üçün mən həmən vaxt “Sabir” ləfzini bir yanda görəndə və eşidəndə belə bir xəyalata cumuram: nə üçün dünya belə qurulubdur ki, gün ləkəsiz olmayır və qızılgül tikansız bitməyir. Və bəlkə həmin dünya qanununun təsirindəndir ki, “Hophop” kimi ən qiymətli və nadir bir şairimizin gülkarlığının içinə dindarlıq sarmaşıqları da gəlib qarışaydı gərək” [6.səh-157-159].

Dövrünün maarifpərvər ziyalısı, Balaxanıdakı Nəşri-maarif cəmiyyətinin təşkilatçılarından biri və vəkili olmuş Baxış Əhmədov “Adsız məktublara cavab” məqaləsində bununla bağlı yazırdı: “Sən (imzasız məktublarla Sabiri təhdid və təhqir edən şəxsə müraciət edilir – F.S.) onu (Sabiri – F.S.) təhqir etsən də, bizcə onun həvəsli, çalışqan, müqtədir, həm də dindar bir müəllim olduğu sabitdir” [11.səh-154-155].

Yenə böyük şairin yaxın dostlarından olmuş Mahmud Nədim Qaragözov “İrtihali-daribəqa və təəssüfi-əzəm” adlı xatiratında Sabirin ona halından şikayətləndiyi əsnada dediyi aşağıdakı sözləri də qeyd etmişdir: “– Qeyri bir yerdə birisi aşkara dinindən dönmüş olsa, əmin olunuz ki, bənim burada görməkdə olduğum tən və etisafın yüzdə birisini görməz. Halbuki, mən nə dönmüşəm və nə də dönmək fikrindəyəm. Anadan olduqdan üç gün sonra nə nam ilə tövsim edilmiş isəm, ələn o namı daşımaqdayam” [11.səh-163-166].

Məlum olduğu kimi, dahi şairimiz Sabir öz “vücudunda olan ətini xalqının yolunda çürütsə də”, xalqının bir sıra riyakar, fırıldaqçı, cahil, nadan nümayəndələrindən olmazın tənələrini, əzab-əziyyətlərini görmüşdür. Çox ağır maddi sıxıntılar içərisində yaşamış bu dahi şairi maddi ehtiyacları deyil, dövrünün bu riyakar mollalarının, “din xadimlərinin” və onlara aldanan cahil camaatın belə tənələri, əzab-əziyyətləri daha çox sarsıtmış, mənəvi əzab vermişdir. Sabirin yaxın dostu Soltanməcid Qənizadəyə yazmış olduğu məktubunda bunun açıq ifadəsini görürük: “Keçən sənə öz həmvətənlərimə xidmət etməyə hümmət bağladım, lakin bu xidmətlərə qarşı onlardan mükafat əvəzinə aldığım mücazatlara da pək ağladım. Daha taqətim, tab və səbrim başa gəlibdir. Yusif kimi ixvan əlində əsir qalmışam. Birisi sillə ilə üzümə vurur, ağuşi-məhəbbət açıb o birisi tərəfə yönəldikdə yumruğun başıma zollayır. Ondan rugərdan olub başqasına mütəvəcceh olduqda döşümdən itələyir, ağzımdan vurur, ona dal çevirəndə digəri dalımdan vurur, ağzı üstə yıxılıram... Halım fəna, güzəranım bir qəmli faciə mənziləsindədir. Bir daha Şamaxıda qalmağa tabu təvanım qalmayıbdır. Bir nəfər havadar və qəmxarım yoxdur, yenə Sizə ümidvar olub da dərdi-sər verməyə cəsarət edirəm... Acizanə istida edirəm, bundan artıq mənim burada katorqa cəzasına məhkum olub qalmağıma razı olmayasınız. Lütf və mərhəmət əlinizi mənim tərəfimə uzadıb, bu cəhənnəmdən məni xilas edəsiniz” [6.səh-178-179].

Bu yerdə Sabirin ilk dəfə 1912-ci ildə “Hophopnamə”nin titul səhifəsində “Milli şairimiz mərhum Sabirin bir rəfiqinə (yəqin ki, Abbas Səhhətə – F.S.) öz xətti ilə yazdığı şikayətnaməsindən bir nəbzə” qeydi ilə verilmiş iztirab dolu aşağıdakı misraları da yada düşür: “...Dünyadən, həyatımdən bizarəm. Bəradər, yəqin et ki, şərən (şəriətcə, şəriətə müvafi olaraq – F.S.) məsul olmaseydim, özümü məsmum edərdim (öldürərdim – F.S.). Bir dəfə dünyanın əzabindən xilas olurdum. Lakin nə etməli, tərbiyeyi-ibtidaiyyənin təsirindənmi, dindarlıqdanmıdır ki, buna vicdanən razı olamıyoram” [8, 236].

Sabirin dindarlığı barədə inkarolunmaz və tutarlı cizgilər verən bu sözlərindən də göründüyü kimi, şairin iztirab dolu həyatında əzab-əziyyətlər, sıxıntılar qarşısında əyilməməsinə, dözümlü olmasına əsas səbəblərdən biri, məhz, onun dindarlığı olmuşdur.

Belə misalların sayını yenə artırmaq olar, lakin bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, Sabirin yaxınları və müasirləri tərəfindən yazılmış xatiratların heç birində onun dindar olmasını inkar edən hər hansı bir fakta rast gəlmək olmur.

Sabir dinə şüurlu surətdə, sidq ürəkdən inanmış, dini biliklərə layiqincə yiyələnmişdir. Təsadüfi deyil ki, Sabir müəllimlik etdiyi "Məktəbi-Ümmid"də (Ümid məktəbi – F.S.) və Balaxanı məktəbində bir sıra digər fənlərlə yanaşı "şəriət" dərslərini də tədris etmişdir.

Dövrünün tanınmış mühərrirlərindən biri olan Haşımbəy Vəzirov "Yol xatiratım" [11, 153] adı altında silsilə publisist qeydlərində və Şamaxıdan göndərilmiş bir neçə müxbir məktubunda [4, 227] Sabirin "Ümid məktəbi"ndə tədris etdiyi dərsin, o cümlədən, "şəriət" dərsinin səviyyəsi yüksək qiymətləndirilirdi.

Sabirin Balaxanı məktəbində də digər fənlərlə yanaşı, "şəriət" dərsi tədris etməsini "Adsız məktublara cavab" məqaləsində Baxış Əhmədov [11.səh-154-155], şairin 1934-cü ildə çap olunmuş "Bütün əsərləri"nə yazmış olduğu müqəddimədə Seyid Hüseyn [6.səh-96-125] və "Güldürüb düşündürən şair" adlı xatiratında 1910-cu ildə Balaxanı məktəbində Sabirlə eyni vaxtda müəllimlik etmiş Paşa Vəkilov [6.səh-211-213] da təsdiq etmişlər.

Yuxarıda gətirdiyimiz faktlar da təsdiq edir ki, ömrü boyunca namaz qılıb, oruc tutan, özünün və müasirlərinin qeydlərində mömin bir müsəlman olması dəfələrlə təsdiqlənən, çalışdığı məktəblərdə təqdirəlayiq şəkildə "şəriət" dərslərini tədris edən Məşədi Mirzə Ələkbər Sabir Tahirzadə əsil dindar bir şair olmuşdur. Onu nəinki "ateist", "dinsiz" adlandırmaq, hətta onda belə bir amili axtarmaq özü də mənasız və yersizdir. Həyatı boyunca İslam dünyagörüşü Sabir şəxsiyyətinin ayrılmaz bir hissəsini təşkil etmişdir. Sabirin yaradıcılığını da tədqiq edərkən, bu əsərlərin dindar bir şairin qələmindən çıxdığını daim göz önündə tutmaq, bu prizmadan yanaşmaq, bizcə, labüddür.

**Ədəbiyyat:**

1. Ağamirov Midhət. Sabirin dünyagörüşü. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1962.

2. M.Ə.Sabir. (Məqalələr məcmuəsi) . Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1962.

3. Məmmədquluzadə Həmidə. Mirzə Cəlil haqqında xatirələrim. Bakı, 1981.

4. Məmmədov Məmməd. Sabir: mübahisələr, həqiqətlər. Bakı, Yazıçı, 1990.

5. Mirəhmədov Əziz. Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX-XX əsrlər). Bakı, Maarif, 1983.

6. Müasirləri Sabir haqqında. Tərtib edəni Abbas Zamanov. Bakı, Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1962.

7. Sabir xatirələrdə. Tərtib edəni Abbas Zamanov. Bakı, 1982.

8. Sabir. Hophopnamə. 2 cilddə. II cild. Tərtib edəni Məmməd Məmmədov. Bakı, Şərq-

Qərb, 2004.
9. Sabir. Hophopnamə. Tərtib edəni Ə.Mirəhmədov. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1954.
10. Talıbzadə Kamal. Abbas Səhhət. Bakı, 1985.
11. Zamanov Abbas. Sabir və müasirləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1973.

**Abstract**

**SOURCES ON SABIR'S ATTITUDE TO ISLAM**

**Fariz SULEYMANOGLU**
*Ph.D. student of Azerbaijan University*

**Reviewer:** Doctor of philological sciences, prof. Alkhan Mammadov
**Key words:** Mirze Alakbar Sabir, Islam "shariat" (principles of Muslim religion), believer, atheism

The article is about the role of Islam in the life of M.A.Sabir who was the famous satiric poet of Azerbaijan, the founder and standard-bearer of revolutionary satiric school. Basing on the works by the poet and the articles by his followers the author explains his thoughts. The facts and their scientific explanations convince the reader to recognize M.A.Sabir as a believing person.

**Резюме**

**ИСТОЧНИКИ ОБ ОТНОШЕНИИ САБИРА К ИСЛАМУ**

**Фариз СУЛЕЙМАНОГЛЫ**
*Диссертант Университета "Азербайджан"*

**Рецензент:** доктор филологических наук, проф. Алхан Мамедов
**Ключевые слова:** Мирза Алекпер Сабир, Ислам, «шариат (религиозное право у мусульман)», набожный, атеист

В статье говорится о роли Ислама в жизни выдающегося сатирического поэта Азербайджана, основоположника и знаменосца революционной сатирической школы Мирза Алекпер Сабир. Автор излагает свои мысли, основываясь как на собственные произведения поэта, также на статьи и воспоминания его современников. Указанные верные факты и их научные комментарии решительно убеждают читателя в том, что Сабир был набожной личностью.

# РОЛЬ СЛОВАРЕЙ В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

**Айнур ГАСАНОВА**
*преподаватель Университета "Азербайджан"*

**Отзыв:** к.фил.н., доц. Ульвия Рагимова
**Ключевые слова:** Толковый словарь, энциклопедия, словари понятий, слово

Лексикография — одна из прикладных (т. е. имеющих практическое назначение и применение) наук, входящих в современную лингвистику. Это теория и практика составления различных языковых словарей, значит, это наука о словарях, о том, как их наиболее разумно делать, вместе с тем это и сама практика составления словарей.

Понятно, что нельзя составлять словари, не понимая, что такое слово, как оно живет и как оно «работает» в нашей речи.

Лексикой называется словарный состав языка. Наука, изучающая лексику, ее развитие и ее функционирование в речи, называется лексикологией. Главной единицей лексики (т. е. наименьшей ее составной частью) является слово. Поэтому учение о слове занимает в лексикологии важнейшее место.

Каждый человек знает слово практически. И каждый свободно может назвать ряд слов (окно, земля, большой, зрелый, хорошо, гулять, читать и т. д.). Однако определить слово теоретически оказывается не так просто. Науке известно немало определений слова. Например: «Слово — это комплекс звуков, имеющий значение». Но ведь и приставка, и суффикс — комплексы звуков, имеющие значение. Другое определение: «Слово — это сочетание звуков, выражающее понятие». Однако есть слова, которые не выражают определенных понятий (да, нет, конечно, эх, ой, или, но и т. д.); кроме того, понятие можно выразить и сочетанием слов, а не отдельным словом (лист бумаги, железная дорога, маленький медвежонок), к тому же и термин «понятие» не имеет вполне строгого определения. Нередко считают, что слово— это единица языка, называющая предмет или явление действительности. Но ведь слова ой, ох, увы, ух, от, или ничего не называют. Утверждают также, слово — это потенциальное предложение; при этом как бы забывается, что нельзя определять одно неизвестное (слово) через другое неизвестное (предложение), тем более, что это другое неизвестное обычно определяется в науке через первое, т. е. через слово.

Не будем же искать единственно правильное определение слова и возьмем такое, которое можно признать наиболее пригодным, способным удовлетворительно служить изучению языка: «Слово — это наименьшая смысловая единица языка, свободно воспроизводимая в речи для построения высказываний».

Müasir dövrdə tədqiqatçıları autist uşaqların intellektual inkişaf problemi daha çox maraqlandırır. Məhz yeniyetməlik dövründə autist uşaqların intellektual inkişaf səviyyəsini daha düzgün müəyyənləşdirmək mümkündür. Tədqiqatçıların nəticələri göstərir ki, müxtəlif növ tapşırıqların xarakterindən asılı olaraq müəyyən qənaətə gəlmək mümkündür. İntellektual inkişafın aşağı və orta səviyyəsində olan yeniyetmələr qeyri-verbal testləri həll edərkən daha məhsuldar nəticə əldə edirlər. Bunun əksi olaraq intellektual inkişafı yüksək olan yeniyetmələr verbal testlərin həlli zamanı daha yüksək nəticəyə nail olurlar. Müəyyənləşdirilmişdir ki, autist yeniyetmələr ətraf aləmi özünəməxsus şəkildə qavrayırlar.

Aydındır ki, autist yeniyetmənin maraqları və aktivliyi onun sosiallaşması üçün mühüm amil sayıla bilər. Bununla belə, qeyd etmək lazımdır ki, bir çox hallarda təlim müvəffəqiyyəti yeniyetməyə ünsiyyət və münasibətlərindəki çatışmazlıqları kompensasiya etmək rolunu oynayır [4, s. 17].

Autist uşaq müəyyən dövrdə nağıllara, uşaqlar üçün yazılmış əsərlərə maraq göstərir, ordakı surətlərin həyatı onları narahat edirsə, müəyyən vaxtdan sonra bunlardan imtina edir. Sübut etməyə çalışır ki, bunlar boş şeylərdir. Əsas informasiya mənbəyi məlumat kitabçaları, ensiklopediyalar və elmi-kütləvi əsərlərdir.

Bir çox hallarda autist yeniyetmələrin idrak maraqları mənəvi-əxlaqi dəyər kəsb edən işlərlə vəhdət təşkil edir. Belə ki, autist yeniyetmə təbiətin qorunması, təmizliyə əməl olunması, ədalətin tərəfdarı, haqsızlığa qarşı dözümsüzlük kimi sahədə fəallıq göstərir. Lakin bu

sistemli şəkildə yox, situativ xarakter daşıyır. Onun dərk olunan, davamlı olması üçün autist yeniyetmə ilə fərdi və qrup halında iş aparılmalıdır.

Ağır dərəcəli autistlərin ekspressiv nitqində problemlər olur. Onların kommunikativ imkanları da məhdud olur. Onlar yaxın adamları ilə ünsiyyətə girmək üçün verbal ünsiyyətlə yanaşı qeyri-verbal ünsiyyətdən də istifadə edirlər. Ağır dərəcəli autistlərin bir qismi hətta sadə formada yazılı nitqə də yiyələnirlər.

Ağır dərəcəli autist yeniyetmələr eyni sözləri dəfələrlə təkrar edir. Dərs danışarkən mövzunu sistemli şəkildə yox, ayrı-ayrı, bir-birilə rabitəsi olmayan hissələr şəklində danışır. Maraqlıdır ki, autist yeniyetmə ana dilində danışmağa, fikrini ifadə etməyə çətinlik çəkdiyi halda xarici dildə daha böyük uğur qazana, hətta normal həmyaşıdlarını qabaqlaya bilər.

Autist yeniyetmələrin nitqi adətən qeyri-emosional, ritmi və tempi qeyri-standart olur. Bir çox hallarda isə onların nitqi emosionallığı ilə seçilir, lakin bu nitq həmsöhbətinə yox, tamamilə kənar obyektə yönəlir. Hətta bu zaman onların nitqində eyni sözlərin dönə-dönə təkrarı, eyni suallar, eyni mövzudan kənara çıxmamaq özünü göstərir. Onlarla dialoqa girmək, danışandan qulaq asan roluna keçmək xeyli çətin olur. Əqli və məntiqi xarakterli söhbətlər onlar üçün çətinlik törədir. Bir qayda olaraq, onlar sözü fikri və hərfi mənasında qəbul edirlər. Sözün sətiraltı mənasını tutmaq autist yeniyetmələr üçün mümkünsüzdür [5, s. 54].

Bütün bunlar autist yeniyetmələr üçün xarakterikdir. Hətta psixi cəhətdən normal inkişaf etmiş yeniyetmələr belə sözün mənasını tutmaqda çətinlik çəkirlər ki, bu da onların qarşılıqlı münasibətlər qurmalarına, sosiallaşmalarına maneçilik törədir.

Autist yeniyetmələr sosial əlaqələr qurmağa çətinlik çəksələr də, başqa adamlara maraq göstərirlər. Bununla belə, onlar həmsöhbətlərinin hiss və həyəcanını, istəklərini başa düşmürlər. Hesab edirlər ki, ətrafdakılar onlara diqqət göstərmirlər. Dost olmaq istəkləri alınmadıqda bunu ağrılı keçirirlər.

Məlum olduğu kimi, autist yeniyetmələrin yaşıdları ilə əlaqə qurmaları çətin olur. Maraqlıdır ki, onlar yaşıdları ilə qarşılıqlı münasibətdə olmaq istəyirlər, lakin bunu həyata keçirməyi bacarmırlar. Burada başlıca səbəb yaşıdları ilə ünsiyyətə girə bilməmək, eyni söz və fikri dəfələrlə təkrarlamaq, situasiyanı tuta bilməməkdən və s. ibarətdir. Autist yeniyetmələr üçün həmsöhbətinin dediklərinə qulaq asmamaq, nəzərə almamaq ki, qarşısındakı artıq onun dedikləri ilə bağlı məlumatlıdır, söhbətin primitivliyi daha xarakteriktir. Bundan başqa, autistlər qrupdaxili norma və qaydaları mənimsəyə bilmir, özlərindən asılı olmayaraq onu pozurlar. Eyni zamanda qrup üzvləri belə "qəribə" yaşıdlarının onların sıralarına qoşulmasına qarşı çıxırlar.

Autist yeniyetmələrin yaşıdlarının qrupuna daxil ola bilmələri iki halda mümkündür. Birincisi o zaman mümkün olur ki, autist yeniyetmənin bacarıqları ilə qrupun maraqları üst-üstə düşsün. Bu halda qrup üzvləri onu sıralarına qəbul edir və hörmətlə yanaşır.

İkinci hal isə o zaman baş verir ki, qrup üzvləri özlərinin asosial məqsədlərini onun vasitəsilə həyata keçirə bilsinlər. Autist yeniyetmələr yaşıdlarının tərif və dostcasına münasibətlərinə o dərəcədə ehtiyac duyurlar ki, onların istənilən tapşırıqlarını həvəslə yerinə yetirirlər.

Ona görə də onları manipulyasiya etmək, ədəbsiz sözlər söyləməsinə həvəsləndirmək, qrup üzvlərini şənləndirməyə təhrik etmək çox asan olur. Bu isə təbii ki, autist yeniyetmə üçün əlavə problemlərin yaranması deməkdir.

Qeyd etmək lazımdır ki, tipik yeniyetmələrin davranışlarında özünü göstərən asosial davranış autistlər üçün yaddır. Adətən autist yeniyetmələr ”ev uşağı” olduqlarından onlar bir qayda içki içmir, narkotika qəbul etmirlər. Amma şəhər nəqliyyatından istifadə etməklə, şəhərdə mənasız şəkildə tək gəzməyi xoşlayırlar. Bu zaman onları gəzintinin özü yox, nəqliyyatın hərəkəti cəlb edir. Gəzintinin formallığına baxmayaraq, o, yeniyetmə üçün müstəqil fikir və hərəkəti təmin edən vasitədir [6, s. 35].

Autist yeniyetmələrin ailədaxili münasibətləri də fərqli olur. Normal inkişaf etmiş yeniyetmələrdən fərqli olaraq onlar valideynlərinin himayəsindən çıxmaq istəmirlər. Emosional baxımdan, eləcə də məişət işləri baxımından valideynlərindən asılı olurlar. Bununla bərabər, uşağın intellektual inkişafının, eləcə də təlim fəaliyyətinin təşkilatçısı olan anası ilə gərginlik baş verə bilər. Autist yeniyetmədə belə bir fikir formalaşa bilər ki, onun çətinliklərinin baiskarı anasıdır.

Autist yeniyetmə üçün ən yaxşı adam onun atası ola bilər. Ata uşağın emosional dayağı, intellektual inkişafının köməkçisi rolunu yerinə yetirdikdə onların arasında yaxşı münasibət yarana bilər. Belə münasibət autist yeniyetmələrin yaşıdları ilə ünsiyyət və münasibət sahəsindəki çatışmazlığı kompensasiya edə bilər.

Əlbəttə, autist uşaqların valideynləri, eləcə də yaxınları tədricən vəziyyətlə barışır. Lakin yeniyetməlik yaşında sanki problem yenidən başlayır. Çünki yeniyetmənin davranışında, təlim fəaliyyətində, qarşılıqlı münasibətlərində yeni problemlər meydana çıxır. Bu isə valideynləri narahat edir, gərgin vəziyyət yaradır. Valideynlər uşağın normallaşması üçün yeni cəhdlərə başlayırlar. Əgər yeniyetmənin vəziyyəti qeyri-qənaətbəxş kimi qiymətləndirilirsə, yeniyetmənin gələcək taleyi qeyri-müəyyən qalırsa valideynlər yenidən stres keçirir, gələcəyə ümidlərini itirir. Belə olduqda mütəxəssislər –həkimlər, psixiatrlar, psixoloqlar, pedaqoqlar da çətin vəziyyətlə üzləşir. Aydındır ki, autist yeniyetmələrin sosiallaşması, intellektual inkişafı ilk növbədə ailədə həyata keçirilir.

Autist uşaqların valideynləri bir çox hallarda ümidlərini itirdiklərindən onunla sistemli, məqsədyönlü iş aparmaqdan sanki bezirlər və çıxış yolunu sərbəst buraxmaqda görürlər. Təcrübə göstərir ki, autist yeniyetmənin sonrakı sosial inkişafı əhəmiyyətli dərəcədə ailədəki psixoloji mühitdən asılıdır. Valideynlər çalışmalıdırlar ki, uşağın qarşısına yeni tələb və məqsədlər qoysunlar. Bu, yeniyetməyə sosiallaşma üçün yeni imkanlar yaradır. Müşahidələr göstərir ki, sosial deprivasiya hətta normal inkişaf etmiş yeniyetmənin də intellektual inkişafına, davranışına, norma və qaydaları mənimsəməsinə mənfi təsir göstərir.

Müşahidələr, eləcə də ədəbiyyatla tanışlıq göstərir ki, yeniyetməlik yaşında autistlərlə istər ailədə, istər məktəbdə, istərsə də sosial mühitdə işlər düzgün qurulduqda onlar tədricən fəallaşır, yaradılmış vərdişlərin inkişaf etdirilməsilə öz peşələrində, sosial münasibətlərdə böyük uğurlar qazana bilirlər. Bu isə onların fəaliyyət və davranışlarının stimullaşdırılması, yeniliyə can atmaları, həyati təcrübə qazanmaları sayəsində mümkün olur.

İstənilən kateqoriyadan olan autistlərdə qarşılıqlı sosial təsir və özünəxidmət vərdişi yaradılmalıdır. Burada tapşırıqların tədricən mürəkkəbləşməsi iyerarxiyası gözlənilməlidir. Onlar tədricən başqaları ilə ünsiyyətə girməyi bacarmalı, bu sahədə onlarda praktik və sosial vərdiş yaradılmalıdır. Bir sözlə, bütün bunlar xüsusi, məqsədyönlü, kompleks yanaşma tələb edir. Çox vacib olanlardan biri də sadə sosial normaların mənimsədilməsindən ibarətdir. Bura geyim qaydaları, salamlaşma, lazım gələndə üzr istəməyi bacarmaq və s. daxildir. İşin belə təşkili, tədricən tapşırıqların mürəkkəbləşməsi sosial inkişafa səbəb olur.

İllər keçdikcə, digər yaş mərhələsinə daxil olduğu sosial-məişət sahəsində yaradılan vərdiş özünü göstərir. Bir çox hallarda vaxtında yaradılmayan və ya mənfi vərdişlərin sonralar mənfi təzahürü üzə çıxır. Bura tənbəlliyi, passivliyi və s. aid etmək olar. Yeniyetməlik yaşında məqsədyönlü şəkildə uşağa öyrətmək olar ki, yaşlıların köməyilə öz çatışmazlıqlarını aradan qaldıra bilsin.

Autist uşaqlarla iş təcrübəsi göstərir ki, onların müsbətə doğru kiçik bir addımını da diqqətdən kənarda qoymaq olmaz. Onların davranışını öyrənən terapevtlər hər bir uşağa fərdi qaydada yanaşaraq onlarda müsbət cəhətləri inkişaf etdirməyi vacib sayırlar. Məlumdur ki, autist uşaqlarla iş zamanı ilk növbədə onlarda davranış vərdişlərinin yaradılması və möhkəmləndirilməsi vacibdir. Davranışın müsbət istiqamətdə möhkəmləndirilməsi, eləcə də neqativ olanların qarşısının alınması tədricən arzu olunan keyfiyyətin formalaşdırılmasına imkan yaradır.

Təcrübə göstərir ki, autist uşaqlarla iş zamanı müsbət nəticə əldə etmək üçün daha yaxşı vasitə onlarda müsbət motivasiyanın yaradılmasıdır. Bunun üçün onların çox adi görünən fəaliyyətini belə qiymətləndirmək, tərifləmək lazımdır. Bu cür yanaşma uşaq üçün müsbət psixoloji mühit yaradır.

Autist yeniyetmələrdə pozitiv davranışın yaradılmasında fərdi xüsusiyyətlərin də nəzərə alınması lazımdır. Autist uşaqlarla işləyən mütəxəssislərin rəyinə görə müsbət möhkəmləndirmə eyni zamanda təlim prosesində də vacib məsələlərdən sayılmalıdır. Yeniyetmə yalnız sensor təsəvvürlərdən deyil, həm də sosial reaksiyadan- təriflənmək, uğurların qeyd olunmasından və s. həvəslənir. Hər bir hərəkətin təriflənməsi isə situasiyadan asılı olaraq ona müvafiq formanın tapılmasını zəruri edir.

Autist yeniyetmələrlə münasibətdə cəzadan istifadə edilməsi heç də səmərəli üsul sayıla bilməz. Bu halda yeniyetmə özünə qapanar, ünsiyyət və münasibət qurmaqdan yayınar. Bəzən də olur ki, belə vəziyyətdə autist yeniyetmə yeni-yeni konfliktlərin yaranmasına səy göstərsin. Bununla belə autist yeniyetmədə arzu olunmayan keyfiyyətlərin möhkəmlənməsinin qarşısını almaq üçün onun tənqid olunması, adekvat tədbirlər görülməsi mümkündür. Amma bu zaman onun əksi olan müsbət sosial davranış qaydalarının yaradılması lazım gəlir. Əgər yeniyetmə diqqəti cəlb etmək üçün açıq aşkar kobudluq edir, aqressivlik göstərirsə bu zaman səbr etmək, onun sakitləşməsini gözləmək lazımdır.

Autist yeniyetmə ilə iş zamanı yalnız ümumi prinsiplərə əməl edilməsi yox, həm də praktik məsələlərə diqqət yetirmək lazımdır. Hətta əl-üzünü yumaq, dişlərini təmizləmək kimi sadə vərdişlərin yaradılması, onda tədricən digər işlərdə də bu qaydadan istifadə edə bilmək key-

fiyyəti formalaşdırır. Özünün sadə nailiyyətlərindən yaranan sevinc onu digər pozitiv işlərə də həvəsləndirir.

Autist yeniyetmələrdə müsbət keyfiyyətlərin formalaşdırılması məqsədilə edilən kömək eyni zamanda elə olmalıdır ki, o, tədricən müstəqil şəkildə onları yerinə yetirə bilsin.

Vacib olan məsələlərdən biri də müvafiq fərdi köməyin edilməsidir. Bura fiziki kömək, təqlidçilik, mənəvi dayaq və s. aid edilə bilər. Təcrübə göstərir ki, sosial-məişət vərdişlərinin yaradılmasında təbii şərait daha etibarlıdır. Bununla yanaşı bu şəraiti lazım gəldikdə süni surətdə də yaratmaq olar. Çünki autist yeniyetmələrdə yaradılan, möhkəmləndirilən hansısa keyfiyyət bir şəraitdə özünü doğrultduğu halda, digərində eyni effekti vermir.

Autist yeniyetmələr üçün xarakterik olan cəhətlərdən biri də onlarda istənilən şəraitdə, istənilən zaman motivasiya yaratmağın mümkün olmaması ilə bağlıdır. Ona görə də müvafiq şəraiti, zamanı nəzərə almaq lazımdır. Yəni həmin işə autist yeniyetmələrin özünün istəyi olmalıdır. Sadəcə olaraq bu zamanı nəzərdən qaçırmamaq lazımdır. Belədə vərdiş asanlıqla yaranır və digər işlərə də ötürülə bilir.

Autist yeniyetmələr üçün elə şərait yaradılmalıdır ki, o özünü sərbəst və inamlı hiss edə bilsin. Burada əsas vəzifələrdən biri də autist onların başqalarından asılı olmamalarının təmin edilməsidir. Bu keyfiyyət onlara yaşlaşdıqları zaman daha çox lazım olur.

ABŞ-ın Şimali Karolina Universitetinin mütəxəssisləri E. Şopler və Q. Mesubov autist yeniyetmələrin sosial mühitə adaptasiyası üçün xüsusi metodika hazırlamışlar. Bura kommunikasiya pozuntularının aradan qaldırılması üçün müalicəvi təlim proqramları daxildir. Bunun üçün autist yeniyetmələrin sosial-məişət və kommunikasiya problemlərini yüngülləşdirən mühit yaradılır.

Məlumdur ki, autistlər situasiyanın inkişafını proqnozlaşdırmaqda, onun dəyişdiyi zaman ona uyğunlaşmaqda çətinlik çəkirlər. Məhz bu çətinliklər tez-tez affektiv vəziyyətin yaranmasına, davranışda problemlərin baş verməsinə səbəb olur. Onun aradan qaldırılması isə sistemli və səbrli yanaşma tələb edir.

Autist yeniyetmələr üçün vizual şəraitin yaradılması daha səmərəli yoldur. Autistin vəziyyəti gözləri ilə görməsi onda daha yaxşı təsəvvür yaradır, nəinki onun sözlə təsvir edilməsi. Çalışmaq lazımdır ki, yaradılan təəssürat özü yeniyetməni cəlb etsin, bir işdən digərinə keçməyə sövq etsin. Həyati şəraitin funksional təşkili autist yeniyetməyə həminki anda nə etməsini özü diktə edir. İşin belə təşkili, zaman baxımından ardıcıllığın gözlənilməsi, gün rejiminin düzgün bölüşdürülməsi autist yeniyetmədə tədricən vərdişin yaranması və möhkəmlənməsinə zəmin yaradır.

Baş verən hadisələrin ardıcıllığı və autist yeniyetmənin şəxsən prosesdə iştirak etməsi onun hadisələri qavramasını asanlaşdırır. Bu zaman əyani vəsaitlərdən, eləcə də sözlü şərhlərdən istifadə olunması onun daha asan və möhkəm qavranılmasına şərait yaradır. Təlim prosesində bir hərəkətdən digərinə keçilməsi – kitabın səhifələrinin çevrilməsi, əşyaların yığışdırılması, görülən işlərin qarşısına işarə qoyulması və s. autist yeniyetmənin növbəti mərhələyə keçməsini asanlaşdırır. İş şəraitinin düzgün təşkili də yeniyetmənin davranışına aktiv təsir göstərir. Burada diqqəti yayındıran şeylərin kənarlaşdırılması, işin həcminin və

ardıcıllığının gözlənilməsi, təlim materialının düzgün seçilməsi də vacib şərtlərdəndir. Təlim materiallarının əyaniliyi, onun yeniyetmənin diqqətini cəlb etməsi unudulmamalıdır. İşin özünün strukturu imkan verməlidir ki, yeniyetmə başqasının köməyi olmadan da onu yerinə yetirə bilsin. Təlim fəaliyyətində autist yeniyetmələr üçün ideal vəziyyət o hesab edilir ki, onlar əlavə kömək olmadan bir işdən digərinə keçə bilsin. Burada əsas məqsəd autistlərin başqalarından asılılığını minimuma endirmək olmalıdır. Təlim özlüyündə autist yeniyetmələrin həyata hazırlanmasına xidmət etməlidir. Eyni zamanda onda sosial-məişət vərdişləri yaradılmalıdır.

Autist yeniyetmələrlə çalışan mütəxəssislər bir qayda olaraq hesab edirlər ki, onlar adətən mürəkkəb informasiyaları qavramaq və mənimsəməkdə, nəzəri biliklərə yiyələnməkdə çətinlik çəkir. Onlar eyni zamanda qazandıqları nəzəri bilikləri praktikaya tətbiq edə bilmirlər. Onların təlim-tərbiyə prosesində uğur qazanmaları müstəqil yaşaya bilmək üçün əldə etdikləri fiziki və sosial vərdiş qazana bilmələri hesab olunur.

Deməli, autist yeniyetmələrin təlim-tərbiyə işi o zaman səmərəli sayıla bilər ki, onlar ilk növbədə sosial-məişət vərdişləri qazansınlar, kommunikativ və peşə bacarıqlarına yiyələnsinlər. Xüsusi yaradılmış təlim-tərbiyə şəraiti elə olmalıdır ki, verilən informasiyanın, yaradılan təəssüratın norması gözlənilsin ki, yeniyetmədə həyəcan, qorxu, impulsiv davranış yaratmasın.

**Ədəbiyyat:**

1. Asperger H. Autistic phychopathy in childhood / in Autism and Asperger syndrome// Ed by U.Frith.-Cambridge: Cambridge University Press.1991, p. 37-93. Никольская О.С., Баенская Е.Р., Либлинг М.М. Аутичный ребенок. Путии помощи. Изд. 4-е. М.: Теревинф, 2007, 288 с.

2. Никольская О.С., Баенская Е.Р., Либлинг М.М. Аутичный ребенок. Пути и помощи. Изд. 4-е. М.: Теревинф, 2007, 288 с

3. Франческа А. Введиние в психологическую теорию аутизма. М.: Теревинф, 2006, 216 с....

4. Коробейников И.А. Нарушения развития и социальная адаптация. М.: ПЕРСЭ, 2002,191 с.

5. Кропотов 70. Д. Современная диагностика и коррекция синдрома нарушения внимания. СПб.: Элби, 2005, 148 с.

6. Внешняя среда и психическое развитие ребенка/ Под ред. Р.В. Тонковой- Ямпольской. М.: Медицина, 1984, 207 с.

**Abstract**

**PSYCHOLOGICAL CHARACTERISTICS OF AUTISTIC TEENAGERS AND FACTORS AFFECTING THEIR DEVELOPMENT**

**Tunzala VERDIYEVA**

*PhD. student of the Institute for Educational Issues of Azerbaijan Republic*

**Reviewer:** prof. R.I.Aliyev

**Keywords:** autism, training activity, mental development, psychological functioning, conflict

The article investigates the essense of autism and studies aspect of sex differences in children's behavior and learning activities of the Autistic. These problems of the autistic teenagers' socialization depend on the child's mental development, as well as the relationship of parents to children. The article studies notions of the autistic teenagers bringing up in boarding and secondary schools, as well as in their families. It is clear that the level of concepts in this area, as well as in the field of gender awareness of the autistic teenagers is lowest in educational boarding schools. All this in complex have a negative impact on their socialization.

**Резюме**

**ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ АУТИЧНЫХ ПОДРОСТКОВ И ФАКТОРЫ, КОТОРЫЕ ВЛИЯЮТ НА ИХ РАЗВИТИЕ**

**Тунзала ВЕРДИЕВА**

*диссертант, Институт Проблемь Образовании Азербайджанской Республики*

**Отзыв:** проф. Р. И. Алийев

**Ключевые словы:** аутизм, учебная деятельность, умственное развитие, психологическое функционирование, конфликт

В статье исследована сущность аутизма. Изучены аспекты половых различий в поведении и учебной деятельности аутичных детей. Проблемы социализации аутичных подростков зависит от психического развития ребенка, а также от отношений родителей к детям. В статье изучаются понятия аутичных подростков воспитывающихся в интернатных и средних школах, а также в их семьях. Очевидно, что уровень понятий в этой области, а также в области гендерной проблематики является самым низким у аутичных подростков воспитывающихся в образовательных школах-интернатах. И все это в комплексе оказывает негативное влияние на их социализацию.

# SOSİAL İŞ SAHƏSİNDƏ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ

**Mətanət HƏSƏNOVA**
*"Sosial sfera iqtisadiyyatı və idarə edilməsi"*
*kafedrasının baş laborantı, ADİU*

**Rəyçi:** Azərbaycan Dövlət İqtisad Unversitetinin" Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi " kafedrasının dos, i.e.n. Qurbanova F.Ə.

**Açar sözlər:** Sosial iş, sosial problemlər, təhsilin inkişafı, tədris müəssisələrinin idarə edilməsi, informasiya-kommunikasiya texnologiyaları

Sosial iş bir elm kimi XX əsrin əvvəllərindən etibarən formalaşmağa başlayır. Sosial iş əhalinin yoxsul, xüsusi köməyə ehtiyacı olan və təcrid olunmuş təbəqəsinin maraqlarının müdafiə etmək və sosial rifahını yüksəltmək uğrunda müvəkkillik edən, habelə xüsusi proqramlar və siyasət həyata keçirən bir fəaliyyət növüdür. İnkişaf etmiş ölkələrdə sosial işcilər naziriliklərdə, hökumət idarələrində, poliklinika və xəstəxanalarda, ümumi və xüsusiləşdirilmiş təhsil ocaqlarında çalışır və insanların sosial – iqtisadi rifahının yaxşılaşdırılması üçün proqramlar və siyasət işləyib həyata keçirirlər. 2002- ci ildə Açıq Cəmiyyət İnstitutu Yardım Fondu tərəfindən dəstəklənən, BDU və BTMM tərəfindən icrasına başlanan "Bakı Dövlət Universitetində sosial iş magistr proqramının yaradılması" layihəsinin əsas məqsədi də Azərbaycan beynəlxalq standartlara cavab verən yüksək ixtisaslı sosial işçilərin hazırlanmasıdır. Hal-hazırda sosial iş tibb kimi çoxşaxəli bir elmdir və onun bir neçə sahəsi vardır. Ən böyük sahələrindən Ailə və uşaqlar, Sosial iş, Psixi Sağlamlıq üzrə sosial iş, Əlillər üzrə sosial iş, Beynəlxalq Sosial iş, Yaşlılarla sosial iş göstərmək olar. Sosial iş müəyyən fəaliyyət sahəsi olaraq, yüz ildən artıqdır ki, bir çox ölkələrdə aparılır. Tarixən belə olub ki, bizim ölkədə sosial iş xidmətinin inkişafının ən gur mərhələsi Qarabağ münaqişəsi dövrünə təsadüf etmişdir. Xüsusilə son on ildə praktiki baxımında həm dövlət , həm də beynəlxalq və qeyri – hökumət qurumları tərəfindən bu sahədə xeyli iş görülmüşdür. Sosial işin mahiyyətini belə izah etmək olar:

- Sosial iş rifahlı gələcəkdir;
- Sosial iş gələcəyə ümiddir;
- Sosial iş cəmiyyətin həmrəyliyidir;
- Sosial iş hüquqların müdafiəsidir.

Hal-hazırda demək olar ki, sosial işin əsasları artıq yaradılmışdır:

- sosial iş xidmətinin bir çox sahələri yaradılıb və fəaliyyət göstərir;
- sosial işlə bağlı qanunverici aktlar artıq qəbul edilmişdir;
- sosial iş mütəxəssisələri sosial işin bütün sahələrini lazımi nəzəri işləmələri və konkret texnoloji sxemlərlə təchiz etməyə hazırdırlar;
- yüksək səviyyədə hazırlıqlı kadr potensialının formalaşdırılması üçün artıq zəmin yaradılmışdır [1].

Azərbaycanda xeyriyyəçilik qədim dövrlərdən mövcud olmuş və hal- hazırda da davam etməkdədir. Buna bariz nümunə kimi 2004-cü ildən analoqu olmayan əlahiddə statuslu ictimai qurum kimi fəaliyyət göstərən Heydər Əliyev Fondunu qeyd etmək olar ki, bu qurum da nəcib,xeyirxah və humanist insani dəyərlərə tapınaraq ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır. İctimai əsaslarla fəaliyyət göstərən Heydər Əliyev Fondunun yaradılması ideyası rəsmi səviyyədə ilk dəfə Azərbaycan Prezidentinin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında"fərmanında təsbit edilmiş, burada qarşıya qoyulan məqsədlər kifayət qədər aydın və konkret şəkildə göstərilmişdir. Fond, ilk növbədə, ümummilli liderin ölkənin sosial-iqtisadi mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasi kursun öyrənilməsi və təbliği, habelə bu ideyaların reallaşdırılması niyyətilə yaradılmışdır. Təşkilat ilk gündən həmçinin elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələrin hazırlanıb həyata keçirilməsi, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək məqsədini də qarşıya qoymuşdur. Yerli əhəmiyyətli sosial məsələlərin icrasına, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, istedad və qabiliyyətlərinin göstərilməsinə, inkişaf etdirilməsinə yardımçı olmaq qurumun məqsədləri sırasında öncül yerlərdən birini tutur. Azərbaycanın gələcəyinin təhsilli insanların çiyinləri üzərində qurulacağını böyük uzaqgörənliklə söyləmiş ulu öndər Heydər Əliyevin ideyalarını əldə rəhbər tutaraq onların gerçəkləşməsinə çalışan fond fəaliyyəti müddətində cəmiyyətdə maarifçilik xəttinin gücləndirilməsinə təkan vermiş və qısa müddət ərzində həyata keçirdiyi böyük layihələrlə dövlətin elm və təhsil strategiyası çərçivəsində qarşıya qoyduğu bir sıra vacib məsələlərin gerçəkləşməsində öz töhfəsini vermişdir. Bu sahəyə yönələn diqqət və qayğının hansı məqsəddən qaynaqlandığını, xalqın, dövlətin gələcəyi baxımından necə böyük əhəmiyyət kəsb etdiyini isə xüsusi vurğulamağa ehtiyac yoxdur. Elmin, təhsilin dinamik inkişafı, milli- mədəni irsin mənfi təsirlərdən qorunması, gənc nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, bu günün uşaqlarının sabahın layiqli vətəndaşları kimi yetişməsi yolunda məqsədyönlü işlərin görülməsi, ilk növbədə həqiqi vətənpərvərlikdən irəli gəlir [2].

Müasir dünya ölkələri, o cümlədən bütün inkişaf etmiş ölkələr təhsili strateji üstün sahə elan edir və ölkələrinin gələcək inkişafının təhsil sisteminin səviyyəsindən asılı olduğunu etiraf edir. Hər bir dövlətin gələcək inkişafı onun təhsil sistemindən mütənasib şəkildə asılı olub daimi diqqət tələb edir. Belə ki, bu gün məktəblərimizdə (ibtidai, orta, peşə, ali peşə və s.) təhsil alan şagird və tələbələr sabah müxtəlif sahələrin aparıcı mütəxəssisələrinə və rəhbərlərinə çevriləcəklər. Bu gün bu şagird və tələbələrə verilən bilik, bacarıq və davranışların real səviyyəsi , bir necə onillikdən sonra ölkəmizin ümumi səviyyəsinin göstəricisi olacaqdır. Təhsil əsasən 2 hissədən təlim və tərbiyədən ibarətdir. Bunlar arasında nisbət konkret tarixi dövrlə sosial institutların səviyyəsi ilə müəyyən olunmuşdur. Bəşəriyyətin yarandığı ilk dövrlərdən başlayaraq orta əsrlərin başlanğıcına

qədər, təhsil tərbiyə xarakteri daşıyırdı. Orta əsrlərdən başlayaraq iqtisadiyyatın inkişafı coğrafi kəşflər, dövlətin qanun dayaqlarının inkişafı, elmi inkişaf, istehsalda yeni texnika və texnologiyaların tətbiqi və digər sosial institutların əmələ gəlməsi və inkişafı təhsilin təlim qolunun inkişafına səbəb oldu [3]. Azərbaycan müstəqillik əldə edəndən sonra ölkədə təhsil sistemində islahatlar aparılmasının zəruriliyi ortaya çıxdı.

Təhsilin:

- keyfiyyətinin artırılması;
- beynəlmiləşdirilməsi;
- idarəetmə mexanizmlərinin yaradılması;
- kadrların hazırlanması və attestasiya mexanizmlərinin yaradılması.

Təhsil sahəsində aparılacaq islahatların əsas istiqamətləri olub, təcili tədbirlərin görülməsini tələb edir [5].

Azərbaycan Respublikasının Təhsil Qanunu və bu sahədə qəbul olunan islahat proqramları təhsil müəssisələrinin fəaliyyətinin yeni tələblər səviyyəsində qurulmasını zəruri etmişdir.Dünyəvi və fasiləsiz səciyyə daşıyan, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən təhsil strateji əhəmiyyət daşıyır. Tədris müəssisəsinin idarə olunması kompleks fəaliyyətdir.Təhsil müəssisəsində idarə etmənin əsas məqsədi məktəbin müəyyən edilmiş plan əsasında dövlətin qarşıya qoyduğu tələbləri həyata keçirməkdən, təlim-tərbiyə sahəsində yeniliklərin ( innovasiyaların) həyata keçirilməsində, qabaqcıl təcrübənin öyrənilib yayılmasında fəallıq göstərməsindən, səmərəli təlim mühitinin yaratmaqdan ibarətdir. İdarə etmə bir elm olub xüsusi qanunauyğunluqları, prinsipləri metodları bütövlükdə nəzəri və praktikəsasları ilə mahiyyəti daim zənginləşir. Ulu öndər Heydər Əliyev deyirdi: “Təhsil millətin gələcəyidir”. Bu konseptual ideya pedaqoji prosesdə müəllimin təlim məqsədinin əsasını təşkil edir.

Ölkədə səriştəli təhsil verənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan,iqtisadi cəhətdən dayanıqlı təhsil sistemini yaratmaq məqsədi dövlət başçısı İlham Əliyevin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyasının təsdiqi barədə sərəncam imzalayıb. Sənədin məzmununda insan kapitalının inkişafının iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil etməsi qeyd edilib. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir [1].

Azərbaycan Respublikası Prezidentinin 30 mart 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi” qayğı Dövlət proqramının (2006-2015-ci illər) həyata keçirilməsi ilə əlaqədar nəzərdə tutulmuş təşkilatı tədbirlərdən biri də uşaq evləri və internat tipli təlim-tərbiyə

müəssisələri bazasında uşaqlar üçün ailə əsaslı sosial xidmət mərkəzlərinin və alternativ xidmətlər sisteminin (qəyyumluq, himayədarlıq, tərbiyə edilmək üçün himayədar ailəyə verilməsi və s.) ümumtəhsil məktəblərinin, lisey və gimnaziyaların yaradılması, ,həmçinin sağlamlıq imkanları məhdud uşaqlar üçün internat tipli təlim-tərbiyə müəssisələrinin bir hissəsinin reabilitasiya mərkəzlərinə çevrilməsidir. Eyni zamanda yeni yaradılacaq təhsil müəssisələrində müvafiq ixtisaslar üzrə sosial işçilərin, dövlət uşaq müəssisələri işçilərinin peşə yönümünü dəyişməklə uşaqlara ailə əsaslı xidmətlər həyata keçirən sosial işçilərin hazırlanması da proqramda nəzərdə tutlmuş tədbirlərdəndir [4].

Respublikamızın sürətli iqtisadi inkişafı sosial problemlərin həlli üçün etibarlı zəmin yaradır. Bu baxımdan, son illərdə uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil alması üçün lazımi şəraitin təmin edilməsinə yönəlmiş mühüm addımlar atılmaqdadır. Uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi , hər tərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması , şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir. Son illər aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkədə yüksək inkişafa nail olunmuş, əhalinin maddi rifahı xeyli yaxşılaşmış,yoxsulluğun səviyyəsi minimuma enmiş və Azərbaycan Respublikası orta gəlirli ölkələr sırasında yer tutmuşdur. Gerçəkləşdirilən islahatlar və geniş miqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır. Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının,elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir [4].

«Azərbaycan 2020 gələcəyə baxış» inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır.Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsil alanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil pro-

sesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsil alanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır,onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir [5].

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Həmin məqsədlə müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın məktəb binası tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir bərpa işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

**Ədəbiyyat:**

1.Azərbaycanda sosial iş. Hissə I: Sosial işin əsasları Bakı-2007.
2.prof.Dr Haydar Bas Milli İqtisadi Model Bakı-2005, səh 306
3.A. Самуельсон, Вилям Д. Нордхауз. Экономика, Москва 1999, стр. 794
4.A.Ş .Şəkərəliyev Dövlətin iqtisadi siyasəti : Dayanıqlı və davamlı inkişafın məntəqəsi. Bakı-2011 səh 542
5.M.Mahmudov Dünyada təhsil sistemləri. Bakı-2014, səh 479

**Abstract**
**ACTUAL PROBLEMS OF EDUCATION IN SOCIAL WORK**
**Matanat HASANOVA**
*Senior assistand in the chair of "Economy and management of social sphere" of ASEU*

**Key words:** social work, social problems, development of education, management of educational institutions, information-communication technologies.

The main purpose of implementation of the social work program is developing qualified social workers meeting international standards. Social work has centenary prescription as a kind of activity. Within the last ten years the goverment, international organizations and NGOs pay attention to this sphere. The state pays special attention to the sphere of social work, training skilled workers for the protection of human rights.

**Резюме**

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ОБРАЗОВАНИЯ В СФЕРЕ СОЦИАЛЬНЫХ РАБОТ

**Метанет ГАСАНОВА**

*ст. лаборант Азербайджанского Государственного Университета Экономики*

**Ключевые слова:** социальная работа, социальные проблемы, развитие образования, управление учебными заведениями, информационно-коммуникационные технологии

Основной целью осуществления программы социальной работы является подготовление квалифицированных работников, отвечающих международным стандартам. Социальная работа, как вид деятельности, имеет столетнюю давность. В течении последних десяти лет государственные, международные и негосударственные организации обращают внимание этой сфере. Государство уделяет особое внимание сфере социальной работы, подготовке кадров и защите прав человека.

# MÜASİR CƏMİYYƏTDƏ FİZİKİ İMKANLARI MƏHDUD OLAN ŞƏXSLƏRİN ÜMUMİ VƏZİYYƏTİ

**Fidan ADIGÖZƏLOVA**
*Azərbaycan Universiteti, magistr*

...Sərhədləri olmayan bir həyat üçün nə qola möhtacsan, nə ayağa.
Ehtiyacın olan yalnız hüdudları olmayan bir ağıldır....
***Nick Vujicic***

**Rəyçi:** f.e.f.d., dos. Rəna Məmmədova

**Açar sözləri:** fiziki imkanları məhdud olan şəxslər, əlillər, əlillik, əlillik dərəcələri, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası, adaptasiya, sosial müdafiə, sosial status

Cəmiyyətin fiziki qüsurlulara yardım etmək qərarlılığı,qüsurlara nəyin səbəb olduğu haqqında informasiyalar,movcud olan tibbi biliklər və iqtisadi qaydalar tərəfindən müəyyən edilmişdir. Qədim və müasir dini inanclar fiziki qüsurları,bəzən cəmiyyətdən uzaqlaşdırmağa,bəzənsə əksinə,cəmiyyətə qaytarmağa çalışmışlar. Tarixə nəzər salsaq lap əvvəldən bu günəcən olan mövcud yanaşmalara fikir versək münasibətlərdə bu fərqləri daha aydın görmüş olarıq.

Qədim zamanlarda bu insanlar daha çox təzyiqlərə məruz qalmış və cəmiyyətdən daha qabarıq şəkildə təcrid olunmağa vadar olmuşlar. Buna qədim yunanların, spartalıların, yüzillər sonra romalıların, hətta ölümlə nəticələnən təzyiqlərini,daha sonra orta əsrlərdə dini ideyaların hökmran mövqe tutması ilə əlaqədar "Allahın cəzalandırdığı seçilmiş insanlar" olduqlarına inanclar mövcud idi [2.725]. Nəhayət, XIX əsrdə Amerikada fiziki imkanları məhdud olan şəxslərlərin ehtiyacları yavaş-yavaş tanınmağa başladı. Bu insanlara yardım məqsədi daşıyan ilk layihələr də bu vaxtdan yaranmağa başlamışdır.

Respublikamızda yardıma və xüsusi qayğıya ehtiyaci olan kəslərə kömək məqsədi ilə yaradılmış bir çox təşkilatlar,dövlət müəssisələri, qeyri-dövlət təşkilatları,digər ictimai birliklər mövcuddur. Xüsusi diqqəti cəlb edən mövzulardan biri də fiziki imkanları məhdud olan şəxslərə göstərilən qayğı və onların cəmiyyətdə təcridolunma hallarının qarşısını almaq üçün görülən tədbirlərdir.

Bununla əlaqədar olaraq bizim qanunlarımız çoxdur: əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanun(4).

Hazırda ölkəmizdə 432 min əlilliyi olan şəxs, 61minə yaxın isə sağlamlıq imkanları məhdud uşaq vardır.

Qeyd etmək lazımdır ki, 2011-ci ildə Dünya Səhiyyə Təşkilatının Dünya Bankı ilə birgə hazırladığı "Əlilliyi olan şəxslər haqqında" Dünya Hesabatına əsasən hazırda dünyada 650 milyon nəfər əlilliyi olan insan vardır ki,bu da yer kürəsinin təxminən 15 faizini təşkil edir. Onların ailə üzvlərini də nəzərə alsaq dünyada təqribən 2 milyard insan əlilliyin doğurduğu problemlərdən əziyyət çəkir.

Əksər ölkələrdə əhalinin 10 nəfərindən biri fiziki və ya əqli çatışmazlıqdan,25 faizi isə sağlamlıq pozuntusundan əziyyət çəkir. Göstərilən statistik rəqəmlər isə bu problemin necə də qlobal bir xarakter daşıdığını göstərir.

Bu göstəriciləri dünya səviyyəsində müqayisə etsək görərik ki,dünya üzrə əlilliyi olan şəxslərin əhali tərkibində faiz göstəricisi 15 faizdir.Azərbaycanda isə bu rəqəm 4,6 faiz təşkil edir ki,bu da MDB məkanında ən aşağı göstəricilərdən sayılır.

Hər bir ölkədə əlilliyin miqyası bir sıra faktorlarla, o cümlədən sağlamlıq vəziyyətini, səhiyyə sisteminin inkişafını, sosial iqtisadi inkişaf, hərbi münaqişələrlə və.s. səbəblərlə bağlıdır.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi dövrdən başlayaraq əlillərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparılaraq onların tibbi, sosial və peşə reabilitasiyası, məşğulluğunun təmin olunması, mənzil məişət problemlərinin həlli üçün bir sıra tədbirlər həyata keçirilmiş, bu məqsədlə çoxsaylı Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları qəbul edilmişdir [4 səh.-13-15].

Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikasında əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud olan uşaqlar ölkəmizin Konstitusiyasında, BMT Baş Məclisi tərəfindən qəbul edilmiş “Əlillərin Hüquqları haqqında” Bəyənnamədə, “Əlillərin Hüquqları haqqında” Konversiyada, BƏT-in “Əlillərin peşə reabilitasiyası və məşğulluğu haqqında” 159 nömrəli konvensiyada,”Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması”, “Əlillərin və sağlamlıq imkanları məhdud olan uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında” Qanunda və digər beynəlxalq və yerli qanunvericilik aktlarında təsbit olunma bütün hüquq və azadlıqlara malikdirlər.Həmçinin mövcud qanunvericiliyə əsasən əlilliyi olan şəxslər barəsində ayrı seçkilik qadağandır və qanunla təqib edilir.

“Əlillərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra qəbul edilmiş ilk qanunlardan biridir. Bu qanun qəbul edildiyi gündən çox ciddi əlavələrə və dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklərin bir qismi qanunun normalarının sonradan qəbul olunmuş qanunlara uyğunlaşdırılması məqsədilə həyata keçirilmişdirsə, digər bir qismi qanunun cəmiyyətdə baş verən müsbət dəyişikliklərə uyğunlaşdırılması, əlilliyin qarşısının alınmasının, əlillərin reabilitasiyasının və sosial müdafiəsinin yeni sisteminin qurulması tələblərindən irəli gəlmişdir.

Əlillərin sosial müdafiəsi deyərkən əlillərə məhdud həyat fəaliyyətini dəf etmək,onu kompensasiya etmək üçün şəraiti təyin etməyə və onlara cəmiyyətin həyatında digər vətəndaşlarla bərabər iştirak etməyə imkan yaratmağa istiqamətlənən dövlət tərəfindən zəmanət verilən iqtisadi,sosial və hüquqi tədbirlər sistemi başa düşülür.Ölkəmizdə əlillərin sosial müdafiəsini nizama salan əsas normativ – hüquqi sənədlər: “Azərbaycan Respublikasında əlillərin sosial müdafiəsi haqqında“ və “Ahıl yaşda olan və əlil vətəndaşlara sosial xidmət haqqında“ qanunlardır.

Azərbaycan Respublikasının hazırda qüvvədə olan bir sıra digər qanunvericilik aktlarında da əlilliyi olan şəxslərin hamı kimi bərabər hüquqlara malik olması və bu hüquqların həyata

keçirilməsi üçün onlara bərabər imkanların yaradılmasının zəruriliyini təsbit edir.

Bildiyimiz kimi ölkəmizin konstitusiyasında böyük bir fəsil məhz insan hüquqlarına və azadlıqlarına həsr edilmişdir. Eyni zamanda bu ali sənəddə insan və vətəndaş hüquqlarının və azadlıqlarının,Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir.

Ölkə Prezidentinin 27 iyul 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının qeyri hökumət təşkilatlarına dövlət dəstəyi" Konvensiyasında əlillərin və sağlamlıq imkanları məhdud uşaqların problemlərinin həll edilməsi ilə bağlı proqram və layihələrə üstünlük verilməsi də QHT-lərə dövlət dəstəyinin prioritet sahələri sırasına daxil edilmişdir.

Əlillik dərəcələrini, müddətini və səbəbini tibbi sosial ekspert komissiyaları müəyyən edir. Şəxsin həyat fəaliyyətinin məhdudlaşması dərəcəsindən asılı olaraq "Əlilliyin müəyyən olunması meyarlarına dair" Əsasnamə əsasında I, II və III qrup əlillik təyin edilir və "Uşaqların sağlamlıq məhdudluğunun müəyyən olunması meyarları"na əsasən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilir.

Təhlillər göstərir ki,Azərbaycan Respublikasında əlilliyin dinamikasına bir sıra amillər öz təsirini göstərmişdir. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində minlərlə soydaşımız işgəncələrlə qarşılaşmış və əlil olmuşdur. Eyni zamanda,müəyyən xəstəliklər,istehsalatda baş verən bədbəxt hadisələr və sair amillər də əlilliyin vəziyyətinə təsir etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə hər il təsdiq edilərək icra olunmuş qanun, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsini təmin edir. Bu əsasda olan Dövlət Proqramının da başlıca məqsədi məhz ölkədə uğurla həyata keçirilən sosial iqtisadi islahatlar nəticəsində qazanılmış dinamik inkişafa, davamlı tərəqqiyə əsaslanaraq, əhalinin xüsusi qayğıya ehtiyacı olan bu təbəqəsinin tibbi-sosial reabilitasiyasını kompleks şəkildə həll etməklə, onların sosial müdafiəsinin və cəmiyyətdə fəal inteqrasiyasının təmininə nail olmaqdan ibarət olmuşdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə 2015-ci il üçün "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi reabilitasiyası" Proqramı təsdiq edilib. Bu proqramda cari il ərzində əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların xarici ölkələrdə ixtisaslaşmış reabilitasiyasına şəraitin yaradılması, həmçinin respublika daxilində müalicələrinə köməklik göstərilməsi, asudə vaxtlarının təşkili məqsədilə istirahət zonalarına göndərilməsi nəzərdə tutulur. Eyni zamanda sənəddə bu təbəqədən olan insanların sosial müdafiəsi və reabilitasiyası sahəsində beynəlxalq təcrübənin tətbiqi ilə əlaqədar əməkdaşlıq və informasiya mübadiləsinin onlara diqqət və qayğının artırılması məqsədi ilə təbliğat kompaniyasının həyata keçirilməsi də əksini tapıb.

Bundan başqa qeyd olunan proqramda cari il ərzində əlilliyi olan şəxslərin doqquzuncu Ümumrespublika yaradıcılıq sərgi müsabiqəsinin keçirilməsini, bu təbəqədən olan insanlar arasında idman tədbirlərinin təşkilini və onların beynəlxalq yarışlarda iştirakına şərait yaradılmasını nəzərdə tutur. Milli qəhrəmanların tanıdılması kompaniyasının təşkili, ayrı-ayrı

əlamətdar günlər və ildönümlərlə bağlı əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara maddi və texniki yardımın təşkili, sosial xidmət müəssisələrinə texniki yardım göstərilməsi və digər tədbirlər də proqramda yer alan məsələlər sırasındadır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sığorta-pensiya sistemində aparılan islahatlar aztəminatlı əhalinin, o cümlədən əlil pensiyaçıların etibarlı sosial müdafiəsini təmin edir. 2006-cı ilin 1 yanvarından qüvvədə olan "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası qanununda əlillərin sosial müdafiəsi ilə bağlı mühüm müddəalar yer alıb, əhalinin pensiya təminatında yeni sistemin tətbiqi dövründə əlilliyə görə əmək pensiyası alan pensiyaçıların pensiyalarının əhəmiyyətli artımı baş verib.

Həm "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması,əlillərin sağlamlıq imkanları məhdud olan uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununda, həm də Əmək məcəlləsində əlillər üçün kifayət qədər təminatlar nəzərdə tutulmuşdur.

Beynəlxalq Əlillər Cəmiyyəti İctimai Birliyi 2008-ci il fevral ayının 22-sində təsis olunub, 2010-cu il iyun ayının 30-da Beynəlxalq Əlillər Dünyası İctimai Birliyi kimi rəsmi dövlət qeydiyyatına alınsa da, 9 aprel 2011-ci ildən ümumi yığıncağın qərarı ilə yenidən Beynəlxalq Əlillər Cəmiyyəti İctimai Birliyi adlandırılması qərara alınmışdır. Birliyin əsas məqsədi dünyada yaşayan bütün kateqoriyalardan olan Əlil İctimai birlikləri ilə qarşılıqlı əməkdaşlıq etməkdən və təcrübə mübadiləsi aparmaqdan bu sahədə toplanmış təcrübəni öyrənmək və respublikada tətbiq etməkdən ibarətdir. İctimai Birlik həmçinin sorğular keçirərək fiziki qüsurlu insanların qlobal problemlərinin həlli sahəsində qarşıya çıxan çətinliklərin müsbət həlli istiqamətində aidiyyəti dövlət qurumları, yeri gəldikdə isə beynəlxalq təşkilatlar qarşısında təkliflər irəli sürə bilir. Birlik lazım gəldikdə ictimai vəkillik edir və ictimai nəzarəti həyata keçirir.

Nizamnaməyə uyğun olaraq, Birlik fiziki qüsurlu insanların hüquqlarının qorunması və onların problemlərinə həsr edilmiş monitorinq aparır, müxtəlif kurslar və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər təşkil edir, konfranslar, xeyriyyə marafonları, digər mədəni-kütləvi tədbirlər həyata keçirir. Birlik Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis edə bilər [4.səh-38-44].

Bu konvensiyanın məqsədi bütün əlillər tərəfindən insan hüquqlarının və əsas azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən eləcə də onların ləyaqətinə hörmət edilməsini həvəsləndirməkdən ibarətdir.

Əlilliyi olan şəxslərin səmərəli sosial müdafiəsini təmin etmək məqsədi ilə müvafiq əsasnamənin hazırlanması zamanı əlilliyin təyin olunma meyarlarının bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha da təkmilləşdirilməsini və əlilliyin qruplara görə deyil, faiz dərəcələrinə görə müəyyən edilməsi, habelə bəzi xəstəliklərə görə 18 yaşınadək uşaqlara sağlamlıq imkanları məhdudluğun, 18 yaşından yuxarı vətəndaşlara isə əlillik dərəcəsinin təyin edilməsinin meyarlarına daxil edilməsi ilə bağlı təkliflər bu qəbildəndir.

Əlilliklə bağlı müasir yanaşma tələb edir ki, ilk növbədə əlilliyin qarşısının alınması,

mövcud əlillərin reabilitasiya nəticəsində sağlam insanlar kimi cəmiyyətə qaytarılması məsələlərinə daha çox diqqət yetirilsin. Əlilliyin qarşısının alınması həyatın müxtəlif sahələrini əhatə edən bir sıra kompleks tədbirlərin görülməsini tələb edir.Bu tədbirlərə əsasən xəstəliklərin profilaktikası,müayinəsi və müalicəsinin səmərəliliyinin yüksəldilməsini, əməyin təhlükəsizliyi və mühafizəsi ilə bağlı norma və qaydaların tələblərinə daha ciddi riayət edilməsini, insanların öz sağlamlıqlarına məsuliyyətli yanaşmalarını aid etmək olar. Lakin əlilliyin qarşısının alınmasına yönəlmiş tədbirlər nə qədər düzgün təşkil edilsə də, insanları xəstələnməkdən, xəsarətlərdən, zədələrdən qorumaq da mümkün deyildir, onu yalnız azaltmaq, minimuma endirmək mümkündür. Xüsusilə, texnoloji proseslərin istehsalata daha yaxından nüfuz etməsi, texnogen və təbii fəlakətlər, streslər insan sağlamlığına təhlükənin mövcudluğunu daha da artırır. Digər tərəfdən ölkəmizin zorla müharibəyə cəlb edilməsi nəticəsində cəbhə bölgəsində xidmət edən hərbi qulluqçularımız, orada yaşayan mülki vətəndaşlarımız həlak olur və yaralanır, xəsarət alırlar.

Əlillərə-müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatına tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyat pozuntuları olan insanlar aiddir.

Məlumdur ki, əlilliyi doğuran səbəblərin aradan qaldırılması bu qəbildən olan insanların hüquqlarının müdafiəsi, reabilitasiyası, onlara ictimai həyatın bütün sahələrdə iştirak etmək üçün bərabər imkanların yaradılması, öz fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq surətdə olduğun həyat sürmələri üçün zəruri olan tədbirlərin görülməsi demokratik dövlətləri, beynəlxalq təşkilatları, milli insan hüquqları və vətəndaş cəmiyyəti institutlarını düşündürən, narahat edən problemlərdən biri kimi daim diqqət mərkəzindədir.

İlk növbədə əlilliyi olan insanların cəmiyyətə inteqrasiyasına mane olan fiziki maneələr aradan qaldırılmalı, onlara digər insanlar kimi təhsil, məşğulluq, səhiyyə, informasiya-kommunikasiya və.s. xidmətlərdən bərabər imkanlar əsasında istifadə edə bilmələri üçün zəruri olan bütün şərait yaradılmalı, tibbi, peşə-əmək və sosial reabilitasiya məsələlərinə daim ciddi fikir verilməlidir.

Təbii ki, əlilliyi olan insanların bərabər hüquqlara malik olmalarını nəzərdə tutan qanunvericilik aktlarının mövcud olması heç də onlar üçün bərabər imkanlar yaradılması demək deyildir. Baxın, bu gün əlilliyi olan şəxslərin ictimai nəqliyyatdan istifadəsi, parklarda istirahəti, dövlət və ictimai xarakterli binalardan istifadəsi təmin edilmirsə, əgər sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birlikdə inklyuziv təhsil almasına şərait istənilən səviyyədə deyildirsə, əgər onların işlə təmin edilməsində qarşıya çıxan problemlər aradan qaldırılmayıbsa, o zaman yəqin ki, qanunların tam həyata keçirilməsindən söhbət gedə bilməz.

Gəlin bunu birmənalı qəbul edək ki, fiziki imkanları məhdud olan insanların inteqrasiyasına əhəmiyyət verməyən cəmiyyətlər özlərini bu insanların verə biləcəkləri töhfələrdən məhrum edirlər. Çünki həyatda müxtəlif səbəblərdən əlil olmuş istedadlı insanlar vardır ki, onların bacardıqları işin öhdəsindən əlilliyi olmayan insanlar gələ bilmirlər. Belə insanların aşkara çıxarılıb potensialından istifadə edilməsi isə xalqımız, dövlətimiz və cəmiyyətimiz üçün yalnız faydalı ola bilər.

Odur ki, müxtəlif qrup əlillər üçün qanunvericiliyə uyğun xüsusi şəraitin yaradılmasını, o cümlədən onların sərbəst hərəkət etməsi üçün küçələrdə, yolüstü və yolaltı keçidlərdə pandusların qurulmasını, ictimai nəqliyyat parkının nəzərdə tutulmuş yeniləşdirilməsi zamanı xüsusi qaldırıcı vasitələrlə təchiz olunmuş avtobusların alınmasını zəruri hesab edərək, bu istiqamətdə tədbirlər görülməsi ilə bağlı aidiyyəti qurumlara təkliflər verilmişdir.

Bunun üçün isə maarifləndirmə işi sürətləndirməli, cəmiyyətdə əlilliyin tibbi deyil, sosial bir problem kimi düzgün dərk olunmasına nail olmaq olduqca vacibdir.

**Ədəbiyyat:**

1. Qəhrəmanov E.Ə.,Əhmədov Y.P. "Sosial işin əsasları". Bakı. 2014, 481 s.
2. Charles Zastrow "Sosial Hizmete Giriş". İstanbul. 2000, 834 s.
3. Doğan A.R. "Engelli çocuk ve oyun". İstanbul. Doğankitap naşr. 2005 s.
4. "Əlilliyi olan şəxslərin hüquqi statusu: mövcud problemlər və qarşıda duran vəzifələr" mövzusunda Elmi-praktik konfransın materialları. Bakı. 2012, 158 s.
5. "Əlilliyi olan şəxslərin sosial müdafəsi və reabilitasiyası ilə bağlı proqram" www.mlspp.gov.az
6. "Sağlamlıq imkanları məhdud olan uşaqların inkluziv və fərdi təhsili haqqında qanunvericilik sənədlər toplusu". www.bec.az
7. "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin yaranma tarixi; Beynəlxaq Əlillər Cəmiyyəti İctimai Birliyi haqqında məlumat. www.bec.az
8. Hadi Rəcəbli Ali məktəblər üçün dərs vəsaiti "Azərbaycan Respublikasının sosial müdafiə sistemi" . Bakı, 2012, 408 s.
9. "Azərbaycanda əlil pensiyaçıların etibarlı sosial müdafiəsi təmin olunub". www.sspf.gov.az
10.. "Bu gün Beynəlxalq əlillər günündür". http://deyerler org/

**Abstract**

**GENERAL SITUATION OF THE PHYSICALLY DISABLED PEOPLE IN MODERN SOCIETY**

**Fidan ADIGOZALOVA**

*Graduate student of Azerbaijan University*

**Key words:** Persons with disabilities, disabled, disability, children with disabilities, rehabilitation, adaptation, sosial protection, social status

This article reflects the standpoint of the physicolly disabled people in modern society, their rights, approaches and difficulties they faced. We are planning to find out real potential of this people, trying to develop personal development of this group. In this regards we are planning to conduct a lot of awareness trainings carrying out measures to ensure the protection of their rights.

**Резюме**

**ОБЩЕЕ СОСТОЯНИЯ ЛИЦ С ОГРАНИЧЕННЫМФИЗИЧЕСКИМ ПОТЕНЦИАЛОМ В СОВРЕМЕННОМ ОБЩЕСТВЕ**

**Фидан АДЫГЕЗАЛОВА**

*Магистр Университета "Азербайджан"*

**Ключевые слова:** люди с ограниченными физическими возможностями, инвалиды, инвалидность, реабилитация детей с ограниченными возможностями здоровья, адаптация, социальная защита, социальный статус

В статье даются способы выявления общего состояния тех лиц у которых существуют недостатки в здоровье, а также как охранять и зашищать их права в трудные моменты их жизни.

Планируйся вявлении реальных потенциалов, а также способы для их развитии как личность, проведение тренингов.

# СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ ПОЖИЛЫХ ЛЮДЕЙ И ПУТИ ИХ РАЗРЕШЕНИЯ

**Нармина АМРАХОВА**
*Магистрант Университета «Азербайджан»*

**Отзыв:** доц. Университета "Азербайджан", Рена Мамедова
**Ключевые слова:** одиночество, социальная изоляция, дезадаптация, суицидальный риск, эйджизм, пенсионный возраст, социальный статус

Старение – это длительный период, полноценный этап развития, такой же, как молодость или зрелость, имеющий свои возрастные задачи и возможности самоактуализации. Это полноценный этап развития человека, причем пожилой человек обладает такими психологическими ресурсами, как мудрость, или жизненный опыт, нереализованные потребности духовно- познавательного, творческого плана, способность и желание к изменению, способность к социальным контактам и необходимость в них.

В научной литературе, касающейся проблем пожилого населения, можно выделить три основные позиции, которые определяют направление исследований и предлагаемые авторами меры социальной политики. Наиболее распространённой является точка зрения, что пожилые – это прежде всего обездоленные люди, нуждающиеся в адекватном социальном обеспечении. Другое мнение, разделяемое и самими пожилыми людьми, что эта группа населения представляет значительный человеческий потенциал, который может и должен быть вовлечён в социально активную жизнь. Третья позиция в явном виде проявляется редко, но отчётливо прослеживается при обсуждении социальной политики: пожилые - это социальный балласт общества, тормозящий реформы [2,с.52].

Российский психиатр Е.С. Авербух выделяет два крайних типа в собственном отношении к своей старости. Одни долго не чувствуют и даже не осознают свой возраст, поэтому в поведении «молодятся», подчас теряя в этом чувство меры; другие как бы переоценивают свою старость, начинают чрезмерно беречь себя, раньше времени и больше, чем это требуется, ограждают себя от жизненных треволнений [2,с.12].

Старость как период жизни людей вбирает в себя многие коренные проблемы как биолого-медицинской сферы, так и вопросы социального и личного быта общества и каждой индивидуальности. В этот период перед пожилыми людьми возникает много проблем, так как пожилые люди относятся к категории «маломобильного» населения и являются наименее защищенной, социально уязвимой частью общества. Это связано прежде всего с дефектами и физического состояния, вызванного заболеваниями с пониженной двигательной активностью. Кроме этого социальная незащищенность пожилых людей связана с наличием психического расстройства, формирующего их отношение к обществу и затрудняющего адекватный контакт с ним [13,с.29].

Из геронтологических исследований известно, что возрасту старости сопутствует ухудшение здоровья, снижение памяти, нередко спад творческой активности, нарастание неуверенности и тревожности, мнительность, обидчивость, раздражительность, нетерпимость, иногда неуживчивость и чёрствость, появление или усиление подавленности. Со старением волосы редеют, кожа становится морщинистой и теряет эластичность, появляется сутулость и уменьшается рост, ухудшается зрение и слух, "садится" голос, становится хриплым, теряет звонкие верхние частоты, изменяется форма грудной клетки [4,с.37].

В последние годы отмечается ухудшение показателей физического здоровья пожилых людей, проявляющееся в увеличении заболеваемости, инвалидности и смертности, в том числе от неестественных причин.

Среди пожилых людей небольшой процент практически здоровых. Остальные страдают различными хроническими заболеваниями, в том числе тяжелые нарушения функций органов. В структуре заболеваемости пожилых людей и их смертности хронические заболевания сердечно- сосудистой системы и злокачественные новообразования занимают первое и второе места. Распространены заболевания нервной и эндокринной систем, органов дыхания, кроветворения и пищеварения. Отличительная особенность гериатрических больных - сочетание патологических изменений различных органов и систем.

Тревогу вызывает и состояние психического здоровья пожилых людей. Если традиционно рост числа психических расстройств в позднем возрасте связывался с органическими или физическими нарушениями, ухудшающими деятельность головного мозга, то в настоящее время одними из главных причин возникновения психических заболеваний у пожилых людей становятся негативные факторы экономического, социального, психологического характера.

Особую актуальность приобретают вопросы одиночества престарелых людей. Одиноко живущие престарелые люди представляют особую группу риска, особенно те из них, кто не имеет детей. Многие из этого контингента утрачивают способность к самостоятельному обслуживанию и нуждаются в посторонней помощи.

Исследования доказали: чувство одиночества вызывает стресс. Оно провоцирует психические расстройства, в частности депрессию, и способствует развитию различных соматических заболеваний, обусловленных стрессом. Стресс, вызванный одиночеством, стимулирует выработку гормонов, повышающих частоту сердцебиений. У социально изолированных людей также повышается риск умереть от инфаркта миокарда и других тяжелых заболеваний. Многое зависит от того, насколько такой человек способен найти для себя соответствующее занятие, приспособиться к жизни, найти в ней свое место. Если он чувствует, что в нем нет надобности, что он лишний, подавленность, чувство одиночества становятся еще острее.

Специфика феномена одиночества в пожилом возрасте заключается также в том, что довольно часто одиночество приводит к суицидным поступкам. В возрасте 55–65 лет

будущее рисуется в мрачном свете, планов и намерений нет, а прошлое, наоборот, идеализируется, окрашивается в исключительно розовый цвет. У человека появляются пассивные суицидные высказывания: «жить не стоит», «всё в прошлом», «никогда не вернуть того, что было». В возрасте от 65 до 75 лет возможно возникновение суицидоопасных возрастных депрессий, а пожилых старше 75 лет постоянно преследует мысль уйти из жизни самому.

Перенести смерть близкого человека, пережить её – самый мощный стрессовый фактор жизни. В целом 25% суицидов связаны с необратимой утратой: смертью или гибелью близкого человека [9, с.68].

Но следует отметить, что овдовевшие мужчины позднего возраста редко остаются в одиночестве. Они либо умирают вскоре после смерти супруги, либо находят себе «подругу-помощницу». Для мужчины наиболее сложна встреча с ответственностью, которую предполагает солидный возраст [7, с. 178]. Для женщины основная трудность связана с ее внешностью - утратой привлекательности, переходом к «будничной жизни» без мужского внимания.

Интересные данные, касающиеся предрасположенности к одиночеству в зависимости от типа личности, были получены группой ученых Калифорнийского университета под руководством Э. Сигельмана. Среди характеристик, наиболее отрицательно влияющих на психологическую адаптируемость, ими были выделены: ощущение себя неудачником,

жалость к себе, склонность к подавленности, стремление держаться с людьми на расстоянии, избегание близкого общения; лживость и лукавство, ненадежность, враждебность к другим людям, склонность приписывать свои чувства и мотивы другим.

Еще одна проблема пожилых людей заключается в изменении их статуса и максимального продления независимой и активной жизни в старости, вызванное, прежде всего, прекращением или ограничением трудовой деятельности, пересмотров ценностных ориентиров, самого образа жизни и общения, а также возникновение различных затруднений как в социально- бытовой, так и в психологической адаптации к новым условиям.

Нарушения взаимодействия пожилых людей с обществом, с различными социальными средами, как правило, приводят к разрыву многих социальных связей и вытеснению пожилых людей из общественной жизни, т.е. к социальной дезадаптации. Можно выделить как минимум три основных аспекта социальной адаптации. Первый из них связан с изменениями условий жизнедеятельности людей в связи с научно-техническим и социальным прогрессом. Адаптация к такого рода изменениям необходима вне зависимости от возраста индивида. Второй аспект социальной адаптации связан с объективным изменением статуса пожилого человека в обществе. Третий аспект социальной адаптации связан с тем, что изменения среды в современном обществе произошли достаточно и носят кардинальный характер, что существенно ухудшило условия адаптации.

Наиболее важными проблемами, возникающими при социальной адаптации, выступают: социально-психологические проблемы (одиночество, нарушение привычного образа жизни, отсутствие внимания со стороны общества и близких); состояние здоровья; невостребованность в современном мире; экономические проблемы; бытовые проблемы.

В нашем обществе существуют достаточно устойчивые положительные стереотипы пожилых людей, в которых позитивно оцениваются их опыт, знания и умение выстоять в сложных житейских ситуациях.

Необходимость найти адекватную сферу применения активности пожилых людей связана и с тем, что пик социальной активности пожилых совпадает с предпенсионным периодом (у мужчин в возрасте 56–60 лет, у женщин – от 50 до 55 лет). По мнению В.В. Пациорковского, это связано с усилением напряжения, возникающего в связи с неизбежным освобождением от занятости [11, с.192] .

Многие исследователи обратили внимание на то, что один из самых глубоких психосоциальных кризисов личности связан с выходом на пенсию, то есть с потерей работы, в то время как другие считают, что сам по себе выход на пенсию не является причиной кризиса, а имеет отрицательное значение только при определенных чертах личности, психологической неподготовленности и неприятии положения пенсионера. Однако чаще исследователи приходят к выводу, что, выйдя на пенсию, пожилой человек частично либо полностью выключается из социальной жизни и не знает, чем себя занять.

Е.С. Авербух пишет, что сам факт выхода на пенсию является для человека психической травмой: падает его социальная значимость, страдает его престиж, его самооценка и самоуважение. Новые требования ему зачастую не под силу, он чувствует себя отсталым [1, с.11].

Ю.М. Губачев также отмечает, что "преждевременный физический и духовный покой – это изнуряющий ад", под воздействием которого старость становится ранней, ненужной, патогенной, социально обременительной, сами же старики становятся не только скучными, беспокойными людьми, но даже опасными как для самих себя, так и для других людей. Творческий труд – главное  лекарство от старости [10, с.3-19].

По данным Министерства труда США, среди пенсионеров, отстранённых от работы не по своей воле, уровень самоубийств в 12 раз выше среднего [8,с.130]. К группам повышенного суицидального риска относят (помимо других социальных групп) и лиц, вышедших на пенсию: отмечается увеличение уровня самоубийств в возрасте 50 – 59 лет [3,с. 40]. .

Также следует указать, что внутри рынка рабочей силы более пожилые имеют меньшую власть и заработок, чем молодые; существуют объективные барьеры для карьерных продвижений в позднем возрасте. Имеют место явные и латентные практики эйджизма (дискриминации по возрасту) при приёме на работу и увольнении; в профессиональном пространстве возрастные группы имеют различный престиж и ценность

для работодателей [12,с.40].

Часто пенсионеров принимают на работу, т.к. на их должности из-за низкой оплаты молодежь не идет, а с другой - в каждом третьем случае вынужденную лояльность в организациях проявляют потому, что именно пожилые обладают эксклюзивными профессиональными качествами [6, с. 57].

Большинство людей в пенсионном возрасте сохраняют работоспособность, компетентность, интеллектуальный потенциал. В настоящее время люди, вышедшие на пенсию, отстаивают свои права на активную жизнь в обществе, могут осваивать и новые профессии, совершенствоваться в сфере своего привычного дела. Некоторые из них желают получить новейшие знания в области своей или смежной профессии [5, с. 38]. Требует более пристального внимания подготовка программы образования и повышения квалификации стареющей рабочей силы [6,с. 61].

Непонятная многим молодым людям политическая активность пожилых, их участие в митингах и демонстрациях часто объясняются стремлением к общению, иногда неосознанным. Не у всех пожилых людей за этой митинговой агрессией стоит осознанный выбор социальной позиции, скорее, это ностальгия по молодости и стремление к стереотипному поведению.

Исследования показывают, что существует несколько способов компенсации того эмоционального напряжения, в котором находятся пожилые люди, повышения уровня их социально-психологической адаптации. Это общение с природой, увлечение искусством (как в плане творчества, так и в плане восприятия), появление новой значимой деятельности, новых интересов, перспективы (это особенно важно для людей старше 70 лет). Общение с природой, домашними животными (кошками, собаками и другими), уход за комнатными цветами, садом и огородом существенно снижают уровень напряженности, компенсируют недостаток общения пожилого человека. У людей, много времени проводящих на природе, менее выражен страх одиночества, ниже уровень агрессии и практически не наблюдается депрессивное состояние.

Не менее значимое воздействие оказывает и увлечение искусством. Пожилые люди, которые часто ходят в театр, консерваторию, посещают музеи и выставочные залы, психически намного устойчивее и в меньшей степени подвержены депрессиям, чем их сверстники, которые равнодушны к искусству.

«Быть старым – такая же прекрасная и необходимая задача, как быть молодым»,- писал немецкий писатель Герман Гессе в своей работе «О старости». Главное в старости – не опускать руки, не предаваться пессимизму, стремиться каждый день выигрывать пусть маленькое, но очень важное сражение, ценой которого является чувство самоуважения, человеческого достоинства и надежды, которая никогда не покидает ни одного живущего на этой земле.

**Литература:**

1. Авербух Е.С. Неврозы и неврозоподобные состояния в позднем возрасте. Л. 1976. – 159 с.

2. Ананьев Б.Г. Человек как предмет познания - СПб.: Питер, 2005. – 380с.

3. Анцыферова Л.И. Развитие личности и проблемы геронтопсихологии.- М.: Издательство «Институт психологии РАН», 2004. – 396 с.

4. Бочаров В.В. Антропология возраста. - СПб., 2005. – 359с.

5. Глуханюк Н. С, Гершкович Т. Б. Поздний возраст и стратегии его освоения. Издание 2-е, дополненное - М.: Московский психолого-социальный институт, 2003. – 112 с.

6. Доброхлеб В.Г. Ресурсный потенциал пожилого населения России Опубликовано в журнале "Социологические исследования", 2008, №8, – 55 - 61 с.

7. Елютина М. Э. Стратегии выживания пожилой семьи // Интегрированная старость: практики социального участия. Коллективная монография / М. Э. Елютина, П. Тейн, П. П. Великий и др. Саратов: Наука, 2007. – 175 - 185 с.

8. Квинн В.Н. Прикладная психология. СПб.: Питер, 2000. – 560 с.

9. Красальская Т. В., Шаталов А. Т. Философские проблемы геронтологии. - М., 2006. –368 с.

10. Краснова О.В. Социально- психологические вопросы старения. / Журнал практического психолога, 1997, №3. 3–19 с.

11. Краснова О.В., Лидере А.Г. Психология старости и старения: Хрестоматия / М.: Издательский центр «Академия», 2003, 416 с.

12. Смирнова Т.В. Профессиональные маршруты в позднем возрасте / Под ред. М.Э. Елютиной. Саратов: Саратовский государственный технологический университет, 2003. – 34 с.

13. Холостова Е. И. Настольная книга специалиста: Социальная работа с пожилыми людьми – М.: Институт соц. работы, 1995. – 310 с.

**Xülasə**

## AHIL İNSANLARIN SOSİAL PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

**Nərminə ƏMRAHOVA**
*Azərbaycan Universiteti, magistr*

**Rəyçi:** f.ü.f.d., dos.Rəna Məmmədova

**Açar sözlər:** tənhalıq, sosial təcridolunma, dezadaptasiya, suisidal risk, eycizm, təqaüd yaşı, sosial status

Təqdim olunan məqalədə ahıl insanın cəmiyyətdə yerinə yetirdiyi rola aid müxtəlif yanaşmalar nəzərdən keçirilib. Yaşlı insanın sağlamlığı, tənhalığı, təqaüdə çıxması, sosial adaptasiyası ilə bağlı problemlər, eləcə də eycizm problemi təfərrüatı ilə təhlil olunub. Ahıl insanların sosial–psixoloji adaptasiyasının artırılmasının müxtəlif üsulları təqdim olunub.

**Abstract**

**OLD PEOPLE'S SOCIAL PROBLEMS AND THEIR SOLUTIONS**

**Narmina AMRAHOVA**

*Graduate student of Azerbaijan University*

**Reviewer:** Rana Mammadova

**Keywords:** loneliness, social isolation, disadaptation, risk of suicidality, ageism, retirement age, social status

The article draws attention to different points of view on the position of older persons in the society. Such problems of the elderly as health, loneliness, ageism, retirement and social adaptation were analyzed indetail. The article proposes different ways of improving their social- psychological adaptation.

# AİLƏ SOSİAL İNSTİTUT KİMİ, BOŞANMA VƏ ONUN FƏSADLARI

**Tərlan TAĞIYEVA**
*Azərbaycan Universiteti, magistr*

**Rəyçi:** i.ü.f.d. Aygün Musayeva
**Açar sözlər:** Ailə, nigah, sosial institut, sosial-psixoloji cəmiyyət, uşaq, ər-arvad, boşanma, psixoloji iqlim, tərbiyyə, konflikt, evlilik

Ər-arvad bir-birinin nə düşməni, nə də rəqibidir. Olsa-olsa dostudur, yoldaşıdır, həyatı da daxil olmaqla, hər şeyini fəda edəcəyi sevdiyidir.

Ailə nigah və qan qohumluğuna əsaslanan kiçik qrupdur, onun üzvləri birgə yaşayış və ev təsərrüfatını birgə idarə etməklə, emosional əlaqə və qarşılıqlı öhdəliklərlə birləşirlər.

Ailə həm də sosial institut adlanır, yəni adamlar arasındakı qarşılıqlı münasibətin möhkəm formasıdır, onun çərçivəsində adamların gündəlik həyatlarının əsas hissəsi: seksual münasibət, uşaq dünyaya gətirmək və uşağın ilkin ictimailəşməsi, məişət qulluğunun xeyli hissəsi, təhsil və tibbi xidmət – həyata keçir.

Sosial institut kimi ailənin xüsusiyyətləri aşağıdakılara təzühür edir:

- sosial normalarda;
- ər-arvad, valideynlər, uşaqlar və digər qohumlar arasındakı qarşılıqlı münasibətləri nizama salan davranış nümunələri və tədbirlərdə.

Ailə aşağıdakı funksiyaları yerinə yetirir:

- tərbiyə;
- emosional müdafiə;
- təsərrüfat – məişət xidməti;
- sosial nəzarət;
- nəsilin artırılmasında və ər-arvadın qarşılıqlı münasibətlərinə təzahür edən seksual və reproduktiv (generativ) [1, səh-173].

Ailədə insan dünyaya gəlir, onun vasitəsilə uşaqların ilkin sosiallaşması və tərbiyə edilməsi başlayır. Həmçinin qocaları, cəmiyyətin əmək qabiliyyəti olmayan digər üzvlərinə qayğı göstərmək vəzifəsi müəyyən qədər ailədə reallaşır. Ailə həm də məişətin təşkilinin özəyi və mühüm istehlak vahididir. Ailənin əsası cəmiyyət tərəfindən bu və ya digər formada müəyyən edilmiş kişi ilə qadın arasında nigah ittifaqıdır. Nigah kişi ilə qadın arasında valideynlər və uşaqlar arasında münasibətləri qəti müəyyənləşdirir, ancaq müəyyən normalara salır, bunlar da ona mühüm sosial institut xarakteri verir.

Ailə əsasən aşağıdakı mərhələdən keçir:

1) İlk nigahın bağlanması – ailənin yaranması;
2) İlk uşağın doğulması – uşaqların doğulma prosesinin başlanması;
3) Axırıncı uşağın doğulması, uşaq doğumunun kəsilməsi;
4) Boş yuva – axırıncı uşağın nigaha daxil olub ailəni tərk etməsi;

5) Ailənin mövcudluğunun sonu – ailə başçılarından birinin ölümü [2, səh-121].

Vaxtilə Hegel deyirdi ki, iki müxtəlif cinsin nümayəndəsi arasında nigah adlanan əlaqə sadəcə olaraq təbii heyvani əlaqə və hətta mülki müqavilə də deyil. O, hər şeydən əvvəl ər ilə arvadın ikisini bir şəxsə çevirərək qarşılıqlı sevgi və inam əsasında yaranan mənəvi ittifaqdır.

Nigahın emosional – psixoloji, mənəvi və estetik dayaqları sevgi münasibətləridir. Lakin nəzərdə tutulmalıdır ki, bəzən nigah sevgidən kənarda və sevgi də nigahdan kənarda mövcud ola bilir. Sevgi qarşılıqlı səmimiyyətə və inama əsaslandıqda daha möhkəm olur. Arximed deyirdi ki, sevgi elə bir teoremdir ki, onun hər gün sübut olunmağa ehtiyacı vardır.

Ailənin gələcəyini müəyyən edən mənəvi-psixoloji, sosial-iqtisadi, siyasi və digər amillər daim ictimaiyyətin, dövlətin sosial siyasətinin diqqət mərkəzində olmalıdır.

Həkim psixoanalitik E.From insan həyatında erotikanın mühüm rolunu başa düşürdü. Lakin müəllif öz əsərində əsasən məhəbbətin fəlsəfi mahiyyətindən yazır, bu problemi müxtəlif dövr, mədəniyyət, səviyyə baxımından öyrənir.

E.Form qeyd edirdi ki, sevmək – həm sevilmək, həm də sevməyi bacarmaq deməkdir. Sevilmək üçün kişilər adətən çalışırlar ki, işləri uğurlu olsun, güclü, dövlətli olsunlar. Qadınlar isə çalışırlar ki, xarici görünüşü – paltarı, fiqurası gözəl olsun: həm kişi, həm də qadın ədəb-əxlaqı öyrənir, maraqlı söhbət aparmağa çalışır, kömək etməyə can atır, təvazökar olurlar və s. [3, səh-206-209].

Psixloloqlar göstərir ki, nigahda iki "mən"in qarşılıqlı mübarizəsi və psixoloji uyğunlaşması on il müddətinə davam edə bilir. Ona görə də "xasiyyətimiz tutmur", "yola getmirik" iddiaları ilə ərizə yazıb məhkəməyə müraciət etməkdə tələsmək heç kimə məsləhət görülmür.

Yadda saxlamaq lazımdır ki, sosialist nigah-ailə münaisbətlərinin əsasında nəinki qarşılıqlı məhəbbət, habelə ər-arvad, ailə borcu, ailənin qorunması üçün əxlaqi və hüquqi məsuliyyət, uşaqların tərbiyəsi, ailənin əmək qabiliyyəti olmayan üzvlərinin maddi cəhətdən təminatı durur [4, səh-151].

Ailənin psixoloji iqlimi ərlə arvadın, valideynlərlə uşaqların, uşaqlarla uşaqların qarşılıqlı münasibətlərinin xarakteri ilə müəyyən olunur və bilavasitə onları əks etdirir. Əgər ərlə-arvad bir-birinə rəğbət bəsləyirsə, hörmət edirsə, qəlbən yaxındırlarsa, ailədə psixoloji iqlim də əlverişli olur. Bu keyfiyyətlərdən hər hansı birinin olmaması və ya əks keyfiyyətə çevrilməsi ər-arvad münasibətlərində soyuqluq yaradır. Ər-arvad arasında hətta ötəri bir narazılıq əmələ gələn kimi ailənin psixoloji iqlimi də bu və ya digər dərəcədə dəyişir. Ailənin psixoloji iqliminin nüvəsi məhz ailə münasibətləri ilə bağlıdır.

Ər-arvadın ünsiyyəti ailədə psixoloji iqlimin əlverişli olduğunu göstərən mühüm əlamətlərdən biridir. Bunun böyük həyati mənası vardır. Mütəxəssislərin fikrincə ər-arvad ünsiyyəti prinsip etibarilə çox mühüm psixoterapevtik vəzifəni yerinə yetirməlidir [4, səh-191].

Ailənin cəmiyyətin və dövlətin tərəqqisində oynadığı rolu, eyni zamanda dahi mütəfəkkirlər, sosioloqlar da təsdiqləyirlər. Onlar insanın şəxsiyyət kimi yetişməsində, sosiallaşmasında xalqın milli-mənəvi keyfiyyətlərinin gələcək nəsillərə ötürülməsində ailəni altqurum hesab edirlər. Dahilərin də ailə haqqında nə dediklərinə nəzər yetirək.

Tanınmış sosioloq Parsansun fikrincə, ailə cəmiyyətə qarşı durmur, əksinə sosiumun sta-

billiyini təmin edən, altsistemdir: “Ailə digər altsistemlər və strukturlarla münasibətlər qurmaq üçün dəqiq, eyni zamanda, şəxslərarası sabitliyin dinamikasının və inteqrativ tendensiyaların qorunması istiqamətində təsirli əlaqələr yaradır”.

O.Kontun rəyincə, ailə münasibətləri bir-birinə bağlılıq və qarşılıqlı simpatiyaya əsaslanan mənəvi-emosional ittifaqdır. “Ailənin rolu fərdlə nəsil arasında vasitəçi olmaqdan, gənc nəsli alturizm ruhunda tərbiyə etməkdən, onu anadangəlmə eqoizmi aradan qaldırmağa öyətməkdən ibarətdir”.

Kontun yaradıcılığında ailə “ya əxlaqi tərbiyəmizin spontan mənbəyi kimi, ya da siyasi təşkilimizin təbii bazası kimi” çıxış edir. Yəni sosioloqlar onu göstərməyə çalışır ki, birinci mənada hər bir müasir ailə gələcək cəmiyyəti hazırlayır. Digər aspektə görə isə, hər bir yeni ailə hazırki cəmiyyətin həyatını uzadır.

O.Kont ailə ilə bağlı fikirlərində qadının mühüm rolu haqqında da yazıb: Qadının ictimai rolu onun emosional əxlaqi keyfiyyətlərilə adamları sıx birləşdirmək və mənəvi cəhətdən maarifləndirmək qabiliyyətilə müəyyən edilir. Qadının vəzifəsi kobud kişi naturasını nəcibləşdirməkdən, onlarda həmrəyliyə əsaslanan ictimai hissləri oyatmaqdan ibarətdir. Bu baxımdan “insan ailəsinin pozitiv nəzəriyyəsini son nəticədə qadın hisslərinin kişi aktivliyinə spontan təsirinin sistemləşdirilməsinə müncər edilir”.

Sosioloqlar hesab edir ki, böyüməkdə olan nəslin tərbiyəsində qadının rolu daha böyükdür: “Ailə ənənələrinin, keçmiş nəsillərin təcrübəsinin qoruyucusu və ötürücüsüdür. Fərd ailədə sosiallaşır, bəşəriyyətə uğurla xidmət etmək üçün zəruri olan keyfiyyətləri əldə edir, təbii fərdiyyətçiliyi aradan qalıdırır, “başqaları üçün” yaşamağı öyrənir. O, eyni zamanda nəsillər arasında mehriban münasibətlərin ictimai müvazinətini, daşıyıcıları yaşlılar və gənclər olan ənənələrlə novatorluq arasında tarazlığı qoruyub saxlayır” [5].

Dini dəyərlərin insan psixologiyasına və ailə həyatına böyük təsiri danılmazdı. Bu baxımdan, müxtəlif dini ənənələr, ayrı-ayrı sosial-dini qrupların bir-birindən nəzərəçarpacaq dərəcədə fərqlənən adətləri, sosial-dini qrupları yaşayış və düşüncə tərzindəki rəngarənglik müxtəlif ailə tiplərinin meydana çıxmasına səbəb olur. Hazırkı şəraitdə dini dəyərlərin dünyəvi dəyərlərlə uzlaşmaq meyili daha çox nəzərə çarpan davranış təmayülü kimi özünü biruzə verir. Bu mənada insan ləyaqəti, insan hüquqları, dini və mənəvi azadlıq prinsiplərinin önə çıxması dini-mənəvi və mədəni-əxlaqi prinsiplərin dəyərini heç də azaltmır. Əksinə, mürəkkəb inkişaf və ziddiyyətli böhran təmayüllərinin gücləndiyi bir şəraitdə dini-mənəvi dəyərlərə yönəlmə, Allaha inam bir çox insanları informasiya və yaşayış gərginliyindən, mənəvi-psixoloji böhrandan xilas edən mühüm vasitə kimi çıxış edir.

Bu mənada dinin sosial təsisat kimi müasir düşüncə tərzinə, ailə həyatına, bütövlükdə sosial-demoqrafik proseslərə fəal təsiri hiss edilir. Ailə sosial-psixoloji yanaşma baxımından özünəməxsus sosial qrupdur. Eyni zamanda onun mövcudluğu sosial-etnik, coğrafi, siyasi, mənəvi-dini amillərlə də şərtlənir [6, səh-579].

Ailə münasibətlərində ərlə-arvad arasında baş verən konfliktlər əsas rol oynayır. Bu da əsasən ərlə arvadın bir-birinə olan tələbatlarının tam ödənilməməsindən baş verir. Belə konfliktlərin əsas motivlərindən bunlar daha çox özünü göstərir:

- ərlə -arvadın seksual – psixi uyğunsuzluğu;
- öz “mən”inin tələblərinin ödənilməməsi, bir-birlərinin “mən” hissinə hörmətsilzik;
- müsbət emosiyalara olan tələbatın ödənilməməsi;
- subyektlərdən birinin öz tələbatlarının ödənilməsinə münasibətdə bir-birinin tələbatlarının başa düşülməməsi və s;
- istirahət vaxtının təşkilinə ər-arvadın tələblərinin müxtəlifliyi və s.

Deməli, ailə konfliktləri ən çox yayılmış formadır. Mütəxəssislərin rəyinə görə, ailələrin 80-85%-ində münaqişələr, qalan 15-20%-ində isə müxtəlif səbəblərdən hərc-mərclik baş verir.

Ailə konfliktlərinin unikallığı, ailə münaqişələrinin yaranması ilə davam etməsinin xüsusiyyətlərini şərtləndirməklə, eyni zamanda onun bütün üzvlərinin sosial və psixi səhhətinə xüsusi olaraq təsir edir.

Ailə böhranının əsas səbəbi – ailədə qadının getdikcə artan emosional asılılığı, ərin mümkün olan dönüklüyü ilə bağlı təəssüratlardır.

Tədqiqatçılar göstərir ki, təxminən ailələrin 80-85 %-ində konfliktlər baş verir, qalan 15-20 %-ində isə narazılıqlar özünü göstərir. Ailə konfliktlərinin baş verməsi, dərinliyi və onların istiqamətindən asılı olaraq böhranlı, konfliktli, problemli və nevrotik xarakterli ailələr özünü göstərir [6, səh-253].

Həyatda ər-arvad üçün elə bir an gəlib çatır ki, onlar üçün hər şey olur: boşanma qaçınılmazdır. Belə ər-arvad üçün ən optimal variant boşanmadır. Boşanma mürəkkəb hadisədir. Onun mənəvi-sosial motivləri hər hansı bir formulla: “xasiyyətimiz düz gəlmir”lə izah etmək olmaz və mümkün deyil.

Boşanma öz-özlüyündə həddən artıq mürəkkəb hadisədir.

Evlilikdən boşanmaya keçid prosesi çətin və streslidir. Bu dövrdə hüquqi və psixososial prosesin bir müharibəyə çevrilərək uşaqların böyüməsi, inkişafı və gələcəyi ilə bağlı mövzularda əlaqə yaratmasına maneçilik yaradır.

Psixoloqlar boşanmanın cəmiyyətin bünövrəsini sarsıdacaq bir hadisə olduğunu irəli sürürlər. Bunun əsil səbəbi boşanmanın uşaqlara mənfi təsiri və həmçinin boşanmanın ata və ananın övladları ilə münasibətinə zərər yetirməsidir.

Boşanma uşağın inkişafında ən vacib faktor olan bütöv, tam ailə qavramına son qoyan və əsasən də uşaqlar üzərində ömür boyu öz təsirini göstərən bir hadisədir.

Boşanma tərəflərin iqtisadi, maddi, mənəvi cəhətdən cəmiyyətdəki mövqelərinə təsir edir. Bu səbəblə, boşanma sözün əsl mənasında evlilikdən əvvəlki azadlığa qovuşma və ya qurtuluş demək deyil.

Boşanma üç dönəmdən ibarətdir:

1. Boşanmadan əvvəl fikirləşmə dövrü;
2. Boşanmanın özü;
3. Boşanmadan sonrakı dövr [6, səh-258].

Boşanma halları ən çox ər və arvad həyatının ilk 5 ilinə təsadüf edir. Ailədə uşaqların mövcudluğu nigahın möhkəmliyinə birbaşa təsir göstərir. Çoxuşaqlı ailələrdə (uşaqların sayı

3-dən çox olan) boşanma faizi yaş həddində də spesifik tərzdə nəzərə çarpır. Məsələn, respublikamızda boşanma 35-39 yaş arasında çox yüksək həddə çatır. 2005-ci ildə boşanan ailələrin 21 %-i həmin yaş həddindədir. Boşanma həmçinin daha çox uşaqsız ailələrdə nəzərə çarpır. Məsələn, ölkəmizdə 2000-2005-ci illər arasında uşaqsız ailələrdə boşanmanın sayı 1 uşaqlıya nisbətən 3,5 dəfə, 2 uşaqlıya nisbətdə isə 3,3 dəfə çox olmuşdur [7, səh-375].

Nigahın pozulmasının əsas səbəbləri kimi qadının ailədaxili zaorakılığa məruz qalması, ailəyə yaxın qohumlar tərəfindən edilən müdaxilələr, xəyanətlərin zərərli vərdişlərə malik olması, fiziki problemlər (uşaqların olmaması) tərəflərin xasiyyətlərinin tutmaması və s. olmuşdur.

Monitorinqlər göstərir ki, məhkəmələr boşanma prosesi ilə bərabər yalnız uşağın himayəyə verilməsi məsələsini həll edir, digər məsələlər, o cümlədən aliment, əmlak bölgüsü və arvadın (ərin) saxlanması üçün zəruri vəsaitin tutulması məsələlərini isə həll etmir. Bu halda isə tərəflər qeyd edilən məsələlərin həlli üçün əlavə olaraq məhkəmədə iddia qaldırmalı olurlar [8].

Psixoloqlar bildirirlər ki, boşanma ən çox uşaqlara təsir edir. Çünki onların məsum baxışında ailə son dərəcədə mühüm bir müəssisədir. Ana və atanın bir yerdə olması uşağa güvən və hüzur verir. Davamlı qarşıdurma və döyüş mühitinin olması, uşağın həyata baxışını, dünyagörüşünü zədələyir. İç dünyası sarsılan uşağın davranışlarında ciddi pozulmalar görürlər. Ana-atalar özlərinə daha dolanışıqlı ailə qurmaq üçün dolanışıqsız mühiti tərk edib öz səadətlərini axtararkən, onların bədbəxtliyinə səbəb olarlar. Uşaqların həyatdakı ən mühüm güvən simvolu olan ana və ata birliyinin pozulması onlarda psixiatrik problemləri də gücləndirə bilər [9].

Bütün bu sadalananlarla yanaşı boşanmanın uşaqlara mənfi təsir göstərəcəyini nəzərə alaraq və bu səbəblərdə evliliyə davam edən cütlüklər də vardır.

ABŞ-da hər iki evlilikdən biri boşanma ilə nəticələnir. Boşanma sosial bir problem olmaqla yanaşı, boşanmanın nəticələri də sosial bir problemdir. Yüksək boşanma göstəriciləri, qadının cəmiyyətdəki statusunun dəyişməsindən və boşanmanın normal hal olaraq qarşılaşmağına gətirib çıxarır [10, səh-312].

Beləliklə, belə bir nəticəyə gəlirik ki, ailə doğrudan da sosial institut olub cəmiyyətin əsasını təşkil edir. Ailə özü kiçik qrup olsa da, cəmiyyətin təməlidir. Ailə isə cəmiyyətin gələcək üzvlərini, uşaqları yetişdirir. Ailə quran zaman gənclərin həm maddi, həm də mənəvi, həm də fiziksəl hazır olmaları və ailəni tam olaraq dərk etmələri vacib faktordur.

Boşanma ən asan yoldur, problemlərə son qoymaq və azadlığa qovuşmaq arzusudur. Lakin boşanma heç də problemlərin sonu deyil. Əksinə, ardından problemlər gətirir. Güclü insan bu problemlərə sinə gərənlərdir. Bu da daha çox qadınlarda nəzərə çarpır.

Gələcək nəslin güclü olması üçün, sağlam ruhda cəmiyyətə nail olmaq boşanmaların sayını azaltmaq lazımdır. Ümid edirəm ki, evlənməyə çalışan gənclər onları gözləyən həyat yolunda problemləri də dərk edib, onunla mübarizə aparmağa bacaracaqlar. Mənim fikrimcə, ailə həm sevgi, həm də məntiq əsasında qurularsa daha uğurlu alınar. Bunun üçün ailədə, daha sonra təhsil ocaqlarında verilən tərbiyə və yönləndirmə doğru olmalıdır. Yenə də belə nəticəyə gəldik ki, hər şeyin başlanğıcı ailədən başlayır.

**Ədəbiyyat:**
1. E.Ə.Qəhrəmanov. Y.P.Əhmədov “Sosial işin əsasları” Bakı, 2014. 173, 174 s.
2. Fəlsəfə və politologiya kafedrası “Sosialogiya” dərs vəsaiti. Bakı – 1994. 121.3.
3. Q.Abbaosva, Z.Hacıyev “Sosial fəlsəfə” Bakı, “Ayna mətbuat evi”. 2001. 206-209 s.
4. Ə.Ə. Əlizadə, A.H. Abbasov “Ailə” Bakı – 1989.
5. http:// www.gender-az.org/ index az.shtml? id-doc=1649
6. İlham Mirzəyev “Ailənin sosial psixologiyası” Çaşoğlu – 2011.
7. Məcid Əfəndiyev “Sosiologiya”. Bakı – 2003.
8. www.qadın huququ... Hesabat.doc.
9. “Ayna” qəzeti, № 41 (1881) Şənbə. 22. oktyabr, 2001-ci il.
10. Charles Zastow “Sosial hizmete giriş”. 2014.

**Abstract**

**FAMILY AS A SOCIAL INSTITUTE, DIVORCE AND ITS AFTEREFFECTS**

**Tarlan TAGIYEVA**

*Graduate student of Azerbaijan University*

**Reviewer:** Ph.D on Economics Musayeva Aygun

**Keywords:** Family, marriage, social institute, social-psychological, society, child (children), husband and wife, divorce, psychological climate, upbringing, conflict, wedding

The article talks about the definition, functions, structures, goals and objectives of the family. Well known sociologists and psychologists researched the facts of family tragedies and the causes of family conflicts. The stages of divorce process, the causes of the divorce and the divorce aftereffects on childrenwere analyzed. Both religious and secular, as well as the legal and economic aspects of family and divorce were described as well.

**Резюме**

**СЕМЕЙНЫЙ СОЦИАЛЬНЫЙ ИНСТИТУТ КАК РАЗВОД И ЕГО ПОСЛЕДСТВИЯ**

**Тарлан ТАГИЙЕВА**

*Магистр Университета “Азербайджан”*

**Отзыв:** к.э.н. Мусайева Айгунь

**Ключевые слова:** Семья, брак, социальный институт, социальное психологическое общество, ребенок, муж-жена, развод, психологическое воспитание, коифликт, климат

В статье рассматривается функции, структура, цель и обязанности. Известные социологи и психологи упомянули о семейных драмах и причины возникновения конфликтов в семье. Процесс развода, этапы и причины возникновения разводов в семье плохо действует на детей. Семья и развод, а также религиозные, правовые и экономические аспекты.

# "İPƏK YOLU" JURNALINA MƏQALƏLƏRİN TƏQDİM OLUNMA QAYDALARI

***HÖRMƏTLİ MÜƏLLİFLƏR!***

Azərbaycan Universitetinin (AU) məqalələr toplusu "İpək yolu" jurnalında elmin bütün sahələri üzrə məqalələr dərc olunur. Beynəlxalq, elmi, ictima-siyasi və çoxprofilli "İpək yolu" jurnalı rübdə bir dəfə nəşr edilir. Müxtəlif ölkələrin alimləri redaksiya heyətinin üzvüdür.

"İpək yolu" jurnalına Azərbaycan, türk, ingilis və rus dillərində məqalələr aşağıdakı şərtlərlə qəbul olunur:

I. Məqalələrdə müəllif(lər)in adı, soyadı, işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı və əlaqə nömrələri göstərilməlidir.

II. Məqalənin həcmi 20 səhifəyə qədər, Word proqramında, 1.5 aralıq, Times New Roman şrifti ilə, 14 pt. hündürlüyündə olmalıdır. Məqalənin əvvəlində mövzunun aktuallığı əsaslandırılmalı, sonunda isə işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

III. Məqalədə açar sözlər (3-5 söz), başlıqdan sonra qara hərflərlə qeyd olunmalıdır, xülasələrə də tərcümə olunaraq əlavə edilməlidir.

IV. Məqalə rəy ilə birlikdə jurnalın elektron ünvanına göndərilməli və ya CD-də redaksiyaya təqdim edilməlidir.

V. Azərbaycan və türk dillərində yazılan məqalələrin ingilis və rus, ingilis dilində yazılan məqalələrin Azərbaycan və rus, rus dilində yazılan məqalələrin isə Azərbaycan və ingilis dillərində xülasələri də yazı ilə birlikdə göndərilməlidir. Xülasələr minimum 500 simvol olmalıdır. Xülasədə məqalənin qısa məzmunu, məqsədi və nəticə yer almalıdır. Bundan başqa xülasələrdə müəllif(lər)in adı, titulları və məqalənin adı da göstərilməlidir.

VI. İstifadə olunan ədəbiyyat məqalənin sonunda yer almalı və iqtibaslar məqalənin içərisində [1, səh-342], [2, səh-78] və s. şəklində göstərilməlidir:

- İstifadə olunan ədəbiyyat iqtibas olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməlidir;
- İnternetdən (saytlardan) istifadə olunmuşdursa ədəbiyyat siyahısının sonunda, link tam şəkildə, götürüldüyü tarixlə birgə yer almalıdır.

*Nümunə:*

Ədəbiyyat:

1. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə iqtisadi inkişafı dövlət Proqramı// "İqtisadiyyat" qəzeti. 29 aprel - 5 may 2009-cu il.
2. Azərbaycan tarixi: 7 cilddə, IV cild., Bakı: "Elm", 2000, 456 s.
3. Həbibov İ. Romantik lirikanın imkanları, Bakı: "Yazıçı", 1984, 167 s.
4. http://palm.newsru.com/finance/11mar2009/defolt.html - 11 mart 2009, 19:00.
5. tr.wikipedia.org/wiki/Türkiye-Avrupa_Birliyi_ilişkiləri - 9 iyun 2009, 21:35.

VII. Jurnala göndəriləcək məqalələr başqa yerdə yayımlanmamış və ya yayım üçün təqdim edilməmiş olmalıdır.

VIII. Məqalənin yayımlanmasına müvafiq (o cümlədən anonim) rəylər alındıqdan sonra jurnalın redaksiya heyəti qərar verir.

IX. Məqalənin hər səhifəsi 4 azn məbləğində qiymətləndirilir.

Qeyd: Azərbaycan Universitetinin magistrləri tamamilə pulsuz, müəllimləri, dissertant və doktorantları isə 50% güzəştlə (yəni səhifəsi 2 azn olmaqla) məqalələrini təqdim edə bilərlər.

**Məqalələrin göndəriləcəyi ünvan:**

Azərbaycan Universiteti
Yasamal rayonu, General Akim Abbasov pr-84,
(Keçmiş Kiyev pr) Bakı, Azərbaycan
Tel: *(+99412) 434 76 89-94, daxili 102*
Faks : *(+99412) 430 49 29*
E-mail: venera.sharifzade@gmail.com

Jurnal Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin Siyahısı"na daxil edilmişdir.

♦♦♦

Журнал включён в «Список научных изданий, рекомендуемых для публикации основных результатов диссертаций в Азербайджанской Республике», утверждённый Высшей Аттестационной Комиссией при Президенте Азербайджанской Республики.

♦♦♦

The magazine was inscribed in "The scientific edition list, recommended to publication of main results of the dissertations in Azerbaijan Republic", confirmed by Superior Examination Board under President of Azerbaijan Republic.

♦♦♦

Dergi Azerbaycan Cumhuriyyeti Cumhurbaşkanı yanında Yüksek Tasnif Komisyonu tarafından onaylanmış Azerbaycan Cumhuriyyetinde doktoraterlerin genel sonuclarının yayınlanması önerilen bilimsel yayınların listesine dahil edilmişdir.